AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 2

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2019

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası
Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Vasim Məmmədəliyev, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Həbib Zərbəliyev, f.ü.e.d., prof. Tofiq Hacıyev, f.ü.e.d., prof. Sevil Mehdiyeva, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, f.ü.f.d., dos. Nəzakət Məmmədli

Buraxılışa məsul: akademik Teymur Kərimli
Rəyçi: filologiya üzrə elmlər doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2019, № 2

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2019

www. filologiyameseleleri. net

DİLÇİLİK

ƏSMƏTXANIM MƏMMƏDOVA
BDU
Filologiya üzrə fəlsəfə doktoru, dosent;
E-mail: kamillik@mail.ru

MÜASİR FARS DİLİ SEQMENTASİYASINDA / $C_{KIPLƏŞƏN}$ C_{NOVLU} / SAMİTLƏRİN FONETİK SƏCİYYƏSİ

Açar sözlər : samit, sait, kipləşən (partlayışlı) samitlər, novlu samitlər, heca, fonem,
Ключевые слова: согласный, гласный, взрывные согласные, щелевые согласные, слог, фонем
Key words: consonant, vowel, plosive consonants, fricatives consonant, syllable,phoneme

Giriş: Tədqiq edəcəyəmiz problem fars dilinin birhecalı /CVCC/ tipli sözlərində yanaşı işlənən kipləşən və novlu samitlərin, başqa sözlə / $C_{kipləşən}$ C_{novlu} / samit fonemlərinin birləşmə imkanı, buradakı məhdudiyyət, bu samitlərin statistik tezliyi, kar və cingiltili xüsusiyyətləridir. Mövzuya keçməmişdən əvvəl samit fonemlərin formalaşmasını bir daha xatırladaq.

Müqəddimə: Samit səslərin formalaşmasına fars dilində: *toulid-e həmxanha*; ingilis didlində isə : *articulation conconants* deyilir. Samitlər danışıq aktının elə səsləridir ki, onların əmələ gəlməsi zamanı danışıq cihazının müəyyən bir yerində ya qapanma ya müəyyən bir nov əmələ gətirən daralma olur. Fars dilinin bütün samitləri ciyərlərdən gələn hava axınının boğaz yoluna daxil olub, ordan da ağız boşluğunda maneələri dəf edərək xaricə çıxması nəticəsində formalaşır. Bu cərəyanın hərəkəti daxilə deyil, xaricə tərəf olduğu üçün onu (ingilis dilində: *eqressiv;*fars dilində isə *borunsoy* adlandırırlar. Maneənin növünə görə fars dilinin iki qrup samitləri formalaşır: a) səsin əmələ gəlməsində əsas amillərdən biri olan hava axının yolu tamamilə bağlı olur; b) bir-birinə yaxınlaşmış danışıq üzvləri hava axınının xaricə çıxması üçün dar da olsa ensiz bir yol, nov yaradır.

Birinciyə qapalı vəziyyət (mekanizm-e bəste; close mechanism); ikinciyə isə açıq vəziyyət (mekanizm-e baz; open mechanism) deyilir(10, s.12). Qapalı vəziyyət zamanı hava axını keçdiyi yolda bir-birinə kip sıxılmış danışıq cihazı üzvlərinin arxasında toplanır. Bu maneələrin yerinə gəldikdə isə ayrı-ayrı məkanlarda səs tellərindən (xirtdəkdən) başlayaraq boğazdan

keçib, dodaqlarda bitir. Ciyərlərdən gələn hava axını (həva-ye şoşi ; pulmonik) elə xirtdəyin özündə də tam maneəyə rast gələ bilir. Ancaq bu zaman həmin hava axınının üzləşdiyi sonrakı iki maneə daha mühümdür. Onlardan birincisində dilçək və yumşaq damaq yuxarı qalxıb, burun boşluğuna gedən yolu bağlayır; ikincisində isə burun boşluğunun yolunu açıb, ağız boşluğuna gedən yolu qapayır. Maneənin arxasında toplanmış hava axının təzyiqi nəticəsində həmin maneə aradan götürülür. Bu zaman formalaşan səslər üçün üç mərhələ mühümdür: 1. Maneənin əmələ gəlməsi *(icad-e gereftegi; closure);* 2. Maneənin arxasında havanın sıxılması(feşorde şodən-e həva; compression); 3. Maneənin aradan qalxması və hava axınının hərəkəti (*baz şodən-e gereftegi və rəhai-ye həva; release)* (9, s.34).

Maneənin aradan qalxması və hava axınının hərəkəti də əslində müxtəlif şəkildə baş verir ki, bunun da nəticəsində fars dilinin müxtəlif samitləri formalaşır. Birinci halda maneə arxasındakı hava axını birdən partlayış şəklində maneəni dəf edir. Bu üsulla formalaşan səslərə kipləşən- partlayışlı *(enfecari; plocive)* samitlər deyirlər. İkinci halda hava axınının xaricə çıxması üçün olan yol yarım açıq şəkildə olur. Belə ki, danışıq cihazının üzvləri bir-birlərinə elə məsafədə yaxınlaşırlar ki, nəticədə hava cərəyanı azad şəkildə deyil, həmin üzvlərə sürtünərək, səsi formalaşdırır. Ona görə də bu səslər süzülən, yaxud novlu *(sayeşi; fricative)* samitlər adlanırlar.

1.1. Heca modellərində sait və samitlərin fonetik şəraiti:

Bildiyimiz kimi hecanı təşkil edən sait səslər aparıcı, mərkəz səslərdir. Samit səslər isə ya mərkəz səsdən əvvəl, ya da sonra gəlir. Fars dilinin bir hecalı sözlərinin hər birində sait səslər istisnasız olaraq iştirak edir. /CV/, CVC/, /CVCC/(8, s.13; 9, s.73).

Fars dili sait fonemlərinin hamısı hecaların tərkibində mərkəz, aparıcı səs kimi iştirak edə bilirlər:

1. /CV/ heca tipində mərkəz səsdən sonra heç bir fonem gəlmir. Yəni sait fonem həm də hecanın sonunu bildirir. Məsələn: /ba; bə-dən; be; bo-lur; bu; bi; /. Qeyd edilməlidir ki, hecanı başlayan, həm də mərkəz səslə samit arasında da müəyyən əlaqə mövcuddur. Araşdırma göstərir ki, belə vəziyyətdə dilin hər bir samit səsi gələ bilmir. Belə ki, fars dilində 6 monoftonq saitin /o/ fonemi istisna olmaqla o birilərinin hamısı 23 samitdən sonra gələ bilir. /ž/ samiti /o/ saitindən əvvəl heç bir heca daxilində söz və morfem kimi işlənə bilmir. Başqa sözlə fars dilində /žo/ hecası mövcud deyildir.

2. Bir samit səslə başlayıb, bir samitlə qapanan heca /CVC//. Göründüyü kimi burada samit səs həm də hecanın sonudur. Məs: /dar; dur; dir; ča-dor; dər; dež/.

3. Bir samit səslə başlayıb, iki samit səslə qapanan heca /CVCC/. Belə hecalarda mərkəz səsdən sonra 2 samit fonem bilavasitə hecanı qapayır.

Mərkəz səsdən sonra gələn bu iki samit də müəyyən qanuna uyğun şəkildə saiti izləyir. Məs.: /daşt; dust; bist; dəst; jost; nesf./

1.2. Kipləşən və novlu samitlər CC birləşməsində($C_{kipləşən}C_{novlu}$)

1.2.1. Bir qrup CC birləşmələrində samitlərin biri kipləşən, o biri isə novlu samit olur. Belə ki, bu birləşmədəki samitlərin tələffüzü zamanı ilk əvvəl qapanma, sonra isə daralma və nov əmələ gəlir. /$C_{kipləşən}C_{novlu}$/ samitlərinin yanaşı gəlməsini əks etdirən 1 -1 saylı cədvəldən aşağıdakı nəticələri əldə etmək mümkündür. Dildəki 8 novlu, 8 kipləşən samit, əgər heç bir maneə və məhdudiyyət olmadan bir-birinin yanında gələ bilsəydi, o zaman 64 dil faktı olmalı idi. Lakin cədvələ əsasən dil faktlarının sasyının yalnız 21 olduğunu görürük

.

Cədvəl № 1-1 $C_{kipləşən}C_{novlu}$ samitlərin tələffüz məxrəclərini əks etdirən cədvəl

kipləşən	p	b	t	d	k	g	q	ʼ	novlu
			lotf				vəqf	zəʼf	f
				hədv			ləqv		v
		həbs		həds	ʼəks		rəqs	vəʼs	s
		səbz					nəqz	vəʼz	z
		nəbš					nəqš	nəʼš	š
									ž
		təbx							x
		zebh	fəth	mədh			feqh		h
Cəmi: 21									

Cədvəl № 1-2 /$C_{kipləşən}C_{novlu}$ / birləşməsində tələffüz orqanlarının iştirakını göstərir:

CC –də birinci samit	CC – də ikinci samit	CC birləşmələrinə nümunə
ağız (dilçək)	ağız, diş ətləri	/qs ,qz/
- - - - - - -	ağız, yumşaq damaq	/qš/
- - - - - - - -	aşağı dodaq	/qf, qv/

ağız (ön damaq)	xirtdək	/qh/
yuxarı dişlərin arxası	ağız (ön damaq)	/ks/
- - - - - - - -	yuxarı dişlərin arxası	/ds/
- - - - - - - -	aşağı dodaq	/tf,dv/
- - - - - - - -	xirtdək	/th, dh/
qoşa dodaq	- - - - - - -	/bh/
- - - - - - - -	ağız, yuxarı dişlərin arxası	/bs,bz/
- - - - - - - -	ağız (sərt damaq)	/bš /
- - - - - - - -	ağız, dilçək	/bx/
xirtdək	ağız, dişlərin arxası	/ˀ s, ˀz /
- - - - - - - - -	- - - - - - - - -	/ˀ š /
- - - - - - - - -	aşağı dodaq	/ˀ f /

2.1.1. Araşdırmadan aşağıdakı nəticələrə gəlmək mümkündür:

1. 21 dil nümunəsindən 16 – da samitlərin əmələ gəlmə yerləri bir-birindən uzaqdır.

/ nəbš, təbx... / 5 misalda isə eyni müstəvinin (ağzın) əvvəli və sonunda formalaşan səslər

yanaşı gələ bilmişlər /qs, qz.../

2. CC- nin bir tələffüz məxrəcində (bir-birinə çox yaxın məsafədə) tələffüz olunması faktı /ks, ds/ 5- dir.

3. CC iki artikulyasiya məkanında tələffüz edilən dil faktları daha çoxdur. 10 nümunədə iki məxrəc arasındakı məsafə çox /th,dh, bh.../; 6 faktda isə nisbətən /tf, df.../ azdır.

Tədqiqat göstərir ki, yaxın tələffüz məxrəcində əmələ gələn samit fonemlərin uzaq tələffüz məxrəcində əmələ gələnlərə nisbəti 16- nın 5 - ə nisbəti kimidir. Yenə də belə bir ümumi nəticəyə gəlmək mümkündür ki, qoşa samitlərin tələffüz məxrəcləri bir-birindən uzaq olduqca, onların tələffüzü dil daşıyıcıları üçün daha asan və rahat olur.

CC kipləşən və novlu samitləri cingiltili və kar xüsusiyyətlərinə görə araşdırdıqda nəticə aşağıdakı 1-3 saylı cədvəldə olduğu kimidir.

Cədvəl № 1-3 $C_{\text{kipləşən}}C_{\text{novlu}}$ samitlərin cingiltili və kar xüsusiyətə münasibəti

CC - nin birinci kipləşən samiti		CC –nin ikinci novlu samiti		CC – nin növü
kar samit	cingiltili samit	kar samit	cingiltili samit	
-	4	-	4	C_1C_1

6	-	6	-	C_2C_2
10	-	-	10	C_1C_2
-	1	1	-	C_2 C_1

2.1.2. /$C_{kipləşən}C_{novlu/}$ samitlərin cingiltili və kar xüsusiyətlərinə görə araşdırdıqda aşağıdakı nəticələri əldə etdik:

1.Belə birləşmələrdə yarım cingiltiliyə meyil daha çoxdur.

2. Kipləşən samitlərdə cigiltililik xüsusiyyəti üstünlük təşkil edir. $C_{kipləşən}$ birləşmənin birinci tərəfində olduqda 14 dil faktı, ikinci tərəfində olduqda isə 5 dil faktı qeydə alınmışdır.

3. Novlu samitlər /CC/ birləşməsində daha çox kar samit xarakterlidirlər. Cədvəldən göründüyü kimi novlu kar samitlər 14, kipləşən kar samitlər isə 7-dir.

Bir cəhəti də diqqətdən qaçırmayaq ki, /CC/ birləşməsinin ikinci tərəfi, yəni sözün sonunda dayanan cingiltili samit nəticə olaraq kar samit kimi tələffüz edilir (4, s.260). İndi isə bir daha niyə 64 kipləşən və novlu samitlərdən yalnız 21dil faktının olduğu, başqa variantların nə səbəbə olmadığını araşdırmağa çalışaq. Qeyd etmək lazımdır ki buradakı nəticələr də əvvəlkilərə bənzəyəcəkdir.

1. /CC/ birləşməsinin samitləri eyni tələfüz məxrəcində formalaşırsa, birləşmə yarada bilmir. /bf, df, qx, ʱh, ʱx /

2. /CC/ birləşməsinin fonemləri bir-birinə yaxın tələffüz orqanında formalaşa bilmir. Dil /ts, tš,tz... / kiomi birləşmələri qəbul etmir.

3./ CC/birləşməsində fars dilinin özünə məxsus /p, g/ kipləşən; / ž / novlu samitinin birləşə bilməməsinin əsas səbəbi isə həm də onların dil tezliyində iştirak etməməsi faktı ilə bağlıdır. Odur ki, dildə / ʱž ,gž, pz... / kimi birləşmələr movcud deyildir.

Beləliklə kipləşən-novlu samitlərin distributiv xüsusiyyətlərini araşdırıb, aşağıdakı maraqlı yekun nəticəyə gəlmək mümkündür:

Nəticə:

1.Birləşmənin birinci tərəfi kipləşən /b/ olarsa, ikinci tərəf mütləq /s,z, š ,x,h/ novlu samitlərindən biri olmalıdır.

2.Birinci tərəf /t/ kipləşən samiti olarsa, ikinci tərəf mütləq /f,h/ novlu samitlərindən biri olmalıdır.

3.Birinci tərəf kipləşən /d/ olarsa, ikinci tərəf mütləq /v,s,h/ novlu samitlərindən biri olmalıdır.

4. tərəfi /k/ kipləşəm samiti olarsa, ikinci tərəf yalnız /s/ novlu samiti ola bilər.

5. Birinci tərəf tərəf /q/ kipləşən samitdirsə, ikinci tərəf /f, v,s,z, š,h/ samitlərindən biri olmalıdır.

6. Birinci tərəf tərəf kipləşən samit /ʒ/ olarsa, ikinci tərəf mütləq / f, s, z, š / novlu samitlərindən biri olmalıdır.

Ədəbiyyat

1. David Crystal. A Dictionary of Linguistics and Phonetics. Fifth Edition, Blackwell Publishing Berlin (Printed in the United Kinghom): 2003, 508 p.
2. Fərhəng-e tousifi-ye avaşenasi-ye Devid Kristala, tərcome-ye M.F. Xəlil Mirzayi, Tehran: 1382, 253 s.
3. Məmmədova Ə.B., Müasir fars dili fonemlərinin heca daxilində reallaşması Dil və Ədəbiyyat Beynəlxalq Elmi-nəzəri jurnal, 4(64), səh. 66 -72, Bakı, 2008, 253 s.
4. Məmmədova Ə.B., Müasir fars dili samit fonemlərinin distribusiyası, AMEA, Şərqşünaslıq İnstitutunun Elmi tədqiqləri, Şərq filologiyası məsələləri, IY buraxılış, səh. 252-275, Bakı: 2009 , 723 s.
5. Məmmədova Ə.B., Fars dilinin orfoqrafiyası (dərs vəsaiti) "Elm və təhsil", Bakı: 2011, 232 s.
6. Мамедова А.Б., Фонемный инвентарь современного персидского языка, «Перспективы науки», Научно-практический журнал, № 10, октябрь, стр. 125-129, Тамбов: 2013, 270 s.
7. Məmmədova Ə., Samitlər sistemi, BDU, "Dil və Ədəbiyyat Beynəlxalq Elmi-nəzəri jurnal",2(94), səh. 96-101, Bakı: 2015, 285 s.
8. Məmmədova Ə., Müasir fars dili seqmentasiyasında /CC/ novlu samit birləşmələrinin fonetik səciyyəsi, AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Filogiya məsələləri, № 12, s.12-18; Bakı: 2018, 387 s.
9. Məmmədova Ə., Müasir fars dili seqmentasiyasında /CC/ kipləşən samit birləşmələrinin fonetik səciyyəsi, Dil və Ədəbiyyat Beynəlxalq Elmi-nəzəri jurnal, 3(107), səh. 71 -75, Bakı : 2018, 494 s.
10. Yədollah S., Avaşenasi-ye zəban-e farsi, virayeş-e dovvom, Mərkəz-e nəşr-e daneşqahi, Tehran: 1392, 195 s.

A. Mammadova

The phonetic characteristic plosive and fricatives consonant units in modern Persian segmentation / $C_{plosive}$ $C_{fricative}$ /

Summary

This article has been investigated inside the / $C_{plosive}$ $C_{fricative}$ / units of the contemporary plosive and fricatives consonants of modern Persian language / $C_{plosive}$ $C_{fricative}$ / merger. From the research,

it can be seen that none of the consonant voices found in the tongue can come along with one word.Only a certain part of the new consonants on the basis of domestic law can be accompanied by certain consensus. If the first side of the compound is mixed plosive consonant / b /, the second one must be one of the fricatives consonants / s, z, š, x, h /. If the first side of the merging plossive is consonant / t /, the second one must be one of the fricatives consonants - / f, h /.

The most optimal option for pronouncing the type of plosive and fricative consonants / CC / combination in the pronunciation of language is that the articulation denominator of the consonants is interval and distance. The obtained results are reflected in various theses and tables (figures).

A. Мамедова

Фонетические особенности взрывных и щелевых согласных в сочетаниях /$C_{взрыв.}$ $C_{щелев.}$/ в сегментации современного персидского языка

Резюме

В этой статье исследуется вопрос о щелевых и взрывных согласных в консонантных сочетаниях / $C_{взрыв.}$ $C_{щелев.}$/ в персидском языке. В результате исследования можно прийти к выводу о том, что не все согласные звуки, имеющиеся в языке, могут находиться рядом в рамках одного слога. Согласно внутренним законам языка, лишь определенное число взрывных и щелевых согласных могут сочетаться с определенными согласными звуками в слове. Если первая сторона / $C_{взрыв.}$ $C_{щелев.}$/ является взрывным согласным / b / , то вторая должна быть одной из щелевых согласных - / s, z, š, x, h /. Если первая сторона / $C_{взрыв.}$ $C_{щелев.}$/является взрывным согласным / t /, тогда вторая должна быть одной из щелевых константом: / f, h / и т.д.

В произношении носителей языка в консонантных сочетаниях взрывных и щелевых согласных самым оптимальным вариантом является удаленность друг от друга органов артикуляции и наличие расстояния между ними. Полученные выводы отражены в различных тезисах и таблицах.

Rəyçi: Nigar Musayeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

LEYLA MAHMUDOVA
BDU-nun dosenti
mahmudova.1969@mail.ru

FARS DİLİNDƏ ƏLAVƏLƏR

Açar sözlər: əlavə, sadə cümlə, cüttərlibli cümlə, şəxssiz cümlə, feili xəbər, sintaktik məna, qrammatik məna, fars dilində xəbər, sintaksis, leksikologoya
Ключевые слова: простое предложения, двусоставные предложение, безличное предложение, глагольное сказуемое, синтаксическое значение, грамматическое значение, сказуемое в персидском языке, синтаксис, лексика
Key words: a simple sentence, mononuclear sentences, impersional sentences, verbal predicate, sintaksis meaninq, qrammatik meaninq, predicate in Persian language, syntactic ,leksikal

Cümlə üzvləri ilə qrammatik cəhətdən əlaqədar olmayan sözlərin bir növü də əlavə sözlərdir.

Fars dilində əlavələri öz xarakterinə görə iki qrupa ayırmaq olar:

1.Təyinin bir növü olaraq yalnız söz və söz birləşmələri şəklində cümlənin bir üzvünə aid olan əlavələr.

2.Söz, söz birləşməsi və cümlə şəklində olub, cümləyə müxtəlif məqsədlərlə artırılan əlavələr.

Birinci qrup əlavələr təyinin bir növü olub, özündən əvvəl gələn isim və isimləşmiş başqa nitq hissələri ilə ifadə edilən cümlə üzvünə aid olur. Bu əlavələr aid olduğu cümlə üzvü haqqında əlavə məlumat verir, onu konkretləşdirir, izah edir. Əlavə aid olduğu cümlə üzvünün vəzifəsini daşıyır və buna görə də cümlə üzvləri sırasına daxil edilmir. Bu əlavələr ya bir sözlə, ya da söz birləşməsi ilə ifadə oluna bilər. Məsələn:

شاپور دوم، سومین پادشاه قدرتمند ساسانی، توانست به اوضاع کشور سروسامان بدهد.

[şapur-e dovvom, sevvomin-e padşah-e ğodrətmənd-e sasani, təvanest be ouza'-e keşvər sərosaman bedəhəd]

İkinci Şapur, Sasanilərin üçüncü qudrətli şahı, ölkədə vəziyyəti qaydaya sala bildi.

او پس از غلبه بر اردوان، آخرین پادشاه اشکانی، در چندین نبرد با حاکمان مناطق مختلف به پیروزی رسید. [u pəs əz ğələbe bər ərdəvan, axərin padşah-e əşkani, dər çəndin nəbərd ba hakeman-e mənateğ-e moxtəlef be piruzi resid]

O, Ərdəvana,sonuncu Əşkani şahına,qalib gəldikdən sonra müxtəlif əyalətlərin hakimlərinə qarşı apardığı bir neçə döyüşdə qələbə çaldı.

در این هنگام خسرو پرویز، پسر هرمز، به روم گریخته بود.

[dər in henqam xosrou pərviz, pesər-e hormoz, be rum qorixte bud]

Bu zaman Xosrov Pərviz, Hürmüzün oğlu, Ruma qaçmışdı.

Birinci cümlədə işlənən ساسان قدرتمند پادشاه سومین , ikinci cümlədə آخرین پادشاه اشکانی, üçüncü cümlədə isə پسر هرمز sözləri əlavələrdir. Onlar aid olduqları sözləri, yəni, birinci cümlədə شاپور دوم ,ikinci cümlədə اردوان, üçüncü cümlədə خسرو پرویز sözlərini konkretləşdirir.

Misallardan da göründüyü kimi əlavələr məna etibarilə və cümlədə tutduğu yerə görə əlavə olunduğu cümlə üzvündən asılıdır.

Ona görə də, əlavələr təyindən başqa cümlənin bütün üzvlərinin yanında işlənə bilər. Təyin özü aid olduğu üzvü izah etdiyinə görə müstəsna halları çıxmaq şərti ilə əlavəsiz işlənir.

1.Mübtədanın əlavəsi:

جد او ، ساسان، موبدی زردشتی بود.

[cədd-e u, sasan mubedi zərdoşti bud]

Onun babası, Sasan, zərdüşt dininə itaət edən ruhani idi.

اردشیر، نوه ساسان، وعده می داد که اگر به قدرت برسد دین زردشتی را رسمیت خواهد داد. [ərdəşir, nəve-ye sasan, və'de midad ke əgər be ğodrət beresəd din-e zərdoşti ra rəsmiyyət xahəd dad]

Ərdəşir, Sasanın nəvəsi, hakimiyyətə gələcəyi təqdirdə zərdüştlük dinini rəsmiləşdirəcəyinə söz vermişdi.

2.Xəbərin əlavəsi:

جامعه ای عصر ساسانی جامعه ای طبقاتی بود – طبقه ی بزرگان و طبقه ی توده ی مردم.

[came'e-yi əsr-e sasani came'e-yi təbəğati bud – təbəğe-ye bozorqan və təbəğe-ye tude-ye mərdom]

Sasanilər dövründə cəmiyyət təbəqələrə ayrılmışdı (təbəqəli idi) - kübarlar təbəqəsi və sadə xalq təbəqəsi.

کار اصلی کوچ نشینان دام داری، حیواناتی مانند اسب، شتر، گاو، گوسفند و بز را پرورش دادن بود.[kar-e əsli-ye kuçneşinan damdari, heyvanati manənd-e əsb, şotor, gav, gusfənd və boz ra pərvəreş dadən bud]

Köçəri tayfaların əsas məşğuliyyəti maldarlıq, at, dəvə, inək, qoyun və keçi kimi heyvanları bəsləmək idi.

Əlavə xəbərlər ismi xəbərləri konkretləşdirir. Feli xəbərə aid əlavələrə çox nadir

hallarda rast gəlinir.

3.Tamamlığın əlavəsi:

a) vasitəsiz tamamlığın əlavəsi:

سرانجام علیه او شورش کردند و پسرش، شیرویه را به جانشین او انتخاب کردند.

[sərəncam əleyh-e u şureş kərdənd və pesərəş şirviye ra be caneşin-e u entexab kərdənd]

Nəhayət ona qarşı üsyan qaldırdılar və oğlunu, Şirviyəni, onun canişini seçdilər.

شاپور دوم ترکان را، ساکن شمال شرق کشور ایران شکست داد.

[şapur-e dovvom torkan ra saken-e şemal-e şərğ-e keşvər-e İran şekəst dad]

İkinci Şapur türkləri, İranın şimal-sərqində yaşayan əhalini, məğlub etdi.

b) vasitəli tamamlığın ifadəsi:

شورش بهرام چوبین علیه هُرمز، جانشین خسرو از عوامل آشوب و ناامنی بود.

[şureş-e bəhram çubin əleyh-e hormoz caneşin-e xosrou əz əvamel-e aşub o naəmni bud]

Bəhram Çubinin Hürmüzə,Xosrovun canişininə qarşı qiyamı təhlükə və həyəcan siqnalı idi.

صدها رامشگر و آوازه خوان که در دربار زندگی می کردند از خسرو پرویز، آخرین پادشاه مشهور ایران خیلی راضی بودند.

[sədha rameşgər və avazexan ke dər dərbar zendegi mikərdənd əz xosrou pərviz, axərin padşah-e məşhur-e İran xeyli razi budənd]

Sarayda yaşayan yüzlərlə musiqiçi və müğənni Xosrov Pərvizdən, İranın sonuncu məşhur şahından çox razı idilər.

4.Zərfliyin əlavəsi:

a) zaman zərfliyinin əlavəsi:

چندی بعد، در زمانی که خاندان اشکانی به دلیل اختلافات داخلی و جنگ های خارجی ضعیف شده بودند، اردشیر به فکر دست یافتن به حکومت افتاد.

[çəndi bə'd, dər zəmani ke xanedan-e əşkani be dəlil-e extelafat-e daxeli və cəngha-ye xareci zə'if şode budənd, ərdəşir be fekr-e dəst yaftən be hokumət oftad]

Bir qədər sonra, Əşkanilər sülaləsinin daxili ixtilaflar və xarici müharibələr nəticəsində zəiflədiyi vaxt, Ərdəşir hakimiyyəti ələ keçirmək fikrinə düşdü.

در این مدت، یعنی بعد از مرگ شاپور چندین تن دیگر به حکومت رسیدند.

[dər in moddət, yəni bəd əz mərg-e şapur çəndin tən-e digər be hokumət residənd]

Bu müddətdə, yəni Şapurun ölümündən sonra, bir neçə başqa adam hakimiyyətə gəldi.

b) yer zərfliyinin əlavəsi:

در جندی شاپور، مراکز مهم آموزش و پژوهش، دانشمندان و پزشکان به کار و پژوهش مشغول بودند.[dər condi şapur, mərakez-e mohemm-e amuzeş o pəjuheş, daneşməndan və pezeşkan be kar o pəjuheş məşğul budənd]

Cündi Şapurda, mühüm tədris və tədqiqat mərkəzlərində, alimlər və həkimlər tədqiqatla məşğul idilər.

قدیم ترین شهرها در کنار رودخانه ها، محلی مناسبی برای کشاورزی به وجود آمد.

[gədimtərin şəhrha dər kenar-e rudxaneha, məhəli monasebi bəra-ye keşavərzi, bevocud aməd]

Ən qədim şəhərlər çayların kənarında, kənd təsərrüfatı üçün münasib ərazilərdə yarandı.

a) tərzi-hərəkət zərfliyinin əlavəsi:

آشوری ها از این راه به سرزمین های اطراف می رفتند و باسانی، بدون جنگ به غارت ثروت همسایگان خود می پرداختند.

[aşuriha əz in rah be sərzəminha-ye ətraf miraftənd və beasani, bedun-e cəng be garət-e servət-e həmsayeqan-e xod mipərdaxtənd]

Aşşurlar bu yol vasitəsilə ətraf ölkələrə gedirdilər və asanlıqla, döyüşə girmədən, qonşularının var-dövlətini qarət edirdilər.

.

Ədəbiyyat

1. Арендс А.К. Краткий синтаксис современного персидского литературного языка. М.-Л., 1941.
2.Пейсиков Л.С. Вопросы синтаксиса персидского языка. Москва, 1956.
3.Рубинчик Ю.А. Современный персидский язык. Москва, 1960.
4.Mahmudov H. Ş. Fars dilində sadə cümlə sintaksisi, Bakı, 1973.
5.Мещанинов И.И. Структура предположения. М.-Л.,1963.
6.Махмудов Г.Ш. Синтаксическая связь глагола с дополнениями в современном персидском языке. Баку, 1967.
7.Потебня А.А. Из записок по русской грамматике. М.,1958.
8.Sultanov R.S. Fars dili tədrisisnin metodikası. Bakı, 1973.
9.Белицин А.П. Безличные предложения в современном персидском языке. Москва, 1969.
10.Nizami Gəncəvi. Xosrov və Şirin, Bakı, 1981.
11.1323 بهار ملک الشعراء محمد تقی. سبکشناسی. جلد دوم. تهران،
12.1351 خانلری پرویز ناتل. دستور زبان فارسی. تهران،
13.1960 نظامی گنجوی. خسرو و شیرین. باکو،

Л.Махмудова

Приложения в персидском языке

Резюме

Некоторые слова, которые грамматически не связаны с членами предложения, являются приложкниями.

Приложкния в персидском языке можно разделить на две группы в зависимости от их характера:

1. Приложения, которые принадлежат члену предложения как типу фразы только в виде слова и словосочетания.

2. Приложения в форме предложения, словосочетания и предложения, а также приложения для разных целей.

Первая группа представляет собой тип приложения и относится к предложению, ранее упомянутому в названии и других частях наименования. Эти дополнения предоставляют дополнительную информацию о предложении предложения, конкретизируют и объясняют. Добавление предложения является членом предложения и, следовательно, не входит в список предложений. Эти дополнения могут быть выражены словами или словосочетаниями.

L. Mahmudova

Appendices in Persian language

Summary

Some words that are not grammatically related to sentence members are supplementary words.

In Persian language additions can be divided into two groups according to their nature:

1. Appendices that belong to a member of a sentence as a type of phrase only in the form of word and phrase combinations.

2. Appendices that are in the form of sentence, word combination and sentence, and sentence for different purposes.

The first group is a type of appendix and belongs to the sentence previously mentioned by the name and other parts of the naming.

These appendices provide additional information about the sentence of the sentence, concretizes and explains. The addition of the sentence is the member of the sentence and is therefore not included in the list of sentences. These additions can either be expressed in words or phrase combinations.

Rəyci: Nigar Musayeva
filologiya elmləri namizədi, dosent

ZƏRİFƏ MƏMMƏDOVA
ATU
Filologiya üzrə fəlsəfə doktoru, dosent
zarifa@mail.ru

MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ MƏSDƏR TƏRKİBLƏRİ

Açar sözlər: nitq, kontekst, feil, qrammatika, məna
Key words: speech, context, verb, grammar, meaning
Ключевые слова: речь, контекст, глагол, грамматика, значение

Dilçilik ədəbiyyatında məsdər haqqında istər praktik, istərsə də nəzəri sahədə müxtəlif fikirlər söylənmişdir.Görkəmli dilçilərdən O.Yespersen məsdər tərkibləri haqda maraqlı mülahizə irəli sürmüşdür. Tədqiqatçı məsdər tərkiblərini ara cümlə hesab etmişdir[3,37]. O.Yespersenin fikrini təsdiq edən digər tədqiqatçılar məsdər tərkiblərinin əsas cümləyə ancaq ara cümlə vəzifəsində daxil olduğunu qeyd edirlər. Onlar məsdər tərkibləri üçün interpozisiyanı əsas götürür. Əksinə, O. Yespersen məsdər tərkibləri üçün prepozisiyanı əsas götürür.Azərbaycan dilçiləri qeyd edirlər ki, məsdər hərəkətin adıdır. Məsdər hərəkətin adı olmaqla feldən ismə doğru meyl edən bir formadır. O, zaman və şəxslə əlaqədar olmayıb, xüsusi şəkil əlaməti vasitəsi ilə yalnız fellərin adlarını göstərə bilir. Bununla belə məsdər felə xas olan cəhətlərə də malikdir.Demək, məsdər hər iki dildə feli və ismi xüsusiyyətlərə malikdir.İngilis dilində məsdərdə felin şəxsli formasına xas olan cəhətlərdən biri onun zaman xüsusiyyətlərinə malık olmasıdır.Məsdərin zaman xüsusiyyətləri özünü əsasən məsdərin qeyri-perfekt və perfekt formalarında büruzə verir.Əksər dilçilər məsdərdə zaman xüsusiyyətlərinin yaranmasını, əsasən məsdərin keçmişə aid zaman ifadə etməsini, analitik formaların və ya yeni qrammatık kateqoriyaların inkişafı ilə əlaqələndirir və bu formaların həqiqi məhsuldar qrammatık formalar olub, düzgün qrammatik mənalarla bağlı olduğunu sübut etməyə çalışırlar.

Tədqiqat göstərir ki, məsdərdə zaman mənasını cümlənin ümumi məzmunu ilə əlaqələndirmək mümkündür.

Məsdər formasının hansı zaman xüsusiyyəti ifadə etməsi barədə ingilis dilçiliyində mövcud olan fikirləri nəzərə alsaq deyə bilərik ki, məsdərin zamanı aşağıdakı amillərlə müəyyənləşdirilə bilər:

Məsdərin forması ilə

Şəxsli forma ilə ifadə olunmuş xəbərin zamanı ilə

Cümlənin ümumi məzmunu ilə

Azərbaycan dilində isə məsdərin zaman xüsusiyyətlərinin qrammatık forması olmağından məsdərdə zaman mənası kontekstdə, yəni cümlənin ümumi məzmununda hiss oluna bilər.Qeyd etdik ki, məsdər tərkibləri feli söz birləşmələrindən biridir. Məsdərdən qabaq işlənərək, məsdərlə sintaktık əlaqəyə girən sözlər məsdər tərkiblərini əmələ gətirir. Feli bağlamanın, feli sifətin və məsdərin xüsusiyyətlərindən asılı olaraq, onların yaratdığı tərkiblər bir-birindən fərqlənir. Belə ki, əgər feli bağlama və feli sifət tərkiblərində onların iş görəni [subyekt] olursa, məsdər tərkiblərində, bəzi xüsusi hallar nəzərə alınmazsa, həmin məsdərin subyekti işlənə bilmir. Çünki, məsdər özünü hərəkətin adı kimi göstərir, isim kimi hallanır, mənsubiyyət şəkilçilərini qəbul edir və müxtəlif cümlə üzvü vəzifəsi də daşıyır.*«Dostunun intiqamını almaq onun unuda bilmədiyi tək şey idi».*

Müasir ingilis dilində məsdər tərkibləri [Infinitive Construction] aşağıdakılardır:Tamamlıq – məsdər tərkibi (The Objective with the Infinitive Construction)Mübtəda – məsdər tərkibi (The Subjective Infinitive Construction)For sözönlü məsdər tərkibi (The For to İnfinitive Construction)Həm müasir ingilis, həm də müasir Azərbaycan dilində məsdək tərkibləri sadə nəqli cümlələrdə mövqedən asılı olaraq müxtəlif məna və intonasiya xüsusiyyətləri ilə özünü göstərir.

"Philip Bosinney was known to be young man without fortune"(Filip Bosini bəxtsiz cavan kimi tanınırdı.) [J. Galsworthy]

Burada məsdər tərkibi əqli fəaliyyət ifadə edən "to know" feli ilə, mübtəda, məsdər tərkibi [The Subjective Infinitive Construction] yaradır. Qeyd edək ki, adı çəkilən tərkib bu qrupa aid olan fellərlə həmişə məchul növdə işlədilir. *«Belə böyük bir ailənin başçısı olmaq, bu məsum balaların səadəti, gələcəyi üçün yuxusuz gecələr keçirmək ata qəlbinə nə qədər iftixar gətirirdi».* Burada məsdər tərkibi cümlənin əvvəlində işlənir. Mübtəda rolunda çıxış edir. Məqsəd mənasında verilir. Ə.Dəmirçizadə məsdər tərkibi və feli sifətlə ifadə olunan mübtədanı çevrilmiş və ya keçid mübtəda adlandırır. [2, 47] Cümlənin əvvəlində gələn məsdər tərkibləri müasir Azərbaycan dilində ayrıca sintaqm təşkil edir. Qalxan tonla hüdudlanırlar. Sonra gələn sintaqm enən tonla qurtarır. Qeyd etməliyik ki, xüsusiləşmənin müxtəlif növlərinin olmasına baxmayaraq, onun iştirak etdiyi cümlələrdə ümumi bir intonasiya xüsusiyyəti nəzərə çarpır. O da bundan ibarətdir ki, xüsusiləşmələr bu halda cümlədə fərqli sintaqm təşkil edir və qalxan tona malik olurlar. *"Yandakı otaqda ata-bala onun qayıtmağını gözlədilər".* [İ.Məlikzadə]Məsdər tərkibləri müasir Azərbaycan dilində cümlənin ortasında gələ bilir. *«O, itirdiklərini yalnız yenidən yaratmaqla həyata qaytarardı».*

Çox zaman onlar özündən əvvəl gələn sintaqmdan durğu və fasilə ilə ayrılırlar.Bu cümlədə məsdər tərkibi «ilə» qoşmasını qəbul edərək tərzi-

hərəkət zəfrliyi vəzifəsi daşıyır. Burada da intonasiya zəif hiss olunur. Nisbətən səs tonu az qalxır.Beləliklə, müasir Azərbaycan dilində məsdər tərkibləri ikən, ilə, baxmayaraq, üçün və s. sözlərlə işlənərək xüsusiləşirlər, müxtəlif məna variantları yaradırlar. Xüsusiləşmiş üzvlər məsdər tərkiblərinin, həm də bütöv cümlənin məna mərkəzinə çevrilməsinə vasitə olur. Bu zaman onlar enerji üstünlüyünə malik olmaları ilə seçilirlər. Qeyd edək ki, müasir Azərbaycan dilində məsdərlər həmcinsləşə bilirlər. Bu zaman onlar sadalama intonasiyasına tabe olurlar.Müasir Azərbaycan dilində cümlənin sonuncu mövqeyində gələn məsdər tərkibləri çox zaman parçalanır. Bu vaxt onlar sadəcə adi nəqli intonasiya ilə hüdudlanaraq, təsdiq və inkar hökmləri ifadə etmək baxımından seçilirlər.*«Onun qəlbi yağışın ilk damlasından diksinən susuz qalmış bir çiçək kimi titrəməkdədir».* Burada məsdər tərkibi xəbər yerinə düşüb predikativ xarakter daşıdığından tərkib olmaq keyfiyyətini itirir. Məsdər tərkibinin daxilində olan üzvləri cümlə üzvləri kimi yox, tərkibin öz üzvləri kimi anlamaq lazımdır. Cümləyə kateqorial sadə nəqli cümlə kimi diqqət yetirsək, səs tonunun hərəkəti intensivlik cəhətdən zəifdir. Cümlənin ritmik-melodik üzvlənməsi zamanı səs tonunun «enmə-qalxma» şkalası üzrə hərəkəti sezilir. Yəni, cümlənin müəyyən yerində səs tonunun qalxması bəzi yerdə enməsi müşahidə olunur. Nəqli intonasiya bir qədər təsviri xarakter daşıyır, adi bir faktı qeydə alır. Eksperiment göstərir ki, əsas tonun tezliyi onun intensivliyi ilə də mütənasiblik təşkil edərək bir-birinin artmasını şərtləndirir. Burada melodiya və intensivliyin artması tədricən baş verir, kəskin kontrastlar yaratmır. Yuxarıda qeyd etdiyimiz kimi, fikir bitkinliyinin ifadəsi cümlənin son hecasında səciyyəvi enmə ilə seçilir.

"Sənin fikrin kolxoz sədri olmaqdır"

Qeyd edək ki, elə xüsusiyyətlər vardır ki, həm feli-sifət, həm də məsdər tərkibləri üçün eyni dərəcədə səciyyəvidir. Məsələn, baxmayaraq sözü ilə feli-sifət tərkiblərindən də, məsdər tərkiblərindən də qarşılaşdırma mənalı xüsusiləşmiş zərfliklər əmələ gəlir.

Məsdər tərkibləri də bir qədər asılı məna qruplarına aid olduğu üçün adətən güclü vurğu və geniş melodik diapazonda deyil, zəif vurğu ilə tələffüz edilərək, dar melodik diapazona malik olurlar.

Yeri gəlmişkən, sadə cümlədə feli tərkiblər ayrıca subyektə malik olub-olmamasına görə özünü iki şəkildə göstərir.

1. Özünün işgörəni (subyekti) olan tərkiblər.

2. Özünün ayrıca işgörəni olmayıb cümlənin yerdə qalan parçası ilə ortaq subyekti olan tərkiblər.

Ayrıca subyektin işlənməsi ən çox feli bağlama tərkibinə məxsus haldır. Lakin feli tərkiblərin bütün növlərini əhatə edir.

Feli sifət tərkiblərinin bəzilərinin ayrıca subyekti olur. Haqqında bəhs etdiyimiz məsdər tərkiblərinə gəlincə isə onların adətən ayrıca subyekti

olmur. Lakın «ilə» qoşması qəbul etmiş məsdər tərkibinin öz subyekti işlənə bilir.*«Bir gül açılmaqla bahar olmaz». (atalar sözü)*

Məsdər tərkiblərinin qoşma ilə işlədilməsi onun funksional mənasının şiddətlənməsinə səbəb olur. Məna baxımından onun subyektiv tutumunu artırır, ağırlaşdırır, aid olduğu cümlə üzvünün nüvə sözə çevrilməsinə vasitə olur. Lakin birincidən fərqli olaraq, ortaq subyeлtli tərkiblər bütün feli tərkibli sadə cümlələrdə işlənir, yəni cümləninin işgörəni ilə tərkibin işgörəni ortaq olur. Aşağıdakı məsdər tərkibinə diqqət edək.

«Onun bu sözlərini xatırlamaq ürəyini sevinclə doldurdu».

Bu cümlə ortaq subyektli tərkib olub, nəqli intonasiya ilə bitir. Cümlə qalxan şkala ilə tələffüz edilir. Məsdər tərkibi cümlənin əvvəlində işlənərək, zəif vurğu ilə tələffüz edilir. Eyni zamanda dar melodik diapazona malikdir. Müasir ingilis dilində də məsdər tərkibləri üç mövqedə işələnə bilir. Aşağıdakı cümlənin əvvəlində gələn məsdər tərkibinə nəzər salaq.*«To come back was a rare treat».(Geri qayıtmaq nadir hal idi .)*

Məsdər tərkibi cümlənin əvvəlində çox ifadəli şəkildə özünü göstərir, əsas səs tonunun hərəkəti qalxan-enən şkala üzrə səciyyələnir. Başlanğıc hecalar sürətli, son hecalar yavaşmış şəkildə özünü göstərir. Bitmiş sintaqmda ton düşməsilə bağlı enmələr müşahidə olunur.

Məsdər tərkibləri cümlənin ortasında da gələ bilir.

«He didn't want him to see the straps». (O istəmirdi ki,o onun çinlərini görsün.)

Tamamlıq məsdər tərлibli bu cümlədə məsdər tərkibi nisbətən az ifadəlidir. Bu mövqedə tələffüz tempi digərlərindən fərqlənir.

«I want him to come back».(Mən onun qayıtmağını gözləyirəm.)

Məsdər tərkibində hər bir hecanın tələffüz müddəti digərlərindən qısadır. Əsas tonun hərəkəti yüksəlib-alçalan istiqamətdə inkişaf edir. Nitq tempi sürətlidir. Lakin mübtəda məsdər tərkibi müasir ingilis dilində bir qədər fərqlidir. Belə ki, ümumi halda olan isim (yaxud adlıq halda olan əvəzlik) məsdərlə sintaktik sıx əlaqəyə girərək, tərkib yaradır.

Ədəbiyyat

Danes F. Sentence intonation from a functional point of view, Kopenhagen, 1960, 203p.

Dəmirçizadə Ə. Müasir Azərbaycan dilində sadə cümlələr, Bakı, 1950, 99 s.

Есперсен О. Философия грамматики. Издательство Иностранная литература. Москва, 1958, 230 стр.

Widdowson H.Y. Exploration in Applied Linguistics Oxford University press, 1979, 187 p.

Z. Mammadova

The infinitive construction in multisystem languages

Summary

This article is devoted to the sentences. While analyzing these sentences great attention was given to the linguistic facts taken from the analyses. One of the important goals of the article is to defect and find out –their use in different positions.

Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The process of teaching languages should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented and systematic. It will make the process of teaching oral speech more effective. Speaking comprehension is one of the most basic and important of the four skills in language teaching and learning.One of the main goals of language learning is to acquire the ability to communicate effectively.

З.Мамедова

Инфинитивные конструкции в мультисистемных языках

Резюме

Статья посвящена к предложению. Течение анализа большое внимание обращено на лингвистическим фактам полученные от экспериментального анализа. Один из важнейших цель раскрывать их употребление в разных позициях. Процесс языку в целом и процесс обучения должен базироваться на коммуникативно – функциональном принципе. Обучением речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В условиях глобализации основная цель обучения иностранным языкам и их изучения состоит в формировании у обучаемых способности использовать язык в целях коммуникации. Умение адекватно воспринимать информацию в процессе "говорении" является одним из самых важных и необходимых умений которыми должен обладать человек, изучающий язык в тех или иных целях. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке.

Rəyçi: Məfkurə Hüseynova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

GÜLNARƏ CABBAROVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
RZU ŞƏFİYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti
gülya,arzu.@.gmail.ru.

MÜASİR İNGİLİS DİLİNDƏ KAUZATİV SİTÜASİYANIN RUS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İFADƏ ÜSULLARI

Açar sözlər: kauzasiya, fellər, situasiya, səbəb, nəticə, antesedent, konsekvent
Keys words: causation, causative verbs, causative situation, cause, result, antecedent, consequence
Ключевые слова: каузативность, глаголы, ситуация, причина, результат, антецедент, концеквент

Kauzativlik ilk növbədə fəlsəfi anlayışdır və hər bir anlayış dildə bu və ya digər dərəcədə öz ifadəsini tapır. Bəzi dilçilər bu anlayışın müəyyən dillərdə olmadığı fikrini söyləyirlər. Kaseviç V.V "Ümumi dilçiliyin elementləri" əsərində bu anlayışın rus dilində ifadəsinin olmadığını yazır. Lakin Yarseva V.N. "Kontrastiv qrammatika" əsərində yazır ki, "səbəb və nəticə münasibətini, görünür ki, rus dilində, məsələn, indiki zaman, yaxud bitmiş tərz qrammatik kateqoriyalarının mövcud olduğu kimi qrammatik kateqoriya hesab etmək olmaz, lakin bu, sübhəsizdir ki, rus dilinin bu anlayışı ötürmək üçün bir sıra imkanları var" Əsərin başqa hissəsində də müəllif yazır ki, "ünsiyyət üçün vacib olan anlayış dildə ifadə olunmaya bilməz" (8.54). Kauzativlik (kauzasiya) anlayışı da ünsiyyət üçün vacib anlayışlardan biridir və bu anlayış müxtəlifsistemli dillərdə müxtəlif ifadə vasitələrinə malikdir. Məqalədə anlayışın müxtəlif dil səviyyələrində ifadəsini təqdim edərək kauzasiyanın dildə hansı vasitələrlə ifadəsinin mümkünlüyünü aydınlaşdıracağıq. Lakin bütün bunlardan öncə anlayışın fəlsəfi mahiyyəti müəyyənləşdirilməlidir. Kauzativ fellər, kauzasiya, kauzativ situasiya, kauzativ konstruksiyalar və s.lə bağlı yazılmış elmi ədəbiyyatlarla tanış olarkən məlum olur ki, bəzən dilçilər kauzativ fellər deyəndə icbar (məcbur etmə) semantikali felləri nəzərdə tutur, kauzativ situasiyanı məcbur etmə situasiyası, kauzasiyanı isə birinin digərini hər hansı bir işi yerinə yetirməyə məcbur etməsi kimi başa düşürlər. Yəni icbariliklə kauzasiyanı eyniləşdirirlər. Ancaq məcburiyyətlə kauzasiya anlayışlarını fərqləndirmək lazımdır. Məcbur etmə bir şəxsin digərini öz idarəsinə tabe edərək hər hansı bir hərəkəti həyata kecirməyə sövq etməsidir və bu situasiyada məcbur olunan, yəni məcbur edənin idarəsinə tabe olan, təsir altında olan obyekt şüurlu varlıq, yəni hər hansı bir

şəxs olmalıdır. Həmin şəxs iradəsinə tabe olduğu subyektə, yəni təsir edənə görə obyektdir, lakin icra etdiyi işə görə subyektdir. Həmin subyekt bu situasiyada ikinci şəxsdir, məcbur olunandır və biz yuxarıda qeyd etdik ki, bu situasiyada məcbur edənin obyekti hər hansı bir şəxs olmalıdır. Çünki gerçək aləmdə yalnız düşünə bilən, şüurlu varlığı nəyisə etməyə məcbur edə bilərik. Şüursuz varlıqları, yəni əşyaları, təbiət hadisələrini məcbur etmək mümkün deyildir. Məcbur olan yerinə yetirməli olduğu işi həm öz üzərində, həm də digər bir şəxs, ya da əşya üzərində icra edə bilər və bundan da əlavə məcburiyyət müəyyən səbəblərdən yarana bilər. Məcbur olan şəxs hansı səbəblərdən özünü məcbur hiss edir? Deməli, məcburiyyətin əsasında səbəbiyyət durur. Bu termin kauzasiya kimi də işlənir. Fikrimizcə, kauzasiya məcburetmədən daha geniş anlayışdır. Bu fəlsəfi kateqoriyanın əsasında dildə də kauzativlik kateqoriyası meydana gəlmişdir. Lopatin V.V. yazır ki, "Kauzativlik səbəbin üsullarından yalnız birini, məhs məcburiyyət (məcbur etmə) vasitəsi ilə səbəbi bildirir". Lakin səbəb olma məcburiyyət olmadan da baş verə bilər.Kauzasiya latınca "causare" sözündəndir, "səbəb" deməkdir, hadisələr, situasiyalar arasındakı səbəb-nəticə əlaqəsini ifadə edən anlayışdır. Bu əlaqə isə yalnız şüurlu varlıqlar, yada cansız varlıqla şüurlu varlıq arasında deyil, cansız varlıqlar, hadisələr, situasiyalar arasında da mövcud ola bilən əlaqədir. Məs,*Havaların isinməsi dağlardakı qarı əritdi.*

Burada iki situasiya, iki hadisə var. Havalar isindi və qar əridi. Birinci situasiya ikincini doğurub. Birinci ikincinin səbəbidir, ikinci birincinin nəticəsi. Burada heç bir şüurlu varlığın təsiri yoxdur. Burada məcbur etmə də yocdur. Çünki cansız varlıq məcbur ola bilməz. Ancaq burada səbəbiyyət var. Havaların isinməsi qarın əriməsinə səbəb oldu. Məcbur edən tərəfdə məcbur olunanın icra etdiyi hərəkətin səbəbi olur. Deməli, yuxarıda qeyd etdiyimiz kimi kauzasiya məcburiyyətdən daha geniş anlayışdır. Təqdim etdiyimiz misalda iki situasiya arasında kauzadiya münasibəti var. Belə situasiyalar kauzativ situasiyalar adlanır. Nedyalkov V.P. və Silnitskiy Q.Q. yazırlar ki, "gerçəklik hadisələr və situasiyalar çoxluğu kimi təqdim oluna bilər. Sadə situasiyalar var. Onları mikrosituasiyalar adlandırmaq olar... Sadə situasiya –lardan başqa mürəkkəb situasiyalar mövcuddur. Onları makrosituasiyalar adlandirmaq olar". Makrosituasiyanın bir tipini müəlliflər kauzativ (kau-zativ situasiya) adlandırırlar. Onlar qeyd edirlər ki, "KS (kauzativ situasiya) tərkib hissələri birbaşa kauzasiya, yaxud səbəb münasibəti ilə əlaqələnən ən azı iki mikrosituasiyadan ibarətdir".Həmin müəlliflər sonra yazırlar ki, "səbəb mikrosituasiyası KS-nın antesedenti, nəticə mikrosituasiyası isə konsekventidir" (5.6).Dillər tipoloji cəhətdən fərqləndiyinə görə bu anlayışın müxtəlif dillərdə ifadə vasitələri də fərqlidir. Aqqlütinativ dillərdə kauzasiya daha çox morfoloji üsulla ifaə olunur. Məsələn, türk dilləri. Analitik dillərdə isə bu anlayışın analitik üsulla ifadəsi müşahidə olunur. Məqalədə məqsəd

kauzativlik qrammatik kateqoriyasının hansı dillərdə olub-olmamasını müəyyənləşdir-mək yox, kauzasiya anlayışının dildə necə, hansı vasitələrlə, dilin hansı səviyyələrində ifadəsini mümkünlüyünü müəyyənləşdirməkdir. Kauzasiya dilin hansı səviyyələrində ifadə olunur?

1.Kauzasiyanın dilin leksik səviyyəsində ifadəsi.

Bu səviyyədə qrammatik vasitələr rol oynamır. Bəzi feli leksik vahidlər müəyyən leksik mənaya malik olmaqla yanaşı, eyni zamanda kauzasiya mənasını da ehtiva edir. Bu leksik vahidlər hansılardır?

Müəyyən leksik mənaya malik olan bəzi fellər müəyyən kontekstdə kauzasiya da bildirir. Yəni eyni bir fel bir kontekstdə kauzasiya ifadə etmir, digər bir kontekstdə isə əksinə. Bu, əsasən, amorf dillərdə müşahidə olunur. Məsələn, müasir ingilis dilində *to work* feli həm *işləmək*, həm də *işlətmək* mənasında işlənə bilir.İngilis dilində bu cür fellərə *to burn, to stop, to cease, to end, to finish, to melt, to heat, to change, to break, to sink, to sit* və s. felləri nümunə göstərmək olar. Məsələn, *to end* felinin işləndiyi kontekslərə və ifadə etdiyi mənalara baxaq. Oksford lüğətində verilmiş cümlələri təqdim edirik.

When the war ended, policy changed (12). (Müharibə qurtaranda siyasət dəyişdi.)

The chapter ends with a case study (12). (Fəsil hal dərsi ilə bitir.)

The match ended in a draw(12). (Yarış bərabər qurtardı.)

Bu cümlələrdə *to end* feli bitmək, qurtarmaq mənasında işlənib. Digər bir nümunəyə baxaq.

She wanted to end the relationship (12). (O, münasibəti bitirmək istəyirdi.)

Burada artıq o, münasibəti bitirsə, münasibətin bitməsinə səbəb olacaq. Burada *to end* feli həm s_j, həm də *k* konstantlarını ifadə edir. *To stop* felinə baxaq.

The rain had stopped and the clouds had cleared(12).

(Yağış dayanmışdı və buludlar çəkilmişdi.)

Burada bu fel yağış yağması prosesinin kəsilməsi mənasında işlənib.

He stopped his car by the house (12). (O, maşınını evin yanında saxladı.)

Burada isə maşın özü dayanmır, maşını dayandıran odur. Deməli, bu cümlədə *to stop* feli s_j konstantını ifadə etməklə yanaşı, həm də *k*-nı ifadə edir. *To work* felinin işlənməsinə baxaq.

He worked as a waiter in a rather shabby restaurant (12).

(O, çox köhnə bir restoranda qarson kimi işlədi.)

Jane is working you too hard (12). (Cen səni çox gərgin işlədir.)

To have, to get felləri *make* və *faire* fellərindən müəyyən xüsusiyyətlərinə görə fərqlənsə də, onlar haqqında da eyni sözləri demək olar.

4. Kauzasiyanın dilin leksik-sintaktik səviyyəsində ifadəsi

Ədəbiyyat

1. Гордон Е.Я. “Каузативные глаголы в современном русском языке” – Автореф. дис. …канд. филол.наук. – М., 1981.
2 .Гордон Е.Я. Каузативные глаголы в современном русском языке. Диссертация кандидата филологических наук. Душанбе, 1981, 191с
3.Касевич В.Б. “Элементы общей лингвистики”, М., Наука, 1977, 183с
4. Лопатин, В.В. “Грамматическая категория”, // Лингвистический энциклопедический словарь, М., 1990, 666с, с401

G.Djabarova,
A.SHafieva

The expression of the notion of causation in the language

Summary

The article deals with the expression of the notion of causation in the language. In the article the expression of the notion has been represented in the lexycal, morphologycal, syntactyc and the lexyc-syntactyc levels of language. The research has been done on the base of the examples of Azerbaijan, Russian, English and French.

In the result of the research it has been clear that this notion has the different means of expression in different languages. Suffixes can be varied according to their being productive and non productive. They enrich English language for their wordbuilding character and almost owns the borrowed words.

Since, technics develop in the society new words appear in the language. In these cases the role of suffixes is great. Suffixes will be important and helpful element for building adjectives in the English language in the future.

The article investigates the degrees of comparison in English literary language and in its comparative caracteristics with Azerbaojani,also the superlative degree of some adjectives in English,it means their forming by chamging the roots of the words

Г.Джабарова,
А.Шафиева

Выражение каузативность в языке

Резюме

В современном Английском языке термины могут различаться своей продуктивностью и непродуктивностью. Они обогащают английский язык словообразующим характером и почти присваивает заимствованные слова.

С развитием технологий в обществе появляются неологизмы. В таких случаях велика роль архаизмы. В будущем суффиксы будут важным и полезным элементом в образовании прилагательных английского языка.

В статье также рассматривается сравнения старинные термины в современном Английском и Азербайджанском литературном языках, их сравнительная характеристика,а также суперлативная форма прилагательных с помощью изменения корни слова.В статье исследуются вопросы, касающиеся каузативности. В статье были представлены выражение каузативьности в лексическом, морфологичес ком, синтаксическом, лексико-синтаксическом ярусах языка. Исследование было проведено на материалах азербайджанского, английского, русского, французского языков. В результате исследования было выявлено, что данное понятие имеет различные средства выражения в разносистемных языках.

Rəyçi: Nuriyyə Rzayeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

KÖNÜL SƏMƏDOVA
filologiya üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti
semedovakonul74@mail.ru

OĞUZ QRUPU TÜRK DİLLƏRİNDƏN AZƏRBAYCAN DİLİNİN ŞİMAL-QƏRB QRUPU DIALEKT VƏ ŞİVƏLƏRİNDƏ SAİTLƏR VƏ VARIANTLARININ QIPÇAQ DİLLƏRİNƏ İNTEQRASİYASI

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – Qrant № EİF/MQM/Elm-Təhsil-1-2016-1(26)-71/07/5

Açar sözlər: *qısa saitlər, burun səsləri, dialektlər, Oğuz və Qıpçaq dilləri.*
Keywords: short vowels, nasal vowels, dialects, Oghuz and Kipchak languages.
Ключевые слова: короткие гласные, носовые гласные, диалекты, огузский и кыпчакский языки.

Muasir Azərbaycan ədəbi dilində olan doqquz sait səsin hamısı Azərbaycan dilinin şimal-qərb qurupu dialekt və şivələrində işlənilir.(a, ı ,o ,u ,e ,ə, i, ö, ü)

Lakin bu saitlərin işlənmə tezliyi var. Bəziləri daha fəaldı bəziləri isə passiv.Oğuz qrupuna daxil olan dillərin saitlər sisteminə diqqət yetirsək görərik ki , bu qrup dillərin bəzilərində doqquz bəzilərində səkkiz sait var və bunların səs tərkibində də müəyyən fərqli cəhətlər var.Bəzilərində ə saiti işlənir bəzilrində *ə-e* əvəzlənməsi baş verir.

Oğuz qrupuna daxil olan Azərbaycan dili dialekt və şivələrinin saitlərini nəzərdən keçirmiş olsaq, bunların hər şeydən əvvəl kəmiyyətə görə fərqləndiyini, yəni dialekt və şivələrimizdə adi saitlərdən başqa, bunların uzun və qısa variantlarının da işləndiyini görəcəyik. Həmçinin, şimal-qərb qrupu dialekt və şivələrində uzun saitlərlə yanaşı, saitlərin burun variantlarına da təsadüf olunur.

Türkologiyada şimal – qərb qrupu türk dilləri dedikdə məhz qıpçaq qrupu türk dilləri nəzərdə tutulur. Azərbaycan dilinin şimal- qərb qrupu dialekt və şivələrinin saitlər sisteminin qıpçaq qrupu türk dilləri ilə müqayisəsini aparsaq Tatar, Qazax, Qırğız, Başqırt, Qaraqalpaq, Qumuq, Noqay, Qaraçay-balkar, Krım Tatar dillərini özündə birləşdirən qıpçaq qrupu türk dilllərinin

dialektik sistemində də müəyyən oxşar və fərqli cəhətlər var. Məs.Tatar türkcəsində doqquz sait səs var. Bunlar: a, e, ı, i, ı, o,ö,u,ü – dür. Bu saitlərdən a, ı, i, u, ü saitləri oğuz qrupunda olduğu kimi səslənir.Lakin o və ö saitləri oğuz qrupundan fərqli olaraq tatar dilində dar və qısa tələffüz olunur.

Bundan başqa tatar dilində rus dilindən keçən y samiti ilə qoşa işlənən saitlər də vardır. Qazax dilində isə fərli olan sait səs a və başı dalğalı **a** səsidir ki, bu da oğuz qrupu türk dillərindın fərqli olaraq bəzələrindəki e- yə bəzilərindəki a səsinə uyğun gəlir.Daha çox da qazax dilində ərəb və fars mənşəli alınma sözlərdə öz əksini tapır.

*Məs.alıb ver-**a**per- götür,ne erse-n**a**rse- əşya və s.*

Qırğız dilində a, e, ı, i, o, ö, u, ü, ”e”. Buradakı **e** hərfi rus dilindən keçən sözün əvvəlində işlənən ***ye*** hərfinin ifadəsidir. məs yeki-eki-iki, yeje-ece-bacı. Qırğız dilində həmçinin rus dilindən keçmə y səsiylə qoşa işlənən samitlər də vardır.ye, yo, ya və.s

Altay dilində “ı” saiti sözün əvvəlində işlənir. Həmçinin bu dildə kəmiyyət kateqoruyasının şərilçisi çox variantlıdır.

Noqay dilində 9 sait səs mövcuddur. Noqay dili dialektlərində sözün əvvəlində “ı” saiti işlənir.

Kırım-tatar dilində də bəzi oğuz qrupu türk dillərində olduğu kimi “ə” saiti yoxdur, cəmi 8 sait səs var.

Həmçinin qumuq dilində də 8 sait səs var. Burada bir normal a , diğəri isə biraz daha incə tələffüz olunan a saitidir. Lakin əlifbada hər ikisi eyni hərflə göstərilir.

Azərbaycan dilininin Şimal-qərb qrupu dialekt və şivələrində qısa saitlərində özünəməxsus rolu vardır.

M.Şirəliyev qısa saitlərin formasından danişanda qeyd edir ki, qısa saitlər qapalı saitlərə aiddir və onları iki yarım qrupda cəmləşdirir. M.İslamov isə söz kökünün birinci vurğusuz hecasında işlənən qapalı saitləri qısa tələffüz olunduğunu, ikinci və üçüncü hecalardakı qısalma hadisəsini isə sözə müxtəlif şəkilçilərin artırılması ilə əlaqədar olduğunu qeyd edir. Azərbaycan dilinin Şimal- qərb qrupu dialektlərində qısa saitlərin tələffüzünü aşağıdakı kimi cəmləşdirmək olar.

1. Qısa saitin əmələ gəlməsi vurğusuzluqla izah olunur. Belə ki, qısa sait kökün vurgusuz birinci hecasında və vurğu əsasdan şəkilçiyə keçdikdən sonra qısa sait şəkilçidən əvvəlki hecada özünü göstərir.

2. Qısa saitin əmələ gəlməsi onu əhatə edən səslərin tipləri ilə də izah olunur, belə ki, qısa saitə a) sonor səslər arasında; b) sonor səslə y səsi arasında; c) iki y səsi arasında; ç) cingiltili səslə sonor səs arasında d) kar səslə sonor səs arasında; e) kar samitlər arasında özünü göstəri kar samitlər

arasında özünü göstərir (pĭçax- bĭçağ; kĭşi, pĭti, bıxo, fĭşəx[1], bulax, çŭxa, bŭtax, tŭfəng[1], kŭsüf, qŭzey və s.) [2. 31: 1.12].

Bu hadisə qırğız dili dialektlərində də müxtəlif formada özünü göstərir.oğuz qrupundan fərqli olaraq qırğız dilində qısa saitlərdə açıq saitləri açıq saitlər, dodaqlanan saitləri dodaqlanan saitlər izləyir. Lakin fərqli cəhət dodaqlanan saitlərdən sonra açıq saitlərdən yalnız a işlənilir. məs. çuka-yubka, tuman- duman, kuçak-qucaq və.s.

Şimal-qərb qrupu dialekt və şivələrdə uzanma hadisəsi kimi qısalma hadisəsi də başlıca yer tutur. Şimal qrupu şivələrinədə də qısa saitlər söz kökünün birinci vurğusuz hecasında işlənən qapalı saitlərdi. ikinci, üçüncü və sonrakı hecalarda qısalma həm alınma sözlərdə olur, həm şəkilçilər artırıldıqda olur. Sözün axırı müstəsna olmaqla bütün hallarda –sözün əvvəlində və ortasında qısalma vurğudan əvvəl özünü göstərir. Şimal qrupu dialektlərində işlənən qısa saitlər aşağıdakılardı.

I-qĭlıf, fĭrıllax, sĭğırçı-naxırçı, qĭsır, qĭlıxlı (Bu qun Salih kiçi naxır novatında sığırçıdı. Zaq. Qım.) i-kĭcix, bĭşix, kĭşi, şĭtil, kĭlim, bĭçin və s. (Uşaxlar kilimin 4 tərəfindən tutuf sevinceh qışqırıf, kilimə tökülən tutdarı taraşdıyırdılar. Zaq. Qım.) sözün sonunda işlənən qısa ĭ səsinə- anĭyə, dəmĭyə, nĭsiyə, əmĭyə və s. (Bizin dükanda nisyə vermiylər).

Qısa ĭ səsi sözün əvvəlində işlənən ərəb mənşəli irəzyana, irasıl sözlərində də işlədilmişdir.

Bu səs həmçinin başqırd dilinin saitlər sistemində də özünü göstərir.Bu sait türkcədəki e Azərbaycan dilindəki ə ilə i arasında tələffüz olunan bir səsdir və olduqca qısa tələffüz olunur.məs ĭlĭk-ilk, ĭrĭ- iri , xerĭf-hərf.

Başqırd dilində ilk və digər hecalarda da "i" saiti "ĭ" saitinə keçir.məs.kĭrprĭk-kirpik, kilĭn- gəlin və s.

Bundan başqa ilk hecada işlənən "u,ü" saitlərindən sonra gələn "u,ü " saitləri də qısa tələffüz olunaraq "ı, ĭ " kimi tələffüz olunur.[3.236]

u - dŭluz, bŭlax, pŭtax, qŭful, sŭluf, çŭvux, Sözün ortasında qısa tələffüz olunanlara misal olaraq, qoyu˘a, boyu˘u, yolumuz və. s.

Noqay dilində söz ortasında və sonunda işlənən u saiti –ı saitinə keçir. Burun-burın,topurğak-topırak-torpaq.

ü-cüyür, yŭyürmax, gŭmüş, sŭyux, kŭnə, gŏtümüşux və. s. Noqay dilində ü saiti də həmçinin söz ortasında və sonunda i-yə keçir.məs.çürü-şiri-"çürü",öküz-ögiz, ülüş-ülis-pay və s.

Qısa i və u səslərinin sözün sonunda da təsadüf edilir. Sözün axırındakı qısalma isə vurğudan sonraya düşür. Sözün sonundakı heca vurğusunu özündən əvvəlki hecaya ötürməklə qısalma hadisəsi yaradır.

Azərbaycan dilinin Şimal qrupu dialekt və şivələrində burun saitlərinin də özünəməxsus xüsusiyyətləri vardır.

Şimal ləhcələrinə daxil olan şivələrin ən səciyyəvi fonetik xüsusiyyətlərindən biri də burun saitlərinin geniş yayılmasıdır. Şimal qrupunun bütün ləhcələrində həm söz köklərində həm də şəkilçilərdə burun saitlərinin bütün variantları vardır.

Bu məsələni ilk olaraq oğuz qrupu türk dillərindən Azərbaycan dilinin Şəki dialekti materialları əsasında bütün təfərrüatı ilə işıqlandıran N.İ.Aşmarin olmuşdur. N.İ.Aşmarin Azərbaycan dilinin Nuxa dialektində **e, ö** saitlərindən başqa bütün saitlərin burun variantlarını aşkarlamış, mövqeyi və əmələ gəlməsinin səbəbini sözlərdən sagur n səsinin düşməsi ilə əlaqələndirmişdir. Lakin tədqiqatlar zamanı Şimal ləhcəsinin şivələrində bütün saitlərin burun variantlarının oldugu aşkarlanmışdır. N.İ.Aşmarin Şəki dialektində aşağıdakı burun saitlərini qeyd etmişdir.

i- *gəvəhĩn;* ***ə-*** *rəhsĩz,* ***a-*** *reyhañ, daj̃;* ***ı-*** *əlĩ,* ***ü-*** *qiĩşlər;* ***u-*** *douz̃; yeruu;* ***o-*** *doõdi.* Bunlardan əlavə, N.İ.Aşmarin Şəki dialektində burun saitlərin uzun variantları olduğunu da qeyd edir: ***ə-*** *bə̃ːz,* ***a-*** *taː̃, saː̃,* ***ı-****atiː̃;* ***u-****əluː̃;* ***ou-*** *dooũːtdi;* ***o-*** *əloː̃.* [4. 12-17,73-174: 6.13-14:5.26-27].

M.Şirəliyev Naxçıvan qrupu dialekt və şivələrində də burun saitlərinin olduğunu qeyd etmişdir. Ordubad dialektində, Culfa, Şərur və Şahbuz şivələrində də burun saitlərini qeydə almışdır. Bunlardan əlavə, A.Hüseynov Oğuz rayonu, İ.Məmmədov isə Füzuli rayon şivələrində burun saitlərinin olduğunu qeyd etmişlər [2:].

Şimal qrupu dialektlərində bütün saitlərin o cümlədən ẽ və õ saitlərinin də burunda tələffüz edilən variantı vardır. Saitlərdə burun xüsusiyyəti təkcə sağır ***ŋ*** -səsinin deyil, həmçinin n səsinin düşməsi ilə də əmələ gəlir. Beləliklə aydin olur ki, burun səslilərinin əmələ gəlməsi bilavasitə sağır n və sonor ***ŋ*** səslərinin düşməsi ilə əlaqədardır. Düşən sağır n və sonor ***ŋ*** səsləri özündən əvvəl və ya sonra gələn saitə burun xüsusiyyəti verir.

Bütün bu faktlar göstərir ki, burun saitləri Azərbaycan dilinin dialekt və şivələrində çox yayılmış bir hadisədir və onu başqa türk dillərinin dialekt və şivələrindən ayıran fərqləndirici bir əlamətdir. Çünki bəzi türk dillərində burun saitlərinə olduqca az hallarda təsadüf edilir.

Azərbaycanın Şimal qrupu ləhcələrindən Şəki dialekt və şivələrində **ö, e** saitlərindən başqa bütün saitlərin burun variantı var, Oğuz –Qəbələ, Zaqatala-Qax şivələrində isə ancaq ã, ĩ, ũ saitlərinin burun variantına təsadüf edilir. Şəki dialektindən fərqli olaraq Zaqatala-Qax bölgəsində burun saitləri ancaq şəkilçilərdə özünü göstərir. Burun saitləri həmçinin qıpçaq dil elementlərinin zəngin olduğu cənub dialektlərindən Naxçıvan və Ordubad dialektlərində də özünü göstərir. Bu da təbii ki tayfaların müəyən coğrafi ərazilərə köçü ilə bağlı olaraq yaranan formasıdır. Azərbaycan dilinin dialekt və şivələrində təsadüf edilən burun saitləri aşağıdakılardır:

1. Bu səs ***ŋ*** səsinin aradan çıxması və iki saitin birləşməsi nəticəsində əmələ gəlmişdir (faar-kasıb, yooruy-yogurur və s.).

2. ***ã*** səsinə mənsubiyyət şəkilçisinin II şəxs təkində (yönlük halda), xəbərlik şəkilçisinin II şəxs cəmində və şəxs əvəzliklərinin I, II şəxs təkində təsadüf edilir:-*xurcunuã, ilxuã, kəluã, quzuã, gözüã , sözüã, samuã, xoruzuã, aruã.* ı + ŋ+ a; i + ŋ+ a; u + ŋ+ a; ü +ŋ+ ə; ə +ŋ+ ə; a + ŋ+ ı; ə + ŋ+ i = *ã*

ağzã, başã, qabağã, əlã, yerã, işã, qolã, sözã, işdəsãz, danışmãs- ãz (Zaq., Bal, Qax), *mã, sã* (Şə,Qax,Bal) evia, nimağa (Zaq., Qım., Baz. k.)

3. II şəxs təkinin mənsubiyyət şəkilçisi qəbul etmiş sözlər yiyəlik, yönlük, təsirlik hallarında burunda tələffüz olunan uzun a səsini görmək olar.məs.: *alãz, şafqãzın, şafqãza, baltãzı, baltãzda, baltãzdan* (Şəkinin müxtəlif kəndlərində rast gəlinir).

4. Sonu n səsi ilə bitən müəyyən feillər nəqli keçmiş zamanın III şəxs tək və cəmində, indiki və qəti gələcək zamanların hər üç şəxs üzrə tək və cəmində işləndikdə; *yıgışdãtdı, qazãtdı, dolãtdı, dolãr, qazãr, addãr, yığışlãnır, qazacãx, qazãcux və s*.(Şəki, Göy., lay., Zəyz və d).

Burada burunda deyilərək uzanan xüsusiyyəti sözün kökündəki son saitə aid olur. Lakin bəzən bu xüsusiyyət kökdəki deyil, şəkilçidəki a səsində müşahidə edilir. Bu, əsasən feilin şərt şəklinin şəkilçisinə aiddir məs.alsaz, gəlsaz (Şə., Göy., Kiş., D., İn, Zun.), otursaz, disaz (Qax, Bal., Qabç., Zaq., Muğ.), görsaz, gessaz, üşüzaz (Zaq., Göz., Muğ., Aş., Tala) [1. 14].

ĩ. -Bu səsə yalnız şəkilçilərdə təsadüf edilir. **ĩ** səsi mənsubiyyət şəkilçisinin II şəxs təkində (təsirlik halda) və xəbər şəkilçisinin II şəxs cəmində ***n*** səsinin meydandan çıxması nəticəsində əmələ gəlmişdir. ***n*** səsi meydandan çıxarkən, özündən sonra gələn saitə burun xüsusiyyəti verir və digər tərəfdən isə özündən əvvəl gələn önsıra saitini arxasıra saitinə çevirir: məs.: *qavı**ĩ**, əlı**ĩ*** (Şə.), *qıçı**ĩ*** (Zaq), *əvı**ĩ**, başı**ĩ**, qızı**ĩ**, qapı**ĩ**, uşağı**ĩ*** (Nax., Ord.), *oyniyəsı**ĩ**z, viyəsı**ĩ**z* (Şə.), *didı**ĩ**z, dimədı**ĩ**z* (Zaq.).

Tatar türkcəsində **ı** üstü strixli bir sait də var ki , o heç bir oguz qrupu dillərində yoxdu bu səs ı və i – nin ortasında bir səsdir. Daha da dəqiq desək ön damaqda düz və yarı dar tələffüz edilən qısa bir saitdir. Bu səsə Tatar dilində bu səs olduqca qısa tələffüz olunur, hətda düşmə ehtimalı olduqca böyükdür.

ĩ: Uzanaraq burunda deyilən **ı** səsi. Yiyəlik və təsirlik hallarda, mənsubiyyət şəkilçisinin II şəxs təkində (təsirlik halda) və cəmində (adlıq halda), xəbər şəkilçisində özünü göstərir; məs.: yerıĩ, əlıĩ, qızıĩ, alırsıĩz, məlimsıĩz və s. II şəxs cəmində təsadüf edilən bu səs saf ı səsi ilə burun **ı** səsinin qovuşmasından əmələ gəlmişdir.məs qapı, dərdı, əlı, elı, qanı, qıçı (Zaq., Bal.) gəldız, alımsız, yazıcasız, görsız (Qax, Şəki və s.).

Burada həmçinin sonu ı səsi ilə bitən feillər nəqli keçmiş zamanın III şəxs tək və cəmində işləndikdə burunda tələffüz olunan ı səsi meydana çıxır.

Məsələn: qazıtdı-qazınmışdır (Şə., Qış., həm də Zaq., Bəh., Mug. kəndlərində işlədilir) və yaxud sınmışdır -sıtdı (Şə. yenə Qış və incə kəndlərində) [1.14].

ə̃. Burunda deyilən bu səsə söz kökündə ng ilə bitən sözlərdən n səsinin meydandan çıxması hallarında təsüdüf eidlir: *rə̃hsiz, tüfə̃hdən* (Şə.).

1. Sözə heç bir şəkilçi qoşulmadan kökdən sagur n və ya n səsinin düşməsi nəticəsində ə burunda uzun tələffüz olunur. məs. kanfet-qənfit, bəniz-bə̃:z, dəniz-də̃:z, və s. (həm Bal., Qax, Şə., həmçinin Qəb., Og. rayonlarında da rast gəlinir).

2. Burunda deyilən uzun ə səsli sözlərə müxtəlif şəkilçilərin artırılması ilə əlaqədar olaraq meydana cıxır.

a) Sonu n ilə bitən feillər nəqli keçmiş zamanın III şəxs tək və cəmində, indiki və qəti gələcək zamanların hər üç şəxsində, tək və cəmində işləndikdə burunda tələffüz olunan ə saiti özünü biruzə verir, məs. öyrətdi-örgətdi, öyrənmişdir-öyrənitdi, bəyənibdi-bəyənitdi (Şək., Zun., B.G:Zaq., Bəh., Qım., Çob., Baz.) evlənirəm-öylərəm, tərpənir-tərpər və s.

b) Sonu ə səsi ilə bitən isimlər yiyəlik və təsirlik hallarda I, II şəxs əvəzliklərinin təki halda işləndikdə burunda tələffüz olunan uzun ə səsi ortaya cıxır. Məs.: nəhr**ə**-nəhrənin, nəhrəni, dəhr**ə-**dəhrənin, dəhrəni, kəlç**ə-**kəlçənin, kəlçəni və. s. bu xüsusiyyətlər Şimal qrupu dilektlərinin hamisinda öz əksini tapır.

ẽ- Burunda deyilən e səsi. Bu səs Şimal dialektində Zaqatala, Qax, Balakən şivələrində geniş, Şəki dialektlərində az işlənilir. məs. qəşəng-qeşeh-qẽşex, benzin-bẽzin, deyiş, beyiş, beşix və. s.

ũ. Bu səs söz kökündə və mənsubiyyət şəkilçisinin II şəxs təkində (təsirlik halda) xəbərlik çəkilçisinin IIş cəmində ŋ səsinin meydandan çıxması nəticəsində yaranır, məs.: boynuu, öyuu, eşiyuu, özuu, ütuu, kömüruu, ilxuu, qonşuuz, ğözuuz, və s. (Qax, Bal., Şə.).

Burunda tələffüz olunan uzun u səsi aşağıdakı formada özünü biruzə veir.

a) II şəxs təkində(yiyəlik və təsirsik) cəmində isə bütün hallarda mənsubiyyət şəkilçilərində məs. burn**ũ**,oğl**ũ,** sür**ũ,** duz**ũ**, göz**ũ,** yer**ũ**, xoruz**ũ** və s.

b) II şəxs cəm xəbərlik şəkilşilərində kürümüsuz, görmüsuz, oxuduz, alcasuz, gələsuz, oturmusuz, üzduz, çüccüsuz, özuz və s. (Şimal qrupu bütün rayonlarında bu forma müşahidə olunur).

c) Sonu u səsi ilə bitən sözlər ismin yiyəlik və təsirlik hallarında işləndikdə burunda uzun tələffüz olunur. məs.: quzu-, bunun-bu, (Şə., Qış., Zun.).

Burunda uzun tələffüz olunan uzun ü səsinə də aşağıdakı hallarda rast gəlinir.

a) III şəxs təkin mənsubiyyətində sözlər yiyəlik və təsirlik hallarında işləndikdə. məs. üzü, düzü, üstü və s. (Bütün Şimal qrupu dialektlərində işlədilir).

b) Sonu ü səsi ilə bitən isimlər yiyəlik və təsirlik hallarında işləndikdə. güzgü, güzgünün, güzgünü, ütü, ütünün, ütünü. sürü, sürünün, sürünü və s.

Söz kökündə yalniz *mümkün* sözündə *müükün* formasına rast gəlinib.

ö - Burunda uzun tələffüz olunan ö səsi aşağıdakı formada uzana bilir. Sonu n ilə bitən təkhecalı feillər nəqli keçmiş zamanın III şəxs təkində işləndikdə meydana çıxır. Məs.: *sõ:tdi-sönütdi, dönmək-dõ:tdü, və s*.

ĩ- Şimal qrupu dilektlərində işlənən uzun və ya qisa burun saitindən başqa bu dialektlərdə adi i səsinin nisbətən bir qədər öndə tələffüz edilən i səsi də vardır. bu da Şəkinin Baş Gədik, Oravan, Budeyiz kəndlərində kim//gĩm sözündə təsadüf olundu. Buna həmçinin Quba dialektində də rast gəlinir [1.13-18.].Bu hala qıpçaq qrupu türk dillərinin əksəriyyətində də geniş şəkildə rast gəlinir.Bunu eyni zamanda yuxarıdakı misallarda da əyani şəkildə gördük.

Ədəbiyyat:

1. İslamov M.Azərbaycan dilinin Nuxa dialekti, Bakı,1968, 273 s.
2. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Bakı, "Şərq-Qərb", 2008, 416 s.

Türk dilində.

3. Çağdaş türk yazı dilləri . III.Kuzeybatı/ Kıpçaq qrupu.AKÇAĞ.590 s.

Rus dilində.

4. Ашмарин . Общий обзор народных тюркских говоров гор. Нуха. Баку, 1926, с 73. с 180
5. Акбайев Ш. Х. Фонетика диалектов казачьего-балкарский языка. Черкесск, 1963.
6. Гаджиева Н.З. Тюркзычные ареалы Кавказа, М. Наука, 1979.

К. Самедова

Гласные на северо-западнах диалектах и акцентах огузской группы тюркских языках азербайджанского языка и их варианты интеграции на кыпчаком языке

Резюме

В статье описаны короткие и носовые гласные в диалектов северо-западной группы огузской группы тюркских языков. Их группа сравнивается с турецкой Кыпчакской. Это все еще широко замечено в большинстве тюркских языков. Если мы рассмотрим азербайджанских

языковых диалектов в огузской группе, мы увидим, что гласные отличаются с количеством, и на наших диалектах мы можем увидеть их длинные и короткие версии. В дополнение к длинным гласным на северо-западном диалектах и акцентах, также встречаются носовые гласные. Если мы обратим внимание на систему группы огузкых языках, мы увидим, что некоторые из этих языков имеют девять гласных, а в некоторых восемь гласных, и в их составе есть некоторые отличительные особенности. На татарском языке девять гласных. Это: "a, e, ı, i, ı, o,ö,u,ü". Из этих гласных слов "a, ı, i, u, ü" звучат как огузской группы. Но гласные "o" и "ö" в татарском языке узкие и короткие, в отличие от огузской группы.

K.Samedova

Vowels in the north-western dialects and accents of the Oghuz group of Turkic languages of the Azerbaijani language and their variants of integration in the Kıpchak language

Summary

The article describes short and nasal vowels in dialects of the north-western group of the Oghuz group of Turkic languages. Their group is compared with the Turkic Kipchak language. It is still widely observed in most Turkic languages. If we consider the Azerbaijani language dialects in the Oghuz group, we can see that vowels differ with the number, and in our dialects we can see their long and short versions. In addition to long vowels in north-western dialects and accents, nasal vowels are also found. If we pay attention to the system of a group of Oghuz languages, we will see that some of these languages have nine vowels and some eight vowels, and their composition has some distinctive features. There are nine vowels in the Tatar language. These are: "a, e, ı, i, ı, o, ö, u, ü". From these vowel words "a, ı, i, u, ü" sound like the Oghuz group. But the vowels "o" and "ö" in the Tatar language are narrow and short, unlike the Oghuz group.

Rəyçi: Mahirə Hüseynova
Filologiya elmləri doktoru, professor

YEGANƏ ORUCOVA
ADU
filologiya üzrə fəlsəfə doktoru, dosent
orucova-yeqana@rambler.ru

SİYASI KOMMUNİKASİYA İRONIYA PRIZMASINDAN (FRANSIZ DİLININ MATERIALLARI ƏSASINDA)

Açar sözlər: *siyasi diskurs, ironiya, kommunikasiya*
Ключевые слова: *политический дискурс, ирония, коммуникация*
Key words: *political discourse, irony, communication*

Məlum olduğu kimi, siyasət cəmiyyətin həyatında aparıcı yerlərdən birini tutur, dövlətin beynəlxalq arenadakı yeri isə müəyyən dərəcədə rəhbərliyin siyasi mövqeyindən, ölkənin digər dövlətlərlə qarşılıqlı münasibətlərindən asılıdır. Siyasi xadimlərin hər bir sözü, dövlət liderlərinin çıxışları ölkənin imicinin təyin olunmasında vacib rol oynayır.

Siyasi diskurs hər bir insanın müasir həyatında vacib dil hadisəsidir. Siyasi xadimlərin təşviqat yönümlü çıxışları nəinki seçkiqabağı kompaniya dövründə, eləcə də gündəlik həyatda meydana çıxır. Məhz siyasətçinin natiqlik qabiliyyəti əsas məqsədə – hakimiyyətin əldə olunmasına nail olmaqda başlıca rol oynayır. Fikrimizcə, rəsmi nitqin (namizədin tezis şəklində təqdim olunan proqramının) ekspressivlik, emosionallıq və obrazlılıqla təmin olunması vacib manipulyasiya strategiyalarından biridir.

Siyasi diskurs mürəkkəb tədqiqat obyektidir, çünki o, politologiya, sosial psixologiya, linqvistika kimi müxtəlif fənlərin kəsişməsində yerləşərək, müəyyən ("siyasi") vəziyyətlərdə istifadə olunan diskursun formasının, vəzifələrinin, məzmununun təhlili ilə əlaqədardır [14, 111].

Siyasi diskurs seçkiqabağı kompaniyanın keçirilməsi zamanı vacib rol oynayır. Siyasi diskurs özünəməxsus vektor kimi çıxış edərək, elektoratın davranış reaksiyalarını və seçkilərdə uğur gətirə bilən, elektorat tərəfindən verilmiş vahid düzgün istiqaməti vəhdət şəklində birləşdirir.

Dövlət siyasət vektorunda hərəkətverici qüvvə kimi çıxış edən siyasi diskurs dəfələrlə müasir linqvistika tədqiqatının obyekti olmuşdur. Siyasi diskursun aktual məsələləri bu və ya digər dərəcədə müxtəlif ölkələrin dilçilərinin elmi əsərlərində təhlil edilmişdir. Diskurs nəzəriyyəsi və mətn linqvistikası (B.İsmayılov, A.Q. Baranov, V.V. Boqdanov, R.Vodak, B.M. Qasparov, T.van Deyk, V.Dikman, V.İ. Karasik, M.L. Makarov, P.Serio, V. Xolli), koqnitiv linqvistika (A.Məmmədov, S.Abdullayev, Ə.Abdullayev, F.Veysəlli, A.N.Baranov, V.V.Krasnıx, Y.S.Kubryakova, C.Lakoff, Ç.Fillmor), sosioloji linqvistika (L.P.Krısin, N.B.Meçkovska), linqvokulturologiya

(Y.M.Vereşaqin, V.İ.Jelvis, V.Q. Kostomarov, N.A.Kupina, Y.A.Sorokin) və digər sahələr milli və xarici alimlərin müasir elmi işlərində yer almışdır.

Nəzəri və praktik xarakterli məsələlərin həlli prosesində xeyli sayda xüsusi tədqiqatların və müəyyən nailiyyətlərin mövcud olmasına baxmayaraq, siyasi diskursun bir çox aspektləri hələ də müzakirə olunmaqdadır.

Son illərdə cəmiyyətdə baş verən dərin sosial dəyişikliklər dilin inkişaf proseslərini sürətləndirmiş, bütün dil səviyyələrində və ilk növbədə, dilin leksik sistemində, onun xarici və daxili aspektlərində müəyyən dəyişikliklərə gətirib çıxarmışdır. XXI əsrin əvvəllərinə təsadüf edən Fransanın siyasi diskursu fikri parlaq şəkildə ifadə etmək, əsas müddəaları ayırd etmək, danışanın emosional durumunu açmaq və dinləyicilərin diqqətini çıxışın mövzusuna yönəltmək kimi imkanlar təqdim edən üslubi troplardan və fiqurlardan geniş istifadə olunması ilə fərqlənir.

Siyasətçilərin dil nümayişinin (prezentasiyasının) orijinallığı siyasətçinin peşəkar fəaliyyəti prosesində təşəkkül tapan ünsiyyət məqsədlərindən və şərtlərindən, praqmatik mexanizmlərdən asılı olaraq leksik-frazeoloji vahidlərin seçimindən və təşkilindən ibarətdir. Siyasətçilər öz siyasi diskurslarında yalnız bir ictimai təşkilatın nümayəndəsi kimi deyil, həm də özünə məxsus dil individuallığı ilə çıxış edir və müəyyən hadisələrə münasibətini bildirməklə özünün şəxsi interpretasiyasını təklif edir. Leksik və praqmatik xarakterli sosial amillərin təsiri altında bu və ya digər dil işarələrinin denotativ və konnotativ mənalarının variativliyi, sözlərin assosiativ əlaqələri, ifadələrin modallığı kimi dil xarakteristikaları siyasətçilər tərəfindən məqsədyönlü şəkildə istifadə olunur.

Siyasi diskursun məqsədləri və funksiyaları diqqəti cəlb edən və müəyyən təsir göstərən parlaq dil obrazlarının, sözlərinin və ifadələrinin istifadə olunmasını tələb edir.

Bu tədqiqatın məqsədi son dövrlərdə fransızdilli siyasi diskurslarda işlənən ironiyaları dil kateqoriyası kimi təhlil etməkdən ibarətdir. Siyasi diskurs mətnlərində ironiyanın dil kateqoriyası kimi təhlili müasir dilçilikdə xüsusi əhəmiyyət kəsb edir. Müasir dövrdə ironiyanı fəlsəfə ilə linqvistikanın qovuşuğunda nəinki stilistik fiqur, eləcə də, "dövrümüzün ümumi tendensiyası kimi hiss olunmadan meydana çıxmış təfəkkür üsulu" kimi nəzərdən keçirilməsi aktualdır [5].

Siyasi kommunikasiyada ironiyanın istifadəsinin əsas xüsusiyyəti açıq-aydın şəkildə bu və ya digər siyasi fiquru və onun fəaliyyətini danışıq və peyorativ leksikadan planlaşdırılmış şəkildə adresatın gözündə alçaltmaq, yaxud da trop və stilistik vasitələrdən istifadə etməklə gizlin şəkildə (açıq-aydın deyil) tənqid etməkdən ibarətdir.

İroniya dilşünaslar tərəfindən sözün hərfi mənasının əksi olaraq, sözün və ya bütöv bir mətnin mənada işlədilməsi kimi təyin olunur [8]. İroniya fəlsəfi anlamda real – ideal [2], həqiqi – mümkün kimi halların qarşıdurmasıdır [10]. İroniya kinayəliliyin müxtəlifliyi, müsbət bir xarakter şəklində hazırlanmış bir istehza kimi başa düşülməlidir [8]

Patrik Şarodo yumor haqqında olan yazılarında ironiya ilə sarkazm arasında fərqi ayırmağı təklif edir: "İroniya aktı deyilən və düşünülən arasında ziddiyət yaradır, məsələn klassik nümunədə, öz işində uğursuzluğa uğramış bir insana ünvanlanmış "Belle réussite !"(Gözəl uğur!) ifadəsini buna misal göstərmək olar. Sarkazm isə əksinə deyilənlə düşüncə arasında ziddiyət yaratmır, əksinə danışanın düşüncəsində olandan daha çox şişirdilmiş bir fikir ifadə edlir, deyilməyəcəklər deyilir və bununla da həmsöhbət pis vəziyyətə salınır [3].

Ironiya ilə yumor arasında əlaqə isə hələ də naməlum olaraq qalır. Roberts və Kreuz (1994) ironiyanın istifadə səbəbini araşdırmaq məqsədilə 158 tələbə arasında bir sorğu keçirmişlər. Onlardan çoxu (0,94) ironiyanı "neqativ emosiyanı göstərmək", digərləri (0,65) "yumor nümayiş etdirmək" istəyi ilə istifadə olunduğunu söyləmişlər. Bununla belə Gibbs (2000) dostları arasında apardığı söhbət əsnasında üç məqsədi ayırd edir: tənqid etmək (*criticism*), ələ salmaq (*mockery*), yumor nümayiş etdirmək (*humor*).

Bu sorğuların nəticəsindən belə qənaətə gəlmək olar ki, ironiya yumor nümayiş etdirmək məqsədilə istifadə olunmur. İroniya yumoristik təsir yaradır və yumor ironiyanın yaranmasında və interpretasiyasında zəruri şərtlərdən biri hesab olunur [6, 50-65].

İroniya xüsusi ritorik figurlardan və qismən gülməli səhnələrdən ibarət olan kritik və neqativ argumentasiya formasıdır. İronik argumentdə bu elementlər özünəməxsus inandırıcı təsir yaradır.

Fransız dilində siyasətçilər tərəfindən ən çox istifadə olunan ironik prosedurların yaradıcı formaları müqayisə, metafora, metonimiya, təcəssüm, hiperbola, litota, okkazionalizm, transformasiya olunmuş frazeoloji ifadələr, ardıcıl arqumentləri sadalama, kinayə, sarkazm, istehza və s.-dir. Məsələn, növbəti nümunədə N.Sarkozi tərəfindən təşkil olunmuş nümayiş sirklə müqayisə olunur:

Au cirque de Villepinte (Libération)

Jurnalist bu ifadə ilə Sarkozi nümayişinin sirk kimi auditoriyanı əyləndirmək məqsədini daşıdığını və ciddi olmadığını vurğulamağa çalışır.

Bununla yanaşı ironiya yaratma texnikasının (üsulunun) mürəkkəbliyini də qeyd etmək lazımdır. İroniya hər zaman sətirlər arasında oxunan, bütün mətn boyu kifayət qədər hiss oluna (yayıla) bilən linqvistik kateqoriyadır. Əgər oxucu/dinləyici müəllif tərəfindən təqdim olunmuş mənanın başa

düşülməsi üçün zəruri erudisiyaya və əsas biliklərə malik deyildirsə, o zaman ironiya oxucu/dinləyici tərəfindən hiss olunmaya da bilər.

Bundan başqa, qeyd etmək lazımdır ki, ironiya yumor kimi, universal kateqoriya deyil və hər zaman bir mədəniyyətdən digərinə köçürülə bilməz, iki mədəniyətin nümayəndələri tərəfindən adekvat qaydada qəbul oluna bilməz. T.Kazakov ironiyanın digər dil daşıyıcılarına ötürülməsinin müxtəlif yollarını qeyd edir. Ənənəvi olaraq ironiyanın digər dil daşıyıcılarına ötürülməsinin bir neçə üsulları mövcuddur: cüzi leksik və ya qrammatik dəyişikliklərlə yerinə yetirilən tərcümə, ironiyalı ifadənin ilkin mənasının genişlənməsi, antonimik tərcümə, məna komponentlərinin əlavə olunması və mədəni-situativ əvəzləmə, tərcümənin şərhi [9]. Lakin bütün bunlara baxmayaraq, bəzi müəlliflər hər bir halda ironiyanın tərcümə olunmasına "fərdi qaydada yanaşma" zərurətinə işarə edir [11].

Azərbaycan və fransız dilləri morfoloji baxımdan əhəmiyyətli şəkildə fərqləndiyi üçün məqalədə təqdim olunan nümunələrin Azərbaycan dilinə tərcüməsində biz də eyni çətinliklərlə rastlaşdıq. Bu fərqlər ilk növbədə, qrammatik kateqroyaların mövcudluğuna və yoxluğuna (məsələn, fransız dilində müəyyənlik/qeyri-müəyyənlik kateqoriyası) aiddir. Buna görə də, morfoloji baxımdan ifadə olunmuş ironiyanin ötürülməsi bəzən bizim üçün çətinlik yaradır. Məsələn, siyasi liderlərə qarşı münasibətdə fransız siyasi media-diskursunda familyarlıq tendensiyasını müşahidə etmək mümkündür. Belə ki, məsələn fransız dilində xüsusi adların müəyyən artikllə (məsələn, le Vlad) istifadə olunması ironiyanın morfoloi səviyyədə yaradılmasının əsas vasitəsidir [7]. Xüsusi ismin (adın) artikllə işlədilməsi, eləcə də adın ixtisara salınması müraciətə peyorativ çalar verir. Məlum olduğu kimi, Azərbaycan dilində müəyyənlik kateqoriyası mövcud deyil. Azərbaycandilli mətbuatda yüksək vəzifəli şəxslərə qarşı familyar münasibət də yoxluq təşkil edir. Belə olduğu halda tərcüməçi ironiyanın neytrallaşdırılmasına can atır və qısaldılmış adı tam vermək məcburiyyətində qalır, beləliklə adekvatlığı saxlamaq üçün ekvivalent tərcümədən istifadə etmir. Ayrı-ayrı vəziyyətlərdə hərfi tərcümə mümkün olsa da, tərcüməçi müxtəlif növ leksik transformasiyalara müraciət eməli olur və bunun da nəticəsində tərcümə olunan dildə ironiyanı tam qoruyub saxlaya bilmir. Transformasiyalar tərcümə dilinin normalarına uyğunlaşdırılır.

Qeyd etdiyimiz kimi, fransız siyasi media diskursunda ironiya məqsədilə istifadə olunan leksik ifadə vasitələrindən biri də frazeoloji vahidlərdir. Məlum olduğu kimi, frazeoloji vahidlər hərfi tərcüməyə məruz qalmır, buna görə də, tərcüməçi müxtəlif üsullara müraciət edir. Bu halda tərcüməçi sabit ifadənin ötürülməsi üçün oxşar uyğunluq taparaq, məna inkişafı üsulundan istifadə edir və bu, tərcümə dilində ironiyanı qoruyub saxlamağa imkan verir. Frazeoloji vahidlərdən fərqli olaraq, parafraz

tərcümə dilinin qaydalarına tabe olaraq qrammatik və / və ya leksik transformasiyaların tətbiqi ilə tərcüməçi tərəfindən bütünlüklə ötürülür. Tərcüməçi orijinal dilin normalarına müvafiq olaraq ifadələrin adekvat qaydada strukturlaşdırılması məqsədilə qrammatik transformasiyalara müraciət edir. Bəzi hallarda, məsələn siyasi liderlərə ünvanlanan peyorativ konnotasiyadan, mədəni əhəmiyyətli informasiyadan ibarət olan ironiya tərcümə dilində verilmir. Bu cür ironiyalar neytrallaşdırılır, əksər hallarda tərcüməçi tərəfindən buraxılır və bu da tərcümə dilində funksional-semantik boşluqların yaranmasına gətirib çıxarır.

Fransız siyasi diskursda ironiyanın tərəfimizdən tədqiq olunması göstərmişdir ki, ironiya bütün dil səviyyələrində ifadə oluna bilər. Bununla əlaqədar olaraq, siyasi diskurs çərçivələri daxilində informasiyanın ötürülməsi üsulu, onun linqvistik təqdimatı böyük əhəmiyyət kəsb edir. Müəlliflər əksər hallarda gizlin kontekst yaratmağa imkan verən üsullara müraciət edirlər. Siyasi diskurs mətnlərinin bu şəkildə qurulan semantik müxtəlifliyi onları daha mürəkkəb edir. Buna görə, bu kimi mətnləri başa düşmək üçün oxucu mətnlərdə istifadə olunan ifadələrin eksplisit və implisit mənalarını nəzərdən keçirmək bacarığına malik olmalıdır.

Fransada prezident seçkiləri (2012-ci ildə) ərəfəsində siyasətçilərin (N.Sarkozi və F.Ollandın) debatlarının təhlili namizədlərin kommunikasiya zamanı ironiya və sarkazm işlətməkdən çəkinmədiklərini üzə çıxartdı. N.Sarkozi rəqibinə zərbə vurmağa çalışan bir döyüşçü kimi zarafat etməyə çalışaraq, iqtisadiyyatla bağlı söhbətdə F.Ollandın təkliflərini ironiya ilə qarşılayır:

Nicolas Sarkozy : Un mot sur vos propositions. Vous allez *créer* une banque publique. *Formidable*, elle existe déjà. La banque publique d'industrie, filiale d'Oséo, existe déjà. Voilà une promesse, monsieur Hollande, si vous êtes élu, que vous n'aurez pas de mal à tenir puisque je l'ai déjà faite. (Sizin təkliflərinzlə bağlı bir söz. Siz ictimai bir bank *yaradacaqsınız*. *Çox gözəl*, o artıq mövcuddur. İctimai sənaye bankı, Ozeonun filialı, artıq mövcuddur. Bu bir vəddir, cənab Olland, siz seçilsəniz sizin probleminiz olmayacaq, çünki mən onu artıq yaratdım.)

F.Olland Avropa müqaviləsini yenidən müzakirə etməyi təklif etdikdə, N.Sarkozi ona qarşı sarkazm göstərir:

Nicolas Sarkozy : Alors, sur le traité, mais Monsieur Hollande, pardon, invente *le fil à couper le beurre*. Il veut une taxe sur les transactions financières. Je l'ai fait voter. (Deməli, müqavilə ilə bağlı, cənab Olland, üzr istəyirəm, *yağı kəsmək üçün ip* icad edir. Maliyyə əməliyyatları üçün vergi istəyir. Mən bunu səsə qoydum.)

N.Sarkozinin söylədiyi bu cümlələr təhqir doğuran bir vəziyyət yaradır. N.Sarkozi bu məşhur ifadədən (*le fil à couper le beurre*) istifadə

etməklə F.Ollandı təhqir edir. Bu ifadə özlərini ağıllı və güclü hesab edən, amma nəticədə ağılsız olan, sehrbazlığı öyrənənlər üçün istifadə olunan bir ifadədir.

F.Olland N.Sarkozinin dəfələrlə təklif etdiyini beş ildə edə bilmədiyini irad tutmaqla, onun nəticələrini tənqid edir. Buna cavab olaraq:

Nicolas Sarkozy : Enfin, dernier point, vous me faites une critique en disant : «Oh là là, qu'est-ce que vous avez tardé à résoudre la crise de l'euro ! ». Vous croyez que ça a été facile, Monsieur Hollande? Vous croyez qu'il suffit d'arriver *avec son petit costume en disant : « Mettez-vous tous d'accord* ». (Nəhayət, son nöqtə, siz mənə "Oy, oy, oy, avro böhranını həll etmək üçün nə qədər ləngidin" söyləyərək tənqid edirsiniz:" Siz düşünürsünüz ki, bu asan oldu, Cənab Olland? Siz düşünürsünüz ki, *özünün kiçik kostyumu ilə gəlib demək* kifayətdir: "*Siz hamınız razısınız*".

Buradakı ittihamlar güclü və hörmətsiz səslənir. «petit costume » (balaca kostyum) Jak Brelin mahnısını xatıladır. Bu kiçik burjuaları təsvir edən insanlar, özlərini vacib insan hesab edənlər, əslində bacarıqsız, sarkazm modelidirlər. Burada N.Sarkozi müqayisə aparmaqla öz rəqibini alçaldır, onun sadəlövhlüyünü istehza etməklə ələ salır.

F.Hollandın söylədiyi « Moi, président de la République, …» uzun anaforik monoloqundan sonra, Nicola Sarkozi rəqibinin sözlərinə etriaz edir:

Nicolas Sarkozy : *Vous venez de nous faire un beau discours, on en avait la larme à l'œil*, mais c'est le même François Hollande qui quand *il s'enflamme en mimant François Mitterrand* dans les meetings dit : « Je ne garderai aucun des magistrats, aucun des policiers, aucun des préfets… » (Siz bizə gözəl nitq söylədiniz, bizim gözlərimiz yaşardı, lakin bu, mitinqlərdə F.Mitteranı təqlid edərək alovlanan həmin F.Ollanddır: "Mən heç bir magistratı, heç bir polisi, heç bir prefekti saxlamayacağam...)

N.Sarkozinin bu replikasının birinci hissəsi ironikdir, çünki N.Sarkozinin həqiqətən gözünün yaşardığını düşünmək mümkün deyil. Bu duyğuyu təhrik edə bilən müsbət qiymətləndirmənin altında, namizəd rəqibinin möhtəşəmliyini ələ salmaq istəyir. O, monoloqunu qısaldaraq, diqqətli olmağa çalışır. Ikinci hissədə isə gözəl nitqə malik olan F.Mitteranı müəllimini təqlid etdiyi üçün onun şəxsiyyətinin olmadığını söyləməklə onu ələ salır.

Yuxarıda N.Sarkozinin F.Ollanda verdiyi vədi yerinə yetirməkdə gecikdiyi ilə bağlı iradlarını gördük. Növbəti nümunədə isə F.Ollandın ironiya üsulu ilə eyni iradla N.Sarkoziyə hücum etdiyini müşahidə etmək mümkündür.

François Hollande: Et, enfin, vous nous dites « formation ». On est tous d'accord sur la formation. Seulement 10 % des demandeurs d'emploi dans notre pays, et vous êtes président de la République, se voient proposer

une formation. Vous nous dites : « maintenant je vais leur proposer… ». Mais il est! Qu'avez-vous fait depuis cinq ans pour les laisser sans formation et sans qualification ? (Nəhayət, siz bizə "təkmilləşmə" deyirsiniz. Bizim hamımız bununla razıyıq. Bizim ölkədə iş üçün müraciət edənlərin yalnız 10 % -i özünü təlim üçün təklifdə görürlər. Siz bizə deyirsiniz : "mən onlara təklif edəcəm..." Beş ildə onları təlimsiz, ixtisassız qoymaq üçün nə etdiniz?)

F.Olland burada klassik ironiya üsulundan istifadə edərək rəqibin təkliflərini etibardan salmaq məqsədilə öz fikrini örtülü bildirməklə "artıq gecdir" demək istəyir.

F.Olland N.Sarkozinin müəllimlərin statusu ilə əlaqədar söylədikləri təkliflərlə bağlı qeyd edir:

François Hollande : Ensuite, sur ce que vous proposez aux enseignants, vous leur dites : « Je vais vous demander de travailler 50 % de plus, non plus 18 heures, mais 26 heures, et je vais vous payer 25 % de plus, et ce sera sur le volontariat ». *Est-ce que vous connaissez beaucoup de personnel qui accepterait de travailler 50 % de plus en étant payé 25 % de plus ? Si vous en trouvez, vous me le signalerez*. (Daha sonra, müəllimlərə təklif etdiyinizlə bağlı, siz deyirsiniz: "Mən sizdən 50 % artıq işləməyinizi xahiş edəcəm, 18 saat yox, lakin 26 saat və mən sizə 25 % daha çox pul verəcəm və bu da könüllü olacaq". Siz 50% çox işləyib, 25% daha çox ödənilən təklifi qəbul edəcək insanları tanıyırsınızmı? Əgər tapsanız, mənə bildirin.)

Şübhəsiz ki, bu sualda ironiya var. F.Olland həmsöhbətinə sual verməklə, onun cavabı bilməməyi haqqında şübhə yaradır. Üstəlik mübahisəli sual həmsöhbətin sözlərinin absurd olduğunu daha da vurğulayır.

Beləliklə, siyasi diskursda ironiya yalnız ifadəni birbaşa ünvana çatdırmaq məqsədini daşımır, onun rolu auditoriyaya dolayı yolla təsir etməkdən ibarətdir. Ironiyanın istifadəsi danışanın nitqini daha parlaq, ifadəli, obrazlı edir və sözlərin təsirini daha da artırır. Siyasi diskursda ironiya mövcud sosial dəyərlər barədə implisit şəkildə fikir ifadə etmək imkanı yaradır, rəqibə qarşı mənfi münasibət nümayiş etdirir.

Tədqiqat materialının təhlili göstərdi ki, namizədlər ironiyadan daha çox, qeyri-kəskin siyasi məsələlərdən danışdıqda istifadə edirlər. Onlar, yalnız sosial institutun nümayəndələri kimi deyil, həm də dil individuallığına malik olan şəxsiyyət kimi çıxış edir.

İstifadə olunmuş ədəbiyyat:

1. Abdullayev S. Qeyri-səlis dilçilik təcrübəsi. Bakı, 2013.
2. Bergson H. Le rire. Essai sur la signification du comique. Chicoutimi, 2002.

3. Charaudeau P. «Des catégories pour l'humour ?», Questions de communication, 2006, 10, p. 19-41.
4. Məmmədov A., Məmmədov M. Diskurs təhlilinin koqnitiv perspektivləri, Çaşıoğlu nəşr., Bakı, 2010.
5. Muecke D. C. Irony and the Ironic. N. Y., 1982.
6. Nishiwaki, Saori. Ironie et humour: analyse des exemples journalistiques. Cahier d`études françaises Université Keio. Vol.17, 2012, p. 50-65.
7. Zeter G. Poutine et ses «Nachi» + qu'une Histoire d'Amour. URL: http://www.agoravox.fr/tribunelibre/article/poutine-et-ses-nachi-qu-une-123087//
8. Ахманова О.С. Словарь лингвистических терминов. М.: Советская энциклопедия, 1966.
9. Казакова Т. А. Практические аспекты перевода. СПб.: Союз, 2001.
10. Кьеркегор С. О понятии иронии // Логос. 1993. № 4. С. 176-198.
11. Маточкина А. М. Ирония как единица перевода. URL: http://info.krippotavrida.pp.ua/fl/fl2010/ t2/Matochkina.pdf
12. Скороходова Е.Ю. Ирония в современном медийном тексте. URL: http://www.rusnauka.com/ 26_NII_2011/Philologia/7_92393.doc.htm
13. Фяхряддин В. Семиотика. Studia Philologica. IV. Бакы: Мцтяръим, 2010.
14. Шейгал Е.И. Семиотика политического дискурса*:* Волгоград, 2000.

Э,Оруджова

Политическая коммуникация с призмы иронии (на материале французского языка)

Резюме

В представленной статье политический дискурс проанализирован с иронической призмы. Анализ иронии как языковой категории в текстах политического дискурса имеет особое значение в современной лингвистике.

Прежде чем проанализировать иронию как языковую категорию, используемую во франкоязычном политическом дискурсе, были рассмотрены определения иронии данные разными лингвистами, а также определены различия между иронией, юмором, сарказмом и различные способы передачи иронии другими носителями языка

(перевод с небольшими лексическими либо грамматическими изменениями, расширение первоначального смысла иронического выражения, антонимический перевод, добавление смысловых компонентов и культурно-ситуационное замещение, интерпретация перевода). В результате был сделан вывод о том, что в политическом дискурсе ирония не предназначена только для передачи выражения непосредственно адресату, а его роль заключается в косвенном влиянии на аудиторию. Использование иронии делает речь говорящего более яркой, выразительной, образной и увеличивает влияние слов. Ирония в политическом дискурсе предоставляет возможность имплицитному выражению идей о существующих социальных ценностях и проявлению негативного отношения к противнику.

Анализ материала исследования (дебаты между Н.Саркози и Ф.Олландом накануне предвыборной кампании во Франции в 2012 году) показал, что кандидаты используют иронию чаще всего при обсуждении политически не острых вопросов. Они выступают не только как представители социального института, но и как личности с языковой индивидуальностью.

Y.Orujova

Political communication from the ironic prism (based on the French language materials)

Summary

In the article, political discourse has been analyzed from ironic prism. Analysis of the irony as a language category in political discourse texts is of particular importance in modern linguistics.

Before analyzing the irony as a language category used in French political discourse, the definitions of irony given by different linguists were studied, also the differences between irony, humor, sarcasm, and different ways of transmitting irony by other language bearers were identified (a translation with little lexical or grammatical change, expansion of the original meaning of the ironic expression, antonymic translation, addition of meaning components and cultural-situational substitution, interpretation of the translation).

As the result, it was concluded that in the political discourse irony is not only intended to convey the phrase to the recipient, but its role is to influence the audience indirectly. The use of irony makes the speaker's

speech more vivid, expressive, figurative, and makes the influence of words more powerful. Irony in political discourse gives an opportunity to express ideas about the existing social values implicitly, and to show a negative attitude towards the opponent.

Analysis of the research material (debates between N.Sarkozy and F.Holland on the eve of the pre-election campaign in France in 2012) showed that candidates are more likely to use irony to talk about mild political issues. They act not only as representatives of social institution, but as individuals with the language individuality.

Rəyçi: Nərgiz Seyidova
Filologiya üzrə fəlsəfə doktoru

РАФИГА РУСТАМОВА
Доктор философии по филологии, доцент
Бакинский славянский университет
rafiqa@mail.ru

О НЕКОТОРЫХ ОСОБЕННОСТЯХ ОНОМАТОПЕИ

Ключевые слова: естественный язык, звукоподражательные слова, ономатоп, обобщенные слова, отпугивающие слова.
Açar sözlər: təbii dil, onomatopik sözlər, onomatop, ümumi sözlər, qorxudan sözlər.
Key words: natural language, onomatopoeic words, onomatop, generalized words, scare words.

В словарном составе каждого естественного языка есть класс слов, которые принято называть звукоподражательными. Этот термин можно отнести как к словам, целиком передающим определенный язык (мяу), так и к словам, имеющим только звукоподражательный корень (мяукать). Звукоподражательными могут быть разные части речи: существительное, глагол, наречие и др. (1, 584). Задачей настоящей работы является показать особенности группы звукоподражательных слов, состоящих из одной основы и обозначающих крики животных, и птиц. Эту группу в дальнейшем мы будем называть ономатопом (2, 288). Под ономатопом мы понимаем звуковой комплекс того или иного естественного языка, передаваемый на письме буквами алфавита данного языка и стремящийся отобразить в рамках фонетических возможностей конкретной языковой системы характерный крик животного или птицы, воспринимаемый носителями языка как знак, присущий определенному виду живых существ.

В традиционном языкознании, а также в школьной грамматике, ономатопея включается в разряд междометий, которые характеризуются, как известно, логическо-грамматической неоформленностью. Нам представляется возможным разделить традиционно сложившийся, но довольно разнородный по своему составу класс междометий на два подкласса. К первому (I) мы отнесем «живой и богатый пласт чисто субъективных речевых знаков, именно знаков, служащих для выражения эмоционально-волевых реакций субъекта на действительность, как непосредственного выражения переживаний, ощущений, аффектов, волевых изъявлений» (3, 586). Сюда войдут такие слова, как: *ура,*

господи, боже мой, черт возьми и т.п., которые всегда считались ядром категории междометия.

Во второй подкласс (II) мы поместили слова, состоящие только из звукоподражательного корня и передающие звук, источником которого может быть человек, животное или птица, неживая природа. Это слова типа: кряк, ко-ко, мяу, апчхи, трах, шмяк, плюх и т.п. Необходимо, однако, отметить, что объединение I и II подклассов в рамках одной категории, как это представлено в рамках традиционной классификации, вряд ли можно признать правильным. Тем более что Л.В.Щерба в своей классической работе «О частях речи в русском языке» подчеркивает: «… само собой разумеется, что так называемые звукоподражательные слова мяу-мяу, вау-вау и т.п. нет никаких оснований относить к междометиям» (4, 67).

В настоящей работе рассматриваются в основном слова подкласса II. Поскольку данный подкласс отличается неоднородностью, мы предлагаем его квалификацию, основанную на семантическом признаке отношения к обозначаемому предмету, выделять в следующие группы A, B, C.

Таким образом, получилась такая классификация A (1) – собственно ономатопея: *кукареку, гав, мяу, иа, ку-ку* и т.п. Эти слова целиком отвечают определению, данному в начале работы. Ономатопы известны и понятны всем носителям языка, за каждым видом животного или птица закреплен конкретный, только ему присущий ономатоп. A (2) – ономатопея «обобщенного» звукоподражания: *пи-пи, чик-чирик, чив-чив.* Ономатопы этой группы закреплены за определенными рядом живых существ: пи-пи, чик-чирик можно отнести к любой мелкой птичке.

A (3) – подзывные или отпугивающие слова, образованные от ономатопеи группы A (1): *тю-тю, ко-ко* – подзывные слова для куриц, *киш* – отпугивающее слово; *кис-кис, уть-уть-утка; кыш, фу* – отпугивающие слова.

К группе B мы отнесли слова, передающие звуки, издаваемые неживой природой: *бряк, шмяк, бах, хлюп, трах.*

В группу C мы включили слова, передающие рефлекторные звуки человека: *ох, ой, ах, апчхи, кхе-кхе, фр* и др.

Последующая разбивка групп B и C на подгруппы не проводится, т.к. нашей основной целью является показать особенности ономатопеи. Постараемся выделить характерные признаки ономатопеи путем сравнения ее с остальными выделенными нами группами, проследим за некоторыми свойствами ономатопеи в отношении ее фонетический, структурных и, главное, семантических особенностей.

Известно, что фонетическим свойством русской ономатопеи, является так называемая «фонетическая аномалия». «Звукоподражательные слова тяготеют к аномалии и, как правило, содержат в своем составе или какой-нибудь непривычный звук, или необычную группу звуков» - писал В.Скаличка (5, 286).

В русских ономатопах мы встречаем уникальные звукосочетания: *кудкуда, кукареку, и-го-го, муу, мээ* и др. особенности их произношения, как правило, не отражаются на письме, т.к. в русском алфавите нет соответствующих букв для передачи долгих гласных. Если долгота последнего звука приобретает особенно важное значение, то слова с подобными звуками записываются следующим образом: *кукареку-у-у-у, кооо, пи-пиии* и т.д. Приведенные примеры необычны еще и потому, что ударение в исконных русских словах, обычно не подающее на абсолютный конец слова, выделяет в приведенных ономатопах именно последний слог. Таким образом, эти слова могут служит примерами не только фонетической, но и акцентологической аномалии. Особенно много звуков, несвойственных языку, появляется в диалектной ономатопее. Как отмечает А.П.Поцелуевский, мы находим в них (имеются в виду говоры центральных областей России), как в турецких обращениях, ряд реликтовых звуков, неупотребительных в современной русской речи: билабиальное сонорное [Р], фаукальное глухое [Х], губной прерывистый свист, переднеязычное десняное причмокивание и др. (6, 5).

Чуждые, несвойственные языку звуки не выпадают и не изменяются в ономатопее в силу того, что говорящий постоянно «сверяет» свое произношение с реальным звуком. Этот процесс может быть и не совсем осознан, однако, связи звуковой оболочки ономатопа и реального крика, как правило, не теряется. Такое утверждение может показаться некорректным, если мы сравним крики какого-нибудь животного, передаваемые средствами разных языков: русский петух кричит – *кукареку*, турецкий – *гук-гулу-гу,* итальянский – *чи-чи-ри-чи*, французский – *кокерике* или *кокелин*, и, наконец, английский – *хак-о-дадл-ду*! Но трудно ожидать идентичности отображения криков, преломленное через разное языковое сознание, в этом случае, скорее, уместно искать более общие ритмические соответствия.

Связь реального крика и слова, его воспроизводящего, особенно хорошо можно наблюдать на примерах из художественной литературы. Так в рассказе о дикой птице, приученной девочкой, В.Бианки стремился передать крик, именно этой конкретной утки, представительницы дикой природы, кроме того, писатель говорит об испуганной птице: «Анютка: *уть-уть-уть*, а Белое Зеркальце: *ваак-ваак-ваак*! – и прямо к ней» (7, 66).

В отличие от всех указанных нами групп, только ономатопею возможно «проверить по реальному звучанию», слова групп В и С не обладают такой конкретной соотнесенностью с производителем звука. По слову бах или плюх невозможно угадать, в результате какого действия (падения или удара) он был произведен. По ономатопее, кроме подгруппы А (2), всегда можно точно указать производителя действия. Для того, чтобы узнавание не вызывало никаких трудностей, в языке закрепляется по одному слову, передающему крик одного животного: собака – *гав*, кошка – *мяу*, корова – *му*, овца – *мэ* и т.д. но, если варианты ономатопов все же существуют, то они, как правило, употреблены для того, чтобы привлечь внимание к звуковому облику слова и являются авторскими неологизмами. Понятийной конкретизации при этом не происходит. Например, в рассказе Е.Чарушина «как мальчик Женя научился говорить букву Р» мы встречаемся с несколькими вариантами ономатопа *кар*, причем только эта форма является закрепленной словарями, варианты же несут стилистическую нагрузку.

«А ворона посмотрела на него, наклонила голову, прищелкнула клювом и давай разговаривать на разные лады: *карр, краа, крр, ррaа, рррa, рррa*!» (8, 12). Фонетические особенности вариантов ономатопов влекут за собой и особенности структурные: сравним варьирование ономатопеи варьированием некоторых междометий.

В восклицаниях типа: *Боже мой!, мой Боже!, Боже! Господи!* и т.д. можно изменить состав, не менял содержание. В отличие от собственно междометий, ономатопея обладает совсем другими свойствами: если мы изменим ономатоп: *спать пора – крик перепелки*, зафиксированный в словарях *на беги спать* или можно спать, то исказится изобразительность и оно в результате подобного преобразования потеряет смысл. Ономатопея, состоящая из нескольких слов, встречается, по сравнению с междометиями, сравнительно редко. Но, в отличие от последних, она цельнооформлена, т.е. может существовать только в данном практически неизменном виде.

Особая специфика ономатопов наблюдается при переходе их в другие части речи. При конверсии типа ономатоп – существительное на передний план может выступать значение предметности: Не ходи туда, там *гав-гав* тебя укусит. Подобный переход ономатопа в существительное основан на метонимии: один из признаков (способность издавать определенный звук) заменяет целое (название животное), причем этого признака оказывается вполне достаточно для правильного определения животного. Иногда значение предметности может передаваться значительно слабее: За углом послышалось *гав-гав.* Почти

от всех ономатопов и слов группы В и С можно образовать соответствующие глаголы: *гав* – гавкать, *мяу* – мяукать, *кар* – каркать, *бац* – бацать, *хлюп* – хлюпать и т.д.

Если глаголы, образованные от ономатопов, имеют значение «издавать определенный вкус», то глаголы, образованные от не – ономатопов означают «производить какое-либо действие, выполнение которого может сопровождаться специфическим звуком». Конкретное значение ономатопеи сохраняется и в значении образованного от нее глагола, причем значение ономатопеи и слов, от нее образованных, настолько определенно, что все они не допускают замены их синонимами. Напротив, слова, входящие в группу В и С и их производные, могут быть заменены другими, близкими по значении. Проделаем стилистический эксперимент: В предложениях: Мальчик *брякнул* стакан на пол и Мальчик *шмякнул* мороженое на асфальт можно заменить глаголы *брякнул* и *шмякнул* синонимами: Мальчик *бросил* стакан на пол и Мальчик *уронил* мороженое на асфальт. Замена переводит оба высказывания в нейтральный стиль, но значение их не изменяется. Возьмем два примера с глаголами, имеющими в основе ономатопею: Кошка *мяукала*. Выпь *букала* в тростнике. Эти глаголы по вышеуказанным причинам заменить синонимами невозможно.

Литература

1. Виноградов В.В. Русский язык. М., 1972, с.584.
2. Ахманова О.С. Словарь лингвистических терминов. М., 1996, с.288.
3. Щерба Л.В. о частях речи в русском языке. Избр. раб. М., 1957, с.67.
4. Скаличка В. Исследование венгерских звукоподражательных выражений. В кн.: Пражский лингвистический кружок. М., 1972, с.286.
5. Поцелуевский А.П. К вопросу о древнейшем типе звуковой речи. Ашхабад, 1976, с.5.
6. Бианки В. Собрание сочинений. Т.1, Л., 1972, с.66.
7. Чарушин Е. Про больших и маленьких. М.-Л., 1986, с.12.
8. Ожегов С.И. Словарь русского языка. М., 2000, с.830

R.Rüstəmova

Onomatopeyanın bəzi xüsusiyyətləri haqqında
Xülasə

Bu işin məqsədi hər bir təbii dilin lüğətində tapılan onomatopik sözlər qrupunun xüsusiyyətlərini göstərməkdir. Biz bir bazadan ibarət olan və heyvanların və quşların çığırtılarını nəzərdə tutan onomatopik sözləri nəzərdən keçiririk. Bu söz qrupu onomatopeya adlanır və onun sözlərinə onomatop deyilir. Bu məqalədə ənənəvi şəkildə qurulan müdaxilələr sinfini I və II alt siniflərə ayırdıq. II alt sinfə yalnız onomatofonik kökdən ibarət olan sözlər daxildir. Onlar bir heyvan və ya quş çığırtılarını, bir insan və ya cansız təbiətin səsini bildirirlər. II alt sinfin A, B, C qruplarını fərqləndiririk, çünki onlar heterogenlik ilə fərqlənirlər. Nəticə aşağıdakıdır: A qrupu xalis bir onomatopeya, yəni heyvan və quşların çığırtılarını bildirən sözlər, eləcə də çağırış və qorxudan sözlərdir. B qrupuna cansız təbiətin səslərini çatdıran sözlər daxildir. C qrupunda bir insanın refleks səslərini çatdıran sözlər daxil edilmişdir.

R.Rustamova

About some features of onomatopeus
Summary

The purpose of this work is to show the peculiarities of the group of onomatopoeic words that are found in the vocabulary of each natural language. We consider onomatopoeic words consisting of one base and denoting the cries of animals and birds. This group of words is called onomatopoeia, and words in it are called – onomatope. In this paper, we divided the traditionally established class of interjections into two subclasses I and II. In the second (II) subclass we place words consisting only of the onomatopoeic root. They transmit sound, the source of which can be an animal or a bird, a human or an inanimate nature. In subclass II, we distinguish the groups A, B, C, since the are distinguished by heterogeneity. The result is the following situation: the group A is a pure onomatopoeia, i.e. words that have the cries of animals and birds as a denotation and call sings or scare words. Group B we attributed the words that convey the sounds of inanimate nature. In group C, we included words that convey the reflex sounds of a person.

Rəyçi: Səmayə Kərimova
filologiya üzrə fəlsəfə doktoru, dosent

ÇIMNAZ MƏMMƏDOVA,
RASIMƏ ƏSGƏROVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Bakı Slavyan Universiteti
rasima@mail.ru

ƏDƏBİYYATDA ANTROPONİMLƏRİN ÜSLUBİ XÜSUSİYYƏRLƏRİ

Açar sözlər: antroponim, təzad, lüğət ehtiyatı
Ключевые слова: антропоним, контраст, словарный запас
Key words: anthroponomy, contrast, vocabulary

Hər bir bədii əsər müəllifin fikir və düşüncələrini, istək və arzularını, hiss və həyəcanlarını oxucularına çatdırmağa xidmət edən söz sənətidir. Bu işdə sənətkara məhz sözlər – dil vahidləri kömək edir. Sənətkarlar leksik vahidlərin köməyi ilə müxtəlif məcazlar, təşbehlər, istiarələr yaradır, bədii təzadlardan, suallardan və digər bədii ifadə və təsvir vasitələrindən istifadə edirlər.

Bu işdə yazıçı və şairlərə kömək edən vasitələr arasında obrazlara verilən adlar xüsusilə qeyd edilməlidir. Bədii söz ustaları öz qəhrəmanlarına ad seçərkən çox vaxt obrazın xarakteri daxili aləmi ilə həmahəng olmasına çalışırlar. Bununla da ad obrazın «şəxsiyyət vərəqi» funksiyası daşımış olur.

Obrazın adı oxucuya hər şeydən əvvəl psixoloji təsir edir, ad sahibinin haqqında ilk təəssürat yaratmış olur. Məsələn, dahi Nizami öz sevimli qəhrəmanı olan Bərdə gözəlinə Şirin adı verməklə oxucularında ona müsbət münasibət yaratmış olur. Yaxud yazıçı Mirzə İbrahimov «Azad» hekayəsindəki qəhrəmanına Azad adını təsadüfi verməmişdir. Onun qəhrəmanı öz xalqını azad, müstəqil görmək arzusu ilə yaşayır və bu yolda da canını qurban verir. Beləliklə, qəhrəmanın adı onun amalı, arzu-istəkləri ilə səsləşir.

Əgər sənətkar xoşuna gələn ad tapmaqda çətinlik çəkirsə, özü yeni adlar fikirləşib tapa bilər. Ədəbiyyatda obrazın xarakteri ilə həmahəng olan xüsusi adları bir neçə qrupa bölmək olar:

1. Müsbət qəhrəmanlara verilən xüsusi adlar onların xarakterini tamamlayır. Bu xüsusi adların leksik mənaları gözəl olmaqla yanaşı, tələffüzü də incə və ürəyə yatandır. Məsələn, C.Cabbarlının Sevili, S.Vurğunun Aygünü, Humayı, Cəlalı belələrinə nümunə ola bilər.

Antroponimlərin bu prinsipə uyğun seçilməsi «Kitabi-Dədə Qorqud» dastanlarında yeniyetmələrə gördükləri işlərə uyğun ad verilməsi adətini xatırladır.

«Qan ləkəsi» romanında safürəkli, sədaqətli, mərd, həm də sadəlövh olan qəhrəmana Saleh adı verərkən yazıçı Elxan Elatlı müəyyən məqsəd güdmüşdür. Saleh namuslu, böyüklərə hörmət edən, özgə malına göz dikməyən bir insan olmasına baxmayaraq, şərin, böhtanın qurbanı olur, həbs edilir, namusu ləkələnir. Ancaq adı onun adı ətrafında qoruyucu zolaq yaradır, oxucunu deyilənlərə inanmasına mane olur. Yaxud S.S.Axundovun «Qaraca qız» hekayəsindəki bağbana

verilən Piri baba adı onun çox səmimi, insanpərvər, geniş ürəkli və müdrik bir insan olduğundan xəbər verir. Çünki şifahi xalq ədəbiyyatı nümunələrində – nağıllarda Piri baba adlı insanlar məhz müsbət xarakterli insanlardır. Bəzi hallarda obrazlara verilən xüsusi adlar onların xarakteri ilə səsləşməyə də bilər. Bu zaman yazıçı obrazın mənfi cəhətlərini daha qabarıq çatdırmaq üçün ona tamam fərqli adlar qoyur. Məsələn, xalq yazıçısı Süleyman Rəhimov «Şamo» romanında riyakar, evlər, ailələr dağıdan, araqatan bir qadına Göyərçin – sülh rəmzi adını verməklə onun mənfi cəhətlərini daha da qabarıq vermiş olur.

Yaxud S.S.Axundov «Qaraca qız» hekayəsində yaratdığı zalım, zülmkar, qəddar insanlara Pəricahan və Yusif adı verməklə oxucuların qəlbində belələrinə nifrət hissi oyatmağa çalışır.

C.Məmmədquluzadə «Danabaş kəndinin əhvalatları» povestində başqasının sözlərinə uyub ana və bacılarını əzablara düçar edən Vəliqulu düşüncəsiz və nadandır. Onun adının mənası da ağanın qulu, başqasına xidmət edən qul mənasını verir. Vəliqulu Xudayarın nökəridir, onun əmrlərini sözsüz yerinə yetirir, nəticədə bütün var-dövlətini itirmiş olur.

«Qan ləkəsi» romanındakı obrazlardan biri Səlahəddin adı daşıyır. Həmin obraz Azərbaycan torpaqlarına göz dikən ermənilərin ümumiləşdirilmiş surətidir. O, qaniçən, hiyləgər, mənfi xislətli bir insandır. İlk baxışda ona bu cür adın verilməsi təəssüf doğurur. Lakin bu adı seçərkən yazıçı müəyyən məqsəd daşımışdır. Səlahəddin dinin səlahiyyətli nümayəndəsi, islahatlar aparmağa çalışan şəxs deməkdir. Əsərdə Səlahəddin ermənilərin iyrənc siyasətini həyata keçirməyə çalışır. Çoxlarının məhvinə səbəb olur. Göründüyü kimi, ad obrazın xarakterini tamamlayır.

Bədii söz ustaları təzad yaratmaq, təsvir olunan hadisələri daha qabarıq göstərmək üçün adlardan istifadə edirlər. Məsələn, S.S.Axundov «Qaraca qız» hekayəsindəki sevimli qəhrəmanlarına ad seçərkən bu üslubi imkandan məharətlə istifadə etmişdir. Onun Qaraca qız adlandırdığı Tutunun üzünün rəngi də, taleyi də, adə da qaradır. Əksinə, Xədicə xanıma verilən Ağca adı dövlətli qızının həm görünüşcə, həm talecə xoşbəxt olduğundan xəbər verir. Antroponimlərin əks mənalı olması varlılarla yoxsullar arasındakı fərqi qabarıq şəkildə çatdırmağa xidmət edir. «Qan ləkəsi» (E.Elatlı) romanında obrazlardan biri Ağaşamil adlanır.

Bu obraz öz qızının namusunu, şərəfini qoruyur, nəticədə beş oğlunu itirir, qoca yaşında həbsxanaya düşür. Belə bir adama Ağaşamil adı yaraşır. Onun müsbət keyfiyyətləri bir çox azərbaycanlılara şamil edilə bilər. Həm də o, Şeyx Şamilin adaşıdır. Şeyx Şamil işğalçılara qarşı vuruşduğu kimi, Ağaşamil də ermənilərin təcavüzünə məruz qalır, onlarla mübarizə aparır, düşmənini məhv edir.

Bədii söz ustaları bəzən öz qəhrəmanlarını şəxs adları ilə deyil, ləqəbləri ilə təqdim edirlər. Bu üsul əsərin ideyasının açılmasına kömək etmiş olur, oxucunun diqqətini lazımi məsələyə yönəldir. Məsələn, Ənvər Məmmədxanlı «Karvan dayandı» hekayəsinin qəhrəmanını «odunçu oğlu» adı ilə təqdim edir. Çünki yazıçının məqsədi yoxsul odunçunun vara-dövlətə uymadığını, zəhmətkeş insanların əzab-əziyyətləri, arzu və istəkləri barəsində oxuduğunu göstərməkdir. E.Elatlının «Dilənçi qadının sirri» əsərin qəhrəmanı Dilənçi qadındır. Bu qadın kasıbdır, zibil yeşiklərindən quru çörək yığıb, xəstə uşağını böyüdür. Kasıb olmasına, səfil həyatı

sürməsinə, oğlunun ağır xəstəlikdən əzab çəkməsinə baxmayaraq, şərəfini, namusunu qoruyub, üzünü isti ütü ilə yandırıb, eybəcər hala salır, ancaq oğurluq etmir. Dilənçilik etməsi onu oğurluğa, şərəfsizliyə sövq edə bilmir. Yazıçı onun bu xüsusiyyətini alqışlayır, dilənçi qadını mənəviyyatı zəngin bir xanım kimi təqdim edir.

S.Rəhimovun «Mehman» əsərindəki Qaloşlu adam obrazının adı da, özü də qəribədir. Yazıçı obraza bu adı verməklə üst-başı kirli, çırıq, ayağı qaloşlu adamların fağır, kimsəsiz hesab etməyi, bu geyimin altında gizlənən qəddar və amansız insanın iç üzünü açmağa, maskanı yırtmağa çağırır. Züleyxa onun qurbanına çevrilir, amma sonrakı peşmançılıq fayda vermir.

Yaxud «Buz heykəl» hekayəsində müəllif işğal altında olan doğma yurdundan baş götürüb qaçan qadının adını çəkməyə ehtiyac duymur. Yazıçı onu öz oxucusuna bütün anaların ümumiləşdirilmiş obrazı kimi təqdim etdi – yenidən qəhrəmanına «ana» adı verir. Yaxud «Baş xiyabanda» adlı hekayəsində kimsəsiz, yurdsuz-yuvasız uşaqların ağır həyatını təsvir edərkən qəhrəmanına ad verməyi vacib hesab etmir. Mehman ali məktəbi bitirdikdən sonra kəndə işləməyə gəlir. Yerli camaat onu qonaq hesab edir, qorxudulub yola salınacağını, yaxud pula, var-dövlətə satılacağını düşünürlər. Lakin səhv edirlər. Mehman nə qorxur, nə də pula şirnikir, mübarizə yolunu seçir. Nəticədə qətlə yetirilir. Bəzən qəhrəmanlara verilən adlar mühitlə ziddiyyət təşkil edir. C.Məmmədquluzadənin «Ölülər» əsərindəki Kefli İsgəndər çox ağıllı, gözüaçıq, savadlı bir gəncdir. Lakin ailəsi və ətrafındakı adamlar onu Kefli hesab edir.

Yaxud Nizaminin qəhrəmanı Qeys Leylinin eşqindən çöllərə düşsə də, ətrafındakılar onu Məcnun adlandırırlar. Obrazın adı personajın xarakteri ilə ziddiyyət təşkil edə bilər, obraz əzilər, məğlub olar, məhv edilə bilər. C.Cabbarlının «Aydın» əsərində Aydın, Gültəkin, «Dilarə» hekayəsində Dilarə, «Dilbər» hekayəsində Dilbər və s. göstərmək olar. Antroponimlər obrazın xarakterinə uyğun gələ də bilər, gəlməyə də bilər. Bu, yazıçının istəyindən asılıdır. Lakin hər bir bədii əsər oxucuya yeni informasiyalar verməli, dünyagörüşünü genişləndirməli, lüğət ehtiyatını artırmalıdır. Əgər əsərdəki xüsusi adların leksik mənası oxucuya qaranlıq qalırsa, o, bu barədə məlumat əldə etməyə çalışacaqdır.

E.Elatlının «Seçilmiş cəza» romanınındakı Nafiz adı oxucunun təəccübünə səbəb olur. Bu sözün mənasını öyrənmək istəyən oxucu lüğətlərə müraciət edir. Məlum olur ki, bu sözün lüğəvi mənası hər hansı bir işin əsasını qoyan, bu işə yol açan, başqalarını da dalınca aparan deməkdir. Doğrudan da, Nafiz nakişilik edir, başqasını da bu işə təhrik edir.

Beləliklə, bədii ədəbiyyatda işlənən hər bir söz, hər bir antroponim yazıçının fikrinin çatdırılmasına xidmət etmiş olur.

Ədəbiyyat

1. Abdullayev N. Nitqin etik məsələləri / Nitq mədəniyyətinin əsasları. Bakı, 2012.
2. Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatı. Bakı, 2003.
3. Qurbanova F. Antroponimlərin nəzəri məsələləri. Bakı, 2001.
4. Nitq mədəniyyətinin əsasları. Bakı, 2012.

Ч.Мамедова,
Р.Аскерова

Стилистические особенности антропонимов в литературе

Резюме

Статья посвящена изучению стилистических особенностей антропонимов в литературе. Каждое художественное произведение есть искусство слова, служащее читателям для восприятия идей и желаний автора. В этом отношение автору помогают языковые единицы. С помощью этих единиц авторы создают различного рода произведения. Антропонимы являются одними из них. Они могут соответствовать и могут не соответствовать характеру образа – это зависит от желания автора.

Однако любое произведение должно дать читателю новую информацию, расширить кругозор и пополнить лексический запас. Автор обращается к некоторым произведениям для того, чтобы наглядно показать стилистические особенности антропонимов.

Имя Нафиза в романе Э. Элатли «Избранный штраф» заставляет читателя задуматься. Читатели, которые отказываются ссылаться на словари. Оказывается, что ключевое значение этого слова в том, что оно лежит в основе любой работы, которая ведет к этому и ведет к ней других. Действительно, Нафиз занимается трансплантацией, и это провоцирует другого.

Таким образом, любое использованное в художественной литературе слово, любой антропоним служит для четкого донесения идей автора до читателей.

Ch. Mamedova,
R. Askerova

Stylistic features of anthroponyms in the literature

Summary

The article is devoted to the study of the stylistic features of anthroponyms in literature. Each work of art is the art of the word, which serves the reader to perceive the ideas and desires of the author. Language units help the author in this respect. With the help of these units, the authors create various kinds of works. Anthroponyms are among them. They may correspond and may not correspond to the character of the image - it depends on the desire of the author. The name of Nafiz in E. Elatly's novel "Selected Penalty" causes the reader to wonder. Readers who want to learn the meaning of this word refer to dictionaries. It turns out that the key meaning of this word is that it is the basis of any work that leads to this and leads others to it. Indeed, Nafiz is engaged in transplantation, and it instigates another.However, any work should give the reader new information, broaden the mind and replenish vocabulary. The author turns to some works in order to clearly show the stylistic features of anthroponyms. Thus, any word used in fiction, any anthroponym serves to clearly convey the ideas of the author to readers.

Rəyçi: Şəhla Əhmədova
filologiya üzrə fəlsəfə doktoru, dosent

AYTƏN ƏHMƏDOVA
Filologiya üzrə fəlsəfə doktoru
Gəncə Dövlət Universiteti
83-aytan@mail.ru

QOŞMALARIN CÜMLƏ ÜZVÜ OLAN ZƏRFLİK KİMİ İŞLƏNMƏSİ

Açar sözlər: Azərbaycan dili, qoşma, qrammatik məna, cümlə üzvü, zərflik
Ключевые слова: Азербайджанский язык, послелог, грамматическое значение, член предложения, обстоятельство.
Key words: Azerbaijani language, postposition, grammatical meaning, sentence member, circumstance.

Qoşma köməkçi nitq hissəsi olduğu üçün köməkçi nitq hissələrinə aid olan xüsusiyyətlər həm də qoşmaya aiddir. Daha dəqiq desək, qoşma ayrılıqda leksik mənaya malik deyil, leksik-qrammatik sualı yoxdur, söz yaradıcılığında iştirak etmir, müstəqil işlədilə bilmir və sintaktik vəzifə daşımır. Buna baxmayaraq, qoşma sayılan məsələlərin hər birində istisnalarla müşayiət olunur. Belə ki, əsas nitq hissələri ilə koməkçi nitq hissələri arasında keçid xarakterli olduğundan qoşmalarda qeyd edilən xüsusiyyətlərlə yanaşı, əsas nitq hissələri üçün səciyyəvi olan bəzi cəhətləri də görmək mümkündür. Qoşmalar əlaqələndiyi sözə müəyyən məna çaları verir, hətta məzmunu dəyişə bilir, bəzi qoşmalar düzəltmə və mürəkkəb sözlərin tərkibində bir komponent kimi çıxış edir (*aidiyyət, özünəməxsusluq və s.*), bəzi hallarda qrammatik şəkilçilərlə işlənə bilir, nəhayət, qoşulduğu sözlə birlikdə müəyyən cümlə üzvünü formalaşdırır. Deməli, qoşma özündə həm potensial leksik-semantik mənanı qoruyur, həm də qrammatik özəlliyə malikdir.

Qoşmanı digər köməkçi nitq hissələrindən fərqləndirən xüsusiyyətlərdən biri onların ismin bu və ya digər halında olan sözlə birləşərək, müəyyən sintaktik vəzifəni yerinə yetirməsidir. Qoşmanın semantik-qrammatik xüsusiyyətləri onun sintaktik mövqedə müvafiq funksiyasının formalaşmasında da mühüm rol oynayır. Qoşmanın bu xüsusiyyəti haqqında ya qoşmaya dair ədəbiyyatlarda, ya da cümlə üzvlərinin sintaktik vəzifəsindən, xüsusən də cümlə üzlərinin ifadə vasitələrindən bəhs edərkən danışılır. Qeyd olunan əsərlərdə qoşmanın birləşdiyi sözlə birlikdə, bir qayda olaraq, vasitəli tamamlıq və müxtəlif zərfliklər vəzifəsini yerinə yetirdiyi göstərilir. Lakin müxtəlif qrammatik şəkilçilərlə işlənə bilmə qabiliyyəti qoşmalı ifadələrin də qrammatik mövqeyində polifunksionallığı təmin edir, yəni bu ifadələr bütün cimlə üzvü funksiyalarında çıxış edir.

Yeri gəlmişkən bir məsələyə toxunmaq lazım gəlir. Bir sıra əsərlərdə belə bir fikrə rast gəlmək olur ki, "qoşmalar ayrıldığı sözdən genetik

əlaqəsini kəsməyib. Ona görə də qoşmalar eyni formada müstəqil cümlə üzvü rolunda çıxış edə bilir [1, 16].

Demək lazımdır ki, zərfliyin növləri semantik-qrammatik əsasda formalaşır, yəni bu zaman sözün semantikası əsas olur. Bu baxımdan zərflik vəzifəsini meydana çıxmasında müvafiq potensial semantikaya malik olan qoşmanın da rolu əvəzsizdir. Mübtəda, xəbər, tamamlıq və təyinin funksiyalarının isə iştirak edən qoşmanın leksik-qrammatik səciyyəsi ilə heç bir əlaqəsi yoxdur; bu zaman qoşmalı ifadənin əlaqələndiyi cümlə üzvü ilə struktur-qrammatik əlaqələnməsi və cümlədəki mövqeyi əsas olur.

Qoşma birləşdiyi sözə müəyyən məna çaları aşılayaraq, onda sintaktik səviyyədə fərqli məzmun yarada bilir. Bu zaman həmin sözlər sintaktik funksiyasını dəyişə bildiyi kimi, dəyişməyə də bilir. Sintaktik funksiyanın dəyişməməsi təsadüfi xarakter daşıyır; belə ki, bəzi məqamlarda qoşmanın potensial məzmunu aid olduğu sözün məzmunu ilə uyğun olduqda sintaktik funksiya dəyişmir. Məsələn: *Səhərə hamımız şəhərə çatarıq.* Bu cümlədə "*səhərə*" sözü zaman zərfliyi funksiyasındadır. Həmin sözü məsafə-zaman məzmunlu qoşma ilə işlətdikdə belə alınır: *Səhərə kimi hamımız şəhərə çatarıq*. Buradakı "*səhərə kimi*" ifadəsi də zaman zərfliyi vəzifəsindədir. Deməli, qoşmanın əlavə edilməsi sözün sintaktik vəzifəsində dəyişiklik yaratmadı.

Bu fakt onun təsdiqi deyil ki, qoşma birləşdiyi sözün sintaktik vəzifəsini dəyişmir. Əslində qoşma istənilən sözə birləşə bilməz; bu zaman onları əlaqələndirən semantik yaxınlıq olmalıdır. Bu yaxınlıq həm onların fərdi semantik çəkisi ilə, həm də müvafiq semantik qrup ilə əlaqədar ola bilər. Yuxarıda verdiyimiz nümunədə müvafiq semantik qrup, yəni ümumi hüdud anlayışı "*səhər*" sözü ilə "*kimi*" qoşmasının əlaqəsini, birləşməsini reallaşdırmışdır. "*Səhər*" sözü özlüyündə hüdud anlayışına malik deyil, lakin yönlük hal şəkilçisi ilə işlənməsi bu sözdə hüdud məzmununun meydana çıxmasını şərtləndirmişdir.

Bu qoşmanın hüdud anlayışı onun başqa sözlə əlaqəsində də meydana çıxır. "*Şəhərə dolanbac yollarla gedəcəyik*" cümləsində "*şəhərə"* sözü yer zərfliyi funksiyasındadır. Bu sözdə hüdud anlayışı olmasa da, yönlük hal burada da hüdud anlayışını formalaşdırır, lakin əvvəlki cümlədə zamana görə, burada isə məkana görə hüdud vardır: *Şəhərə kimi dolanbac yollartla gedəcəyik*". Bu fakt zaman və məkanın materiyanın atributu olmaq etibarilə bir-birinə yaxın semantik mühitə malik olduğlarını göstərir. İkinci cümlədəki hüdud anlayışı müvafiq məzmunu, deməli həm də uyğun cümlə üzvünü yaratmadı. Belə ki, "*Şəhərə*" sözü yer zərfliyi idisə, *"şəhərə kimi*" ifadəsi yer yox, kəmiyyət zərfliyi funksiyasını yerinə yetirir; bunu verilən sualdan da aydın görmək olur: *nə qədər?* Bu fakt da "*qədər*" qoşmasının hüdud anlayışı ilə bağlıdır.

da vardır. Ona görə də bəzən hətta eyni ifadə müxtəlif cümlə daxilində ayrı-ayrı funksional vəzifələr yerinə yetirir. Məsələn: ***Sərrafın dediyinə görə,*** *bu il məhsul əvvəlki illərdən çox olmalıdır* (A.Babayev); *Bu məclis* ***Dürdanənin dediyinə görə*** *keçirilir* (S.Rəhimov).

Birinci cümlədə "*Sərrafın dediyinə görə*", ikinci cümlədə "*Dürdanənin dediyinə görə*" ifadələrinin formalaşması eyni səciyyəlidir; qoşmanın feili sifət tərkibinə birləşməsi yolu ilə yaranmışlar. Ona görə də onların ayrılıqda Cümlə üzvünün formalaşması üçün yalnız leksik mənalı söz yox, həm də ona birləşmiş qoşma rol oynayır. Elə həmin qoşmanın birləşdiyi sözlərdə yaratdığı hüdud anlayışı daha çox qoşma ilə bağlıdır; *kimi, qədər, -tək* qoşmaları məsafə, hüdud anlayışına malikdir. Ona görə də bu qoşmaların birləşdiyi sözlər daha çox müvafiq anlayışları ifadə edir.

Onu da demək lazımdır ki, qoşmanın birləşdiyi sözün hansı cümlə üzvü olması yalnız bu iki komponentlə bağlı deyil; cümlə komponentlərinin qarşılıqlı semantik-qrammatik əlaqəsinin də burada az rolu yoxdur. Daha dəqiq desək, cümlə üzvünün müəyyənləşməsi yalnız müvafiq komponentin ayrıca semantik tərəfi ilə əlaqədar deyil. İki misala müraciət edək: 1. *Səhərə kimi işləri bitirərik;* 2. *Səhərə kimi çalışmışıq.* Hər iki cümlədə eyni qoşmalı söz işlədilmişdir, lakin onların cümlədəki sintaktik vəzifəsi eyni deyil; belə ki, birinci cümlədə "*səhərə kimi*" ifadəsi görülən işin zamanını bildirir və *nə zaman?* sualına cavab verir. İkinci cümlədə isə eyni ifadə (*səhərə kimi*) miqdar zərfliyi funksiyasını yerinə yetirərək, *nə qədər?* sualına cavab verir.

Əslində "*səhərə kimi*" ifadəsi zaman və hüdud anlayışlarını özündə ifadə edir; bu anlayışlardan birincisi zaman zərfliyinin, digəri isə kəmiyyət zərfliyinin formalaşmasında rol oynayır, lakin bunlardan hansının reallaşması bilavasitə mətn çərçivəsində, daha doğrusu, cümlədə birbaşa əlaqəyə girdiyi əsas sözlə bağlıdır.

Bir məsələni də qeyd edək ki, dilçilikdə qoşmanın, əsasən, məkan və zaman məzmunu bildirdiyi göstərilir, hətta bəzi dilçilər dildə məkanın ifadə vasitəsindən bəhs edərkən məkani-qrammatik hallarla yanaşı, qoşmalardan xüsusilə bəhs edirlər [2, 234-258; 3, 8-18; 4, 23].

Qoşmalı sözlərin cümlədə daşıdığı sintaktik vəzifə qoşmanın ifadə etdiyi məna çaları ilə bilavasitə bağlıdır. Belə ki, cümlə üzvü qrammatik kateqoriya olaraq sözlərin qarşılıqlı əlaqəsində formalaşdığı kimi, bu zaman sözün və ya birləşmənin özünün leksik-semantik xüsusiyyətlərinin də burada rolu böyükdür, çünki ikinci dərəcəli üzvlərin, xüsusən də zərfliklərin müəyyənləşməsi qrammatik mövqedən daha çox onların leksik-semantik tərəfi ilə bağlıdır. Bunu zərfliklərin adları da göstərir.

Qoşmaların bəzilərinin adları onların sintaktik vəzifələrinin müəyyənləşdirilməsi üçün əsas verir. Məlumdur ki, dilçilik ədəbiyyatında "*əvvəl, qabaq, sonra, bəri*" zaman qoşması kimi təqdim edilir. Doğrudan da bu qoşmalar

birləşdiyi sözə ümumi zaman anlayışı aşılayır və elə buna görə də həmin ifadələr, bir qayda olaraq, cümlənin zaman zərfliyi funksiyasını yerinə yetirir. Məsələn: ***Taxıl yığımından sonra*** *(bəri) dostlar görüşməmişdi* (S.Əhmədov); ***Günəş çıxmamışdan əvvəl*** *(qabaq) bütün sahələri gəzib dolaşırdı* (Ə.Vəliyev). Bu cümlələrdə qoşmalı sözlər ümumi zaman anlayışını formalaşdırırlar; belə ki, birinci cümlədə müvafiq faktdan sonra, ikinci cümlədə isə müvafiq faktdan əvvəlki zamanı bildirir.

Məlumdur ki, "*əvvəl, qabaq, sonra, bəri*" sözləri ayrılıqda leksik-semantik mənaya malik olan zərflər kimi də dilimizdə mövcuddur. Bu isə həmin qoşmaların müvafiq zərflərdən təcrid olunması ilə bağlıdır. Əslində bu sözlərdən ilk üçü başqa sözlərə qoşulmadan da cümlənin zaman zərfliyi kimi çıxış edir. Yuxarıdakı nümunələrə də bunu tətbiq etmək olar: ***Sonra*** *dostlar bir daha görüşmədilər;* ***Əvvəl*** *bütün sahələri gəzib dolaşırdı.*

Müqayisə bu nəticəni verir ki, həmin sözlər zərf kimi işləndikdə ümumi zaman anlayışı bildirirsə, qoşma kimi işlənib başqa sözlə birlikdə artıq daha konkret zaman anlayışını ifadə edir. Aydındır ki, qoşma köməkçi nitq hissəsi olmaq etibarilə daha mücərrəd anlayışa malikdir. Lakin sözlərin birləşməsi zamanı hətta komponentlərdən biri müstəqil və açıq şəkildə müvafiq məna bildirməsə belə, birləşmədə məzmun konkretləşməsi özünü göstərir.

Burada bir məsələyə də toxunmaq lazımdır: deyildiyi kimi, qoşma köməkçi nitq hissəsi olduğundan onun birləşmə zamanı ifadəyə verdiyi semantik çalarda da bir ümumilik, kompleks məzmun özünü göstərə bilir. Bunu bütün qoşmalara şamil etmək olar; hər hansı qoşma bir əsas semantik çalardan başqa, ikinci, bəzən də üçüncü dərəcəli digər çalarlara malik olur və bunlar sintaktik mühitdə qoşulduğu sözlə, yaxud qoşmalı ifadənin bütövlükdə əlaqələndiyi sözlə əlaqəsində meydana çıxır.

"*Əvvəl, qabaq, sonra, bəri"* qoşmaları dilçilikdə zaman bildirən qoşmalar adlandırılsa da, onlar birləşdikləri sözün semantikasından asılı olaraq, məkan məzmununa da malik ola bilər. Bu zaman qoşmalı söz cümlənin yer zərfliyi funksiyasında olur. Məsələn: ***Təyyarə meydanından əvvəl*** *(sonra) çoxmərtəbəli bir bina və terminallar yerləşir.*

Burada "*əvvəl (sonra*)" qoşması zaman anlayışına malik deyil, məkan məzmunu daşıyır, elə buna görədir ki, "*təyyarə meydanından əvvəl (sonra)"* ifadəsi cümlənin yer zərfliyidir. Onu da demək lazımdır ki, burada məkan anlayışının meydana çıxması həmin ifadənin xəbərlə olan əlaqəsi ilə bağlıdır. Belə ki, bu cümlədəki feili xəbərin özü məkan anlayışına malikdir. Buradakı qoşmalı ifadəni başqa xəbərlə işlətsək, mənzərə dəyişəcəkdir: ***Təyyarə meydanından əvvəl*** *(sonra) çoxmərtəbəli bina və terminallar tikildi.* Əgər birinci cümlədə "*təyyarə meydanından əvvəl (sonra)"* ifadəsi *"yerləşir*" xəbəri ilə məkan münasibətində əlaqəyə girmişdirsə, ikinci cümlədə həmin ifadə "*tikildi"* xəbərinə zaman əlaqəsi ilə bağlanmışdır. Lakin onu da demək

lazımdır ki, həmin ifadədə bu iki məzmun çalarının olması onları bir-birindən tamam fərqləndirmir; əslində hər iki məqam bir-biri ilə sıx əlaqəlidir. "*Təyyarə meydanı*"nın məkan etibarilə əvvəlki məkanda yerləşməsi yenə ona baxış etibarilə əvvəlki zamanla bağlıdır, yəni görünüş, diqqət çəkmə məqamında da zaman öncəliyi özünü göstərir.

Eyni fikir bu və ya digər dərəcədə başqa qoşmalara da şamil edilə bilər. Xalis qoşmalardan olan "*üçün, ötrü, görə*" səbəb-məqsəd adı altında təqdim olunur. Burada maraqlı cəhət ondan ibarətdir ki, bu qoşmalar, əsasən, feilin təsriflənməyən formaları ilə işləndikdə səbəb, ya da məqsəd məzmunu yaradır; adətən, *-dığı*[2] şəkilçili feili bağlama ilə işləndikdə səbəb, məsdər ilə işləndikdə isə məqsəd zərfliyi yaradır. Məsələn: *Sübhan* ***bütün gecəni yatmadığı üçün*** *iclasda yuxulamışdı, söhbətin nədən getdiyini eşitməmişdi* (M.İbrahimov); ***Qabaqcılları qarşılamaq üçün*** *rayon rəhbərləri də gəlmişdilər*(S.Əhmədov).

Birinci cümlədə "*üçün*" qoşması *"yatmadığı*" feili sifətinə birləşmiş, bu ifadə də tərkib şəklində cümlənin səbəb zərfliyi funksiyasında çıxış etmişdir. İkinci cümlədə isə həmin qoşma "*qarşılamaq*" məsdərinə qoşulmuş və bu ifadə də tərkib şəklində məqsəd zərfliyini formalaşdırmışdır. "*Üçün*" qoşmasının etimoloji izahı da göstərir ki, onun yaratdığı əsas məna çaları məhz səbəbdir. Lakin qeyd etmək lazımdır ki, bu qoşma ilə işlənən ad xarakterli sözlər, yəni isimlər və ya substantivləşmiş sözlər funksional cəhətdən cümlədə digər cümlə üzvü, xüsusən də, vasitəli tamamlıq olur. Məsələn: *Qonaqlar* ***kənd məktəbi üçün*** *də lazımi avadanlıqlar gətirmişdilər* (S.Əhmədov); ***Oxuyan üçün*** *kitab hər yerdə var* (Anar).

Əslində bu cümlələrdə qoşmalı sözlərin potensial mənasında məqsəd məzmunu vardır. Lakin məlum olduğu kimi cümlənin semantik üzvlənməsi ilə funksional üzvlənməsi bəzən üst-üstə düşmür. Xüsusən, cümlədə funksional üzvlənmə sözün ayrılığdakı leksik-semantik mənasından çox onun daşıdığı qrammatik vəzifə ilə müəyyənləşir. Verilmiş misallarda hətta "*nə üçün?"* sualının əvəzinə, "*nəyə*?" sualını da vermək olur. Sintaktik sualın bu cür formalaşa bilməsi ifadənin funksional əsası ilə, cümlədə yerinə yetirdiyi qrammatik funksiya ilə bağlıdır.

Demək lazımdır ki, yalnız feilin təsriflənməyən formaları deyil, digər nitq hissələri, o cümlədən adlar, habelə ismi birləşmələr bu qoşmalarla işlənib müvafiq məzmunu formalaşdırır. Lakin maraqlı cəhətlərdən biri də ondan ibarətdir ki, eyni qoşma ilə işlənən ifadə həm səbəb, həm məqsəd məzmununa malik ola bilər. Məsələn: *Tədbir* ***Əkbərə görə*** *baş tutmadı* (Ş.Rza); *Tədbir* ***Əkbərə görə*** *təşkil edilmişdi.*

Birinci nümunədəki "*Əkbərə görə*" ifadəsi səbəb, ikinci cümlədəki isə məqsəd məzmununa malik olub, müvafiq cümlə üzvləri kimi çıxış edirlər. Bu funksiyaların formalaşması cümlənin xəbəri ilə, daha dəqiq desək həmin

xəbərin ifadə vasitəsi olan frazeologizmlə müəyyənləşir. Belə ki, "*baş tutmadı"* xəbərinin ifadə etdiyi məzmun bilavasitə müəyyən bir səbəblə bağlıdır. Burada feili frazeologizmin həm leksik-semantik, həm də qrammatik mənası əhəmiyyət daşıyır.

Qeyd edək ki, bu mövqeyində ifadə bəzən üslubi səciyyə daşıyır. Belə ki, bu tipli bəzi konstruksiyalarda zahirən tamamlıq funksiyasına malik olan ifadənin potensial səbəb-məqsəd çaları olur. Bu zaman ellipsis faktoru özünü göstərir. Məsələn: 1. *Bu mərmiləri* ***qırıcılar üçün*** *almışıq* 2. ***Qırıcılar üçün*** *(qarşılamaq) plan hazırlanıb.*

Birinci cümlədə "*qırıcılar üçün*" ifadəsinin daxili potensiyasında məqsəd məzmunu olsa da, onun verilən cümlədə funksional mövqeyi fərqlidir; xəbərlə funksional əlaqədə obyekt məzmununa malik olaraq, tamamlıq vəzifəsini yerinə yetirir. Burada qoşmalı sözün semantikası həlledici rol oynayır. İkinci cümlədə isə qoşmalı sözlə xəbərin funksional əlaqəsi ikili xarakterə malikdir, obyekt və məqsəd. Obyekt əlaqəsində tamamlıq funksiyası aparıcıdır, burada məqsəd məzmunu gizli haldadır. Məqsəd məzmunu isə ifadənin xəbəri ilə əlaqədə mətn səviyyəsində təzahür edir. Bu zaman hətta elliptiklik faktoru da əhəmiyyət daşıyır. Belə ki, "*qırıcılar üçün*" ifadəsini "*qırıcıları qarşılamaq üçün*", yaxud "*qırıcıların hücumunu təşkil etmək üçün*" və s. kimi anlamaq olar. Bu mövqeyində həmin ifadə məqsəd zərfliyi funksiyasını yerinə yetirir.

"*Üçun"* qoşmasının formalaşdırdığı sintaktik funksiyalarından biri təyindir. Bu sintaktik mövqe əslində gözlənilən deyil, yəni həmin qoşmanın təyinedici funksiya – təyin və tərzi-hərəkət zərfliyi yarada bilməsini təsadüfi hesab etmək olar. Məlumdur ki, təyin müxtəlif qrammatik vasitələrlə ifadə oluna bilir, lakin hər vəziyyətdə başlanğıc forma əsas olur. Aşağıdakı nümunədə qoşmalı sözün sintaktik vəzifəsinin müəyyənləşməsində problek vardır:

Yuxarı siniflər üçün *dərs vəsaitləri hələ də nəşr olunmamışdı* (İ.Əfəndiyev). Buradakı "*yuxarı siniflər üçün*" ifadəsini sintaktik baxımdan iki cür izah etmək olar; birinci halda həmin ifadə xəbər ilə birbaşa əlaqələnir, hərəkətin obyektini bildirir, "kim üçün?" sualını tələb edir və vasitəli tamamlıq funksiyasını yerinə yetirir. İkinci halda isə həmin ifadə xəbərlə yox. Cümlənin mübtədası ilə – "*dərs vəsaiti*" ifadəsi ilə əlaqələnərək, onu təyin edir, elə buna görə də "*hansı?"* sualına cavab verərək, təyin funksiyasını yerinə yetirir.

Qoşmalar xüsusiləşmiş vasitəli tamamlıqlar yaratdığı kimi, bəzi xüsusiləşmiş zərfliklərin də formalaşmasında iştirak edir. Xüsusən də feili sifət tərkibləri qoşma ilə işlənərək, bilavasitə feili xəbərin yanında gəlmədikdə xüsusiləşmiş zərflik yaradır. Məsələn: *Sərdar hər zaman etdiyi kimi, indi də darvazanı özü açmalı oldu* (S.Azəri).

Qoşmalar müstəqil mənalı sözlərə birləşərək, yalnız sintaktik funksiya daşıyan cümlə üzvü deyil, habelə cümlənin digər komponentlərini, hətta

köməkçi nitq hissələrini formalaşdırır. Qoşmanın iştirakı ilə dilimizdə müstəqil leksik mənalı sözlər, bağlayıcı, ara söz yaranır. "*Bir qədər" qeyri-müəyyən sayı*,*"ona görə ki, onun üçün ki, ondan ötrü ki, buna görə ki, bunun üçün ki, bundan ötrü ki*" tabelilik bağlayıcıları, habelə müxtəlif səciyyəli sözlərin "*görə*" qoşması ilə birliyindən yaranan "*mənə görə*" tipli ara sözlər məhz bu yolla meydana çıxmışdır. Qeyd edək ki, bunların hamısı sintaktik zəmində meydana çıxsa da, məlum olduğu kimi, say və bağlayıcılar artıq dilimizdə sabit morfoloji vahid kimi yer tutmuşdur; bunlar qrammatik səciyyəli sözlər kimi mövcuddur. İkincilər isə ayrılıqda, daha doğrusu sintaktik mühitdən kənarda mövcud olmayan vahidlərdir.

Ədəbiyyat

1. О.К Ямашкина. Функциональная значимость послеложных конструкций в мокшанском языке. АКД, Саранск, 2005.
2. Шилова В.В. Пространственные послелоги в лесном диалекте ненецкого языка //Я зыки коренных народов Сибири. Вып. 2002.
3. Рамазанова Р.М. Послелоги в аварском языке в их сопоставлении с английскими пространственными предлогами в непространственном значении. АКД, 2009.
4. Рашидова А.Г. Выражение пространственных отношений в лакском, английском и русском языках. АКД, Махачкала, 2013.

А.Ахмедова

Послелог в виде обстоятельство

Резюме

Поскольку послелог является вспомогательной частью речи, функции, связанные с частью речи, также являются частью послелога .

Точнее, послелог не имеет лексического значения отдельно, не имеет лексико-грамматического вопроса, не участвует в словообразавание , не может использоваться отдельно и не является синтаксическим. Тем не менее, послелог в каждом случае сопровождается исключениями. Послелог, давая определенное чувство значения к соединённому слову , он может создавать различный контент на синтаксическом уровне.

В то же время эти слова могут изменить свою синтаксическую функцию, а также и не изменить. Не изменение синтаксической функ-

ции является случайным явлением. Таким образом, когда потенсиалное содержание послелога совпадает содержанием касательного слово тогда синтактическая функция не изменяется.

A.Ahmedova

Postposition in the form of circumstance

Summary

Since the postposition is an auxiliary part of speech, the functions associated with the part of speech are also part of the postposition. More precisely, the post-sentence does not have a lexical meaning separately, does not have a lexical-grammatical question, does not participate in word-formation, cannot be used separately, and is not syntactic.

However, the postposition in each case is accompanied by exceptions. Postposition, giving a certain sense of meaning to a connected word, it can create different content at the syntactic level.

At the same time, these words may change their syntactic function, as well as not change. Not changing the syntactic function is a random occurrence.

Thus, when the potential content of the postposition coincides with the content of the tangent word, then the syntactic function does not change.

Rəyçi: Sənubər Abdullayeva
Filologiya elmləri doktoru, professor

KƏMALƏ MEHDİXANLI
Filologiya üzrə fəlsəfə doktoru
AzTU
kəmalə.@.mail.ru

İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİNDƏ YAZILI NİTQDƏN İSTİFADƏ EDİLMƏSİ QAYDALARI HAQQNDA

Açar sözlər:yazılı nitq, leksik vahid, kommunikativ.
words: written, speech, lexical unit, communicative.
Ключевые слова: письменная речь, лексическая единица, коммуникативный.

Dildə ünsiyyət yalnız şifahi deyil , yazılı şəkildə də aparıla bilər . Buna görə dəxarici dilə pratik yiyələnmək üçün onu oxu və yazı ilə əlaqələndirmək lazımdır.Oxu-nulan mətni başa düşməli və onun məzmununu yazılı şəkildə başqasına başa sala bilməlidir . Bu vəhdəti nəzərə almadan xarici dili öyrətmək normal hesab oluna bil- Keyməz. Yazı üçün qarşıya qoyulan məqsədi nəzərdən keçirərək qeyd etmək lazımdır.ki , oxu və yazı cəmiyyətdə yayılmış ünsiyyət formalarından deyil .Yazı oxuya nisbə-tən çox yayılmış və təhsilin məqsədini aydınlaşdıran əsas nitq formalarından hesab olunur.Buna görədə də yaxşı nitq bacarıq və vərdişlərini öyrətmək lazımdır.

İngilis dilində yazı bacarıq və vərdişlərinin aşılanması müəlimdən xüsusi məharət tələb edir.Yazı vərdişləri də oxu kimi kompleks xarakter daşıyır. Bu məsələ oxudan da bir qədər mürəkkəbdir . Yazı xüsusi yazı texnikası ,məharət tələb edir. Bu hərflərin , səslərin mənimsənilməsinə kömək edir , tələffüz, oxu, bacarıq və vərdişlərini inkişaf etdirir, nümunə cümlələrinin öyrənilməsini ,yadda qalmasını təmin edir.

Son illər xarici dillərin tədrisində yazının rolu tədricən artır və bəzi vaxtlarda ya-zıya xarici dillərin tədrisinin effektivliyinin yüksəldilməsində rezerv kimi baxmağa başlayırlar. Yazılı nitq ünsiyyətinin elektron poçt, internet və s. kimi müasir kommuni-kasiya vasitələrində rolunu danmaq olmaz. Sonuncu halda yazı nitq ünsiyyətinin növükimi yalnız autentik material əsasında iştirak edi r. Tələbələrin, aspirantların və gənc müəllimlərin xaricdə təcrübə keçməsi onlara xarici dildə qeydlər aprmağa ,anketi tərtib edib doldurmağa , anketin suallarına cavab verməyə , oxumaq və işləməyə qəbul ərizəsi yazmağa dil daşıyıcılarının lazımi formada istifadə etməyə şərait yaradır. Yazı və yazılı nitq xarici dillərin tədrisində yalnız təlim vasitəsi kimi deyil və həmçinin xarici dillərin tədrisinin məqsədi kimi çıxış edir. Yazı yazılı nitqin tərkib hissəsidir.Yazılı nitq şifahi nitqlə yanaşı səmərəli (ekspressiv) nitq fəaliyyətini ifadə edir və müəyyən məzmununun qrafik nişanlarla təsbit edilməsində

təzahür edir. Yazılı nitqin psixo-fiziki əsasını hərəkətverici, görmə və eşitmənin qarşılıqlı əlaqəsi təşkil edir . Psixoloqların fikrincə dinlənilmiş material 10% , görülən 20%,dinlənilən və görülən 30% ,yazılan 50%, söylənmiş 70% mənimsənilir. Psixoloqlar hesab edir ki,yazılı nitqin bazası şifahi nitqdir.

Yazılı formada yerinə yetirilmiş dil və nitq tapşırıqları sistemi yazılı nitqə aid olur.Yazılı ifadələr, inşalar, yaradıcı, imlalar,verilən məzmuna aid plan və tezislərin tərtib olunması , şəxsi və ya işgüzar məktubların yazılması,verilmiş stiuasiyalara uyğun yazılı hekayələrin qurulması kommunikativ yazılı nitqə aiddir (4, s.65). Müəllimlərin bu yazı növlərində əsasən imla və ifadədə istifadə edirlər.Müəllim imlanı iki məqsədlə aparır. Öyrətmə və yoxlama məqsədi ilə öyrədici imlalar köməkçi rol oynayır, onlar vasitəsilə keçilmiş qaydalar və sözlər təkrarlanır və möhkəmlənir.Öyrədici imlalar apararkən müəllim söz və cümlələri bir neçə dəfə təkrar edir ki, öyrəncilər müstəqil olaraq fikir söyləsinlər. İfadə yazı şagirdləri fikirləşməyə , nəticə çıxarmağa alışdırır . Müəllim müəyyən bir mövzunu oxuyur mövzunu oxuyur , sonra həmin mövzunun necə başa düşüldü yünü yoxlamaq məqsədilə şagirdlərə suallar verir . Mövzu aydın olduqdan sonra yazılmağa başlanır. İnşa da, aparılan yazı növlərindən biridir. Tələbələrə inşa mövzuları verməzdən əvvəl həmin mövzulara aid şifahi danışıq mətnləri verilməlidir. Öz fikrini yazılı formada ifadə etmək bacarığı anlamında yazılı nitq yaradıcı kommunikativ vərdiş kimi qiymətləndirilir.Bunun üçün orfoqrafik və kolliqrafik vərdişlərə malik olmaq ,nitq yaradıcılığını yazılı şəkildə tərtib etmək, daxili nitqin tərkibi,həmçinin adekvat leksik və qrammatik vahidlərin seçilməsi qabiliyyətinə yiyələnmək lazımdır.Psixoloji tədqiqatların nəticəsi göstərir ki,daxili nitq yazıda,danışıq üçün olan daxili nitqdən fərqlənir.Yazı zamanı daxili obrazlı səciyyə daşıyır. Yazılı nitq zamanı daxili danışıqda olan söz hərflər vasitəsilə ifadə olunur , sözün ümumi səciyyəsi dəyişilir,obrazlı qalır. Buradan belə bir nəticəyə gəlmək olar ki , yazı təlimi şüurluq , fəallıq və əyanilik prinsipi əsasında tədris olunmalıdır.Metodist Q. M. Uayzer İngilis dilinin yazısının düz-gün öyrənilməsindən danışarkən deyir : ”İngilis dilinin əlifbası çox tez-tez dəyişməsinə baxmayaraq, onun yazısında müəyyən məsələlər unudulmuşdur ”. Bu məsələlərin özü də şifahi nitqin və oxunun inkişafına təsir göstərir.

Yazılı nitqin tədrisinə müxtəlif növ nitq tapşırıqları daxildir: yazılı məlumatın tərtib olunması üçün nitq tapşırıqları; çap hərfləri ilə yazılmış mətnlə işləmək üçün yazılı nitqtapşırıqları.Çap hərfləri ilə olan mətnlə işləmək üçün yazılı nitq tapşırıqları ilə yanaşı hamıya məlum olan tapşırıqlardan savayı, E.A.Maslikonun (2) fikrincə aşağıdakılardan ibarətdir.

-ikinci dərəcəli sözlər və cümlələr istisna olmaqla mətni köçürür.

Məktubun məzmunundan istifadə etməklə potensial həqiqi və ya təsəvvür edilən edilən adres sahibinə yazılı məlumat,tərtib edilir;

-mövzu və problemi əhatə əsas mətnlərdən istifadə edərək şifahi çıxış üçün plankonspekt hazırlanır. E.A.Maslikonun fikrincə oxuda bu yazılı tapşırıqlar maraq doğurur:

-mətndə lazımı məlumatı taplıb yazılır;

-xarici dildə müxtəlif mənbələrdən istifadə edərək mövzuya və ya problemə yazılır;

-xüsusi jurnalda olan məqalələrə annotasiyalar tərtib edilir;

-məqalənin analogiyasına uyğun xüsusi jurnalda nəşr olunan material hazırlanır.

-mətnlərin oxunması prosesində növbəti iş üçün yazılı qeydlər aparılır.

Xarici dilin dinləyib – anlama vasitəsilə qavranılmasında öyrənələr qeydlər aparabilərlər : 1) əvvəlcədən təklif olunmuş plan (açar sözlər) əsasında auidomətnin kons-pektlərini tərtib etmək ; 2) audiomətnin dinlənilməsi prosesində qeydlər aparmaq ;

3) verilmiş kommunikativ situasiyalar əsasında mətndəki məlumatı ayırıb qeyd etmək.

Yazılı nitqin mənimsənilməsində tələbələr həqiqi və ya təsəvvür edilən həmsöhbətlə müzakirə ediləcək məsələlərin siyahısını, tezislərini, kodaqramlarını, müəyyən mövzu və stiuasiya əsasında şifahi məlumatın cədvəlini tərtib edir.Yazılı nitq təcrübəsi çap olunmuş və ya audiomətnin yaddaşa , plana görə uyğunlaşmasında və ya müəyyən problemin həllində yazılı cümlələr tərtib etməkdə imkan yaradır.

Xarici dildə öz fikrini ifadə etmək qabiliyyətini ardıcıl və daimi sürətdə inkişaf etdir-mək lazımdır. Bu məsələnin həllində bir sıra reproduktiv-produktiv xarakterli çalışma-lar mövcuddur. Alman metodisti Qerxard Neyner tərəfindən təklif olunan tapşırıqlar

sadədən mürəkkəbə doğru müəyyən ardıcıllıqla tərtib edilmişdir. Bütün tapşırıqlar yazılı sürətdə yerinə yetirilir.Bizim fikrimizcə aşağıdakılar maraq doğurur:

- hekayənin başlanğıcını və sonunu bərpa edin.
- ayrı-ayrı "istiqamətləndirici" replikalarla dialoqu bərpa edin.
- mətnin növünü dəyişin.
- müxtəlif mətn və dialoqlarda birmənalı olmayan situasiyaları təsvir edin.
- mətn və illüstrativ məlumat arasındakı ziddiyətləri aydınlaşdırın.
- əvvəlcədən məlum olan müəyyən nəticəyə aparan açar sözləri seçin.

Məşhur şairlərin şeirləri öyrənilir,monoqrammalardan istifadə edilir,kollektiv şəkil-də məzəli hekayələr , təsəvvür olunan

Beləliklə, şifahi nitqi tətbiq etməyi öyrənmək həmçinin şəxsi və işgüzar xarakterli məktubun yazılmasını öyrənmək ,anket doldurmaq, qısa tərcümeyi-hal yaq, işə və ya ali məktəbə daxil olmaq barədə ərizə yazmaqm – bütün bunlar şifahi nitq, qram-matika,leksikanın tədrisində köməkçi rolunu oynayan yazının tədrisinin əsas məqsədləridir.Haradan vaxt tapmalı? E.İ.Passovsonun fikrincə məqsədindən asılıl olmayaraq tələ-bələrin yazılı şəkildə yerinə yetirdikləri ev tapşırığı kimi rezerv yadda saxlamaq lazımdır. Dərs müddətində nə deyilməlidirsə əvvəlcə o yazılı formada təsbit olunmalıdır.

Ədəbiyyat

1. Бим. Е.И.Книга для учителя. (10 класс) М.1996.
2. Маслыко . Е. А. Настольная книга преподователя иностронного яазыка .- Минск 2004.
3. Пассов Е.И.Беседы об уроке иностронного языка.С.П.б.1991.
4. Brown H.D. Prinsiples of language learning and teaching. Longman publication, 2000.352 p.

K.Mekhtikhanly

On writing and the written speech

Summary

Writing and written speech does not only act as a means of instruction in the methods of teaching but also as the aim of teaching foreign languages. A letter is a constituent part of the written spheech. In the application of creative writing at the lessons three main principles: the aim of the lessons, its principles, the methods and ways and also control on the instruction should not be forgotten.

The article deals with the Simple Sentence according to its structure. Simple Sentences are called simple because they contain only one subject and onr verb, or predicate. A simple sentence contains only one independent clause. This means that it doesn't contain more than one independet clause. And it doesn't contain any subardinate clauses. It expresses only one main idea. Independent clauses have one subject and one verb, or predicate. What's a predicate? A predicate is the main verb in a sentences and eny additional compenents related to thr subjects actions. Understand that simple doesn't always mean short or even uncomplicated for that matter when it comes to simple sentences and their subjects and verbs. A simple sentence can be long and have compound subjects and compound verbs or predicates.

К.Мехтиханлы

О письме и письменной речи в обучении иностранному языку

Резюме

Письмо и письменная речь в методике обучения иностранному языку выступают не только как средство обучения,но все более как цель обучения иностранному языку . Письмо – это технический компонент письменной речи .Не следует забыват три важнейших условия при введения на занятиях креативного письма:

цели обучения,принципи,методы и приемы обучения,а также учебной контроль. Простое предложение – это синтаксическая единица. Образованная одной синтаксической связью между подлежащим и сказуемым или одним главным членам. Двусостаное предложения – это просте предложение с подлежащим и сказуемым как необходимыми компонентами. Односоставное предложение с подлежащим и сказуемым как в котором есть только один главный член (с зависимыми словами или без них). Одностовные предложения бывают неопределенно – личное, обобщенно – личное и безличное.

Предложения деляется на простые и сложные. Как простые, как и сложные. Как простые, так и сложные предложения могут выти распространенными и члени (определения, дополнения, обстоятельства). Простые предложение – это синтаксическая единица, образованная одной синтаксической связью между подлежащим и сказуемым или одним главным членом.

Rəyçi: Yusif Suleymanov
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SEVİNC BAĞIROVA
Filologiya üzrə fəlsəfə doktoru
ADİU
sevinc.@.mail.ru.

İNGİLİS DILINDƏ SƏRBƏST DANIŞIQ PROSESİNDƏ STİMUL YARADA BİLƏN FEİLLƏR VƏ ONLARIN ƏSAS FUNKSİYALARI

Açar sözlər: nitq feilləri, danışıq aktı, feil, ünisyyət, mətn, lokutiv, illokutiv
Key words: reporting, act of speech verb, communication, text, locutionary,
Ключевые слова: глаголы речи, речевой акт, глагол, общение, текст.

Nitq feillərinin öyrənilməsi sovet və qərb dilçiliyində fərqli istiqamətlərdə aparılmışdır. Nitq feilləri leksik və qrammatik mənaları, sintaktik xüsusiyyətləri, funksional səviyyədə, nitq və təfəkkür münasibətində, habelə onların məntiqi-semantik xüsusiyyətləri aspektindən tədqiqata cəlb edilmişdir. Uzun müddət linqvistik müstəvidə yalnız nitq prosesini ifadə edən feillərin öyrənilməsi prioritet olmuşdur. Danışıqda hər hansı bir fəaliyyət bildirən feillər isə öyrənilən problemlərdən kənarda qalmışdır. Bu yanaşma çərçivəsində nitq feilləri dedikdə, yalnız tələffüz üzvləri vasitəsilə yerinə yetirilən hərəkəti bildirən feilləri, yəni ünsiyyət prosesində üzvlərnən səsələrin (söz və frazlar) tələffüzü nəzərdə tutulur.

L.Q.Mixedova nitq feillərinə vasitəli və vasitəsiz nitqi yaratmağa qabil bütün feilləri aid edilir. O, semantik və sintaktik kriteriyaları birləşdirməsinə vacib sayır. Müəllif ingilis dilində nitq feillərin leksik cərgəsini müəyyənləşdirərkən, bir tərəfdən yalnız mikromətn yarada bilən feillərdə, digər tərəfdən isə lüğətdə yalnız nitq mənası bildirən kimi qeydə alınmış feillərlə məhdudlaşır. L.Q.Mixedova araşdırmasını iki istiqamətdə ararır:

1) XIX-XX əsr ingilis və amerikan bədii ədəbiyyatından müxtəlif feillərin mikromətn yaratma funksiyasında işlənən halları qeydə alır;

2) lüğət üzrə nitq mənası bildirən feillərin seçilməsinə üstünlük verir.

O.V.Bulankova onları məlumatın istiqamətliliyi üzrə nəzərdən keçirir. O.V.Bulankova ikikeçidli feillərin təsnifatını verərkən nitq feillərinə daha geniş feillər qrupuna aid edir. Bu yanaşmada nitq feilləri ikikeçidli kimi nəzərdən keçirilir, hər iki valentliyi sağda və onlarsız konstruksiyalar bitmiş hesab edilmir.İ.B.Dolinan predikatları verdiyi təsnifatında nitq feilləri qiymətləndirmə və modus predikatlarının reprezentasiya etdiyi kimi səciyyələndirilirlər. Feil qiymətləndirmə predikatını reprentasiya etdiyi hallarda onun sem strukturu iki semdən – birin qiymətləndirmə mənası verən semdən, digəri isə həmin qiymətləndirmənin icar olunduğu fəaliyyəti növünü (nitq) adlandıran semdən təşkil olunur. Modus feillərinin leksik mənası tamamilə proporzisionla məna ilə

müəyyən edilir, amma bu feillərin sem strukturu olduqca mürəkkəbdir: müvafiq propozisional semdən başqa, o, həm də proporzisiyanın daxil edilməsinin mümkünlüyünü təyin edən metasemdən də ibarədir. O, Şiltis felli cümlənin özəyi fikrindən çıxış edərək, nitq feillərini istənilən dilin təbii metadil vasitəsi kimi müəyyən edir. QAPaka görə, nitq feilləri üçün aşağıdakı sementik aktantlar xarakterikdir: acens – nitq subyekti, adresat – dinləyici və ötürülən informasiya. Feilin semantik əhatəsini təhlil edən Q.A.Pak özünün leksik-semantik təsnifatını verir. Müəllifə görə, bir halda ki, ünsiyyət minimum iki şəxsin olmasını tələb edir və feilin leksik mənasında hərəkətin istiqamətliliyi gizlənmişşdir, onda feillər

1) qarşılıqlı istiqamətli ünsiyyəti bildirən feillər (to discuss, to chat);

2) biristiqamətli hərəkət bildirən feillər (to tell, to say);

3) məqsədyönlü hərəkət bildirən feillər (to scream) kimi qruplaşdırılmalıdır.

Əlavə etmək istərdik ki, Q.A.Pakın bu təsnifatında feillərin bir qrupdan digərinə keçməsi kimi hadisəsinə yer verilmir. Məsələn, ingilis dilində to chat feili biristiqamətli hərəkət, to tell feili qarşılıqlı istiqamətli ünsiyyət bildirir. Nitq prosesi bildirən feillərin tematik qrupunda iki əsas qrup fərqləndirilirdi:

1) nitq prosesini və onun əsas funksiyalarını bildirən feillər (məlumat, söhbət, hekayət): tell, say, speak, talk;

2) ünsiyyət prosesində reallaşa bilən, lakin hər hansı bir hərəkəti bildirən feillər (şifahi və yazılı): command, order, affirm, repeat.

Nitq prosnsini bildirənf eillər də öz növbəsində iki yarımqrupa bölünürlər:

- öz semantikasında əlavə xarakter olmadan xalis nitq prosesi bildirən feillər;

- nitq prosesini ümumi şəkildə ifadə edən feillər: tell, say, speak, talk; nitq prosesini daha dar şəkildə ifadə edən feillər: narrate, express, repeat, declare;

Nitq prosesinin əlavə xarakterini, məsələn, sürəklilik, davamlılıq, başlanğıc, son, səslənmənin gücünü, tələffüzün dəqiqliyini və s. özündə əks etdirən feillər. Adətən, buraya həmin prosesi səciyyələndirən əlavə adverbial sözlü feillər də daxil edilir. Bu yanaşmanın tərəfdarları həmin dil vahidlərinin nitq prosesini ümmui məzmunda adlandırdıqlarını iddia edirlər. Başqa sözlə, öyrənilən feilləri səslənmə, to, əlavə emisionallıq çalarlarından ayrılıqda araşdırmaq lazımdır.

Bütöv qrupun ümumi semantik əlamətlərlə (nitq prosesi bildirənlər) yanaşı həmin fellərin hər biri müəyyən nitq aktına işarə edir. Bəzi nitq feilləri birbaşa nitq prosesini, digərləri isə insanın həyat və fəaliyyəti ilə əlaqəli nitq proseslərini – danışanın idarəsini, müxtəlifemosiyalarını bildirirlər.

Beləliklə, təhlil olunan feillərin sırasına semantikasında nitqin qiymətləndirmə, səbəb, gerçəklik və s. birləşdiyi feillər aid edilir. Bununla bağlı olaraq, bu yanaşmanın tərəfdarları nitq feillərini üç qrupa bölünlər:

- xalis nitq prosesi bildirən feillər;
- nitq prosesini bildirənlər və kommunikasiyanın vəzifəsindən asılı olaraq xarakterizə edən feillər;
- insan fəaliyyətinin digər sahələrilə bağlı nitq prosesini bildirən feillər.

Birinci qrupa daxil olan feillərdə söylənən məzmunu ifadə olunmur və insanın həyatının digər tərəflərilə əlaqəsi əks olunmur. Burada ünsiyyət prosesində yalnız tələffüz aktının özü göstərilir (sözlər, frazalar). İkinci qrupa daxil olan feillərdə yalnız nitq prosesi deyil, həm də onun xarakteri: söyləmin məzmunu və ya teması göstərilir. Burada feilin özündə nitqin məzmuna münasibətini xarakterizə edən müəyyən proses də bildirilir. Üçüncü qrupa isə nitq prosesi vasitəsilə təzahür edən, yəni iradi aktların sözlərlə ifadəsini bildirən feillər aid edilir. Vacib məqam ondan ibarətdir ki, feillərin leksik-qrammatik birləşmələrinin xüsusiyyətlərini söz birləşmələri qanunu ilə şərtlənmiş sintaktik konstruksiyalar deyil, bütbvlükdə cümlənin strukturu təcəssüm etdirə bilər, məsələn, feilin infinitivlə bəzi birləşmələri, habelə feilin vasitəsil nitqlə və budaq cümlələri ilə birləşmələri. Feilin müxtəlif tərzi-hərəkətin adverbial təyinedicilərilə birləşməsi, məsələn, enerji, diqqət, intensivlik, səy (carefully, immediately, perfectly, strongly, easily, precisely və s.). Subyektin aktivlik əlamətinin əlavə aktualizatoru keyfiyyətində proqressiv, imperativ, modal və faza feillərilə birləşmə, habelə aksional feillərilə zəmcins üzvlər keyfiyyətində birləşmə və s. Bu cür yanamanın üstünlüyü hər bir feilin birləşmələrinin təfərrüfatlarına qədər nəzərdən keçirilməsi cümlə tərkibində feilin digər sözlərin müxtəlif formaları və ya bütöv konstruksiyalarla əlaqəsini aşkar etməyə və bu əlaqələrin feilin leksik mənasından asılılığını müəyyən etməyə imkan verir.

Tipik nitq situasiyasında – danışaq, dinləyən və danışanın işlətdiyi söyləm müxtəlif aktlarla əlaqəlidir. İngilis dilində illokutiv aktla əlaqəli feillərlə aşağıdakıları aid etmək olar: state – ifadə etmək, qeyd etmək), assert – təsdiq etmək, elan etmək, describe – təsvir etmək, warn – xəbərdarlıq etmək, remark – qeyd etmək, comment – şərh etmək, command – komanda vermək, order – əmr etmək, request – xahiş etmək, approve – rəğbət bəsləmək, xeyir-dua vermək və s.

Müəllifə görə, heç də bütün feillər illokutiv deyillər. Məsələn, voice, whisper feillərinin mənasında illokutiv deyil, lokutiv sem vardır. Digər tərəfdən, bəzi feillər həm lokutiv, həm də perlokutiv kimi izah edilə bilər. Məsələn, add, go on lokutiv feillər cərgəsinə düşür. Maraqlıdır ki, onun təsnifatında say feili lokutiv və illokutiv mənaları (state, promise) özündə birləşdirir.İllokutiv feillərin qavranılmasında qrammatik kateqoriyalardan yararlanan Z.Vendlerə görə, nitq feillərinin bir qismini performativlər sinifinə aid etmək olar. Z.Vendler performativlər sinifinin semantik birliyini

C.Ostinin istifadə etdiyi düsturun köməyilə nümayiş etdirir. Performativ anlayışını daxil edərək a) söyləmək – to say Mən V+ deməli V+; b) demişdir – in saying Mən V+ on V-dir+; c) indiki zaman – hereby mən V+, burada V+ feili onun tamamlığı ilə birlikdə işarələyir, /-dir/ isə keçmiş zaman formasının şəkilçisidir. Bu formulların tərkibində işələn bilən feillər və sintaktik meyarlara cavab verən feillər çoxluğu qismən və ya çox dərəcədə üst-üstə düşürlər. Bundan başqa, performatiklərin rəngarəngliyi nəzərisə söyləməyə imkan verən müxtəlifdliyi say feilinin (danışmaq/söyləmək) özünün əsas mənasında daha ümumi performativdir. Bu cür izah E.V.Paduçevanın hər bir illokutiv akta müəyyən performativ feilin uyğun gəlir fikrini təsdiqləyir. Danışıq aktı özünün illokutiv funksiyasına müvafiq olaraq bu və ya digər tipə aiddir. Generativ qrammatikada illokutiv feilli istənilən söyləm performativ hesab olunur.

Ədəbiyyat:

1. Михедова Л.Г. Тематический ряд verba dicendi в современном англйиском языке. Автореф. дис. канд филол. наук. М.? 1971.
2. Буланкова О.В. Двухпереходные глаголы в современном английском языке. Автореф. дис. канд. филол. наук. Л. 1973.
3. Долинина И.Б. Синтаксически значимые категории английского глагола. Л. 1989.

С.Багирова

Различные подходы к изучению глаголов речи в английском языке

Резюме

Статья посвящена изучению глаголов речи в английском языке. В статье исследуется лексические, грамматические, синтаксические, а также логико-семантические особенности глаголов говорения. В статье подчеркивается приоритетность изучения глаголов, обозначающие процесса речи. История изучения проблемы исследуется на основе конкретных источников и выявляется отсутствие единого мнения по составу глаголов говорения. В статье глаголы речи разделяются на три группы: глаголы, обозначающие собственно процесс говорения; глаголы, обозначающие процесс речи и характеризующие его в зависимости от задач коммуникации; глаголы, обозначающие процессы речи, связанные с другими сторонами жизни и деятельности человека.

Рол инфинитива в беэ личных глагола английском языке роль и место инфинитива в беэ личных глагола существенно заметен. В соврешенном английском языке безличные глаголы играыет особую роль в морфологической системе и крепко связань неопределенной формой глагола. В предлонеениях безличные глаголы открывают новую формуыупотребления и иногдаменяет значение мысли в предложниях и дают иные, зависсимые отченки глагола.

S.Baguirova

Different approaches to the study the reporting verbs in English

Summary

The role of infinitive in impersonal verbs in English.

The role and the place of the infinitive in impersonal verbs in English is essentially noticed.En modern English impersonal verbs play a special role in morphological systemand is closely connected with the indefinite from of a verb.Impersonal verbs in sentences create the new from of usage and sometimes change the meanings and thoughts in sentences and thoughts in sentences and give another dependant touch of the verbs.

The article is devoted to the investigation of reporting verbs in English. In the article the lexical, grammatical and syntactic characteristics of reporting verbs, and also their logical-semantic aspects are investigated here. It is mentioned in the article that the study of verbs expressing speech process is a matter of priority in linguistics. The history of investigation of the problem is studied on the bases of concrete sources, and some divergences in opinion among linguists on the composition of reporting verb are also found out. The reporting verbs are divided into the following three parts in the article: verbs denoting pure speech process, verbs denoting speech process and verbs which characterize depending on the position of the communication, an at last, verbs denoting speech process in connection with different spheres of human activity.

Rəyçi:Rəfiq Cəfərov
Filologiya elmləri namizədi,dosent.

XƏYALƏ RƏSULZADƏ
Azərbaycan Memarlıq və İnşaat Universiteti
khayalarasulzada@azmiu.edu.az

SÖZÜN LEKSİK VAHID KİMİ ÜMUMI XÜSUSIYYƏTLƏRİ

Açar sözlər: leksik, qrammatik, semantik, təfəkkür, məna, mücərrəd, məfhum, feil, lüğət
Ключевые слова: лексическое, грамматическое, семантическое, мышление, значение, абстрактное, сознание, глагол, словарный запас
Key words: lexical, grammatical, semantic, thinking, meaning, abstract, consciousness, vocabulary

Azərbaycan dilinin leksik sistemi ilə tanışlıq sözlərin leksik mənalarının əsas tiplərini, onların struktur – semantik bölgülərini dərk etməyə şərait yaradır. Deməli, leksika bu və ya digər dildə sözlərin sadəcə toplusu deyil, bir – biri ilə qarşılıqlı əlaqə və münasibətdə olan dil faktlarının müəyyən sistemidir.

Leksik sistemdə leksik – semantik qruplar söz qruplarının ən əsasıdır. Bu qrupda ümumi qrammatik mənadan başqa minimum bir ümumi məna (leksik, kateqorial), bir nitq hissəsinə aid olan sözlər birləşir: məsələn, dad bildirən sifətlər*: acı,şirin, turş, duzlu, kəmşirin* və s. Mətbəx avadanlıqları bildirən isimlər: *qazan, qaşıq, çəngəl, bıçaq, ləyən, çömçə* və s. Təfəkkür bildirən feillər: *düşünmək, anlamaq, fikirləşmək, dərk etmək* və s.

Bir leksik – semantik qrupa aid olan sözlərin əsas paradiqmatik xüsusiyyəti odur ki, onların mənasında bir kateqorial – leksik məna var. Həmin məna o qrupun məna əsasını təşkil edir. Hər bir söz differensial sistem vasitəsilə dəqiqləşdirilir. Söz insanlar arasında əsas ünsiyyət vasitələrindən ən əsasıdır. İnsanlar gerçəkliyin əşya və hadisələrini sözlər vasitəsilə adlandırır, sözlər insanların emosiya və istəyini ifadə edir. Söz çoxcəhətli olduğu üçün müxtəlif aspektdə səciyyələndirilir. Sözün səciyyələndirilməsi ona hansı cəhətdən yanaşılmasından və hansı aspektdə baxılmasından asılıdır. Sözdə iki cəhət – forma və məna üzvi şəkildə birləşmişdir. Sözün forması müəyyən məzmun – leksik məna ifadə edir. Söz məhz leksik mənasına əsasən nominativ funksiya daşıyır. Sözün leksik mənası dilxarici və dildaxili amillərlə müəyyənləşir. Dilxarici amillər leksik məna üçün daha vacibdir. Buraya leksik mənanın əşya və onun məfhumu ilə əlaqəsi daxildir. Bu amillərin hər ikisi bir – biri ilə əlaqədar olsa da, onların sözün məzmununda əksi müxtəlifdir. Sözün əşya ilə əlaqəsinə görə ondan müəyyən tipli konkret əşyaları adlandırmaq üçün istifadə olunur. Məfhumla əlaqəsində isə leksik mənanın ümumiliyi şərtlənir.

Bununla da söz təfəkkürün silahına çevrilir, məsələn, *qapı* sözü əsas mənada bir mənzilin, binanın, mehmanxananın və ya təyyarənin girəcək yerinin adını daşıyır. Qapı sözünün məfhumla əlaqəsi leksik mənanı şüurda əlamətlər toplusu kimi təsəvvür etməyə imkan verir: binanın bir hissəsi, işıq və havanın keçdiyi yer.

Sözün leksik mənası mücərrədlik və ümumilik anlayışları ilə sıx bağlıdır. Sözün mənası nə qədər ümumi olsa, o bir o qədər dolğun görünər, onun semantik komponentləri isə az olacaq, məsələn, *maddə* sözünü məna komponentlərinə ayırdıqca onda mücərrədlik zəifləyir, konkretlik artır, məzmunca genişlənir; maddə - *maye, su, içki, limonad, şirə* və s. Əvəzliklər ümumiləşmiş mənalı sözlərdir.

Söz tarixən insan cəmiyyətində əmələ gələn, bu və ya digər insan kollektivi tərəfindən dərk edilən qrammatik cəhətdən formalaşmış dil vahididir. Sözün xarici cəhəti səslə, mənası isə məfhumla əlaqədardır. Sözün əsas cəhəti məfhumu ifadə etməkdir.Məhz buna görə də sözün mənası onun adlandırdığı əşya, hadisə ilə şərtlənmişdir. Məsələn, *bəy, xan, mülkədar, kəndxuda* kimi sözlər artıq köhnəlmişdir, ədəbi dilimizdə işlənmir. *Spiker, kompüter, polis* kimi yeni sözlər dilimizə daxil olmuşdur. Beləliklə dildə hər bir söz bilavasitə və ya bilvasitə ifadəetmə ilə əlaqədardır.

Sözün məfhumu ifadəetmə imkanı hər dilin əsas sözlərinin milli xüsusiyyətidir. Bütün dillərdə məfhumun ifadəsi eyni olmur. Eyni məfhum müxtəlif dillərdə müxtəlif şəkildə adlanır. Eyni məfhumun adındakı belə fərqlər müxtəlif dillərdə məfhumun eyni olmayan əlamətlərinin seçilməsi və sözün daxili formasının fərqliliyi ilə şərtlənir. Dillərdə adların əlamətləri fərqlidir. Məfhumu ifadəetmə funksiyası sözün leksik mənasının vahid amilidir. Daxili formanın müəyyənləşdirilməsi sözün milli xüsusiyyətlərini aşkar edən vahid üsuldur. Belə ki, həm nominativ funksiya, həm də məfhum beynəlmiləldir. Müxtəlif dillərdə sözün mənaları bir – biri ilə müqayisə edilsə, onların nominativ funksiyası və eyni bir əşyanı adlandırması eyni ola bilər, amma onların daxili formaları və semantik həcmləri uyğun gəlməyəcək. Çünki hər dildə sözün tarixi inkişaf prosesi fərdi təkrarolunmaz mənalarını təmsil edən zahiri fərqlər yaranır, məsələn Azərbaycan və rus dillərindəki *baş* və *qolova* sözlərini müqayisə edək. Azərbaycan sözü baş, rus sözü qolovanın ekvivalentidir. 1. Bədən üzvü, 2. Başlanğıc hissə , 3. Başçı, rəhbər, 4. Baş soğan. Qolova: 1. Çast tela, 2. Naçalniya çast, 3. Çelovek stoyaşiy vo qlave etoqo dela, 4. Qolova sıra, saxara. Hər iki dildə bu sözlərin uyğun gələn mənalarından başqa, əlavə mənaları da vardır. Lakin həmin mənalar bir – birindən fərqlənir. Onları lüğət əsasında müqayisə etsək baş və qolova sözlərinin hansı dildə mənaca geniş olduğunu bilmiş olarıq.

Məfhumla söz bir – bir ilə dialektik vəhdətdə olsa da, bir – birindən fərqli olan əlamətlərə malikdir.

1. Məfhum əşya və hadisələrin şüurumuzda əks olunmuş ümumi və mühüm əlamətlərinin insan təfəkküründə inikasıdır. Söz isə məfhumu ifadə edən, onun əmələ gəlməsini başa çatdıran bir silahdır.
2. Məfhum əşya və hadisələrlə bilavasitə, söz isə bilvasitə əlaqədardır.
3. Məfhum təfəkkür, söz isə dil amilidir.
4. Məfhum ümumbəşəri xarakterə malikdir, söz isə milli xarakter daşıyır.
5. Söz məfhumdan müstəqil və qeyri – müstəqil olması ilə fərqlənir.

Sözün mənası. Dildəki hər bir söz müəyyən məna daşıyıcısıdır. Sözün müəyyən mənaya malik olması onun müəyyən məna sisteminə, müxtəlif məna tiplərinə, başqa sözlərlə əlaqəyə girmək imkanına, sözyaratma yuvasına, xüsusiyyətlərə malik olması deməkdir. Sözün mənası dedikdə real gerçəkliyin əşya və hadisələrinin ümumi və fərqləndirici əlamətlərini əks etdirən məfhumun məzmunu, leksik – semantik variantlarının məcmuyu başa düşülür. Sözün məzmununa onun üslubi və emosional xüsusiyyətləri də daxildir. Sözdə məntiqi məzmun, törəmə məna və emosional cəhətlər vardır. Ekspressiv – emosional ünsürlər sözə aid olsa da, onları mənaya aid etmək olmaz. Çünki bu bütün sözlərdə yoxdur.

Leksik məna sözün özünə nisbətən konkret və fərdidir. Yəni hər bir leksik məna bu və digər sözə məxsusdur. Bir sözün leksik mənası digər sözün leksik mənasından konkret və ayrıca bir əşya ilə əlaqədar olmasına görə fərqlənir. Məsələn, *alma, armud, heyva* və s. Bu sözlər meyvə növləri olmalarına görə ümumiləşdirilsə də, bunlar ayrı- ayrı əşya, konkret məfhumla bağlı olmalarına görə seçilir. Onlar fərqləndirici mənalar ifadə edirlər.

Leksik mənanı müəyyənləşdirərkən aşağıdakı amilləri nəzərə almaq vacibdir:

1) ictimai dərk edilməsini və mətndə işlədilməsini;
2) sözün müəyyən nitq hissəsinə aid olmasını;
3) müəyyən məna qrupuna aid olmasını;
4) başqa sözlərlə konkret leksik əlaqəsini;
5) onun sinoniminə semantik münasibətini;
6) sözün məna əlaqəsinin əsas tiplərinin modellərini;
7) müəyyən məfhumla əlaqədar olmasını;
8) müəyyən əşya qrupuna aid olma qabiliyyətini;
9) funksional amillərini;
10) sözdə fərqləndirici əlamətlərin olmasını.

Sözün leksik mənası adı altında adətən həmin dilin qrammatik qanunları əsasında formalaşan əşyavilik məzmunu başa düşülür. Sözün leksik mənasının əsasən üç komponenti var:

1. Leksik mənanın birinci xüsusiyyəti onun nominativliyidir. Leksik mənanın bu cəhəti məfhumu adlandırır; çoxmənalılıq bir sözün köməyi ilə müxtəlif məfhumları adlandırır. Məzmununda ifadə olunan məfhumların bütün əlamətləri birləşən məna əsas olur. Belə ki, *baş* sözü bədənin bir üzvü mənada əsas, o biri mənalarda törəmə olur.

2. Bir sözün leksik mənasının mikrosistemdə, söz birləşməsində başqa sözlərin mənaları ilə şərtlənməsidir.

3. Sözün leksik mənasının üçüncü xüsusiyyəti emosionallıqdır. Danışan sözlə əşyaya öz münasibətini bildirir.

Qrammatik məna. Bütün sözlər qrammatik cəhətdən müxtəlif qruplar halında ümumiləşir. Həmin qrupa daxil olan sözlər bir – birindən qrammatik cəhətdən fərqlənir. Məsələn, *dinləyir, danışır, yazır, oturur, durur* vəs. Bu feillər leksik mənalarına görə bir- birindən fərqlənirlər. Lakin bunlar qrammatik cəhətdən bir – birindən seçilmir. Onlar ümumiləşmiş bir məna ilə abstrakt məfhumla bağlıdır. Bu sözlərin hamısı bir qrammatik zamanı - indiki zamanı bildirir. Qrammatik məna dil sistemində qrammatik vasitələrin fəaliyyət göstərməsi nəticəsində yaranır və əsasən formal vasitələrlə ifadə olunur.

Qrammatik məna söz, söz birləşməsində və cümlədə konkret forma alır. Sözün hər cür konkretlikdən ayrılmış şəkildə ifadə olunan ümumiləşmiş mənası qrammatik məna adlanır. Sözlər qrammatik cəhətdən müxtəlif qruplarda birləşərək ümumiləşir. Onların qrammatik mənaları konkret yox, ümumiləşmiş mənada işlədilir.

Qrammatik məna danışanın hər cür subyektiv münasibətini yaratmır, yalnız informasiya üçün zəruri, kommunikativlik üçün aktual olan münasibətləri bildirir: müəyyənlik və qeyri – müəyyənlik. Bu mənalar əvvəla, nitq hissələri ilə hüdudlanır, ikincisi morfoloji, sintaktik vasitələrlə ifadə olunur. Sözlərin sırası, xüsusi sintaktik konstruksiyalar, həm də bəzi modal sözlər və ədatlar qrammatik mənanın yaranmasında xüsusi rol oynayır. İfadə vasitələri içərisində intonasiya xüsusi yer tutur.

Qrammatik nöqteyi – nəzərdən sözün mənası iki cəhətdən məhdudlaşa bilər: morfoloji və sintaktik. Morfoloji cəhətdən qrammatik məna sözdəyişmə formalarının sayına, sintaktik cəhətdən isə sintaktik əlaqə üsuluna, cümlə üzvlərinin vəzifəsinə görə məhdudlaşır.

Sözün həqiqi və məcazi mənaları. Sözün həqiqi və məcazi mənalarını müəyyənləşdirən meyar çox vaxt nisbi olur. Həqiqi mənada olan sözlər konkret olaraq əşyanı, hadisəni, prosesləri və s. adlandırır. Həqiqi məna elə bil əşyaya bilavasitə yönəlmişdir. Həqiqi mənalı sözlər üslubi cəhətdən neytral və ekspressiv olur. Əsas məna əsasında yeni, mənalar formalaşır. Məcazi məna yeni, əlavə mənadır.

Dildə işlədilən sözlər həm həqiqi, həm də məcazi mənada işlədilir. Əşya və hadisəni həqiqi məfhum kimi dərk və təsəvvür etdirən məna həqiqi, (*kitab, qələm*), əşya və hadisəni həqiqi məfhum kimi təmsil etməyən məna məcazidir. (*daş qəlbli insan).*

Həqiqi məna sözdə əsas, məcazi məna isə qeyri - əsasdır. Həqiqi məna daha müəyyən, daha sabit olur. O, əşyanın ictimai başa düşülməsini əks etdirir, mətndən asılı olmur. Məcazi məna isə fərdi və subyektiv ola bilər, daha mücərrəddir, davamlı olmur, mətndən asılıdır. Məsələn, "*tülkü"* sözü müəyyən bir heyvanın adıdır. Bu sözün məcazi mənada işlənməsi (*hiyləgərlik*) yalnız həqiqi məna əsasında mümkün ola bilər.

Ədəbiyyat

1. Cəfərov S. "Müasir Azərbaycan dili" Bakı 1982
2. Verdiyeva Z. ; Ağayeva F.; Adilov M. "Azərbaycan dilinin semasiologiyası" Bakı 1979
3. Qurbanov A. "Müasir Azərbaycan ədəbi dili" Bakı 1985
4. Dəmirçizadə Ə. "Azərbaycan dilinin üslubiyyatı" Bakı 1962
5. "Müasir Azərbaycan dili. I hissə, Bakı 1978
6. Həsənov H. "Azərbaycan dilinin semasiologiyası" Bakı 1978
7. Orta məktəbdə Azərbaycan dilinin tədrisi I hissə , Bakı 1976 Ədəbiyyat
8. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1979.
9. Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları. Bakı 1973
10. Qasımova R. Azərbaycan dilində leksik normalaşma. B.

Х.Расулзаде

Общие характеристики потерянных знаний

Резюме

Знакомство с лексической системой азербайджанского языка позволяет понять основные типы лексического значения слов, их смысловые деления. Таким образом, лексика - это не просто набор слов на том или ином языке, а система языковых фактов, которые связаны друг с другом.

Лексико-семантические группы в лексической системе являются наиболее важными из групп слов. В этой группе есть минимум общего значения (лексическое, классическое) и речевая часть, кроме общего грамматического значения: например, прилагательные, выражающие вкус: горький, сладкий, кислый, соленый, шафран и т. Д. Названия

кухонного оборудования: бойлер, ложка, вилка, нож, фонарь, ведро и т. д. Чувство мышления: мышление, понимание, медитация, понимание и т. д.

Парадигматическая особенность слов, принадлежащих к лексико-семантической группе, состоит в том, что они имеют категориально-лексическое значение. Это значение является основой значения этой группы. Каждое слово указывается через дифференциальную систему. Это самое важное средство общения между людьми. Люди называют вещи и события словами, слова выражают эмоции и желания людей.

Kh.Rasulzade

General characteristics of subtle dangers

Summary

Acquaintance with the lexical system of Azerbaijani language allows to understand the basic types of lexical meaning of words, their semantic divisions. Thus, lexics is not just a collection of words in one or another language, but rather a system of language facts that relate to one another.

The lexical - semantic groups in the lexical system are the most important of the word groups. In this group, there is a minimum of general meaning (lexical, classic) and a speech part, except the common grammatical meaning: for example, taste-expressing adjectives: bitter, sweet, sour, salty, saffron, and so on. Kitchen equipment names: boiler, spoon, fork, knife, lantern, bucket, etc. Feelings of thinking: thinking, understanding, meditating, understanding, etc.

The paradigmatic feature of words that belong to a lexical - semantic group is that they have a categorical - lexical meaning. That meaning is the basis of that group's meaning. Each word is specified through a differential system. This is the most important means of communication between people. People call things and events by means of words, words express emotion and desire of people.

Rəyçi: Salatın Əhmədova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

RUHƏNGİZ MƏMMƏDOVA
Azərbaycan Memarlıq və İnşaat Universiteti
mamadova@mail.ru

ALI MƏKTƏBLƏRDƏ TƏHSİL ALAN ƏCNƏBİ TƏLƏBƏLƏRİN AZƏRBAYCAN DİLİNDƏ ŞİFAHI VƏ YAZILI NİTQİNİN FORMALAŞDIRILMASI

Açar sözlər: Dialoq, monoloq, fonetika, leksika, semantika, nitq, replika, imla, inşa, ifadə, sual,cümlə, məruzə.
Ключевые слова: , Монолог, фонетика, лексика, семантика, реакция, тиражирование, орфография, дизайн, разделение, вопрос, предложение, отчет.
Key words: dialogue, monologue, phonetics, vocabulary, semantics, reaction, replication, spelling, design, division, question, suggestion, report.

Azərbaycanın ali təhsil müəssisələrində azərbaycanlı tələbələrlə yanaşı xeyli sayda əcnəbi tələbə təhsil alır. Onlar ali təhsilə cəlb edilməmişdən əvvəl hazırlıq fakültələrində təlim dilini öyrənirlər. Təhsil müəssisələrindəki əcnəbilərin əksəriyyətini isə Türkiyə və İran İslam Respublikasından olan tələbələr təşkil edir. Türk dili Azərbaycan dilinə yaxın olduğu üçün ilk baxışdan elə görünür ki, türkdilli tələbələr Azərbaycan dilini daha tez mənimsəyə bilərlər. Ancaq müşahidələr bunun tam əksini göstərir. Dillər bir birinə nə qədər yaxın olsalar da onları mənimsəmək o qədər çətin olur. Müşahidələr göstərir ki, türkdilli tələbələr Azərbaycan dilində heç də yaxşı danışa bilmirlər. Bu gün əcnəbi vətəndaşların təhsil aldıqları tədris qruplarında yaşanan ən böyük problemlərdən başlıcası nitq məsələsi ilə bağlıdır. Belə ki, əcnəbi tələbələrin bir çoxu fikrini sərbəst ifadə edə bilmir, söz tapmaqda çətinlik çəkirlər. Onların söz ehtiyatları çox az olur, tələffüzlərində və yazıda çoxlu səhvə yol verirlər. Əcnəbi tələbələr Azərbaycan dilində danışan zaman fikirlərini öz dillərinin qrammatik qayda-qanunlarına əsasən izah etməyə çalışırlar, Azərbaycan dilində dialoq və monoloqdan istifadə etməkdə çətinlik çəkirlər. Türk tələbələri nitqlərində əsasən türk sözlərindən istifadə edirlər. Onlara elə gəlir ki, əgər onların danışdıqlarını azərbaycanlı müəllim yaxud şəxs başa düşürsə, deməli anlaşma baş tutur. Lakin təlim prosesində mühazirələri dinlədikdə, seminar məşğələlərində iştirak etdikdə onların Azərbaycan dilini bilmədikləri aydın görünür. Dil insanlar arasında bir ünsiyyət vasitəsi olmaqla özünü şifahi və yazılı formada biruzə verir. Şifahi və yazılı nitq arasında qarşılıqlı əlaqə ilə yanaşı, fərqlər də mövjuddur. Yazılı nitqdə danışan öz hərəkətinə, fəaliyyətinə tam nəzarət edir. Şifahi nitqdə dil,

yazılı nitqdə isə əl və göz fəaldır. Şifahi nitq eşitmə, dinləmə, qavrayış üçün nəzərdə tutulan səsli, tələffüz edilən nitqdir. Şifahi nitqin düzgün təşkil edilməsinin ilk şərti ədəbi dili bilmək, ondan istifadə etməyi bajarmaqdır. Burada dilin düzgünlüyü və təmizliyinə diqqət yetirilməlidir. Şifahi nitqdə ləhjə elementlərinə yol verilməməlidir Varvarizm, vulqar və carqon sözlər şifahi nitqdə işlədilməməlidir. Nitqi zənginləşdirmək və onun aydınlığını güjləndirmək üçün sinonimlərin işlədilməsi də zox əhəmiyyətlidir. Şifahi nitqdə fasilə fikrin aydın, dəqiq və düzgün başa düşülməsinə xidmət edir. Şifahi nitq elə vasitədir ki, bununla tələbələrə bir tərəfdən dil vərdişləri aşılanır,digər tərəfdən də qazanılmış vərdişlər möhkəmləndirilir.

Şifahi nitqin əsas xüsusiyyətləri: 1) şifahi nitq danışılır və eşidilir; 2) ümumişlək, hamıya aydın sözlərə çox yer verilir; 3) şifahi nitqdə jümlələr, əsasən, sadə və qısa olur; 4) şifahi nitqdə danışıq dilinin xüsusiyyətləri mühafizə olunur. Yarımçıq jümlələrdən, qısa replikalardan istifadə edilir; 5) şifahi nitqdə intonasiya, fasilə, vurğu və s. vasitələrdən istifadə olunur; 6) mimika, cest və başqa hərəkətlər özünü göstərir; 7) şifahi nitqin axını sürətli olur. Şifahi nitqin öz növbəsində iki forması mövcuddur; monoloq və dialoq. Bu nitq formaları arasında ciddi fərq yoxdur. Monoloq təşkil olunmuş nitq növü olub hekayə, çıxış, məruzə və ya mühazirə formasında ola bilər. Monoloq çox vaxt dialoqun çərçivəsində inkişaf edir.

Təlim prosesində tələbələrin şifahi nitqini inkişaf etdirmək məqsədilə müxtəlif üsul və vasitələrdən istifadə olunur. Əməli danışıqlar təlimin ilk günlərindən başlayaraq, hər dərsdə aparılır və getdikcə genişləndirilir. Danışıq dərslərinin əsas məqsədi tələbələrin lüğət ehtiyatını zənginləşdirmək, onlarda Azərbaycan sözlərini düzgün tələffüz etmək,öyrəndikləri sözlərdən istifadə edərək sadə fikir söyləmək vərdişləri aşılamaqdır. Danışıq dərslərində təlim işi əsasən müəllimin sualına tələbələrin cavabı və ya tələbələrin suallarına yoldaşlarının cavabı şəklində dialoqlarla təşkil olunur. Belə dialoqları müəllimlə tələbələr öz aralarında aparırlar ki, bunun da əsas məqsədi əcnəbi tələbələrə Azərbaycan dili üzrə müəyyən şifahi nitq vərdişləri yaratmaqdır. Danışıq dərslərinin səmərəli keçməsinin əsas şərtlərindən biri də tələbələrin cavabını metodiki cəhətdən düzgün təşkil etməkdir. Suallara cavab tələbələrin lüğət ehtiyatını zənginləşdirir,sözlərdən şüurlu və düşünülmüş şəkildə istifadə etməyi öyrədir, düzgün cümlə qurmaq vərdişləri aşılayır. Bu üsuldan Azərbaycan dili təliminin bütün dövrlərində tələbələrin istər yazılı,istərsə də şifahi nitqinin inkişafında geniş istifadə olunur. Bu üsul yalnız sözlərin sırasını,cümlə qurmağı öyrətmək üçün deyil,müəyyən bir qrammaik qayda-qanunu əməli surətdə öyrənmək üçün də yararlıdır. Odur ki, bu üsulla iş apararkən müəllim hər bir dərsdə hansı qrammatik formanı öyrədəcəyini qabaqcadan müəyyən etməli və bütün dərsi,əsasən,həmin formanın öyrədilməsi və möhkəmləndirilməsinə həsr etməlidir.

İlk şifahi məşğələlər zamanı onları əhatə edən əşyalardan istifadə edərək dialoqlar qurmaq lazımdır. Məsələn, 1.Sinif əşyaları. 2. Evdə istifadə olunan əşyalar. 3.Geyim əşyaları. 4. Bədən üzvləri. 5. Əşyanın hərəkət və vəziyyətini göstərən şəkillər. Belə şəkillər tələbələrdə rabitəli nitqi inkişaf etdirmək üçün faydalıdır. Bu cür dialoqlar həm müəllmlə tələbə arasında ,həm də müəllimin göstərişi ilə iki tələbə arasında aprılmalıdır. Beləliklə,tələbə həm yeni sözləri öyrənir,həm də öyrənilmiş sözlərlə dialoqlar qurur və bu zaman dialoji nitq inkişaf edir.Hər bir müəllim tələbələrin Azərbaycan dilinə şifahi şəkildə olduğu kimi, yazılı şəkildə də yiyələnmə bacarığının yaranmasını təmin etməlidir. Çünki yazılı mətn yalnız şifahi nitqdə söylənilir və nitq hüququ qazanır. Bu baxımdan, yazılı nitq şifahi nitqlə yaxından bağlıdır. Deməli, şifahi nitq də öz əksini yazıda tapa bilər. Yazılı nitq üçün yazı, orfoqrafik normalar, durğu işarələri, fonetik normalar, leksik normalar, qrammatik normalar, rəsmi-əməli yazı növləri əsas şərtdir. Bunun üçün tələbələrə sözün səs tərkibinin hərtərəfli ifadəsini, böyük və kiçik hərflərin yazıda hansı məqamlarda işlədilməsini, sözlərin ayrı, bitişik və defislə yazılmasını, sözün sətirdən-sətirə keçirilməsi qaydalarını, cümlədə sözlərin işlədilməsi üsullarını və sırasını, yazılı nitqdə durğu işarələrindən istifadə olunması hallarını və s. dərindən anlatmaq əsas vəzifələrdəndir. Yazılı nitqdə orfoqrafiya və qrammatika normalarına əməl edilir. Yazılı nitqin xüsusiyyətləri bunlardır: 1) bu nitq yazılır və oxunur; 2) elmi, texniki, siyasi və s. terminlər çox işlədilir; 3) yazılı nitq ədəbi dilin əsasında formalaşıb inkişaf edir; 4) yazılı nitqdə intonasiya, fasilə, vurğu və s. şifahi nitq ünsürlərini əks etdirən durğu işarələrindən istifadə edilir ; 5) yazılı nitqdə mimika və cestlər rol oynayır; 6) yazılı nitq hər hansı məlumatın, fikrin nəsildən – nəslə keçməsində əsas rol oynayır.Hər iki nitq bir – biri ilə əlaqədardır. Nitq mədəniyyətinin inkişafı həm şifahi, həm də yazılı nitqdən asılıdır.Buradan aydın olur ki, dialoji nitq zamanı əcnəbi tələbələrə Azərbaycan dilinin tədrisində müəllimin sualları aşağıdakı tələbləri ödəməlidir. a) Təlimin ilkin mərhələsinin danışıq dərslərində verlən suallar əsasən istiqamətləndirici olmalıdır. Yəni suallar elə qurulmalıdır ki, tələbələr sualdakı sözlərdən,onların quruluşundan istifadə edib asanlıqla cavab verə bilsin.Belə sualların qoyuluşunda məqsəd tələbələrə Azərbaycan dilində ifadə və cümlələr söyləmək vərdişi aşılamaqdır.Məsələn; Otaq genişdirmi ? Arif gəldimi ? Lalə danışırmı? suallarına tələbələr həmin suallardakı sözlərin hər ikisindən istifadə edərək cavab verirlər.

b) Təlimin sonrakı mərhələsində suallar getdikcə mürəkkəbləşdirilir, tələbə cavab vermək yeni sz tapmaq üzərində fikirləşir. Yazılı nitqin inkişafında, savadlı yazı üzrə bilik, bacarıq və vərdişlərin formalaşmasında yazılı şəkildə yerinə yetirilən orfoqrafik təhlilin böyük əhəmiyyəti vardır.

Çünki orfoqrafik təhlil tədris zamanı tələbələrdən öz yazısına diqqətlə yanaşmağı, dilimizin yazı qaydalarının xüsusiyyətərini dərindən öyrənməyi tələb edir.

Orfoqrafik təhlili müxtəlif növlü yazılarda, o cümələdən üzdənköçürmə yazıların, öyrədici imlaların, sərbəst imlaların, yaradıcı imlaların, seçmə, xəbərdarlıqlı və izahlı imlalarda, həmçinin ifadə və inşaların yoxlanılmasında, həmin yazılar üzərindəki səhvlərin düzəldilməsində də tətbiq etmək olar. Yazılı nitqin tədrisi prosesində orfoqrafik rejim təmin edilməlidir ki, bu da orfoqrafik təhlil üzrə biliklərin əldə edilməsində əsasdır.

Yazılı nitqin inkişafı zamanı tələbələrin Azərbaycan dilinə dair bilik və bacarıqlarını da yoxlamaq lazım gəlir. Bu iş prosesində müəllim şifahi nitq vərdişlərinə təkan verən müxtəlif yazı növlərindən - suallara yazılı cavab, cümlənin genişləndirilməsi və tamamlanması üzərində iş, deformasiya olunmuş mətn üzərində iş,lüğət üzərində iş, imla, ifadə, inşa və s. istifadə edə bilər. Yazılı nitqdə isə bu vəzifəni durğu işarələri yerinə yetirir. Yazılı nitqdə durğu işarələrinin öz yerində işlədilməməsi fikrin təhrif olunmasına, pozulmasına və dolaşıqlıq yaranmasına səbəb olur. Bu xüsusiyyətlərə əməl edilməsi yüksək yazı mədəniyyətinə yiyələnmək üçün əsas amillərdən biridir. Yazılı nitq mədəniyyətini ahəngdar şəkildə inkişaf etdirmək üçün, hər şeydən əvvəl, durğu işarələrinin vəzifəsini, işlədilmə məqamlarını dərindən mənimsətmək tələb olunur. Parçalar arasında isə fasilədən, səsin tonundan, ritm və intonasiyadan asılı olaraq yazılı nitqdə müxtəlif işarələr qoyulur. Bu işarələrə nöqtə, vergül, sual, nida və s. daxildir. Yazılı nitq prosesində durğu işarələrinin işlədilməsinə ciddi əməl edilməsi hamı üçün məcburidir. Tələbələrdə yazılı nitqin inkişafı məqsədilə durğu işarələrinə dair biliklərin mənimsədilməsilə əlaqədar çalışmaların yerinə yetirilməsi məqsədəuyğundur. Azərbaycan dili dərslərində yazılı niqtin inkişafına xidmət edən üsullardan biri də çalışmalardır. Bəzən müəllim verilmiş bilikləri möhkəmləndirmək, düzgün və savadlı yazı vərdişləri aşılmaq üçün müxtəlif növ çalışmalar təşkil edir. Çalışma bir neçə mərhələdən keçir: müəllim onun necə icra ediləcəyini aydınlaşdırır və nümunələr əsasında nümayiş etdirir, tələbələr isə qulaq asır və müşahidə edir, tələbə verilmiş çalışmanın icrasında özünü sınayır, sonra fərdi qaydada, ya da çalışmanın qrup şəklində yerinə yetirilməsi yoxlanılır, səhvlər aşkara çıxarılır və ona düzəlişlər edilir. Həmin düzəlişlərin nəyin əsasında aparıldığı, hansı nəzəri materiallara əsaslandığı lazım gəldikcə tələbələrə aydınlaşdırılır. Biliklərin şüurluq dərəcəsini artırmaq üçün verilən çalışmaların izahı zamanı həm tələbələrə öyrədilən nəzəri mareiallarla bağlı biliklər möhkəmlənir, həm də onların yazılı nitq üzrə qabiliyyətləri inkişaf etdirilir. “Dilin tədrisində yazı dilin aspektləri ilə şifahi nitqi inkişaf etdirmək üçün üzvi surətdə bağlıdır.

Yazı şifahi nitqin təməlini qoyur. Ona görə də yazılı çalışmalara tədrisdə çox yer vermək məsləhətdir.

Ədəbiyyat

1. R.Rəcəbova. Azərbaycan dili. Bakı, 2002, s.10, 15, 16, 17, 18.
2. S.H.Hacıyeva. Nitq mədəniyyəti. Bakı, 2011, s.73, 74, 75.
3. A.Paşayev, E.Cəfərova. İnteraktiv təlim Azərbaycan dili və ədəbiyyat dərslərində. Bakı, 2008.
4. A.Süleymanova. Ədəbiyyat dərslərində informasiya və kommunikasiya texnologiyalarından istifadə. Bakı, 2011.
5. A. A.S.Abdullayev. " Rus məktəblərində Azərbaycan dili". Bakı,1971.
6. A.S. Abdullayev. "Rus məktəblərində Azərbaycan dilinin metodikası". Bakı.1974.
7. Ə.M.Abbasov. "Təlim rus dilində olan məktəblərdə Azərbaycan dilinin öyrədilməsi məsələləri". Bakı,1999
8. . E.Maqsudov. "Dillərin müqayisəli tədrisi". Məktəb nəşriyyatı. Naxçıvan, 2004.
9. E.Maqsudov. "Azərbaycan dillin Türkiyə türkcəsi ilə əlaqəli tədrisi üçün çalışmalar". Məktəb nəşriyyatı. Naxçıvan, 2004.5

R.Məmmədova

Formation of verbal and written speech of foreign students studying in high schools in Azerbaijan

Summary

In the training process, various methods and tools are used to develop students' oral speech. Practical talks are conducted in every lesson, starting from the first days of the training, and are expanding gradually. The main purpose of the lectures is to enrich the vocabulary of the students, to pronounce the words in Azerbaijani correctly, and to use the words they use to express simple ideas. In the lecture classes, the training work is mainly organized by dialogues in response to the teacher's answer or to the questions of the students in the form of spouses responses. Such dialogues are used by teachers and students among themselves, the main purpose of which is to develop oral speech skills for foreign students in the Azerbaijani language. One of the main conditions for the efficient passage of speaking lessons is to organize students' methodological approach correctly. Answering questions

enriches the vocabulary of the students, teaches them to use words that are conscious and thought-provoking, and encourages them to build the right sentences. This method is widely used in the development of both written and oral speech of students in all periods of the Azerbaijani language teaching. This method is useful not only to teach the sequence of sentences, but also to learn a specific grammatical rule. Therefore, when working with this method, the teacher should determine in advance what grammar form he is going to teach in each lesson, and the whole lesson should focus primarily on teaching and strengthening that form.

Р.Маммедова

Формирование иностранных языков в Азербайджане

Резюме

В процессе обучения используются различные методы и инструменты для развития устной речи студентов. Практические беседы проводятся на каждом уроке, начиная с первых дней обучения, и постепенно расширяются. Основная цель лекций - пополнить словарный запас студентов, правильно произносить слова на азербайджанском языке и использовать слова, которые они используют, для выражения простых идей. На лекционных занятиях учебная работа в основном организуется посредством диалогов в ответ на ответ учителя или на вопросы студентов в форме ответов супругов. Такие диалоги используются учителями и учащимися между собой, основной целью которых является развитие навыков устной речи для иностранных студентов на азербайджанском языке. Одним из основных условий эффективного прохождения уроков разговорной речи является правильная организация методологического подхода студентов. Ответы на вопросы обогащают словарный запас учащихся, учат их использовать слова, которые являются осознанными и заставляют задуматься, и побуждают их строить правильные предложения. Этот метод широко используется при развитии как письменной, так и устной речи студентов во все периоды обучения азербайджанскому языку. Этот метод полезен не только для обучения последовательности предложений, но и для изучения конкретного грамматического правила. Поэтому, работая с этим методом, учитель должен заранее определить, какую грамматическую форму он будет преподавать на каждом уроке, и весь урок должен быть сосредоточен в первую очередь на обучении и укреплении этой формы.

Rəyçi: Akif Hacıyev
Filologiya üzrə fəlsəfə doktoru, dosent

RÜBABƏ MUSAYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti
sevinc-rübabə.@.mail.ru.

MÜASİR İNGİLİS DİLİNDƏ NİTQ HİSSƏLƏRİNİN TRANSFORMASİYASI VƏ ONUN AZƏRBAYCAN DİLİ İLƏ MÜQAYİSƏLİ XARAKTERİSTİKASI

Açar sözlər: Sifətlərin substantivləşməsi, konversiya, tam və qismən substantivləşmə
Key words: Substantivization of the adjective ,conversion, complete and partially substantivization
Клюсьвые слова :субстантивизачия прилагательное конверчия ,полный и частично субстантивизачия

Substantivləşməyə ən çox qabil olan sözlər təyinedici,qrammatik mənada əlamət ,keyfiyyəti, sifət bildirən sözlərdir. Söz substantivləşərkən onun həmin keyfiyyəti substantivləşmə motivi kimi özünü göstərir. Qarşılaşdırılan hər iki dildə substativləşən söz əlamət bildirmə xüsusiyyətini saxlamaqla müəyyən situasiya ilə bağlı olan isim kimi işlənir. Bu, substantivləşən sözün cümlədə onun ilkin mənasında qeyri xarakterik, yəni işlənmə halında xarakterik olan mövqelərdə işlənməsi ilə müşayiət olunur.“İngilis dilinin qrammatikası” əsərində belə bir mülahizə ilə rastlaşırıq ki, substantivləşmiş sifətlərdə ismin bəzi, ya da bütün xüsusiyyətləri vardır; lakin onların sifət mənşəyi özünü bu və ya digər dərəcədə və hiss etdirir. Müəlliflər substantivləşmiş və qismən substantivləşmiş olmaqla iki yerə bölürlər. Tam substantivləşmiş sifətlərdə isimlərin bütün xüsusiyyətləri vardır: cəm forması, yiyəlik hal.Onlar ismə çevrildiklərinə görə artiklla işlənə bilirlər: a native, the native, a native “s , natives .Tam substantivləşmiş sifətlərin bəzilərinin yalnız cəm forması olur: eatables: yeməli şeylər ,ərzaq ,ruzi ; valuables: qiymətli şeylər, daş – qaş ; ancients: qədim şeylər, əntiq şeylər: greens: göyərti, pencər, göy. Qismən (natamam) subustantivləşmiş sifətlər ismə məxsus bütün morfoloji xüsusiyyətləri deyil, onlardan ancaq bir qismini qəbul ede bilir. Bu qəbilədən olan sifətlər müəyyənlik artikli ilə işlənə bilən bütöv bir sinfə aid olan ismi bildirir. Məsələn, the rich-varlılar,zənginlər ,the poor-yoxsullar, kasıblar, the captivated, the captured-əsir, əsirlər.Onlar mücərrəd anlayışları da bildirə bilir: the good-xeyir, fayda, the evil-şər, zalım, the beatiful-gözəl, the singular-tək, the plural-cəm. Maraqlı burasıdır ki, eyni məna qrupundan olan sifətlərin bir qismi tam, bir qismi isə qismın substantivləşmiş olurş Məsələn, a Russian-Russians, a German-Germans (tam substantivləşmiş sifətlər), the English, the French, the Chinese(qismən substantivləşmiş sifətlər) (Fries Ch. The Structure of English London, Longmans, 1961, s.52). Qismən substantivləşmiş sifətlər geniş şəkildə növ

mənası kəsb edir və müəyyənlik artiklli ilə işlənir. Bu tip sifətlər insan qruplarını təsvir etmək ücün istifadə olunur və onalrın bütün qrupuna və ya sinfinə aid olur.

Məs:The young in spirit enjoy life;The rich are usually keen to travel.

Bir sıra mücərrəd sifətlər də müəyyənlik artikli ilə işlənirlər.Bu halda adətən sabit birləşmələrdə rast gəlinir.Take the rough with the smooth. Work from the known to the unknown T.Barabaş "İngilis dilinin qrammatikası" əsərində sifətlərin substantivləşməsini konversiyanın bir növü hesab edir. Sifət substantivləşərkən özünə xas olan xüsusiyyətləri qismən və ya tam şəkildə itirir və ismə xas olan xüsusiyyətləri də qismən və ya tam şəkildə kəsb edir. Son nəticədə söhbət qismən və ya tam substantivləşmiş sifətlərdən gedir (Барабаш Е.В. Грамматика английского языка. М.: Высшая школа, 1983, s.49)

Müəllif qeyd edir ki, tam substantivləşmiş sifətlər cəmdə və yiyəlik halda işlənə bilir. Onlar müəyyənlik və qeyri-müəyyənlik artiklləri ilə işlənir. Burada substantivləşmiş sifətlərin aşağıdakı qrupları qeyd olunur:

1) Adamların hansısa qruplara xas mənsubiyyətini bildirənlər: a hative –yerli, a reltive- qohum, a savage- dəli, vəhşi, a progressive- mutərrəqi (xadim), a reactionary- irticası, mürtəce, a criminal- cani, cinayətkar, a black- qaradərili (adam), a white- ağdərili (adam).

2) Millətlərin adını bildirənlər: a Russian-rus, an American-amerikalı, a German-alman.

Müəllif göstərir ki, bu qrupdan olan "se" və "ss" ilə qurtaran sozlərin tək və cəm formaları olur: Chinise-çinli, Portugese- portəgiz, portagizlər, (köhnə) potiqaliyalı, portuqaliyalılar.

-ch və -sh ilə qutaran və millət, xalq adlarını bildirən sözlər ümumi məna daşıyır: the Engilish- ingilislər, the French- fransızlar, the Dutch- hollandiyalılar. Sadalanan bu xüsusiyyətlər Azərbaycan dili üçün xarakterik deyildir. Azərbaycan dilində millət adları istisnasız olaraq isim kimi özünü göstərir. Bunlardan sifət kimi istifadə etmək mümkün deyildir. Azərbaycan dilində millət adları müstəsna hallarda ləqəb və səciyələndirici söz kimi işlənir.

3) Mücərrəd anlayışları bildirən sözlər: the good- fayda, the beautiful- gözəl, the impossible- qeyri-mümkün və s.I don"t like to heat anybody suggesting the contrary.

-Mən bunun əksini söyləyəni sevmirəm.The unlikely happened more often than one would be disposed to believe –Ağlasığmaz şeylər adamın inanmaq istədiyindən daha tez-tez baş verir.Müəlliflər kollektivin hazırladığı N.Kobrina əsərində substantivləşmiş sifətləri leksik mənalarına və malik olduqları ismi xüsusiyyətlərinə görə aşğıdakı qruplara bölürlər:

1. Bəzi substantivləşmiş sifətlərin yalnız tək forması olur. Bunlar aşağıdakılardır:

a) Ümumiləşdirilmiş, yaxud mücərrəd anlayışlar bildirənlər: Onlar müəyyənlik bildirən artikillə və tək sayda işlənir: the unseen- görünməz,

görülməmiş. (Azərbaycan dilində görməmiş), the fabulos- ağlasığmaz, ağlagəlməz, the unreal- saxta, qeyri-real,the unkovn- naməlum, invisible- gözəgörünməz və s.

b) Dillərin adını bildirən substantivləşmiş sifətlər artiklsız, ancaq çox vaxt əvəzliklə işlənir. Qeyd edək ki, azərbaycanca bu cur demək olmur. Həmin məzmunu azərbaycanca belə vermək olar: " Mən ispanca az-maz bilirəm".

c) şəxslər (fərdlər) qrupunu bildirən substantivləşmiş sifətlər the artikl ilə işlənir və cəm mənasını kəsb edir.The old- qocalar, the poor-kasıblar və s.

-Onlar öz ölkələrinin yoxsullarını çapıb –talayırdılar .

2. Yalnız cəm forması olur.Bunlar aşağıdakılardır: Bəzi substanivləşmiş sifətlərin həm tək, həmdə cəm forması olur(yəni, onların kəmiyyət kateqoriyası var). Bura aşağıdakılar daxildir:

a)Sosial təbəqə və ya mövqe, hərbi rütbə ,partiyaya münasibət, dini məqam, cins,milliyət, irqi mənsubiyyət,müxtəlif vaxtlara və dövrlərə mənsub olan şəxslər qrupu və s. Bildirən substantivləşmiş sifətlər: nobles, equals, superiors,commercials, domestics , privates, Europeans, Asiatics, whites və s.Bu tip sözlər ayrı-ayrı fərdləri bildirərkən qeyri-müəyyənlik artikılı ilə işlənirlər: a noble, a private, a regular, an ordinary, a leberal

b) Heyvan və bitki afdlarını bildirən substantivləşmiş sifətlər: evergreens- hemişəyaşıl ağaclar, thoroughbreds- cins (at)

3. Bəzi substantivləşmiş sifətlərin

a) Tədris prosesi və imtahanlar ilə baglı anlayişları bildirən substantivləşmiş sifətlər. Bunlar bir anlayışı,yaxud anlayişlar cəmini bildirməkdən aslı olaraq təkdə və ya cəmdə işlənə bilir: classics, finals, midsessionals.

b) Əşya, maddə və ərzaq bildirən substantivləşmiş sifətlər. Bunların bəziləri həm tək, həm də cəmdə olan uzlaşmaya (chemicals, movabls, necessaries, valuables, eatables, greens), bəziləri isə yalniz təkdə olan uzlaşmaya yol verir.

c) Bədən üzvlərini bildirən substantivləşmiş sifətlər the artikli ilə işlənib, yalniz cəmdə olan xəbərlə uzlaşir: the vitals, the vhites (of the eyes). Beləliklə, nəzərdən keçirilən elmi-metodik vəsaitlərdə bir-birini təkrar edən materiallara yanaşı, yəni təkrar olunmayan materiallarda öz əksini tapmişdir. Substantivləşmiş sifətlər qısa şəkildə Y.Qordon İ.Krılovanın "A Grammar of Present-Day Engilish" kitabindada tədqiq olunmuşdur(parts of Speceh), 2nd ed, (M, 1980, s.134). Müasir ingilis dilində sifət müqayisə və üstunlük dərəcələrində substantivləşə və ismin xüsusiyyətlərini qəbul edə bilir. Substantivləşmə Azərbaycan dili materiallarinda müşahidə edilir.O taxtapuşun üstündəki qovunlara baxdıqdan sonra bir bozumtulunu gotürdü və pulunu verdi . Qırmızımtıraqlardan bir-iki kilo almaq lazımdır. Onlardan biri ucaboylu ,o birisi isə gödərək idi. Bu cümlələrdə sifətin azaltma dərəcəsində işlənən sözlərin substantivləşdiyi nümunələrdə verilmişdir. Azaltma dərəcəsində işlənən sifətlərin substantivləşməsinə dair digər nümunələri nəzərdən keçirək. Sintaktik üsulla reallaşan bu hadisə zamanı sifət bir başa yanaşma

əlaqəsi və ya idarə əlaqəsi əsasında substantivləşirlər. Məs: a) Yanaşma əlaqəsi əsasında substantivləşənlər: Niyə kəşviyata bir az diribaşları göndərmirsiniz?

a) Idarə əlaqəsidə substantivləşənlər:O yaşıla çalan pencəyi geyinib.Mən sarı çalan köynəyə baxdım.İngilis dilində olduğu kimi, Azərbaycan dilindədə çoxalma dərəcəsində işlənən sifətlərin substantivləşməsi xarakterik hadisədir. Amma bu zaman fərqlərdə özünü göstərir.Azərbaycan dilində substantivləşən birinci sifət həm qrammatik həm də semantik cəhətdən cəm formada, ikincisi isə tək formada işlənir Kasıbların kasıbı, gözəllərin gözəli- the happies of the happy, the youngest of the young. Kəndimizin bu dövlətli və sayılan ağsaqqalları bilirlər ki, mən kasıbların kasıbıyamSifətlərin substantivləşməsi geniş yayılmış leksik-sintaktik hadisədir. Ona görə ki, hər bir sifət müəyyən əlamətlə özünü biruzə verir. Əlamət bildirmə xüsusiyyəti isimlərin formalaşmasında daxili forma, motivləşmə şəklində özünü göstərir İngilis dilində olduğu kimi, Azərbaycan dilindədə sifət substantivləşməyə ən çox məruz qalan nitq hissəsidir.Sifətin subnstantivləşməsi ümumiyyətlə subnstantivləşmə hadisəsi içərisində mərkəzi mövqe tutu . Sifət leksik seminatik xüsusiyyətlərə görə çox zəngin bir kateqoryadır. Bu səbəbdən sifətlərin hansi tiplərinin substantivləşməsi mühüm əhəmiyyət kəsb edir. Sifətin substantivləşməsinə həsr olunmuş əsərlərdə bu məqama həmişə diqqət yetirilir. Bu isiqamətdə axtarişlari davam etdirmək lazımdır.Əlimizdə olan ədəbiyyatlar substantivləşmə hadisəsini sifətin aşağıdakı məna növləri üzrə nəzərdən keçirməyə imkan verir.

Ədəbiyyat:

1. Fries Ch. The stru cture of Engilish London, long mans, 1961
Esse üçün əsas paraqraflar bir əsas fikir ətrafında mərkəzləşdirilməsi olduğu haldaç aydın bir məzmun cümləsinin yaradılması həm yazıçı həm də oxucu üçün faydalıdır. Yazıçı üçün məzmun cümləsi mövzu üzərində qalmağı və məzmundan çıxmadan əsas fikri inkişaf etdirməyi asanlaşdırır.

Oxucu üçün məzmun cümləsi paraqrafların və ideyaların bir-birinə necə bağlı olduğunu nümayiş etdirir.

Məzmun cümləsi ümumiyyətlə paraqrafın əvvəlində görünür və ona nəzarət edir. Məzmun cümləsi, hər bir paraqraf üçün bir mini tezis cümləsinə bənzəyir və paraqrafın məzmununu birləşdirməyə xidmət edir.

Paraqrafdakı hər şey məzmun cümləsinə aid edilməlidir. Bütün esselər aydın məzmun cümlələri nümayiş etdirmir, lakin yazıya yeni başlayanlar paraqraf birliyinə nail olmaq üçün effektiv məzmun cümləsi yazmağı öyrənməlidir.

Bütün məzmun cümlələrin tezisin ifadəsinə aid olması vacibdir. Bu, essenin daha çox biliyə və diqqətə sahib olmasına imkan verir.

Р.Теймурова

Еффективность содеркжание предложений в процессе письмо на Английском языке

Резюме

В статье рассматривается еффтитивность письмо привязанности к грамматике и морфологии английского языка добавив морфему в другую форму этого слова или другое значение это процесс создания нового слова в писме.

Создания новые слова на английском языке является наиболее распространенным методом создания. и два основных типа письмо ффиксации: префикс - начало письмо слова - буквально для добавления к концу, а также для использования групп терминов делая сложные слова.

Большинство новых слов теперь написаны на английском языке результат путаницы - два слова вместе, чтобы сформировать новое слово частичные слова. Короче говоря, аффикс заключается в изменении значения или формы слова является элементом используемой английской грамматики.

Писменность - это морфологический процесс, то есть морфемы, связанные с корнями в смысле изменений. Affiks принимает несколько форм и выполнять различные функции.

Rəyçi: Həbib Mirzəyev
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SOLTANXANIM MUSAYEVA
AAHM
soltanxanım.@.mail.ru.

MÜASİR İNGİLİS DİLİNDƏ METAFORİZMLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ EKVİVALENTLƏRİ

Açar sözlər: İngilis dili, Azərbaycan dili, məcazi sözlər, metafora, növ, heyvan adları, quş adları, üslubi xüsusiyyət
Ключевые слова: английский язык, азербайджанский язык, метафорические слова, вид, животные имена, имена птиц, стилстические особенности
Key words: The English language, Azerbaijan language, the words with figuratve meaning, metaphor, kind, the names of animals, the names of birds, stylistic feature

Tarixi kateqoriya olan söz nəinki dildə fikri ifadə edir, həmçinin obyektiv varlığın obrazlı təsvirinə də xidmət edir. Söz əsasən dil tarixinin müəyyən dövründə yaranıb formalaşır. Danışanlar ondan hazır şəkildə istifadə edir. Dildə sözlər real şəkildə mövcuddur, obrazlı olur, hadisələrə subyektiv qiymət verir, incə hisslər ifadə edir, emosional təsir göstərir. Sözün bu cür səviyyəsi onun semantikasında olan müxtəlif hadisələrdir ki, bu semantik hadisələrdən biri də məcazi mənalardır.

Ə.Dəmirçizadə belə sözlərin əvəzçilik vəzifəsi daşıdığını qeyd edərək yazır: "Diqqətlə yoxladıqda aydın olur ki, bu əlavə mənaların əslində sözün ilk mənası ilə uzaq və ya yaxın əlaqəsi də vardır və məhz belə əlaqələr nəticəsində həmin sözlər əvəzçilik vəzifəsi daşıyır" . buradan belə bir nəticəyə gəlirik ki, sözün əsas mənası ilə əlaqədar dolayı mənası da ola bilər və sözlərin belə əlavə-dolayı mənalarda işlədilməsi mümkündür, hətta zəruridir (2, 152). Müəllif bundan nəticə çıxardaraq məcazi mənalı sözlərə aşağıdakı kimi tərif verir: "Sözün əlavə vəzifədə dolayı yolla ifadə etdiyi məna məcazi məna adlanır (yenə orada).Çoxmənalı sözün əksəriyyətinin mənalarından biri həqiqi olduğu halda, digər mənaları ikinci dərəcəli və ya məcazi mənada olur. Bu cür xüsusiyyət bütün dillərə, o cümlədən də İngilis dilinə xasdır.Məsələn, " Azərbaycan dilinin İzahlı Lüğətində "alçaq" sözünün 5 mənası göstərilmişdir ki, bunun da 2 mənası məcazi məfhum bildirir:

Alçaq sif.

1. Hündürlüyü, ucalığı az olan, hər hansı bir səviyyədən azacıq hündür olan...
2. Bəstəboy, boyu gödək...

3. m. (məcazi) pis, xarab, keyfiyyətsiz...
4. m. (məcazi) rəzil, şərərfsiz, namərd, çox pis...(3, 50)

"İngiliscə-Azərbaycanca lüğət"də isim kimi "charge" sözünün 9 mənası verilmişdir ki, burada da axırıncı mənanın məcazda da işlədilməsi göstərilmişdir:

Charge n.

1) Ödəmə, vermə, qiymət (xidmət və s.):pl. Xərc, məxaric; ~for admission-giriş üçün ödəmə; free of ~ pulsuz; extra ~ əlavə xidmətlər üçün ödəniş;

2) Ittiham, təqsirləndirmə; on a ~ of it- ittihama görə (bir şeydə)

3) Məsuliyyət (vəzifəyə); vəzifə, birc; who is in ~ here? Burada başçı kimdir?; to take ~ of- nəzarət altına almaq, nəzarətində saxlamaq (nəyisə), idarə etmək, baxmaq (nəyəsə);

4) Baxım, qayğı, himayə; to be in ~ of – baxmaq, qayğı göstərmək (kiməsə); to leave children in smb s ~ uşaqlari kiminsə himayəsi altinda qoymaq; to give smb.in charge – kimisə polisə təslim etmək;

Dildə məcazın əsasən, metafor, metonomiya, sinektoxa, alleqoriya, epitet və s. kimi növləri fərqləndirilir ki, bunlar da hələlik polemika doğurur.Qeyd edək ki, məcazın növləri içərisində ən geniş yayılanı metafordur. Yığcamlıq və ifadəlilik cəhətdən metafor ən qüvvətli vasitədir.

Metafor əşya və hadisələr arasında mövcud olan qarşılıqlı əlaqələrin dərkedilməsi təffəkürlə bağlıdır. Bu da onunla əlaqədardır ki, bir çox əlamət-lərin, məsələn, predmetlər arasında oxşarlıq, bənzəyiş, müqayisə kimi əlamətlərin varlığı həmin predmetin adı başqası üçün işlədilir.

Məsələn, "meymun" heyvan adıdır; İngilis dilində "ape" , "monkey" kimi sözlərlə ifadə olunur. Bu heyvana məxsus başqasını yamsılama, təqlid etmə, ağız əymə, əzilib-büzülmə və s. kimi səciyyəvi xüsusiyyətlər onun adının metafora çevrilməsinə zəmin yaradır."Meymun" sözün həm Azərbaycan dilində, həm də İngilis dilində eyni məfhumu, eyni mənanı ifadə edir. Hər iki dildə "meymun" sözündən meymunluq etmək (ape, to act\to play the ape) ifadəsi də işlədilir ki, bu da-"yamsılamaq," "təqlid etmək", "oyun göstərmək", "ağzını əymək" və s. kimi mənaları bildirir. Həmin söz və ifadə Azərbaycan və İngilis dillərində tez-tez işlədilir.Bəzi məcazi sözün özünün də məntiqi bir mənası var. Məsələn "lair" İngilis sözünün isim kimi əsqas məna kimi "mağara", "yuva" (vəhşi heyvanların məskunlaşdıqları yer), "adamım gizləndiyi, daldalandığı yer", fel kimi "mağaraya girmək" mənalarını bildirir. Məcazi mənada isə "qış yuxusuna girmək" ifadəsi kimi işlədilir – yəni çox yatmaq, heç nədən xəbəri olmamaq.Qeyd edək ki, "mağara" dedikdə ilk olaraq ayı yuvası nəzərdə tutulur. Ayı da çox yatanda (bütün qış yatır) qış yuxusuna gedib-deyirlər.Metaforun yaranma xüsusiyyətləri rəngarəngdir, onlar müxtəlif yollarla əmələ gəlir. Onlar ilk

növbədə bənzəyiş əlamətləri nəticəsində yaranır.Metaforlar zahiri cəhətdən oxşarlıqla əlaq\ədae, daxili əlamətlərinə görə oxşarlıq nəticəsində, canlılara məxsus hərəkətlər əşyaların üzərinə keçirilməklə və s. yollarla əmələ glir.Deməli, metafor müxtəlif əşyalar arasında müqayisə prinsipi əsasında yaranır. Yaranan metaforlar mənalı və ifadəli olur.Dildə həm ümumişlək, həm də üslubi metaforlar vardır. Üslubi metaforlar poetik metaforlar da adlanır.

Dilçilikdə metaforları quruluş etibari ilə sadə və mürəkkəb – deyə iki qrupa ayırırlar. Ayrı-ayrı sözlərin məcazlaşması sadə metaforlardır. Bunlar, sadəcə olaraq, leksik metaforlardır. Həmin metaforlar müxtəlif qruplardan əmələ gəlir ki, bunların da bir qismi aşağıdakılardan ibarətdir:

1.Daxili əlamətlərinə görə yaranan metaforlar. Buraya, əsasən, aşağıdakı sözlər daxildir:

a) Heyvan adlarını insan üzərində yönəldilən sözlər. Məsələn:

Həqiqi mənası	***Məcazi mənası***
Wolf (isim) canavar, qurd	acgöz, qarınqulu; xain, paxıl
Wolf (fel) yemək	acgözlüklə yemək
Wolfish canavar, qurd(canavara aid olan)	qəddar, zalım, yırtıcı, vəhşi
Fox (isim) tülkü	bic, hiyləgər
Fox (fel) _____	hiyləgərlik etmək
Tiger pələng	dalaşqan, qəddar insan
Foxy tülküyə aid olan	hiyləgər, bic
Lion (isim) şir, aslan	1)cəsur; 2) şöhrət, məşhurluq **Lion-**

Çox maraqlı haldır ki, İngilis dilində “donuz” sözünün həm isim, həm də fel kimi bir çox mənası vardır ki, bunların da əksəriyyəti məcazda işlədilir. Sözün mənalarına fikir verək:

Pig n.

1) Donuz, çoşka, donuz potası, donuz balası;2)Iri çoşka; roast ~ qızardılmış çoşka3)D.d. donuz, sırtıq, utanmaz, nacins, nankor, həyasız, ədəbaz (adam)Pinti, natəmiz adam4)Amer, əxlaqsız, pozğun qadın 5)Dəmir parçası, külçə 6)D.d. xoşagəlməz situasiya; pis vəziyyət 7)Tex. Külçə, qəlib 8)Sl. Polis...(4, 665)

Pig II (V)

1) Çoşkalanmaq, balalamaq (donuz haq.)
2) Donuz kimi çirk içində yaşamaq
3) ~ te d.d. daldalanmaq, sığınmaq, sıx və darısqallqda yaşamaq (4, 665)

“cat” sözü də həmçinin bu cür xüsusiyyətə malikdir:

Cat (n)

1) Erkək pişik, dişi pişik
2) Pişikkimilər fəsiləsi
3) D.d intriqaçı, aravuruşduran qadın

Bill (v) ~ and coo

1) Quruldamaq (göyərçin haqqında)
2) Şirin-şirin söhbət etmək

Coo (n)

1) Quruldama (göyərçinlərdə)
2) Şirin söhbət

.Nümunələrdən göründüyü kimi, bəzi sözlərin məcazi mənası Azərbaycan dilində işlədilən mənalarla həmahəngdir.

1) Ayrı-ayrı sözlərin canlılar üzərində məcazlaşması:

Alloy (cilovlamaq, qəmləndirmək), **alms-house** (tənbəlxana), **bay** (çıxılmaz vəziyyət), **blight** (adamı məyus etmək, planları alt-üst etmək), **blot** (təhqir etmək, rüsvay etmək, ləkələmək), **breath**e (yaşamaq, mövcud olmaq), **flag** (ruhdan düşmək), **fringe** (ifratçılıq), **glaring** (kobud, diqqətli baxış), **glory** (xoşbəxtlik, səadət**), gulf (**acgöz, gözüdoymaz), **hurry** (səbirsizlik), **implant** (beyninə yeritmək), **indicate** (fikir vermək), **inhale** (nəfəs almaq), **lasyh** (tənqid etmək), **duck** (yaltaqlıq etmək) və s...

Ədəbiyyat

1Ə. D.əmirçizadə "Azərbaycan dilinin üslubiyyətı". Bakı, 1962.
2"Azərbaycan dilinin izahlı lüğəti" (3 cildlik) 1ci ciold. Bakı, 1997
3." İngiliscə- Azərbaycanca lüğət". Bakı, KM, 2012

S.Musaeva

The words with qa figurative meaning in the Azerbaijan language

Summary

The article deals with the words with figurative meaning and its ways of expressions are shown here. The words with figuratve meanings appear in the multiciphered process and a lot of examples are given in the article. At the same time the ways of formation the words with figurative meanings are expressed here. The figurative meaning of every word are reflected in this article.

In both English and Azerbaijani language the use of metaphors are frequantli observed.Because they are widely used in the English language,in press materials and literary works reders encounterwith them.In these cases,it is important to comprehend them and some methods must be employed to translate these metaphors.Otherwise some misunderstandings

will occur and language norms will be violated.In the article analyses of some metaphors have been presented.

С.Мусаева

Слова метафорическим значением на английском языке

Резюме

В статье рассказывается о словах метафорическим значением, исползованные на английском языке и указывается их средства выражения на азербайджанском языке. Здесь подробно говорится о форморивании метафора, главном образом в процесс абстрактные слова, приводятся примеры.Также в статье нашло свое отражение пути появления метафор на английском языке. Даны метафорические значении каждого слова на азербайджанском языке.Как на английском,так и в Азербайджанском языке часто встречаются случаи использования метафорах.-Широкое распростронение метафоровбв частности на Английском языке,приводит к их частому появлению перед читателями в прессах и в литературных произведениях.

В этом случае,в их понимание для перевода на Азербайджанский язык должны быть использованы различные методы. В противном случае произойдут определенные недаразумения и это привидут к нарушению норм языка.

Rəyçi: Yusif Süleymanov
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SAFURA İBRAHİMOVA
ADİU
safura.@.mail.ru.

QƏDİM İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNDƏ BAŞ VERƏN SEMANTİK TRANSFORMASİYA VƏ DİL ƏLAQƏLƏRİ

Açar sözlər: lüğət tərkibli, ekstranlinqvistik amillər,İngilis dili,inkişaf
Ключевые слова: словарной состав, экстралингвистика,Англий.язык
Key words: vocabulary stock, extranlinguisitic factor,English,devlopment

Məlumdur ki, heç bir dil təkçə fəaliyyət göstərmir. O, həmişə başqa dillərlə əlaqədə olur. Bu dillər müxtəlif vasitələrlə bir-birinin mədəniyyətinə, dilinə ədəbiyyat və həyat tərzinə təsir edir.Heç bir dildə bu əlaqədən, bu kontaktdan yayına bilmir. Böyük alim V.V.Humboldta görə dil tamamlanmamış bir olmaqla həm də daim hərəkətdə olan bir adətdir.Xarici amillər aramsız olaraq dilə təsir edir və onda öz izlərini qoyub gedir. Odur ki, ingilis dilinin tarixində xarici təsir məsələsinə həmişə çox. diqqət yetirilmişdir.

Məlum olduğuna görə, dil içtimai hadisədir . içtimai hadisə olmaq minanlə o, başqa ictimai hadisələrlə. Xalqın öz tarixi ilə sıx sürətdə bağlıdır. Hər bir dil, yavaş- yavaş da olsa, daim və durmadan inkişaf edir təkmilləşir.Qədim ingilis dilinin lüğət tərkibi əsasən daxiili amillər hesabına zənginləşmiş, inkişaf etmiş və təkmilləşmişdir. Qədim ingilis dilinin lüğət tərkibi, əsasən geıman mənşəli sözlərdən ibarət olmuşdur. Halbuki, orta və yeni ingilis ilinin lüğət tərkibi çoxlu miqdarda ekstalinqvistik təsirlərə məruz qalmışdır və onların lüğət tərkibində alınma sözlər çoxluq təşkil etmişdir:Çoxlu xarici sözlərin mənisənilməsi nəticəsində doğmasözlərlə alınma sözlərin tarazlığı pozuldu. Qədim ingilis dilinin lüğət tərikibini nəzərdən keçirərkən ingilis tayflannm Roma mədəniyyəti və romalılardan müəyyən əlaqələrinin olması məlum olur. Roma dillərində qədijm ingilis dilinə ən çox təsir edən dil latın dili olmuşdur. Hələ qitədə yaşayərkən german tayfaları romalılarla, uzunmuddətli ticarət əlaqələrinə girmiş, onlarla sıx unsuyyətdə olmuş və bunun nəticəsində 50-yə qədər latın sözləri,onların dilinə daxil olmuşdur. Bu sözlər kənd təsərufatı, ev muxəlifatı və hərbi işlərlə bağlı olan sözlərdir.Eramızın birinci əsrində germanlarda kənd təsrufatı çox zəif inkişaf etmişdir. Buynuzlu heyvan əti və süd ən mühüm qida maddələrindən biri olduğuna Baxmayaraq, germanlar yağ və pendir nə olduğunu bilmirdilər. Bir sıra meyvələri, o cümlədən armud, gavalı, gilas və.s bostan məhsullarından turp çuğundur, noxud istiot, nanə və.s tammirdıar. Yeni əmtəələrin germalar arasında yayaılmasmda roma

tacirlərinin böyük rolu olmuşdur.Eramızın birinci əsrində Braitaniyam zəbt edən romalılar ölkəni öz müstəmləkərinə çevrib, orada bir sıra hərbi düşərgələr, daş döşənmiş yoolar -via- strata , istehkamlar və.s qurdular.Müdafiə və yaşayış məqsədilə tikilmiş bu cür tikintilər latınca starata " küçə": castra düşərgə : vallum -kərpic divar : vicus - yaşayış qəsəbəsi və.s adlanırdı.

O zaman İngiltərənin yerli sakinləri Keltlər idilər. Onlar həmin latm sözlərini mənimsədilər, öz dillərində işlətdilər. Kelt dili vasitəsi ilə V əsrdən sora qədim ingilis dilinə keçmiş bu cür sözlər latm alınma sözlərinin ikinci qatım təşkil edir. Latm "strata" sözü qədim ingilis dilində "straet " formasında işlənmişdir Bu söz əvvəlcə latm dilində olduğu kimi yol mənasmda işlənmiş, sonralar isə yolun hər iki tərəfində yaşayış qəsəbələri tkilidiyindən, həmin söz- **Street** -kücə mənası kəsb etdi.Romalılann müdafiə məqsəd ilə kərpic hasara verdikləri ad-vallum-qədim ingilis dilində "weall" (wall) adlanmağa başladı.

Qeyd etmək ki Keht-german leksik əlaqələri məsələsi geranistikada o qədər də aydm müəyyənləşdirilmişdir.Keht dilində qədim ingilis dilinə keçən sözlər təxminən aşağıdakılardan ibaraətdir: dry" istehkam" təpə" və.s bu sözlərin bəzilərinə coğrafi adlarda da təsadüf edilir. Britanynın hərbi dətələrə yanaşı Roma tacirləri , Roma vətəndaşları axıb gəlməyə başladılır. Onların yaşadıqları qəsəbə "vicus" adlanırdı. Bu söz anglo- sakslar tərəfində mənimsləlinildi və qədim ingilis dilində wic forması kəsb edir . "Wic" isimindən "wician." Yaşamaq , məskunlaşmaq" feli yarandı. Soralar daha doğrusu, orta dövürdə wic siz fonetik dəyişikliyə məruz qalaraq wich forması aldı və bu söz aşağıdakı bir sıra yer adlarının tərkibində işlənməyə başladı: Greenwich, woolwich, Norwich , samitdən sonra "w" oxunmur.

Latın sözləri, əsasən, kilsə və dini sözlərdən ibarətdir. Eramızın VI - VII əsirlərində Rimdən göndərilmiş monaxlar Britaniyada xristian dinini yaymağa və əhalini xristianlaşdırmağa başladılar. Xristian dinin ölkədə yayılması ilə əlaqədər olaraq ingilis dilinə dinlə bağlı yeni məfhumlar, yeni sözlər axıb gəlməyə başladı.Latın sözləri kimi qədim ingilis dilinə daxil olmuş sözlər mənşəcə, əslində yunan sözləri idi. Tarixdən məlumdur ki, əvvəlcə dini kitabalar yunanca yazılmış , sonradan isə latın dilində tərcümə edilmişdir. Latm dili kilsə dili olduğundan , Həmin dilin sözləri bir çox xalqların lüğətinə keçmişdir. Tədqiqatçıların hesablamalarına görə , qədim ingilis dilində təxminən 500-ə qədər din və təlimlə bağlı alınma latm sözlərinə təsadüf edililr. Kilsə ayinlərini icra etmək və müqqədəs mətnləri oxumaq savadlı dini xadimlərin olmasım tələb edirdi. Odur ki, VII əsrdən başlayaraq Britaniyadan monastr məktəbləri təsis edildi. Britaniyada məktəblərin açılması, adamların latın dilində savadlanması, qədim ingilis

dilinin lüğət tərkibinə bir sıra latm sözlərinin daxil olmasına səbəb oldu . Onlar din və təlimlə bağlı sözlər idi.

Adətən alınma sözlər onu mənimsəyən dilin inkişaf qanunlarına tabe olur, lakin onlar özlərim də o dildə inkişaf etnəyə meyilli olan inkişaf proseslərim sürətləndirir.

Bu zaman kəmiyyət dəyişilmələri müəyyən keyfiyyət dəyişilmələrinin yaranmasına gətirib çıxarır, ingilis dilində belə oldu. Məlum olduğuna görə, qədim ingilis dili sintetik qrammatik quruluça mailk idi. Bu o deməkdir ki sözlər arasındakı əlaqə söz formaları , hal şəkilçiləri və.s ilə ifadə olunurdu. , söz sırası bir növ müstəqil idi., sabit deyildi., yeni mübtada feldən əvvəldə gələ bilirdi və mübdatadn sonra yaxud cümlənin sonunda gələ bilirdi. Lakin orta dövürdə qədim ingilis dilinin sitetik qrammatik quruluşu analitik qrammatik quruluşla əvəz olunurdu : Yeni sözlər arasındakı əlaqələr artıq affikslər deyil, köməkçi sözlərlə , sabit söz sırası ilə ifadə olunmağa başladı.Bəzi dilçilər ingilis dilində sintetik qrammatik quruluşun nalitik qrammatik quruluşla əvəz edilməsini fransız dilinin təsiri ilə izah edirlər . Fransız dilinin təsirilə ingilis dili fellərdən dəyişikliklər baş verdi.Fransız dilində alman təsirli və təsirsiz fellər mövcud idi, lakin bu katiqoriyalar üçün morfoloji göstərici mövcud deyil. Eyni bir fransız feli həm təsirli, həm də təsirsiz fel kimi işlənirdi. Halbuki, qədim ingilis felində təsirli fellər təsirsiz fel fərqlənirdi.Təsirli: She hath recovered the king;Təsirsiz: He will recover straight Bu onu göstərir ki, İngilis dilində özündə fel əsasında ikimənalılığı inkişaf etməyə meylli idi. Fransız alınmaları buna manə olmalıdılar, əksinə , qədim təsirli- təsirsiz fellərin dəyişəsi, prosesinə, onun tezləşməsi prosesinə kömək etdilər. Dilin qrammatik quruluşunda dəyişmələr o zaman baş verir ki, ana dilinin öz rüşeymlərində bu xüsüssiyətlər mövcüdr məsəəlməm, qədim ingilis dilində zeif dental şəkilçili keçmiş zaman felləri çox məhdud idi. Lakin orta dövürdə fransız alınma fellərinin təsiri nəticəsində , onların təkanı nəticəsində əvvəlki zəif sözlərin təsrifi forması ən məhsuldar növə çevrildi fransız dilinin təsiri ilə ingilis dilində yaranan analitik quruuluşla yanaşı sintaktik kalkalarda oldu.

Bir şeyi qeyd etmək lazım bilirik ki, umümmuyətlə sintaktik "yad"meyllərə qarşı çox sabitidir . BU deyişmələr o zaman baş verir ki, doğma dilin üz rüşeymində belə meylər olsun. Fmsız dili bu meylləri hərəkətə gətirib inkişaf etdiridi.Yarseva kalkalann iki müxtəlif növünü ayırmaq lazımdır. a)sintaktik model mənimsələnir, həmin fransız tərkibi sözbə söz ingilis dilininə quruluşu saxlamaqla tərcümə edilir:Fr:mettre son estude — Eng . to set one s study

Fr:a mon pouvour —Eng. At one s might Əgər qədim ingilis dilində sintaktik modellər , sintaktik kalkalar fransız, dilində edilirisə, orta ingilis dili dövründə ransız dilində dilində mənimsəlinirdir.İngilis dili ilə skandinav

dillərinin çarpazlaşması A.İ göstərdiyinə görə ingilis dilində qrammatik quruluşunun deyismesine sebeb oldu.Sintetik quruluşlu dil analitik qrammatiq quruluşla evez edildi. Skandinav dili ingilis dilinin sintaksisinə də təsir etmişdir. Müasir ingilis dilində modal mənalı "should" və "would" fellərinin köməyi ilə felin analitik şəkil formasının yaranmasını (məs: İ should have spoken to him Mən onunla danışmalı idim: Mən gərək onunla danışaydım) Fel —zərf birləşmələrinin (məs: to give up , to go on , to put out)gemş vüssət alınmasımda Skandinav dilinin təsiri ilə izah edirlər.Yarseva göstərir ki, ingilis dilinin qrammatik quruluşunda baş verən bəzi faktları latın dilinin qismən yaxud tam təsiri ilə izah etmək olar. Alınma prefikslər məhsuldar ve qeyri məhsuldar ve qeyri mehsuldar tekmənalı və çoxmənalı ola bilirlər .Məsələm ,alınma ."de" prefiksi , Müller luğetine əsaəsən yüzə qədər fel əmələ gətirmişdir . prefiks təkcə sözüzün mənasını dəyişdirmiur, o sözü başqa leksik qrammatik sinife aid etmək qabiliyətinə də malikdir.

Ədəbiyyat

1.Z.Verdiyeva,F.Ağayeva,MAdilov, "Azərbaycan dilinin semosiologiyası" B1979
2.F.Yadigar "German diliçiliynə giriş" Bakı 2003
3.Antusisina. B, Apha syeva .O, V, Morozova .N N, Engilish lexicology" M,1985

S.Ibrahimova

Semantical transformation in voratulary of old English and lingual relations

The article deals with inversion which serve to strength emotional color and expressing master's feeling and sense in creativity of Azerbaijani ashugs and national poets works in XIX-XX century, (about Daralayaz district)

Here also enumerated emotionality, expressiveness which inversion crated in language and peculiarities which increase artistry of poetic models.

Inversion perform these function in texts in which it takes place: logic, separation, emphatic, functional stylistic, rhythmic-melodic, architectonic, structural- grammatical and communicative.

The article deals with the role of extralinquistk factors in change of the English vocabulary.

The article the touches problem of changes in grammatical of the English language as a result of the English language as a result of extralingistic factors as well. The article analyses some words of Latin origin

in English, their comporation with other languages of Westem-European origin. Such terms as: “change”, “continue”, “sound”, “turn”, “join” are analysed duply in simple and compound sentences.

С.Ибрагимова

Семантическая трансформация в словарном составе старинном англ. языке

Резюме

Статья посвящена изучению роли экстралингвистических факторов в изменении словарного состава английского языка.В статье так же затронуть грамматические изменение в результате экстарилингвистического фактора английского языка. В статье анализируются некоторые слова латинского происхождения в английском языке, их сравнение с другими языками западноевропейскими происхождения. Такие термины как: “change”, “continue”, “sound”, “tum”, “join” глубоко анализируются **в** простых и сложных преВ статье исследовано процес инверции, которое выявляется в творчестве Азербайджанских ашугов и народных поэтов (но Дерелеязскому краю) X1X-XX веков и повышающий эмоциональность их произведений. Инверция производит в языке эмоциональность, экспрессивность и повышает художественность поэтических произведений. В процессе инверции в предложении меняется порядок слов и в этот момент еще больше повышается чувственность и переживания. В текстах где наблюдается инверция исполняются энфатические, функционально-стилистические, ритмически-мелодические, архитектонические, структурно-грамматические, коммуникативные функции.В статье анализируются некоторые слова латинского происхождения в английском языке, их сравнение с другими языками западноевропейскими происхождения. Такие термины как: “change”, “continue”, “sound”, “tum”, “join” глубоко анализируются **в** простых и сложных предложениях.

Rəyçi: Dürdanə Vəkilova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SOLMAZ HACİYEVA
Bakı Biznes Universiteti
solmaz.@.mail.ru.

TƏRCÜMƏŞÜNASLIĞIN NƏZƏRİ PROBLEMLƏRİ VƏ ONUN İNKİŞAFINA DAİR DİLÇİ ALİMLƏRİN RƏY VƏ MÜLAHİZƏLƏRİ (İngilis dili materialları əsasında)

Açar sözlər: tərcümə, nitq, dil daşıyıcısı, mənimsəmə, nəzəriyyə, müqayisə, ünsiyyət.
Key words: translation, speech, speaker, language acquisition, theory, comparaison
Ключевые слова: перевод, речь, носитель языка, освоение, теория. сравиение,

Tərcümə dil əlaqələri prosesinin məhsulu olub hər bi dilin tarixi inkişaf prosesinin müəyyən dövründə meydana çıxmışdır. Dil vahidlərinominasiya və ya adlandırma vasitəsi kimi çıxış etmiş, dil və nitq isə ünsiyyət funksiyasını yerinə yetirmişdir.İnsan əşya və predmetlərə, ümumiyyətlə, hər şeyə ad verməyə çalışmışdır. Adlandırmağa ehtiyacı olan əşya formasından asılı olmayaraq təmas prosesində meydana çıxmışdır. Adlandırmanın ilkin vacib şərti fərqləndirmə mahiyyəti daşımışdır. Hər bir adlandırma üçün müvafiq dil vasitələrini kodlaşdırma və dekodlaşdırma vasitələrindən istifadə etmişdir. İki müxtəlif dildə eyni predmet adının fərqli kodlaşdırılması və dekodlaşdırılması həmin predmet bildirən vahidlərin qarşılaşdırmağa əsas vermişdir. Beləliklə, dil əlaqələri prosesində adın bir dildən digərinə transformasiyası hadisəsi baş vermişdir. Bu proses. təbii ki, iki dil materialı üzrə getmişdir. Hər iki dilin daşıyıcılarına məlum olan əşya və predmet adlarının transformasiyası adları qarşılaşdırma kimi özünü göstərmişdir. Məsələn, хлебь-çörək, дерево-ağac, камень-daş və s. Fərqli dillərin daşıyıcılarından birinə məlum olan, digərinə məlum olmayan predmetlərdə nominasiya birtərəfli səciyyə daşımışdır. Əşyanın adı bir dildə olduğu halda, başqa bir dildə olmamışdır. Belə hallarda predmet və onun adı bir yerdə alınmışdır. Tarixi inkişafın ilk dövrlərində bu tipli sözalmalar. sonralar terminlərlə ifadə olunan anlayışları qavrama və mənimsəmə nəticəsində təzahür etmişdir. Təbii ki, yalnız əşya və predmetlərin, anlayışların adlarını bilmək ünsiyyət üçün yetərli olmamışdır. Dil vahidləri müəyyən qanunauyğunluq əsasında birləşərək və ya əlaqələnərək bitmiş fikri ifadə edən daha böyük dil vahidini formalaşdırmışdır. Ənənəvi dilçilikdə bu əsas vahid cümlə adlandırılmışdır. Cümlə informasiyanın bitmiş şəkildə ötürmək funksiyasını yerinə yetirmişdir.

Bir dildə deyil, daha artıq dildə ünsiyyət saxlamaq tələbi ayrı-ayrı etnosların müxtəlif-iqtisadi, mədəni, siyasi və başqa əlaqələri prosesinin məhsuludur. İnsanların qida, ərzaq ehtiyaclarını ödəmək, təhlükəsizliklərini təmin etmək məqsədləri onların yaşayış məskənlərini dəyişməsinə səbəb olmuşdur. Yaşayış üçün daha sərfəli və faydalı əraziləri qiymətləndirmək, eləcə də seçmək meyarları eynidir. Su, meşə, məhsuldar torpaq, zəngin bitki örtüyü, fauna, təbii təhlükələrdən qorunmaq sığınacaqları yedəyişmədə iştirak edən qəbilə və tayfaların eyni və yaxın ərazilərə miqrasiyasını reallaşdırmışdır. Bu da fərqli etnosların və bununla da fərqli dillərin daşıyıcıların passiv, eləcə də aktiv təmaslarının əsasını qoymuşdur. <<Məhz bu dövrdən, ilk insan yerdəyişmələri, qəbilələr və tayfalar arasında ibtidai əlaqələrdən başlayaraq dillər arasında da müəyyən əlaqələr yaranmışdır. Bu əlaqələri-sosial və dil əlaqələrini bir-birindən ayırmaq olmaz. Sosial əlaqələr informasiya mübadiləsinin xarakter və sferası ilə sıx sürətdə bağlıdır. Məhz cəmiyyət və dil qarşılıqlı olaraq biri digərinin inkişafında katalizator rolunu oynamış, onun inkişafında stimulverici amil olmuşdur.Dil əlaqələri ünsiyyət prosesində dilin maddiləşən hissələrini başa düşmək, qavramaq zərurətini formalaşdırmışdır. Eyni dilin daşıyıcıları bir dilin vasitələrindən istifadə etmişdir. Başqa dil daşıyıcıları ilə əlaqələr informasiyanın bu dillərin hər hansı birindən digərinə transformasiyası, köçürülməsi zminində getmişdir. Beləliklə, sonralar tərcümə adlandırılan, mahiyyətcə bir dil materialının digər dil materialı ilə əvəzedilmə prosesi baş vermişdir. Bu prosesin kökü çox qədimdədir. Elm isə tərcüməni, tərcümə prosesini, onun ünsür və elementlərini, növ və üsullarını çox-çox sonralar öyrənməyə başlamışdır. Müasir tərcüməşünaslıq böyük inkişaf yolu keçmişdir. Tərcüməşünaslıq ümumfiloloji istiqamət kimi formalaşmış, uzun müddət ədəbiyyatşünaslıq çərçivəsində öyrənilmiş elm sahəsidir. Tərcümə nəzəriyyəsi xüsusi linqvistik elm kimi ötən əsrin 50-ci illərində yaranmışdır. Buna baxmayaraq indiyədək bir çox dilçilər, hətta tərcümənin fundamental problemləri ilə məşğul olanlar belə onun müstəqil linqvistik elm olmasına bir qədər şübhə ilə yanaşırlar. E.Allahverdiyeva tərcüməşünaslıq elmi və onun tərkib hissələrindən bəhs edərkən tərcümə probleminə daha bir çox tədqiqatları diqqət mərkəzinə çəkmişdir. O. XX əsrin ikinci yarısına qədər tərcümə ilə bağlı yazılmış əsərlərdə tərcümənin elm, yaxud bu və ya digər elmin tərkibində ayrıca istiqamət olması barədə konkret fikrin olmadığını göstərmişdir.

A.Reformatiskinin ötən əsrin 50-ci illərində irəli sürdüyü müddəaya görə, tərcümə nəzəriyyəsi müstəqil sahə deyil, bu nəzəriyyə müxtəlif elmlərə xidmət edir. Təbii ki, bu fikirlərin deyildiyi vaxtdan yarım əsrdən çox bir müddət keçmişdir. Ötən dövrdə tədqiqatçılar tərcümənin hansı sahəyə aid olması məsələsinə dönə-dönə qayıtmışlar. Şübhəsiz ki, tərcümə nəzəriy-yəsinin inkişaf tarixinə qısaca nəzər saldıqda belə bu barədə olan əsas elmi

fikirləri ortaya qoymaq, onlara münasibət bildirmək lazım gəlir.V.Komissarov tərcümənin dillə daha çox bağlı olduğunu ön plana çəkmişdir. Onun fikrinə görə, tərcümənin əsas çətinlikləri dillərin xüsusiyyətləri və onların situasiyasını ifadə etmək üsulları ilə əlaqədardır. İnsanlar müxtəlif dillərdə danışdıqlarına görə tərcümə vacibdir. Dil amilləri tərcümə üçün maneələr yaratdığı kimi, bu maneələri dəf etmək vasitələrini də verir. Hər bir dil quruluş və istifadə edilmək baxımından özünəməxsusluğa malikdir. Lakin dillərin əsasında eyni prinsiplər durur. Deməli, tərcümə prosesində dillərin uyğunluq xüsusiyyətlərini axtarmaq vacibdir.Bir çox tədqiqatçılar ötən əsrin 50-60-cı illərində tərcümə nəzəriyyəsinin müxtəlif məsələlərini araşdırmaqla bağlı tədqiqatlar aparmışlar. B.N.Aristov, İ.R.Qalperin, A.Deyç, E.O.Kari, İ.V.Kaşkin, B.A.Larin, Y.D.Levin, İ.İ.Revzin, V.Y.Rozensveyq, Y.İ.Retsker, V.Rossels, L.N.Sobolev, A.V.Fyodorov, Y.Q.Etkind və başqalarının işlərində qeyd olunan məsələlər bu vəya digər səviyyədə işıqlandırılmışdır. Aydındır ki, tərcüməşünaslığın əsas və ilkin anlayışları da birinci növbədə bu işlərdə müzakirə, müqayisə və təhlil obyekti olmuşdur. Bununla belə. tərcüməşünaslıq məsələlərinin kifayət qədər həllini tapmaması yenə də üzdə olmuşdur. Tərcümə nəzəriyyəsi ötən əsrin 70-ci illərindən başlayaraq daha sürətlə inkişaf etmişdir. Tərcümənin linqvistik təhlilə cəlb edən Con R.Fyors dilin metadil funksiyası üzərində dayanır.Bu halda başqa dildə olan məlumat obyekt dilin vasitələri ilə aydınlaşdırılır. Obyekt dilmənbə dildəki vasitələrə malik olmadıqda izah və şərhlərə müraciət edir.Otto Kade tərcüməni işarələr arası münasibət əsasında öyrənməyi vacib sayaraq yazmışdır: Tərcümə haqqında elm tətbiqi dilçilik sahəsinə aiddir. Hər bir elmdə olduğu kimi, bu sahə də müxtəlif elmlərdən faydalana bilər.

V.Komissarov tərcümənin linqvistik nəzəriyyəsini yaratmaqla bağlı ardıcıl tədqiqatlar aparmışdır. Onun qənaətinə əsasən,tərcümə haqqındakı elm obyektiv reallığı-nitq fəaliyyətinin xüsusi növünü tədqiq etməklə məşğul olur. Bu fəaliyyətin həm nəticəsi, həm də onu təyin edən amillər müşahidə və təhlil olunur. Hər bir real prosesin öyrənilməsi mümkün olduğu qədər də zəruridir.Tərcüməşünaslıqla məşğul olmuş Azərbaycan tədqiqatçılarından B.Tahirbəyov yazmışdır ki,Tərcümə haqqında elm hansısa bir sahənin tərkib hissəsi deyil, müstəqil bir elmdir. Onun problematikasının tədqiqi göstərir ki, tərcüməşünaslığın obyekti mürəkkəbləşmiş kommunikasiya aktı, predmeti isə iki müxtəlif işarələr sisteminin köməyi ilə informasiyanın ötürülməsi haqqında biliklərdir. Tərcüməşünaslıqda bu elmə məxsus olan dil formalaşır. bu elmin elementar vahidlərinin müəyyənləşdirilməsi üçün axtarışlar aparılır. Əgər dilçilik, ədəbiyyatşünaslıq, psixologiya, estetika, <<maşın tərcüməsi>> və ya başqa elmlər bu günədək tərcümə fəaliyyəti faktlarını və kateqoriyalarını öz daxilində izah edir və öz ehtiyacları üçün istifadə edirdilərsə, bundan sonra bu kateqoriya və ehtiyaclara tərcümə elminin

prizmasından baxılmalıdır.

Təbii ki, tərcüməşünaslığın elmi mənsubluğundan daha əhəmiyyətli olan məsələ müxtəlif sahə, xüsusən fərqli funksional üslublara aid materialların tərcüməsinin keyfiyyətcə yaxşılaşdırılması, ümumiyyətlə tərcümə nəzəriyyəsinin inkişaf etdirilməsi idi. Tərcüməşünaslığın tədqiq tarixini təhlilə cəlb etdikdə qeyd edilən istiqamətlərdə araşdırmaların sürətlə artdığını görürük.Hər şeydən əvvəl, tərcümə nəzəriyyəsinin tərkib hissələrini müəyyənləşdirmək lazım gəlmişdir. A.Lilova tərcümə nəzəriyyəsini aşağıdakı tərkib hissələrinə ayırmışdır: ümumi tərcümə nəzəriyyəsi, bədii tərcümə nəzəriyyəsi, elmi tərcümə nəzəriyyəsi, ictimai-siyasi tərcümə nəzəriyyəsi. Göründüyü kimi, tədqiqatçı bölgünü, demək olar ki, funksional üslublar üzrə aparmışdır. Onun təsnifində bədii, elmi və publisistik üslublara aid materialların hər birinin tərcüməsi prosesində fərqli cəhətlərin üzə çıxması nəzərə alınır. Aydındır ki, burada bütün funksional üslublara görə ayırma aparmaq olardı. Lakin nədənsə, müəllif yalnız elmi, bədii və publisistik tərcümə ilə kifayətlənmişdir.

Digər tərəfdən, mənbə dildə kodlaşdırılmış informasiyanın obyekt dildəki qarşılığı və ya son nəticə kimi əldə olunan mətn müəyyən prosesin, daha doğrusu tərcümə prosesinin məhsulu olur. Bu prosesin özü də ümumi şəkildə tərcümə adlanır.Y.N.Marçuk tərcümənin müxtəlif təriflərini şərh etmədən və onlara münasibət bildirmədən işçi tərif kimi aşağıdakını qəbul edir:Tərcümə insanın dil fəaliyyətinin bir növü olub, onun nəticəsində müəyyən dildəki mətn başqa dildəki müvafiq mətnə çevrilir və bu zaman mətnlərin məna ekvivalentliyi saxlanılır.Müəllif tərcümə üçün vacib bir məsələni ortaya atır. Bir dildən digərinə tərcümə hər hansı mətni deyil, mənbə dildə olan mətnə ekvivalent mətni yaratmağı tələb edir. Tərcümənin qarşısında duran əsas vəzifə budur. Başqa dildəki məlumat yeni dildə olduğu kimi verilməlidir.Tərcümə-dillər və mədəniyyətlərarası kommunikasiyanın bir istiqamətli və ikifazalı prosesidir. Bu proses zamanı məqsədyönlü təhlil aparmaqla ilkin mətn əsasında başqa dil və mədəniyyət mühitində onu əvəz edəcək ikinci mətn (metamətn) yaradılır; iki dil, iki mədəniyyət və iki kommunikasiya şəraiti arasındakı fərqlərin qismən modifikasiyaya uğratdığı ilkin mətnin kommunikativ effektini ötürməyə köklənməsini səciyyələndirən prosesdir.

Ədəbiyyat

1.R.Heydərov. dillərin qarşılıqlı əlaqəsi. B., Elm, 2013.
2.E.Abdullayeva. Tərcüməşünaslığın nəzəri əsasları. B., Nurlan 2008.
3.А.А.Реформатский. Введение в языковедение. М.: Высш. шк., 1990
4.В.Н.Комиссаров. Теория перевода. М.: Высш. шк., 1990**.**

С.Гаджиева

Теоретических проблем перевода
Резюме

В статье исследованы история развития и теоретические вопросы перевода. Так, языковые связи формируют понимание материализованной части коммуникационных процессов и важность восприятия. Также по степени важности происходит процесс замены с одного языкового материала на другой языковый материал.

С учетом этого, были исследованы теоретические аспекты процесс перевода, его элементы, виды и методы. Также было уделено внимание проблемам языкового процесса и их роли в развитии переводческой деятельности.

Поэтому проведение исследование проблем перевода имеет важную значимость с целью изучения теории перевода в комплексном виде, т.к. проясняются особенности, основные направления перевода, определяется круг задач, которые требуются как сегодня, так и в будущем изучить.

S.Gadjieva

A study of the theoretical problems translation
Summary

In the article the history of development and theoretical issues of translation. So, language communication form materialized understanding of the communication processes and the importance of perception. Also of importance is happening replacement process from one language to another language material stuff.

this in mind, the theoretical aspects of the translation process were examined, of its elements, types and methods. Also, attention was paid to the problems of the language of the process and their role in the development of translation activity.

Therefore, carrying out research of translation issues has an important significance to study the theory of translation as a complex, because clarified especially the main directions of translation is determined by the range of tasks that are required both now and in the future to explore.

Rəyçi: Yusif Süleymanov
Filologiya üzrə fəlsəfə doktoru, dosent

NARMİNA QULİYEVA
RUQİYYA SƏFƏROVA
ADİU
narmin,ruqi.@.mail.ru.

ZOOMETAFORİK TƏRKİBLİ CÜMLƏLƏRİN İNGİLİS DİLİNİN TERMİNOLOJİ SİSTEMİNDƏ İŞLƏNMƏSİ VƏ ONLARIN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİ YOLLARI

Açar sözlər: idiom, məxəz dil, ekvivalent, analoq, tərcümə.
Key words: idiom, source language, equivalent, analogue, translation
Ключевые слова: идиома, исходный язык, эквивалент, аналог, перевод.

Sadəcə beynəlxaq və regional təşkilatlarda rəsmi yazişma dili olmaqla deyil,eyni zamanda söz ehtiyatının zənginliyi və keçdiyi inkişaf yolu ilə də digər dillərdən bu və ya digər dərəcədə fərqlənən ingilis dili bədii ədəbiyyatda və məişət üslubunda istifadə olunan idiomların (sabit söz birləşmələri) bolluğu ilə nəzər-diqqəti cəlb edir.Bir məqamı xüsusi qeyd etmək lazımdır ki,həmin dildə geniş istifadə olunan idiomatik ifadələr tərkibində rəng,heyvan,qida,ev əşyaları və sair fərqli məfhumları ifadə edən sözlərin olması ilə səciyyələndirilə bilər. Oksford dilçilik və fonetika lüğətinə görə idiomun tərifi belə verilir: "idom (latın dilində "idioma" olub xüsusi mülkiyyət mənası verir) məcazi məna verən söz birləşmələrinin ifadə edilməsidir.Burada məcazi məna dedikdə sözün normal izahatından və hərfi mənasından fərqlənən ifadələrin təqdim edilməsi nəzərdə tutulur.İdiomlara müxtəlif dillərdə tez-tez rast gəlinir və təxmini hesablamalara görə ingilis dilində 25 000 idiomatik ifadə vardır". Bəzi dilçi alimlərə görə sabit söz birləşmələrinin mənası ifadənin tərkib hissələrini təşkil edən sözlərin bütünü kimi başa düşülməlidir.Başqa sözlə,hər bir sözü başa düşən şəxs ümumilikdə ifadənin tam mənaasını başa düşməlidir.(2). Bununla belə vurğulamaq lazımdır ki,bu,heç də bütün idiomların tərcüməsi üçün qüvvədə deil.Məsəslən; "Fred kicked the bucket " cümləsində sözlərin hərfi mənasına baxsaq "Fred vedrəni təpiklədi" kimi baş düşülür.Lakin,bu cümlənin ikinci mənası olaraq "Fred öldü" mənası da var.Yəni burda "kick the bucket" sərbəst yox,sabit söz birləşməsi olaraq istifadə olunub. Eyni zamanda,yuxarıdakı fikirləri dəstəkləyən idiomatik ifadələrə də tez-tez rast gəlmək olar.Məsələn; "He lays the cards on the table" cümləsinə fikir verək.Burada "kartları stolun üstünə qoymaq" ilə yanaşı "gizli olanları aşkara çıxartmaq"mənası da anlaşılır.Çünki kartlar əgər stolun üzərinə qoyularsa demək ki,artıq gizli bir şey qalmır.

Yuxarıda da qeyd etdiyim kimi,müasir ingilis dilində istifadə olunan sabit söz birləşmələrinin bəzilərinin tərkibində at,pişik,it,inək, qoyun, keçi,ördək,toyuq və sair kimi ev heyvanlarını ifadə edən sözlər istifadə olunur (fat car,sitting duck,mad as üet hen,to be in the dog house və sair).Bu idiomların etimologiyasına və Azərbaycan dilinə tərcümə edilmə yollarına və eyni zamanda hər iki dildə ifadələrin yaranma vəziyyətinin müqayisə edilməsinə fikir vermək olar.

Ümumiyyətlə ingilis dilində olan atalar sözləri,zərb məsələlər və idiomların Azərbaycan dilinə tərcümə olunması üçün bir neçə metoddan istifadə edilir ki,onlar arasında ən çox istifadə olunanların aşağıdakı kimi sinifləndirmək olar:

1. Ekvivalent tərcümə: həm məna,həm obraz,həm də leksik tərkib etibarilə hər iki dildə demək olar ki,eyniyyət təşkil edən ifadələr.Belə ifadələrin sintaktik quruluşu isə cox vaxt bir-birinə uyğun gəlmir ki,bu da ingilis və Azərbaycan dillərinin qramatik quruluşları arasında fərqli xüsusiyyətlərlə bağlıdır. Məsələn; All that glitters is not gold=hər parıldayan qızıl deyildir.

2. Anoloji (anoloq) tərcümə: mənaca uyğun,lakin obraz və leksik tərkib etibarilə bir-birindən qismən,yaxud tamamilə fərqli olan idiomlar.

Məsəslən;every man thinks his own geese swans =heç kim öz ayranına tuş deməz.

3. Kalka və bir baş tərcümə üsulu: Azərbaycan dilində analoq və ekvivalent qarşılığı olmayan ifadələr bu üsulla tərcümə olunur.

Məsəslən; never refuse a good offer-yaxşı məsləhətdən heç vaxt imtina etmə (3;6)

Yuxrıda sadalandığımız və ən çox istifadə olunan metodlardan əlavə izah edici və antonim tərcümə metodlarından da yararlanır ki,birincidə məxəz dildə verilən ifadənin izah edilməsi,ikincidə isə antoniminin verilməsi ilə hədəf dildə qarşılığı verilir.

Sadaladığımız və qısa da olsa izahıı verdiyimiz metodları da nəzərə almaqla aşağıda göstərdiyim və tərkibində ev heyvan adlarının ifadə edildiyi sözlərin olduğu idiomların tərcüməsinə fikir verərək hər iki dildə işlənmə mexanizimlərinə nəzər salaq:

1.Fat cat – ingilis məişət və publisitik üslublarında geniş istifadə olunan bu ifadə ilk dəfə 1920-ci illərdə ABŞ-da siyasi partiyalara yardım edən varlı insanlar üçün istifadə edilib.Həmin insanların siyasi təbliğat kampanyalarını maliyyələşdirmək imkanı geniş idi (4).Bu söz dilimizdə "varlı insan" kimi tərcümə olunur və göründüyü kimi bu da izah edici metod ilə həyata keçirilir.Başqa sözlə bu ifadənin dilimizdə analoq və ya ekvivalent qarşılığı olan ifadə yoxdur və bir ölkəyə məxsus olduğu üçün onun izahatına baxıb söz formasında qarşılığını veririk.Əlavə məlumat üçün də istifadə

olunur. Azərbaycan dilində varlı insanlar üçün “kök pişik” ifadəsinin işlənməsi təcrübəsi yoxdur.Lakin varlı və kök insanlara “harınlamış” , “piylənmiş” kimi ifadələrin işlənməsi tez-tez rast gəlinən haldır.Bununla belə bəzi mətbu orqanlarda artıq bu ifadədən istifadə olunma hallarına rast gəlinir.Məsələn,www.faktxeber.com saytında 14.05.2011 tarixli bir xeberin başlığına diqqetimizi yönəldək:”Medvedev Duma üzvlərinə “kök pişi” dedi” (5). Mətini oxuyarkən belə bir cümlə ilə qarşı-qarşıya gəlirik: “Artıq ölkədə sağlam siyasi rəqabət zəifləyib.Hazırda Duma siyasi partiya nümayəndələri tərəfindən idarə olunmalıdır,nəinki kök pişiklər tərəfindən” (5).Zənnimcə bu cümlənin dilimizdə belə verilməsi oxucuauditoriyası üçün qaranlıq qalır və burada “kök pişik” ifadəsi ilə nəzərdə tutulan fikrin tam anlaşılmasiına zəmin yaradılmır (çünki qəzet oxuyan hər kəs siyasi terminlərlə tanış olmaya bilər).Çünki,”kök pişik” “fat cat” idiomunun ekivalenti kimi nəzərdə tutulursa,onda məna və obraz etibarı ilə də eyni olmalıdır.Burada isə sadəcə leksik tərkib eynilik təşkil edir.Bu isə dil normasının pozulması kimi qiymətləndirilə bilər. Başqa misal olaraq 01.05.2010-cu il tarixində www. milli.az saytında təqdim edilən xəbərə fikir verək “”the New York Times” bildirir ki,ölkənin iri banklarının rəhbərlərini maliyyə terrorizmində suçlayan aksiya iştirakçılarının əllərində “Uoll-strikdəki “piyli pişik”lər daha da şişir!”, “Uoll-Strit iqtisadiyyatımızı şişirdib!” və “Böyük bankların məsuliyyəti artırılmalıdır!” plakartları tutublar (6).Burada kök əvəzinə piyli sözü ifadə edilir,amma yenə düşünmək olar kı,bu sözün orjinal mətndə işlənmə yerini bilməyən oxucu məsələdən tam agah olmaya bilər.Ona görə də mətbu orqanlarda xarici qəzəztlərə istinadə verilən xəbərlərdə “fat cat”idiomu bir başa “kök pişik” kimi deyil, “varlı siyasətçilər”, “xalqin pulunu mənimsəyən şəxslər kimi” verilsə daha məqsədəuyğun olar. Eyni zamanda Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına dilçilik İnsitunun hazırladığı 4 cildlik “Azərbaycan dilinin izahlı lüğəti”ndə də “kök” sözünün izahında belə bir ifadəyə rast gəlmədik.

2.Let the cat out of bag-http://idioms.thefreedictionary.com saytı bunun izahını belə verir:hər hansı bir həyacanlı xəbəbrin agah edilməsi aşkar edilməsi (bəzən istənmədən də baş verə bilər).İfadənin hərfi tərcüməsini şərh etsək “torbada olan pişiyin çıxarılması” kimi ifadə alınar.Azərbaycanda bizim gündəlik danışıqlarımızda və ədəbi əsəsrlərdə hər hansı bir şəxsin sevincli,həyacanlı olmsı vəziyyətlərində “deyəsən,torbada pişik var” ifadəsinı tez-tez rast gəlinir.Göründüyü kimi hər iki dildə olan və “pişik” sözünün köməyi ilə yaranan ifadələr demək olar ki,eyni mahiyyət daşıyır sadəcə antonim tərcümə vasitəsi ilə məsəsləyə işıq tutulur.

3.Dog-tired,like a fish out of water,wouldn’t hurt a fly,could eat a cow və sair idiomlar dilimizə ekvivalentləri ilə tərcümə olunur-müvafiq olaraq “it kimi yorulmaq” “sudan çımış balıq kimi”, “milçəyi belə

öldürməz", "acindan lap inək də yeyərdi".Göründüyü kimi bu idiomlar hər iki ölkədə eyni vəziyyətlərdə və eyni obraz və məna yükü daşıyaraq eyni leksik tərkiblərdən istifadə olunmaqla istifadə olunur.

4.Hold your horses,separate the sheep from the goats və buna bənzər idiomlar dilimizə anoloq yolla tərcümə edilir.Məsələn,ingilislərdə hərfi mənası "atını saxla" olan birinci yazdığımız sabit söz birləşməsi Azərbycan dilində "ayaq saxla", "dayan" kimi çevrilir.Bu ifdə 19-cu əsrdə ABŞ-da istifadə olunmağa başlayıb və idiomun əmələ gəlməsi kimi müxtəlif səbəblər göstərilir (Çində barıtın partlaması ilə döyüşçülərin atlarının yüyənini çəkərək dayanmaları və sair) (7).İkinci yazdığımız ifadə isə yenə eyni üsulla-analoq-tərcümə olunur və "pisi yaxşıdan ayırmaq", "ağı qaradan seçmək" kimi ədəbiyyatımızda istifadə olunur.

Ədəbiyyat

1.Crystal, A dictionary of linguistics and phonetics, 4th edition. Oxford, UK:Balckwell Publishers.2008
2. http://en.wikipedia.org/wiki/Idiom.
3.Tofiq Abasquliyev. Ingilis atalar sözləri və onların Azərb-rusca qarşılıqları. Elm.n.

К.Нармина,
С.Ругия

Analysis of some structural zoometaforical semantik of comparative in english

Summary

In both English and azerbaijani languages the use of idioms are frequently observed. Because they are widely used in the English language, in press materials and literary works reders encounter with them.In these cases, it is important to comprehend them and some methods must be employed to translate these idioms.Otherwise some misunderstandings will occur and language norms will be violated.In the article analyses of some idioms have been presented.

ln the article features of comparative phraseological compounds in English are analyzed and their equivalents in the Azerbaijani language were presented. An analysis was made of the Comparative phraseological units in both languages, both from a grammatical and syntactic point of view, as well as the quarrels and differences between them. This topic does not lose its relevance, since phraseological units are always in the center of attention of

researchers. As a linguistic element, the phraseological unit is the best source of basic knowledge about the way of life of the speakers of the Tongues, their history and geography. Idioms and phraseological units are directly connected with the outlook of a definite people, which certainly reflects the national character of the national culture of the people. it is for this reason that the national lexicon of comparative phraseological units is widely studied in this article.

К.Нармина,
С.Ругия

Анализ семантических особенностей зоометафорических выражений в английском языке

Резюме

В статье анализируются особенности сравнительных зоометрических соединений в английском языке и были предствлены их еквиваленты на азербайджанском языке.Был проведен анализ компаративные зоометрические единицы в обоих языках как с грамматической , так и с синтаксической точки зрения , а так же были исследованы сходства и разлмчия между ними.Эта тема не утрачивает своей актуальности,поскольку зооьетрические единицы всегда нахадятся в центре внимания исследователей. Будучи языковым элементом зоометрия является наилучшим источником базовых знаний об образе жизим насителей языкай, их истории и географии.Зоометафория посредственно связаны с мировоззрением определлонного народа,что безусловно в себе национальный характер национальный культуры народа.Именно по зтом причине в зтом статье широко изучается национальный лексиком сравнительных зоометрических выражений.Как на английском, так и в азербайджанском языке часто встречаются случаи использования постоянных зоометрических словосочетаний. Широкое распространение таких словосочетаний, в частности на английском языке, приводит к их частому появлению перед читателями в прессах и в литературных произведениях. В этом случае, в их понимАнии для перевода на азербайджанский язык должы быть использованы различные методы. В противном случае произойдут определенные недоразумения и это приведет к нарушению нормы языка.

Rəyçi: Adilə Zeynalova
filologiya üzrə fəlsəfə doktoru, dosent

BAHAR XƏLİLOVA
Bakı Dövlət Universiteti
bxlilova.gmail @ com

DİLÇİLİKDƏ ’’KONSEPT’’ ANLAYIŞI

Açar sözlər: konsept, konseptosfer, anlayış, şüur, dünyanın mənzərəsi,
Ключевые слова: концепт, концептосфера, понятие, сознание, картина мира
Key words: concept, conceptualsphere, cognition, consciousness, linguistic picture of the world

Müasir dilçilikdən fərqli olaraq dilçilikdə dili abstrakt varlıq kimi tədqiq etmişlər. Müasir linqvistik araşdırmanın əsas xüsusiyyətləri dili insan onun şüuru, ətraf kerçəkliyi dərk etməsi və praktik fəaliyyətdə öyrənməsidir. Hər bir dilin xüsusi dünya mənzərəsi var və dil şəxsiyyəti deyimin məzmununu həmin mənzərəyə uyğun olaraq təşkil etməlidir.Buna görə də linqvokoqnitiv mahiyyətli yanaşmada dilin öyrənilməsində dil daşıyıcısının kimliyi ön plana çıxır.

İnsanın dünya haqqında biliklərinin formalaşmasının və mövcudluğunun ən mühüm üsulu dildir. İnsan təkcə dünyanı dərk etmir həm də onda yaşayır ki, bunun nəticəsi kimi onun dilində təkcə obyektiv gerçəklik əks olunmur, həm də dünyanı dərk edən subyekt öz ifadəsini tapır. Fəaliyyəti prosesində obyektiv aləmi əks etdirəndə insan idrakın nəticələrini sözlərdə ifadə edir.

Dillərin hər biri dünyanı özünəməxsus üsulla konseptuallaşdırır. Dil formasında əks olunmuş bu biliklərin məcmusu müxtəlif konsepsiyalarda gah ”dil aralıq aləmi”, gah “dünyanın dil reprezentasiyası”, gah “dünyanın dil modeli “, gah da “dünyanın dil mənzərəsi” adlandırılır. Biz əsas etibarilə sonuncu ifadəyə müraciət edirik, çünki o başqalarına nisbətən daha çox işlədilir.

Dünyanın mənzərəsi anlayışı insanın dünya haqqında təsəvvürlərinin öyrənilməsinə söykənir. Dünya insanla onun qarşılıqlı əlaqədə olduğu mühitdirsə, onda dünyanın mənzərəsi mühit və insan haqqında informasiyanın işlənməsinin nəticəsidir. Beləliklə, koqnitiv linqvistikanın nümayəndələri haqlı olaraq bildirirlər ki, dünyanın dil mənzərəsi şəklində əks olunmuş konseptual sistemimiz fiziki və mədəni təcrübədən asılı olub, bilavasitə onlarla bağlıdır.

Zahiri aləmin hadisə və predmetləri insan şüurunda daxili obrazlar formasında mövcuddurlar. A.N.Leontyevin (6, s.3-10) fikrincə, xüsusi “ beşinci kvazölçü” var ki, insana onu əhatələyən gerçəklik tərəfindən verilir:

bu "məna sahəsi"dir, mənalar sistemidir. Bu halda dünya obrazlar sistemi olur.

Dünyanın dil mənzərəsi dünyanın xüsusi mənzərələri ilə (fiziki, kimyəvi və s.) bir sırada durmur, onlardan əvvəl gəlir və onları formalaşdırır, çünki insan həm dünyanı, həm də özünü dilə səbəb başa düşməyə qabildir, çünki ictimai tarixi təcrübə məhz dildə təsbitlənıb saxlanılır. Dilin spesifikasına səbəb onun daşıyıcılarının şüurunda müəyyən dil mənzərəsi yaranır və insan da onun prizmasından dünyanı görür.

Dünyanın dil semantikası vasitəsilə kodlaşdırılmış mənzərəsi müəyyən müddətdən sonra bu və ya digər dərəcədə köhnəlmiş olur və yalnız başqa dil vasitəsi olmadığından ənənəvi olaraq sabiq oppozisiyaları canlandırır, yəni köhnələrin əsasında yeni mənalar yaranır. Belə demək mümkünsə, arxaik və semantik dil sistemləri və bu dil kollektivi üçün qüvvədə olan, onun törətdiyi, həmçinin onun davranış qanunauyğunluqlarında mətnlərdə təzahür edən aktual mental model arasında fərq yaranır.

Dünyanın dil mənzərəsi insanın dünyaya (təbiətə, heyvanlara, özünə) münasibət tipini formalaşdırır. O, insanın dünyada davranış normalarını, onun dünyaya münasibətini müəyyənləşdirir. Hər bir təbii dil dünyanı qavramağın və təşkilinin (konseptuallaşma) müəyyən üsulunu əks etdirir. Onda ifadə olunan mənalar müəyyən vahid baxışlar sistemində yığılır, bir növ kollektiv fəlsəfə yaradır və bu da "mütləq" qismində bütün dil daşıyıcıları üçün vacibləşir.

Beləliklə, dilin rolu yalnız məlumatın çatdırılmasında deyil, həm də hər şeydən əvvəl çatdırılmalı olanın daxili təşkilindədir. Sanki bir növ "mənalar məkanı", yəni dildə təsbit olunmiş dünya haqında biliklər yaranır ki, konkret dil birliyinin milli-mədəni təcrübəsi mütləq ora əlavə olunur. Bu dildə danışanların dünyası, yəni dünyanın öz əksini leksika, frazeologiya, qrammatikada tapmış biliklər məcmusu kimi tapmış mənzərəsı formalaşır.

"Dünyanın dil mənzərəsi"ni adicə istiarə hesab etmək olar. Çünki əslində milli dilin spesifik xüsusiyyətləri vasitəsilə dünyanın nəsə bir təkrarolunmaz, yeni obyektiv gerçəıliklərindən fərqli mənzərəsi yaradılmır. Onun vasitəsilə yalnız dünyanın millət üçün əhəmiyyət daşıyan və onun fəaliyyətinin, həyat tərzinin və milli mədəniyyətinin spesifikası ilə şərtlənən predmetlər, hadisələr, proseslərin spesifik çalarları əks etdirilir.

Dünya haqqında bilik adlandırila biləcək dünyanın mənzərəsi fərdi və ictimai şüurun əsasında durur.Dil isə idrak prosesinin tələblərini yerinə yetirir. Dünyanın konseptual mənzərəsi müxtəlif adamlarda müxtəlif ola bilər. Müxtəlif adamlar dedikdə müxtəlif dövrlər, fərqli social, yaş qrupları, elmi biliklər sahələri və s. nəzərdə tutulur. Müxtəlif dillərdə danışan adamların müəyyən şəraitlərdə bir-birinə yaxın, hətta oxşar konseptual, eyni dildə danışan adamların isə fərqli dünya mənzərəsi ola bilər. Bu isə o

deməkdir ki, dünyanın konseptual mənzərəsində ümumbəşəri, milli və fərdi başlanğıclar vəhdətdə çıxış edirlər.

Dilçilikdə konsept terminin vahid tərifi mövcud deyildir. Konseptə verilən ayrı-ayrı tərifl ərdə bu və ya digər cəhət qabardılır ki, bu da fərqli mənzərələr yaradır. Dünya linqvistikasında konseptin tədqiqinə ilk dəfə S.A.Askoldov müraciət etmişdi. O hesab edirdi ki, konseptlərin əsas funksiyası əvəzetmədir, çünki düşünmə məhsulu oldugundan, konseptlər düşünmə prosesində eyni bir növdən olan çoxlu predmeti əvəz edirlər. Konsept həm real predmetləri, həm də predmet və ya real hərəkətlərin bəzi cəhətlərini əvəz edə bilir. D.S.Lixaçov Askoldovun fikrini davam etdirərək, konsepti "dil daşıyıcılarının şifahi və yazılı nitqdə istifadə etdiyi mənaların riyazi ifadəsi"(7, s.281) hesab edir. Beləliklə, Askoldov və Lıxaçovun tədqiqatlarından çıxış etsək, konseptlərin yaranma prosesini qavranılan rəngarəng gerşəkliyin minimum qədər sadələşdirmə prosesi kimi təsəvvür etmək olar. Məsələn, koqnitiv dilçiliyin nümayəndələri A.P.Babuşkin, E.S.Kubryakova, Z.D.Popova, İ.A.Sternin konseptin şərhində onun konseptin mental mahiyyətini onun fərdi şüur sahəsinə aid olmasını xüsusi qeyd edirlər (3, s.95) . Linqvomədəni aspektin nümayəndələri N.D.Arutyunova, V.İ.Karaşik, Q.Q.Slışkin, Y.S.Stepanov, Y.M.Lotman və b. konseptin etnokultur şərtlənməsini qeyd edirlər. Əlavə edək ki, bu aspektlər biri digərini istisna yox, əksinə tamamlama münasibətindədirlər.

Müasir dilçilik üçün yeni bir anlayış hesab edilən "konsept" termininin meydana gəlməsi koqnitiv elmin inkişafi ilə bağlıdır. "Konsept" termini latın mənşəli "conceptus" sözündən alınmışdır, to concieve (dərk etmək) feili ilə eyni kökə malikdir (5, s.200). Dilçiliyə riyazi məntiqdən daxil olan konsept terminin tarixi yeni hesab edilsə də, əslində qədimdir. L.Şerba bu termini ilk dəfə 1927-ci ildə məruzəsində qeyd etmiş və "О трояком аспекте языковых явлений и об эксперименте в языкознании" adlı məqaləsində göstərmişdir (12, s.30). Buna baxmayaraq, bu termininin tarixi rus dilçiliyində S.Alekseyeva təxəllüsü ilə yazan S.Askoldovanın adı ilə əlaqələndirilir. Onun 1928-ci ildə "Русская Речь" jurnalında dərc olunan "Слово и концепт" adlı məqaləsi bu terminin dilçiliyə daxil olma tarixi kimi qəbul edilir (2, s.267). Həmin dövrdə bir sıra obyektiv və subyektiv səbəblər üzündən bu termin ənənəvi qəbul edilmiş "anlayış" termini ilə rəqabət apara bilməyib uzun müddət dilçilik terminləri cərgəsindən silinir. XX əsrin 90-cı illəri konsept termininin renessans dövru (burada söhbət rus dilçiliyindən gedir) hesab edilə bilər. Danışma və anlama proseslərini insanın nitq təcrübəsinə aid edən L.Şerba konseptin müəyyən dil sisteminə malik dil materialından bəhrələnməsinə diqqəti yönləndirir, bu dil materialı isə öz növbəsində konkret tarixi və sosial vəziyyətlə, şəraitlə şərtlənir. Müəllifin dili ilə desək, konsept müəyyən sosial qruplar və konkret situasiyalarda danışan və

dinləyən arasında meydana gələn mənalı nitq vahidi olaraq dövrün dil üslubunu əks etdirir (12, s.39). Müasir dilçilikdə "konsept" termini şüurun mental və psixi resurslarını izah edən, dildə reallaşan vahid kimi qəbul edilir. Hazırda konsept müxtəlif cür şərh edilir: dil biliklərinin informativ, mental-psixi vahidi, obyekt haqqında ensiklopedik bilik, obyekt haqqında biliyin dildə kodlaşdırılması, gerçəklik haqqında mədəni şərtlənmiş görüşlər, birbaşa dil vasitələri ilə bağlı olmayan "ideya", sözün "ənənəvi mənası" və s. Konsepti insan şüurunda mədəniyyət toplusuna bənzədən Y.Stepanov onu mədəniyyətin əsas vahidi adlandıraraq, qeyd edir ki, "konsept vasitəsilə mədəniyyət insanın mental dünyasına daxil olur." Deməli, fərdin (habelə kollektivin) mövcud biliyini və təcrübəsini özündə ehtiva etdirən idrak vahidi kimi konsept həmçinin etnikmədəni səciyyə daşıyır (10, s.54). P.Frumkina konsepti mental struktur kimi təyin edir (11, s.28). Bununla bərabər, o qeyd edir ki, konsept psixikamızda mövcud olan ideal obyektdir, təbii olaraq eyni bir söz müxtəlif insanların psixikasında müxtəlif mental formaya uyğun gələ bilər."

Linqvistik ədəbiyyatda konsept anlayışı müxtəlif cür şərh olunur. Məfhumun fərqli tərifl ərinin olması da bundan irəli gəlir. Dilçilərin çoxu konsepti "zahiri" kateqoriya aidliyi və daxili, ciddi məntiqi təşkilliyə malik məna strukturunun məcmusu hesab edir. Konseptin əsasında ilkin, sözün əsas mənasının modeli, yəni sözün bütün mənalarının invariantı durur. Bu halda konseptin mərkəzi və ətraf zonaları haqqında danışmaq olar. Özü də ətraf zona yeni törəmə mənalarının mərkəzi mənadan uzaqlaşmasına səbəb ola bilir. Zahiri və daxili tərəflər konseptin mərkəzi, bazis elementinə çıxarılır. Daxili struktur üçün o "həmin sözün bütün prototipik mənaları, zahiri struktur üçün onun mənalarının hamısının kateqoriyalara bölgüsünün modeli" (8, s.65) qismində çıxış edir. İnsan "anlayışlar", "obrazlar", "dəyərlər" aləmində yaşayıb, ünsiyyətdə, fəaliyyətdə olanda, eyni zamanda mövcudluğun daha dərin səviyyəsində o, konseptlər aləmində yaşayır, ünsiyyətdə olur, düşünür, fəaliyyət göstərir.

Konsept sözü və anlayış yalnız öz daxili formalarına görə eynidirlər. Konsept və anlayış ayrı-ayrı elmlərin terminləridir. Konsept termini linqvistikada ötən əsrin sonralarında geniş istifadə olunmağa başlamışdır və əsasən kulturologiyada özünə yer almışdır. Konseptin əsas fərqi bundadır ki, o, dil və mədəniyyətin tədqiqində istifadə olunsa da, özü nə dil, nə mədəniyyət, nə də hər ikisinin eyni zamanda sahəsində deyil. Konsept mental vahiddir, şüurun elementidir.

Konsept obyektin mıvcud əlamətlərini özündə əks elətdirən biliklə bağlıdır. Konsept məzmununa görə daha zəngindir və bilavasitə mədəniyyət aləmi ilə bağlıdır.

Bütün konseptlərdə müxtəlif zamanlarda və müxtəlif dövrlərdə yaranmış ideyalar cəmlənir. Bu yerdə Y.S.Stepanovun konseptə verdiyi tərifi xatırlatmaq yerinə düşər. O qeyd edir ki, "konsept sanki insan şüurunda mədəniyyət laxtasıdır, mədəniyyətin insanın mental aləminə daxil olduğu anlayışdir. Digər tərəfdən isə, konsept elə bir anlayışdır ki, insan özü onun vasitəsilə mədəniyyətə daxil olur, bəzi hallarda isə ona təsir edir" (10, s.40).

Anlayışlardan fərqli olaraq konseptləri düşünmək və duymaq mümkündür. Belə demək mümkündürsə, konseptlər emosiyalar, xoşlamaq, xoşlamamaq və bu kimi digər duyğuların predmetidir və bu hisslər, duyğular bir-birini inkar etmir. Onlar konseptləri doğuran üsulların rəngarəngliyini nəzərə çatdırırlar. Beləliklə, konseptlərin formalaşma prosesi gerçəkliyin dərki nəticələrinin insan yaddaşı hüdudlarına qədər ixtisar edilməsi və onların din, ideologiya, incəsənət və sairdə ifadə olunmuş və mənimsənilmiş mədəni dəyərlərlə tutuşdurulmuşdur.

Konsept mədəniyyət vahidi olduğundan, onda qiymətləndirmə tərkib hissəsi də olmalıdır, çünki məhz qiymətləndirmə tərkib hissəsi konsepti başqa mental vahidlərdən fərqləndirir. Konsept şüurun elə strukturudur ki, onda sosiumun dəyərləri formalaşır.

Konsepti tədqiq obyektini əvəzləyən və onu öyrənmək üçün yaradılan model və ya konstrukt kimi nəzərdən keçirmək olar. Konspektlərin məcmusunun cəmi dəyərlər sistemini modelləşdirməyə imkan verır.Yalnız real gerçəkliyin dəyərləndirmə obyekti olan hadisələr konseptin yaranması üçün baza olur. Axı, obyekti qiymətləndirmək üçün insan onu özündən "keçirməlidir", keçirmə və qiymətləndirmə məqamı isə mədəniyyət daşıyıcısının şüurunda hər hansı konseptin yaranması məqamıdır.

Konseptin bu kimi xüsusiyyətlərini fərqləndirirlər:

1.Konsept əşyaların öz aralarında qarşılıqlı əlaqəsini müəyyənləşdirən mental reprezentasiyasıdır;

2. Konsept ideal obrazdır;

3. Konsept mütləq sözlə bildirilir (8, s.9-11)

Konseptlər dil şəxsiyyətinin fərdi şüurunda da, dil qrupunun kollektiv şüurunda da mövcuddurlar. Konseptlər şüurun və insan təcrübəsini əks etdirən informasiya strukturunun vahidləridir.

Şüuru təcrübə formalaşdırır. Şüur və təcrübə kollektiv də ola bilir, fərdi də. Deməli, fərdi və kollektiv konseptlərdən danışmaq olar. Kollektiv konseptlər isə mikroqruplar, makroqruplar şəklində, milli, sivilizasiya və ümumbəşəri ola bilir.

Hər iki qrup konsept tədqiqatçılar üçün maraq kəsb edir. Amma bununla belə qeyd etmək lazımdır ki, fərdi konseptlər kollektivlərdən daha zəngin və rəngarəngdir, çünki "kollektiv şüur və təcrübə kollektivə daxil olan ayrı-ayrı fərdlərin şüur və təcrübəsindən şərtı törəmədən başqa bir şey

deyildir" (6, s.16). Bu törəmə fərdi təcrübədə olan bütün unikallıqları ixtisar etmək yolu ilə yaranır, fərdi konseptlər isə özlərində daha çox konsept ehtiva edirlər.

Digər tərəfdən, kollektiv konseptlər də diqqət cəlb edir, çünki onlar kollektiv şüurda ümumi bilikləri (obrazları, inancları, ehtimalları və s.) formalaşdırırlar.

Konseptologiyanın əsas mənbələrindən biri konsept və dil vahidlərinin nisbəti ilə bağlı olandır. Söz və konseptin ümumi ifadə planına malik olması faktı müəyyən elmi intriqa yaradır və bu da paradoksal fikir doğurur- konsrpt həm sözdür, həm də söz deyil. Xalq mədəniyyətinin müəyyən konsept-sözləeinin təsviri elə həmin mədəniyyətin konseptləri ilə bağlı ola bilər. Təsvir olunan sözün başqa sözə münasibətini təsvir edəndə bizi maraqlandıran sözün qismən izahını əldə edirik.

Kommunikasiya prosesindı konseptin fəallaşdırılması vasitələri qismində əsasən dil işarələri çıxış edirlər. Elə dil vahidləri vardır ki, onlar konsepti daha dolğun və ümumi şəkildə ifadə edə bilirlər. Bu vahidlər konseptin adıdır. Lakin bu ad heç də konseptin yeganə fəallaşdırma vasitəsi deyildir. İstənilən konsept müxtəlif işarə formalarında realizə oluna bilmək qabliyyəti ilə səciyyələnir. "Konseptin işarə ilə ifadə potensialı nə qədər rəngarəng olarsa, bu konsept bir o qədər qədimdir və həmin dil kollektivi hüdudlarında onun qiymətlilik dəyəri bir o qədər yüksəkdir"(8, s.18). Mövcud olduğu müddətdə konsept müəyyən dil vahidləri ilə əlaqələrini itirə və yenilərini qazana bilir. Beləliklə, konsept mədəniyyət, şüur və dil sahəsində elmi nailiyyətləri birləşdirməyə ünvanlanmış vahiddir, çünki o, şüura məxsusdur, mədəniyyətlə əsaslandırılır və dillə predmetləşir (8, s.9).

Müxtəlif sahələri əhatə edən konseptlər ümumilikdə milli dilin konseptsferini təşkil edir.Konseptosfera konseptlərdən ibarət fikri sferadır; o, fikri şəkillər, sxemlər, anlayışlar, freymlər, ssenarilər,qeştaltlar vasitəsi ilə ifadə olunur. Verbal nitqdə konseptosferanın ifadə vasitəsi dilin semantik sahəsidir və bu dil işarələrinin köməyi ilə öz ifadəsini tapır. Xalqın konseptosferasının mühüm bir hissəsi koqnitiv linqvistikanın predmeti olan dilin semantik sahəsi ilə ifadə olunur (1, s.69).

Məlum olduğu kimi, dilin semantik sahəsinin sememlərə yığını onun inventarı deyil, mürəkkəb sistemidir. Bu sistem konsept və konseptosfera arasındakı münasibətlərlə səciyyələnir. Fikri fəaliyyət vahidi kimi konseptosferalararası münasibət konseptual əlamətə görədir,onlar dildəki məna kimi nəzərdən keçirilir.

Şübhəsiz ki, xalqların konseptopsferası konsept tərkibinə görə bir-birindən fərqlənir, yəni konseptosferanın milli xüsusiyyətləri həmin dilin semantik sahəsində öz əksini tapır. Müxtəlif dillərin semantik sahələrinin

müqayisəli təhlili ümumbəşəri universaliləri müəyyənləşdirməyə imkan verir.

Deməli, dilin semantik sahəsi konseptosfera kimi fikri məzmuna malikdir; onların fərqi yalnız ondadır ki, dil, məna, dil işarələri ilə ifadə olunan semantik sahə zərrəciyidir, konsept isə konkret dil işarəsi ilə bağlı deyil, o, müxtəlif işarələrlə ifadə oluna bilər. Konsept dil işarələri ilə xarici görkəm alır. Buradan belə nəticəyə gəlmək olar ki, konseptosfera universal predmet kodundan ibarət fikri obrazlar oblastıdır. Fikir predmet kodu isə insanların informasiya bazasını, onun biliyini strukturlaşdırır.

Müasir dövrdə dilin semantik sahəsi dünyanın dil mənzərəsi anlayışı ilə sinonimlik təşkil edir.Dilin semantik sahəsi, bildiyimiz kimi, dilin nominativ vahidləri, dilin funksional vasitələri, dilin obrazlı vasitələri ilə ifadə olunur.

D.S.Lixaçyov qeyd edir ki, milli dilin konseptlər sferasını (və ya konseptsferin)xalqın mədəniyyətilə əlaqədə öyrənmək lazımdır. O qeyd edir ki, " Konseptsfer xalqın mədəniyyəti, ədəbiyyatı, folkloru, elmi, təsviri sənəti zəngin olduqca o da zəngin olur, konseptsfer xalqın bütün tarixi təcrübəsi ilə əlaqədardır" (7, s.28). D.S. Lixaçyov konseptləri aşağıdakı qruplarda təsnif edir: universal (məsələn, ölüm, həyat), etnik (vətən, intelligensiya), qruplar ("səhnə" tamaşaçı və aktyorlar üçün), fərdi (bu konseptlər fərdi təcrübəsindən,dəyərlər sistemindən, mədəni səviyyəsindən tam asılıdır).

S.A.Koşarnaya hesab edir ki, konseptsfer konseptual sahələri əmələ gətirən konseptlərin birləşməsinin müxtəlif növləridir.Səhələrin birləşməsi isə konseptsferi əmələ gətirir (4,s.54). Z.D.Popova və İ.A.Sternin hesab edir ki, konseptlərin yaranma mənbəyi insanların idrak fəaliyyətidir. " Konseptsfer fikri obrazlar sahəsini, insanların srukturlaşdırılmış biliklərini təmsil edir. Bundan başqa, konseptlər yetərincə nizamlı xarakter daşıyır. Konseptləri əmələ gətirən konseptlər özlərinin ayrı-ayrı əlamətlərinə görə digər konseptlərlə oxşarlıq, fərqlilik və hierarxiya system münasibətlərinə girirlər (9, s.18).

Şübhəsiz ki, konsept mental törəmə, yaddaş vahidi, fərdin psixi həyatından asılı olan şüurumuzun məhsuludur. O anlayışdan elmi təsvirin məhsulu kimi fərqlənir. Konseptin koqnitiv mənşəli olduğunu inkar etmək çətindir, lakin bu o demək deyildir ki, konsept yalnız koqnitiv törəmə, təfəkkür vahidi və ayrica şəxsin psixi resursudur, çünki o həm də mədəniyyət faktı, xalqın tarixidir. Konseptin mədəniyyətlə əlaqəsini inkar etmək, insan təfəkkürünün mədəniyyətlə əlaqəsini inkar etməyə bərabərdir. Konseptin məzmunu zəngindir və obyektin relevant (əsas) əlamətlərini əks etdirən biliklə əlaqədardır.

Konseptin vacib əlamətləri aşağıdakılardan ibarətdir: konsept, bir tərəfdən, şüurun düşüncə, psixi resurslarının vahidi, digər tərəfdən isə

mədəniyyət faktı, vahididir; konsept dinamik xarakterlidir və insanın psixi həyatının qanunauyğunluqlarına tabedir; digər konseptlərdən təcrid olunmuş formada mövcud ola bilməz, konseptlərin məcmusu konseptsferi əmələ gətirir; çoxqatlı, çoxkomponentlidir; konseptin əsas funksiyası əvəzetmədən ibarətdir, çünki düşünmə fəaliyyəti prosesində eyni cinsli elementlər çoxluğunu əvəz edə bilir; verbal (sözlü) ifadə vasitələrilə bağlıdır, onlar arasında leksik vasitələr əsas yer tutur; adətən, konsept birdən çox leksik vahidə, yəni müxtəlifcinsli vahidlərin bütün məcmusunun ifadə planı ilə uyğun gəlir; nitqdə tam ifadə olunmur, konseptin ifadəsinin bütün dil vasitələrini qeydə almaq mümkün deyildir; gerçəkliyin konseptləşdirilməsi konseptin işarələnməsi, ifadəsi və təsviri vasitəsilə yerinə yetirilir; konsept biliyin emalı, qorunması və çatdırılmasıdır; konsept mütəhərrik sərhədə və konkret funksiyalara malikdir; konsept ictimai səciyyə daşıyır, onun assosiativ sahəsi onun praqmatikasını şərtləndirir; konsept sözün leksik mənasının fərdin qazandığı təcrübə ilə qovuşmasının nəticəsidir; konseptlər yalnız düşünülmür, həm də hissedilir; konsept dinamikliyi ilə səciyyələnir.

Mürəkkəb mahiyyətli konseptlərin vahid təsnifatını vermək çətindir. Lakin bununla belə konseptlərin təsnifatı istiqamətində xeyli cəhdlər olmuşdur. Həmin cəhdləri ümumiləşdirsək aşağıdakı mənzərəni əldə etmış olarıq:

1) koqnitiv (konkret- hissi obraz, təsəvvür, sxem, anlayış, prototip, propozisiya, ssenari, qeştalt);

2) kulturoloji (konkret, nisbətən abstract konseptlər, dünyagörüşü universaliləri);

3) sosialinqvistik (etnomədəni, sosiomədəni və fərdi-mədəni)

4) məfhum (kosmik, sosioloji, psixoloji və s.)

Konseptlə bağlı dilçilər arasında ortaq fikir onun mürəkkəb struktura malik olmasıdır. Konsept baza (özək) və əlavə koqnitiv əlamətlərdən təşkil olunmuş şərh edilən (periferiya,ətraf) sahəyə malikdir.Konseptlər dünyanın konseptual mənzərəsini yaradır və dünyanın dil mənzərəsində əks olunurlar.

Mürəkkəb və çox planlı struktura malik olan konseptdə konkret, mücərrəd, emosional, etnik, universal, rasional, ümumxalq, o cümlədən fərdi xüsusiyyətlər olduğundan, konseptə yeganə tərifin verilməsi və onun bir istiqamətdə araşdırılması çətinləşir. Qeyd edək ki, "konsept" termininin şərhində ehtiva olunan müxtəlif yanaşmalar bir-birini inkar etmir, əksinə birbiri ilə qarşılıqlı əlaqədə olur, kompleks şəkildə onu tədqiq edir. Müasir dilçilikdə konseptlər mühüm yer tutur, buna görə də onların tədqiqi olduqca vacibdir.

Ədəbiyyat:

1. Hacıyeva N. “Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında türkçülük konsepti (1918-1920-ci illərin materialları əsasında)” // Terminologiya məsələləri, №1, Bakı-Elm-2014, 69-80

2. Аскольдов С.А. Концепт и слово // Русская словесность. От теории словесности к структуре текста. Антология. М., 1997. с.267-279

3.Бабушкин А.П. Типы концептов в лексико-фразеологической семантике зыка//Воронеж: Изд-во Воронеж.гос.ун-та,1996,103с

4.Кошарная. С.А Языковая личность в контексте этнокультуры- М., 1997. 824 с.

5. Кубрякова Е.С., Демьянков В.З., Панкрац Ю.Г., Лузина Л.Г. Краткий словарь когнитивных терминов (под общей редакцией Е.С. Кубряковой). - М.: Изд-во МГУ им. М.В. Ломоносова, 1996. 245 с.

6. Леонтьев А.Н. Общение как обьект психолингвистического исследования. М.,1975,стр.3-17.

7. Лихачев Д.С. Концептосфера русского языка // Русская словесность: Анталогия / Под ред. В.П.Нерознака. М.: Academia, 1997, с. 280-287

8. Маслова В.А. Введение в когнитивную лингвистику: Учебное пособие– М.: Флинта: Наука, 2004. 296 с

9. Попова З.Д. Стернин И.А. Когнитивная лингвистика. Восток-Запад.2007,стр.35

10. Степанов Ю.С. Константы//Словарь русской культуры. Опыт исследования. М., 1997. 824 с.

11. Фрумкина Р.М. Концепт, категория, прототип // Лингвистическая и экстралингвистическая семантика. - М.: ИНИОН, 1992. - С. 28-43

12. Щерба Л.В. Языковая система и речевая деятельность. - Л., 1974. с.24-39

Б.Халилова

Понятие «Концепт» в лингвистике

Резюме

В этой статье рассматривается понятие «концепции». В статье сущность концептуальной концепции изучается в современной лингвистике. Основными особенностями современного лингвистического исследования являются тот факт, что язык представляет собой восприятие его сознания и его практическое применение. Выражает результаты человеческого познания, отражая объективный мир в процессе действия. Каждый из языков превращает мир в уникальный

путь. Концепция- картина мира основана на изучении человеческого воображения. Понятие концептуализма в лингвистической литературе трактуется по-разному. Концепции, которые охватывают различные области, как правило, составляют концепцию национального языка. Понятия, охватывающие различные области, как правило, составляют концепцию национального языка.Трудно отрицать, что концепция когнитивного происхождения есть, но это не означает, что эта концепция является только когнитивным происхождением, психикой и психическим здоровьем, это тоже факт культуры, история народа. Концепции в современной лингвистике играют важную роль, поэтому их исследование имеет решающее значение.

B.Khalilova

The cognition of "Concept" In Linguistics

Summary

This article discusses the concept of the concept. The main features of modern linguistic research are the fact that language is the perception of its consciousness and its practical application. It expresses the results of human cognition, reflecting the objective world in the process of action. Each of the languages turns the world into a unique way. The concept of ideology is based on the study of human imagination. The concept of conceptualism in linguistic literature is interpreted differently. Concepts that cover different areas usually form the concept of a national language. It differs from concept as a product of scientific description. It is difficult to deny that the concept of cognitive origin exists, but this does not mean that this concept is only a cognitive origin, psyche and mental health, but the fact of culture is the history of the people. Concepts in modern linguistics play an important role, so their study is crucial. In this article, the essence of the conceptual concept is studied in modern linguistics.

Rəyçi: Məmmədəli Novruzov
Filologiya elmləri doktoru, professor

SEVINC AĞAYEVA
Azərbaycan Dillər Universiteti
k.aqaev@mail.ru

DİLLƏRARASI ÜNSİYYƏTDƏ KONSEPT VƏ DİL VAHİDLƏRİNİN MÜVAFIQLİK PROBLEMİ

Açar sözlər: dillərarası ünsiyyət, məna, söz, konsept, milli konseptosfer, məktəb.
Ключевые слова: межкультурная коммуникация, смысл, слово, концепт, национальная концептосфера, школа.
Keywords: intercultural communication, meaning, vocabulary, concept, national conceptosphere, school.

Dillərarası ünsiyyət və bu prosesdə qarşılıqlı anlaşma problemi bəşəriyyət yarananda və milli dillər meydana gələndən mövcuddur. Bu proses son onilliklərdə xüsusi aktuallıq kəsb etmişdir. Bunun da əsas səbəbi dünyada gedən qloballaşma prosesləri və ölkələr arasında qarşılıqlı əlaqələrin son dərəcə intensivləşməsidir. Qarşılıqlı anlaşma prosesində ön plana ən müxtəlif səviyyələrdə yazılı və şifahi materialların tərcüməsi problemi çıxır. Tərcümə məsələlərinə uzun illər ərzində ciddi diqqət yetirilsə də, mütəxəssislər arasında vahid fikir hələ də yoxdur. Dil səpkisindən yanaşan mütəxəssislər sözün, ədəbiyyatçılar məzmunun çatdırılmasını əsas hesab edirlər. Halbuki, hələ dahi Məhəmməd Füzuli demişdir:

Söz mənadan asılıdır, məna sözdən hər zaman,
Bir-birindən asılıdır necə ki, cism ilə can. (1, s.12)

Məna və söz vəhdətdə çıxış edirlər və biri olmadan digəri mövcud deyil. Yalnız məna (bunu hazırda «konsept» kimi götürmək olar) formalaşanda onun sözlə çatdırılmasına ehtiyac yaranır, mənası olmayan söz isə sadəcə səslərin məcmusundan başqa bir şey deyil. Konsept isə müəyyən linqvokulturoloji mühitdə mövcud olan insanların şüurunda formalaşır, «ad» alır. O «ad» səsləndirildikdə dil daşıyıcısının şüurunda onun daşıdığı konsept canlanır. Hər dilin daşıyıcıları müəyyən spesifik (təbii, ictimai, tarixi və s.) mühitdə formalaşdıqlarından onların şüurundakı konseptlər və bütövlükdə milli konseptosfer spesifik xüsusiyyətlərə malik olur və onların digər dildə mütləq qarışılığı olmur. Bu tezisə aydınlıq gətirmək üçün «məktəb» konsepti ilə bağlı İngilis və Azərbaycan dillərində bəzi anlayışları qarşılaşdıraq:

Məktəb həyatı «daxil olmaq» və ya «qəbul olmaq» prosedurundan başlayır.

«Daxil olmaq» feilinin ekstralinqvistik fonu, o cümlədən ingilis və Amerika məktəblərinin xüsusiyyətlərini əks etdirən semantikasının spesifik-

liyini və valentliyinin (birləşməsinin) xüsusiyyətlərini nəzərdən keçirəndə, bu sözün çoxsaylı ingilis ekvivalentlərinin çoxlu birləşmə variantları olduğunu qeyd etmək lazımdır: adi dövlət ibtidai məktəbinə - «to start at school»; ödənişli, ibtidai, özəl imtiyazlı məktəbə hazırlaşmağa imkan verən məktəb – «to get into a preparatory school»; imtiyazlı qrammatik məktəbə seçim imtahanı vasitəsilə qəbul olmaq – «to he admitted to grammar (public) school; to enter grammar (public) school».

Qeyd etmək lazımdır ki, «elementary school» termini hazırda İngiltərədə işlədilmir. Bu termin 1870-ci ildə «Elementary Education Act»a əsasən 5 yaşından 13 yaşına qədər uşaqlar üçün təsis olunmuş dövlət məktəblərini bildirir. 1944-cü ildə Təhsil haqqında aktdan sonra bu məktəblər «Secondary modem schools» adlanmağa başladı. Amma Amerika təhsil sistemində «Secondary modem schools» adı dövlət məktəblərinə tətbiqən indi də işlədilir. Bunu da qeyd etmək lazımdır ki, Amerikada dövlət məktəblərini «public school» termini ilə bildirirlər, çünki onlar dövlət büdcəsindən dəstəklənir (Public fund). Britaniya variantında onun analoqu «state school» olacaq.

Azərbaycan məktəblərində buraxılış imtahanı mərkəzləşmiş olsa da, hələ qalmaqdadır. İmtahanı verib attestat alan məzun adlandırılır. Buna görə də, Azərbaycan dilində məzun dedikdə müəyyən təhsil müəssisəni bitirib rəsmi sənəd alan adam nəzərdə tutulur.

Britaniya məktəblərində buraxılış imtahanının götürülməsi məktəbin səlahiyyətlərinə daxil olmadığından, ingilislər üçün məktəb müəyyən yaşa qədər gedib, sonra valideynlərin uşağın əmək fəaliyyətinə başlamasını lazım hesab etdikləri vaxt tərk etmək mümkün olan təhsil müəssisəsidir. Və məktəbi dərs ilinin sonunda deyil, əsasən yeni il və ya pasxa ərəfəsində tərk edirlər və «to be term leaver» söz birləşməsi də burdan irəli gəlir.

«School leaver» və «məktəb məzunu» söz birləşmələrinin müqayisəsi maraqlı görünür. Onların hər birinin dərki «school» və «məktəb» sözlərinin leksik fonları ilə şərtlənir. Onlar keyfiyyət fərqləri olan realiləri bildirirlər, başqa sözlə, onların semantikasında mədəni komponent var. Bu sözlərin sintaktik əlaqələrini nəzərdən keçirsək, görərik ki, ingilis söz birləşmələrində feillərin anlayış bazası daha genişdir. Məsələn: məktəb ekskursiyaya gedib - «The school moves about»; məktəb tətilə buraxılıb - The school breaks up; məktəbdə oxumaq – «to go to school (to be at school)»; yaxşı oxumaq – «to do well».

Bunu da qeyd edək ki, söz birləşməsini mənasında mədəni komponent olan sözlərlə hərfi tərcümə etmək olmaz. Məsələn, bu sinonimləri müqayisə edək: «bir qrup şagird» mənasında «class» və «form»: class - group of persons taught together; form - class in GB school, the youngest boys and girls being in the first class and the oldest in sixth. Tərifindən göründüyü kimi, «class» - şagird qrupu kimi sinif, «form» isə onların yaş dərəcələrinə görə bölgüsüdür.

Müvafiq olaraq onlar fərqlənəcəklər: «Classroom» - room where a class is taught and keep its books (the word is restricted to primary schools); «Form- room» - the meanings as classroom but is mainly restricted to secondary schools, where it usually denotes a room used by a particular form for registration.

«Classroom» tədris prosesi gedən istənilən otağı bildirən ümumi termindir, eyni zamanda həm də ibtidai məktəbdə sinfi bildirmək üçün işlədilir. «Formroom» sözü «classroom» sözü ilə eyni mənalıdır, lakin «secondary schools»-a aid olub, əsasən müəyyən sinfin qeydiyyat və ayrı-ayrı dərslər üçün istifadə etdiyi otağı bildirir. Hərdən hansı otaqdan söhbət getdiyi kontekstdən aydın olanda «room» termini işlədilir.

İndi isə «sinif rəhbəri» və «class teacher» söz birləşmələrini müqayisə edək. Onlar ilk nəzərdə ekvivalent görünsə də, onları ekvivalent kimi işlətmək olmaz, çünki xeyli fərqli realiləri bildirirlər. Azərbaycanda «sinif rəhbəri» sinifdə davamiyyətə və davranışa, dərslərin yetirilməsinə cavabdeh olan, valideyn iclasları, sinif saatları keçirən, gündəliklərdə qiymətləri nəzarətdə saxlayan müəllimdir. «Class teacher» - eyni bir sinifdə dərslərin çoxunu deyən müəllimdir. Sonuncu dilimizdəki «sinif müəllimi» (ibtidai məktəbdə) ifadəsinə daha uyğun gəlir.

Buna görə də «sinif rəhbəri» söz birləşməsi ingilis dilindəki «form master» söz birləşməsinə uyğun gələcək.

Məlum olduğu kimi, ingilis məktəbində siniflərə bölgü şagirdlərin qabiliyyəti və dərsdə yetirmələri əsasında aparılır və buna uyğun olaraq «A, B» hərfləri ən qabiliyyətli şagirdlərin oxuduğu sinifləri bildirmək üçün istifadə edilir, «C, D» siniflərində orta qabiliyyətli şagirdlər oxuyur, çünki nəzərdə tutulur ki, əldə olunmuş nailiyyətlər əsasında il ərzində sinifdən sinfə yerdəyişmə mümkündür; hər sinifdə «class list» adlanan yetirmə siyahısı var. «Class list» deyəndə ingilislər şagirdin fənn üzrə siyahıda nömrəsini nəzərdə tuturlar. «Class list» bu baxımdan bizdəki «sinfin siyahısı» anlayışından ciddi fərqlənir: bizdə sinfin siyahısı əlifba sırası üzrə tutulur və il ərzində dəyişilməz qalır.

Leksik fon sosial gerçəklik haqqında biliklər olub, kommunikativ kompetentliyin mühüm hissəsidir. Bunu bilməmək dil normalarının çoxsaylı pozulmalarına, ya da həmin mədəniyyət üçün mənasız ifadələrin qurulmasına gətirib çıxarır. Məsələn, müəllimin «What did you have to do for homework?» sualı ingilis məktəbliləri üçün qəribə görünə bilər: onlar fikirləşərlər ki, müəllim həqiqətən də evə verdiyi tapşırığı yaddan çıxarıb.

Həmin ifadə Azərbaycan dilində tamamilə təbiidir və tez-tez işlədildiyinə görə şagirdləri ev tapşırığının yoxlanılmasına hazırlayır.

Başqa bir misal: «proqram» - bu sənəddə fənnin məzmunu açılır. Onda mövzular, bölmələr və ayrı-ayrı suallar tədris illəri üzrə bölünür.

«Curriculum - a list of courses, offered at a school, college or University (Ex. general curriculum, National Curriculum)». «Proqram» və «curriculum» sözlərinin tərifləri özlərinin fon biliklərinə görə fərqlənir. Belə ki, Azərbaycan Respublikasının Təhsil Qanununda da Təhsil proqramının sinonimi kimi «kurikulum» anlayışı işlədilir. Amma bu anlayış ingilis «təhsil» konseptosferindəki eyniadlı konseptdən məna tutumuna görə əsaslı surətdə fərqlənir. Təhsil qanununun 10-cu maddəsi bütövlükdə tədris proqramı məsələsinə həsr olunmuşdur (3).

İngilislərin «certifícate» və Azərbaycan dilində işlədilən «attestat» sözlərini müqayisə edək! Hər iki dil vahidi məktəb həyatına aiddir. Anlayış baxımından onları ekvivalent hesab etmək olar, çünki hər ikisinin məna tutumunda «orta təhsil haqqında sənəd» anlayışı var, amma bunlar fon biliklərinə görə o qədər fərqlənir ki, bir dildən digərinə tərcümə zamanı onların birini digərinin ekvivalenti kimi götürmək olmaz. Azərbaycan dilindəki «attestat» sözü «orta təhsil müəssisəsini bitirmək haqqında sənəd» olub, məzunlara orta məktəbi bitirəndən sonra təntənəli buraxılış gecəsində təqdim olunursa, ingilislərin «certifícate» sözü «orta məktəb kursu üzrə bir və ya bir neçə imtahanın verilməsi haqqında sənəddir». «Certifícate» sözü 90-cı illərdən Azərbaycan «təhsil» konseptosferasında da özünə yer almışdır və müəyyən hazırlıq kursu (əsasən verildiyi şəxsin bu və ya digər dil və ya çox az hallarda ixtisas üzrə hazırlıq) keçməsinə dəlalət edir.

Bundan başqa, neçə və hansı səviyyəli imtahanın verilməsindən asılı olaraq: «Ordinary level Advanced level» şagirdləri «Certifícate of Second Education (CSE)» və ya «General Certifícate of Education (GCE)» alırlar.

Mənalarının nüvəsini, özəyini milli-mədəni məzmun təşkil edən söz qrupunu fərqləndirmək olar ki, onların bizim gerçəklikdə analoqu yoxdur. Məsələn, «yearbook» (bəzi orta məktəblərin şagirdlərinin mətbəə üsulu ilə çap etdirdikləri illik albom), Albomda hər məktəblinin şəkli (bununla yanaşı adı, soyadı, hətta ləqəbi də verilir), məktəb tədbirlərində şəkilləri, məktəb haqqında məlumat və s. verilir. Albom müəllimlərin və sinif yoldaşlarının avtoqrafları ilə bəzədilir. «Valedictorian» - vida sözünü deyən məzun – orta məktəbin, kollec və ya universitetin məzunudur, təhsildə uğurlarına görə diplomların təqdim edilməsində təntənəli nitqi söyləmək ona tapşırılır.

İngiliscə «scholarship» və azərbaycanca «təqaüd» sözlərinin ekvivalentliyini nəzərdən keçirsək, görərik ki, Azərbaycan dilində anlayışın ekvivalenti qismində ingilislərin «monthly allowance» anlayışı götürülə bilər, çünki müvafiq konseptual əlamətlər (təqaüdün mütəmadi verilməsi və həmçinin pul məbləğindən ibarət olması) məhz bu ifadədə var (İngiltərədə təqaüd, məlum olduğu kimi, təhsil haqqının ödənilməsinə köçürülür); «allowance – periodical payment of money to a person, e. g. monthly allowance».

Məktəblə bağlı ingilis və Azərbaycan leksik vahidlər və onların çatdırdıqları konseptlərin qarşılaşdırılmasını davam etdirsək, görərik ki, onların hamısında fərqli məqamlar var. Bu isə dillərarası ünsiyyətdə bu fərqlərin mütləq nəzərə alınmasını və müvafiq anlayışın işlədilməsini vacib edir.

İstifadə olunmuş ədəbiyyat

1. Məhəmməd Füzuli. Əsərləri altı cilddə. III cild. Bakı: Şərq-qərb, 2005.
2. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu / http://edu.gov.az/az/page/72/302

С.Агаева
Азербайджанский Университет Языков

Проблема соответствия концепта и языковых единиц в межязыковом общении

Резюме

В межъязыковом общении возникает проблема сопоставимости концептов и реализующих их языковых единиц. Так как концепты формируются в конкретной природной, общественной, социальной, исторической и др. среде, несут в себе специфические особенности, которые и реализуются языковыми средствами, которые так же несут на себе отпечатки той самой среды. Сравнение автором словосочетаний на разных языках представляется интересным. Познавание каждого из них обусловлено лексическими фонами. Они указывают на реалии с качественными различиями, другими словами, в их семантике есть культурный компонент. У лингвистов нет единого мнения о языковых единицах. Некоторые лингвисты считают, что языковые единицы должны быть двусторонними. Нет сомнений в том, что морфема является лингвистической единицей. Фонема является односторонней и лишена смысла. Поэтому лингвисты не рассматривают её как единицу языка. Однако тот факт, что фонема односторонняя, не мешает ей общаться со смыслом. Также нет единого мнения о слове как языковой единицы. Поэтому абсолютного соответствия между концептами и языковыми средствами в разных языках нет, можно говорить о частичном соответствии. Это показывается и доказывается в статье на примере английских и азербайджанских концептов и языковых единиц, связанных с понятием «школа».

S.Agayeva
Azerbaijan University of Languages

The problem of conformity of the concept and language units in interlingual communication

Summary

In interlingual communication there is a problem of comparability of concepts and language units that implement them. Since concepts are formed in a specific natural, social, social, historical, etc. environment, they carry specific features that are realized by linguistic means that also bear the imprints of that very environment. Comparison by the author of phrases in different languages is interesting. The knowledge of each of them is due to lexical backgrounds. They point to realities with qualitative differences, in other words, there is a cultural component in their semantics. Linguists do not have a single opinion on the language units. Some linguists believe that language units should be bilateral. There is no doubt that the morpheme is a linguistic unit. The phoneme is one-sided and deprived of meaning. Therefore, linguists do not regard it as a unit of language. However, the fact that the phoneme is one-sided does not prevent it from communicating with the meaning. There is also no single opinion about the word as a language unit. Therefore, there is no absolute correspondence between concepts and linguistic means in different languages, we can speak about partial correspondence. This is shown and proved in the article on the example of the English and Azerbaijani concepts and language units associated with the concept of "school".

Rəyçi: Fikrət Cahangirov
Filologiya elmləri doktoru, professor

KÖNÜL HÜSEYNOVA
ADU
konul_dream@yahoo.com

DİL FAKÜLTƏLƏRININ AŞAĞI KURSLARINDA TƏHSİL ALAN TƏLƏBƏLƏRƏ QRAMMATİK VƏRDİŞLƏRİN AŞILANMASININ ELMİ- NƏZƏRİ ƏSASLARI

Açar sözlər: nitq, qrammatika, kontekst.
Key words: speech, grammar,context.
Ключевые слова: речь, грамматика, контекст

Xarici dillərin tədrisində qrammatikanın rolu və yeri danılmazdır. Belə ki, qrammatikanın tədrisi zamanı müxtəlif innovativ üsullardan istifadə olunur.

Qrammatikanın öyrədilməsində müqayisə xüsusi rola malikdir. Burada təklif edilən üsullardan biri oxşar strukturların müəllim tərəfindən lövhədə göstərilməsi, forma, məna, ifadə tərzi nöqteyi nəzərindən fərqlərin izah edilməsidir. Daha sonra isə tapşırıqların tələbələr tərəfindən yerinə yetirilməsi nəzərdə tutulur. Bu üsulun zaman formalarının müqayisəsi baxımından da istifadəsi arzuolunandır. Belə ki, müəllim tələbələrə bir hekayə söyləməklə süjet ilə bağlı situativ assosiasiya yaratmış olur.

Dərsdə mənimsənilməli olan qrammatik strukturlar " He would have....| He wouldnt have|" və ya I should be... , I could be..., let the... və s. izahı zamanı müxtəlif cümlələrdən istifadə etmək olar.Sonra müəllim tələbələrə hekayənin məzmununa aid suallar ünvanlayır. Müəllim tərəfindən verilən sualların tərtibatı tələbələrin cavablarında öz əksini tapmalıdır. Sözü gedən qrammatik strukturların tələbələrin cavablarında istifadəsini müəllim görmədikdə, diqqəti həmin strukturlara yönəltməlidir .

" Would have to…| wouldn't have to … və s. strukturlarından istifadə etmək şərtilə tələbələr özlərinin situasiya və ya dialoqlarını qurmağa təhrik edilir. Müvafiq qrammatik materialın tələbələr tərəfindən başa düşülməsini yoxlamaq üçün müəllim suallar ünvanlaya bilər.

Qrammatikanın təlimi prosesində, daha doğrusu qrammatik strukturların təqdim edilməsi zamanı şəkillər, diaqram və müvafiq cədvəllərdən istifadə tədris prosesini daha məzmunlu və başadüşülən edir. Xüsusilə, əyani vasitələrlə öyrənməyə üstünlük verən tələbələr üçün daha da səmərəli olur. Təqdim edilmiş yeni qrammatik strukturların mənası başa düşüldükdən sonra, onlara dərhal həmin strukturları şifahi nitq, yazı, oxu və dinləyib-anlama fəaliyyət növlərində istifadə etmək imkanları verilməlidir.

Mənimsənilməli olan "should have" , " shouldn't have " qrammatik strukturuna nəzər salaq:

Tələbələr lövhədə yazılmış replikalardan istifadə edərək dialoq qurmalıdırlar.

Very cold- Worn your jacket.

Feel sleepy- Gone to bed earerer.

Can't see the blackbord – Brought glasses.

Tələbələr replikalardan istifadə edərkən aşağıdakı şakildə dialoq qurur :

I'm very cold – you should have worn your jacket.

I ful sleepy – youshould have gone to bed earlier.

I can't see the blackboard – you should have brought glasses

Dərsin növbəti mərhələsi dialoqların qurulması ilə bağlıdır. Burada yaradıcı olmaq vacib şərtlərdən sayılır.Başlanğıcda tələbələrin fəaliyyəti müəllim tərəfindən idarə edildiyi halda, yaradıcı pillədə müəllim tələbələrin fəaliyyətini istiqamətləndirməklə kifayətlənir.

Beləliklə, tələbələrdə mənimsənilmiş strukturların yaradıcı nitq fəaliyyətində istifadə etmək bacarığı formalaşdırılır.

Qrammatikanın tədrisində mövcud olan əsas çətinlik – müxtəlif vasitələrdən istifadə etməklə sözlərin formalarını dəyişmək və cümlədə müvafiq yerlərdə işlətmək və s. kimi bacarıq və vərdişlərə yiyələnməkdir.

Yeni qrammatik strukturları yazılı nitq prosesində istifadə etmək məqsədilə tələbələrə olduqca səmərəli olan yazılı çalışmalar təqdim edilə bilər. Belə ki, tələbələrə mətn təqdim edilir və həmin mətndə bütün fellərin indiki zamandan keçmiş zamana dəyişdirmək tapşırığı verilə bilər.

Onu da qeyd etmək lazımdır ki, yaradıcı xarakterli tapşırıqlar tələbələrə yeni dil vahidini sərbəst şəkildə istifadə etmək imkanını verir. Tələbələrə müxtəlif köməkçi fellər vasitəsilə ümumi sual (" yes" or " no" questions) vermək bacarığını formalaşdırmaq məqsədilə aşağıdakı çalışmaları vermək mümkündür.

They opened their books.

Did they open their books ?

Yes, they did.\ No, he didn't.

Sözü gedən fəaliyyət növü qrup şəklində təkrar edilə bilər. Bu zaman sual- cavab vasitəsilə ünsiyyətə girən tələbələrin sayı xeyli çoxalır.

İngilis dili qrammatikası üçün olduqca əhəmiyyətli olan qaydasız fellər mövzusunu tələbələrə kommunikativ-yönümlü surətdə aşılayarkən, onlara müəyyən yaş dövrlərində (uşaqlıqda, yeniyetmə dövründə) yaşadıqları hadisələri yazılı şəkildə təsvir etmək haqqında tapşırıq verilir. Tələbələr həyatı ilə bilavasitə bağlı olan yaradıcı fəaliyyət növlərini yerinə yetirməklə dərslikdə olan mətn və ya hər hansı müzakirə edilən mövzuya dair özlərinin

fikir, ideya və mövqelərini ifadə etmək imkanını əldə edirlər. Tələbələri bu cür yaradıcı xarakterli fəaliyyət növlərinə fəal iştirakçı qismində cəlb etməklə xarici dilin, o cümlədən də qrammatikanın öyrədilməsi prosesini tələbələr üçün daha maraqlı etmək və daha uğurlu nəticələri əldə etmək üçün imkanlar yaradır. Qrammatikanın tədrisində obyektiv qiymətləndirilmə vacib şərtdir. Mənimsənilmiş nəzəri biliklərin praktikaya tətbiq edilməsinə gəldikdə, burada çoxsaylı problemlərin mövcudluğunu qeyd etmək lazımdır. İlkin mərhələdə tələbələrə təkrarlamaq məqsədilə artıq mənimsənilmiş strukturlar lövhədə yazılır.

- He learns too much.
- We can't afford to take risks.
- She took her umbrella .

Cümlələri lövhədə yazdıqda, müəllim tələbələrə aşağıdakı tipli suallarla müraciət edir:

- Who learns too much?
- How much does he know?
- Who can't afford to take ricks?
- What can't he do?
- What did she do?
- Who took her umbrella ?
- What did she take?

Sonrakı mərhələdə müəllim tələbələrə mətndə olan yeni strukturları təqdim edir. Bu məqsədlə müəllim artıq təqdim edilmiş birinci və ikinci cümlələri birləşdirərkən, yeni cümlə qurmağı tələbələrə tapşırır.

- We can't afford to take risks because he knows too much.
- Being a "good gossip" you also need a good audience who give plenty of appropriate feedback.

Müəllim tələbələrdən birinci cümlədə "because", ikinci cümlədə isə "who" sözlərinin mənasını və onların cümlədə yetirdiyi funksiyaya dair suallar verir:

T: What does "because" mean in the sentence?

What are the two sentences in the sentence given?

- What does "who" mean in the sentence? How many sentences are there in a sentence? What are they?

Təqdim olunan cümlələrin quruluşunun tələbələr üçün çətin olduğundan, müəllim bir neçə mürəkkəb cümlə nümunələrini əlavə olaraq tələbələrə təqdim etməlidir.

- The English women all agree that a particular tone of voice was considered appropriate for gossip.

• Many of the women complain that men fail to adopt the correct tone of voice.

Bu cümlələri təqdim etdikdən sonra müəllim "who, that, because" ilə başlayan cümlələrin budaq cümlələr olduğunu tələbələrə deyir. Bundan sonra tələbələrə budaq cümləli mürəkkəb cümlələr təqdim edilir. Sonra cümlələrə aid sualları cavablandırmaq təklif edilir. Nəzərə almaq lazımdır ki, təlimin bu mərhələsində tələbələrə mənimsənilməli olan qrammatik strukturların nitqlərində istifadə edilməsi ilə produktiv xarakterli tapşırıqların verilməsi tövsiyə edilmir. Burada başlıca məqsəd yalnız qrammatik strukturların mətnlərin məzmununu başa düşmək üçün mənimsənilməsidir. Yazılı şəkildə yerinə yetirilən tapşırıqlara misal olaraq, bir neçə cümləni lövhədə yazmaq, sonra isə onları birləşdirərək mürəkkəb cümlə düzəltmək tövsiyə edilir, 5-6 sadə cümlədən bir cümlə düzəltmək kifayət qədər çətin məsələdir. Bu tapşırığın tələbələr tərəfindən qrup şəklində yerinə yetirilməsi daha münasibdir. Qrammatika ilə bağlı olan əsas problem mətnlərin məzmununun başa düşülməsi üçün mənimsənilmiş qrammatik strukturların daha sonra produktiv məqsədlərlə, yazı prosesində yaradıcı şəkildə istifadə etmək məsələsidir. Bu cür strukturların hər birinin tədris mərhələsinə uyğun şəkildə siyahısı tərtib edilməlidir.Aşağı mərhələdə çətinliklərə səbəb olan qrammatik strukturlar orta mərhələdə heç bir çətinlik törətmir, orta mərhələdə olan tələbələr üçün çətin olan strukturlar tədrisin yuxarı mərhələsində heç bir çətinliyə səbəb olmur. Xarici dil tədrisinin yuxarı mərhələsində olan və həqiqətən həmin səviyyəyə uyğun olan bilik, bacarıq və qabiliyyətləri nümayiş etdirən tələbələr dili cümlə səviyyəsində deyil, cümlə səviyyəsindən daha üstün səviyyədə mənimsəyir.

Mənimsənilməli olan qrammatik strukturlarının siyahısının tərtib edilməsi müəyyən mənada çətin məsələdir. Təqdim olunan cümlələrin quruluşu tələbələr üçün çətin olduğundan, müəllim bir neçə mürəkkəb cümlə nümunələrini əlavə olaraq tələbələrə təqdim etməlidir.

Lakin qrammatikanın tədrisi zamanı tələbələri istiqamətləndirmək məqsədilə siyahıdan istifadə edilə bilər.

Ədəbiyyat

1.Barsuk R. Y. Xarici dil təliminin metodikasının bəzi məsələləri:Azərbaycan məktəbi, Bakı, 1965, N 8, s. 29-33.
2. Jenkins, J. 1996. "Native Speaker, Non Native Speaker , and English as a Foreign Language: Time for a Change: IATEFL Newsletter 13: 10-11.
3.Johnson, K. 1988. "Mistake Correctio; ELT Journal, 42, pp.89-96.
4.Krashen S.D . Explorations in language acquisition. Heinemann, 2003, 93 p.

K. Husseynova

On the scientific- theoretical backgrounds of teaching grammatical habits in junior stages of language faculties

Summary

The article deals with the scientific- theoretical backgrounds of teaching grammatical habits in junior stages of language faculties. The process of teaching English should be based on the communicative – functional approach . The whole process of teaching should be goal-oriented and systematic. It will make the process of teaching grammar more effective. Grammar is one of the most basic and important aspect in language teaching and learning.

The author emphasizes the role of grammatical habits in junior stages of language faculties , referring to the works of scientists that have been researched in this field and she emphasizes that since its emergence caught the attention of investigators and new researches appeared. While analyzing the grammatical habits great attention was given to the facts taken from the methodological literature.

К. Гусейнова

К вопросу о преподавании научно- теоретических основах грамматических умений на младших курсах факулътетах языков.

Резюме

В данной статье рассматриваются к вопросу о преподавании научно- теоретические основы грамматических умений на младших курсах языкового вуза. Процесс английскому языку в целом и процесс обучения должен базироваться на коммуникативно – функциональном принципе. Обучением устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению еффективности данного процесса.

Грамматика является одним из самых важных и необходимых аспектах которыми должен обладать человек, изучающий язык в тех или иных целях. Автор пытается раскрыть роль грамматических умений на младших курсах языкового вуза . Она ссылаясь на работы ученых исследовавших эту область, а также подчеркивает ее важность. В течение анализа большое внимание обращено на фактам, полученных из методологических литератур.

Rəyçi: Nuriyyə Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru

KÖNÜL NƏCƏFOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
e-mail: najafova.konul1982@gmail.com

QEYRİ –İXTİSAS FAKÜLTƏLƏRİNDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNİN SƏMƏRƏLİ YOLLARI

Açar sözlər: nitq, meyar, dil, söz
Key words: speech, criteria, language, word
Ключевые слова: речь, критерия, язык, слова

Qeyri- ixtisas fakültələrində ingilis dilinin tədrisi prosesinin ixtisas-yönümlü şəkildə təşkil edilməsi, təlimin məqsədyönümlü, sistemli, mərhələli şəkildə həyata keçirilməsi, təlim prosesində istifadə edilən materialların tələbələrin maraq, ehtiyac və tələbatlarına uyğun olması, onun interaktiv şəkildə təşkil edilməsi, tələbələrin fəal iştirakçı qismində iştirak etməsi ingilis dilinin xüsusi məqsədlərlə təlimi prosesinin daha səmərəli şəkildə təşkil edilməsinə və həm kəmiyyət, həm də keyfiyyət baxımından yüksək nailiyyətlərin əldə edilməsini təmin edə bilər.

İxtisası dil olmayan fakültələrdə ingilis dilini öyrənən və gələcəkdə müxtəlif sahələrdə fəaliyyətə hazırlaşan tələbələr üçün tələbə-yönümlülük prinsipi xüsusi əhəmiyyət kəsb etmiş olur. Tələbəyönümlülük müasir metodikanın əsas prinsiplərindən birinə çevrilmişdir.

Tələbəyönümlü tədrisin əsasını təşkil edən prinsiplərdən biri təlim prosesinin tələbələrin maraqları, tələbat və ehtiyacları üzərində qurulmasıdır. Qeyri-ixtisas fakültələrində ingilis dilini tədris edərkən burada təhsil alan tələbələrin tələbat və ehtiyaclarını, onların maraqlarının nəzərə alınması olduqca vacibdir. Tələbələri düzgün şəkildə istiqamətləndirmək, onların müstəqil fəaliyyətlərini səmərəli şəkildə təşkil etmək üçün ayrı-ayrı tələbələr üçün fərdi proqramlar hazırlanmalıdır. Fərdi proqramları hazırlayarkən, müəllim tələbələrin fərdi xüsusiyyətlərini, onların dilin mənimsənilmə qabiliyyətini, eləcə də xarici dilin mənimsənilməsi prosesinə təsir edə biləcək psixoloji amilləri nəzərə almalıdır. Həm keyfiyyət, həm də kəmiyyət cəhətdən tələb edilən səviyyəyə yiyələnmək üçün birinci növbədə ingilis dilini öyrənən tələbələrə dil üzərində müstəqil şəkildə işləmək, bilik və bacarıqlara müstəqil, sərbəst şəkildə yiyələnmək vərdişləri aşılanmalıdır.

Onu da demək lazımdır ki, onların heç də hamısı bu işin öhdəsindən asanlıqla gələ bilmir. Səmərəli nəticələrin əldə edilməsi üçün tələbələrə bu məqsədlə hazırlanmış xüsusi materiallar təqdim edilməlidir. Qoyulan məqsədlərə nail olmaq üçün əhəmiyyətli olan amillərdən danışarkən tələbələrin müstəqil öyrənmə fəaliyyətinin müəllim tərəfindən düzgün

şəkildə idarə edilməsi və ingilis dilinə mükəmməl şəkildə yiyələnmiş kadrlara ehtiyac və marağı olan müvafiq qurum və kompaniyalar tərəfindən göstərilən dəstək və yardımın əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır.

Müstəqil işin üstünlüyü onun hər vaxt, hər yerdə həyata keçirilməsinin mümkün olmasıdır. Xarici dili öyrənmək arzusunda olan, onun praktik əhəmiyyətini tam şəkildə dərk edən tələbələrin böyük əksəriyyəti bu istiqamətdə fəaliyyətlərini müntəzəm surətdə təşkil etməli, bu məqsədlə xüsusi vaxt ayırmalıdır. Fərdi şəkildə işləməklə bərabər, tələbələr bəzən həmkarları və tələbə yoldaşları ilə birləşərək qruplar təşkil edə bilər və qrup daxilində tələbə yoldaşları ilə məsləhətləşmək imkanını əldə edə bilər. Qrup şəklində dil öyrənməyin əsas üstünlüyü ondan ibarətdir ki, burada ingilis dilini öyrənən, lakin həmin dildə danışmaq, bu dildə ünsiyyətə girmək imkanı olmayan tələbələr bu cür imkanı əldə etmiş olur. Tələbələrin tədris edilən xarici dildə, o cümlədən ingilis dilində danışıq vərdişlərinin inkişaf etdirilməsinin yeganə yolu həmin dildə müntəzəm olaraq danışmaqdır (Badger). Onu da vurğulamaq lazımdır ki, auditoriya şəraitində keçirilən dərslərdən fərqli olaraq, tələbələrin müstəqil işinə ayrılan vaxt onlarda xarici dilin öyrənilməsinə olan maraq və motivasiyadan, özləri üçün sərbəst şəkildə tərtib etdikləri iş qrafikindən asılıdır. Beləliklə də, müstəqil işə ayrılan vaxta heç bir məhdudiyyət qoyula bilməz. Fərdi proqramları tərtib edərkən, müəllimlər ilk növbədə tələbələrin ingilis dili sahəsində olan bilik və bacarıq səviyyəsini, xüsusi testlər əsasında onlarda olan dil öyrənmə qabiliyyətinin səviyyəsini müəyyənləşdirməlidir. Bu gün dünyada və ölkəmizdə ingilis dilinin rolunu və əhəmiyyətini nəzərə alaraq, tələbələrdə xarici dillərin öyrənilməsində qabiliyyətləri müəyyənləşdirərkən xarici dil müəllimləri çox diqqətli olmalıdır, çünki bu amil insanın işə düzəlməsi imkanları ilə bilavasitə bağlıdır. Hər hansı təlim prosesini təşkil edərkən, birinci növbədə tələbələrin səviyyəsini qiymətləndirmək vacibdir. Burada özünüqiymətləndirmənin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulamaq lazımdır. Tələbə təlim prosesində əldə etdiyi nailiyyətləri, təlim kursunun səmərəliliyini və xarici dili tədris edən müəllimin fəaliyyətinin effektliliyini qiymətləndirməlidir. Onu da demək lazımdır ki, Avropanın aparıcı ölkələrində keçirilən ESP təlimini həyata keçirən müəllimin xarici dili xüsusi məqsədlərlə öyrənən tələbələrə verdiyi qiymət onların kompaniya, müəssisələr tərəfindən işə qəbul olunması zamanı adı çəkilən qurumların rəhbərləri tərəfindən olduqca ciddi qəbul edilir və bəzən həlledici rol oynayır. Tələbələrin nailiyyətlərinin müəllim tərəfindən qiymətləndirilməsinin əhəmiyyəti danılmazdır. Öz növbəsində, tələbələr tərəfindən müəllimin fəaliyyəti və kursun qiymətləndirilməsi də olduqca vacibdir. Müasir dünyada biznes sahəsində aparıcı rol oynayan və qlobal miqyasda aparıcı biznes dili statusunu əldə etmiş ingilis dilinin öyrənilməsi müxtəlif sahələrdə çalışan və çalışmaq

arzusunda olan bir çox insanlar üçün xüsusi əhəmiyyət kəsb edən bir məsələdir. İngilis dilini bilmədən, onlar dövrün tələblərinə uyğun şəkildə fəaliyyət göstərə, dünyada ixtisasları ilə bağlı baş verən hadisələr, problem və yeniliklər haqqında məlumat əldə edə bilməz. Onu da nəzərə almaq lazımdır ki, ingilis dilini xüsusi məqsədlərlə öyrənənlər bu dilə qısa müddət ərzində və səmərəli şəkildə yiyələnməlidir. Bu səbəbdən, ingilis dilini xüsusi məqsədlərlə həyata keçirən ingilis dili müəllimləri müvafiq sahə haqqında məlumatlı olmalı və ingilis dilinin müvafiq sahələrdə çalışan mütəxəssislərə tədrisinin səmərələşdirilməsi haqqında daim düşünməli, yeni, daha effektiv təlim üsullarını işləyib hazırlamalıdır. Onu da qeyd etmək lazımdır ki, tədrisin mərhələsindən asılı olaraq sözlərin təqdim edilməsi və mənimsənilməsi fərqli şəkildə baş verməlidir.Problemi araşdıran tədqiqatçıların bəziləri ESP ilə bilavasitə bağlı olan termin və ifadələri kontekst daxilində mənimsənilməsini məqsədəuyğun hesab edir və həmin prosesin üç mərhələdən ibarət olduğunu qeyd edirlər.

Birinci mərhələdə müəllim tələbələrə söz və terminlərdən ibarət olan siyahını təqdim edir. Tələbələrə həmin terminləri yazılı nitqlərində istifadə etmək tapşırığı verilir. Onu da qeyd etmək lazımdır ki, tapşırığı yerinə yetirməzdən əvvəl tələbələrə təqdim edilmiş termin və ifadələrin semantik mənalarını təhlil etmək təklif edilir. Bir qayda olaraq, tələbələr həmin sözlərin gündəlik dildə istifadə edilən mənalarını tapmaqda çətilik çəkmirlər. Siyahıya sırf ESP termini daxil edilərsə, onun mənası müəllim və yaxud hazırlıqlı tələbə tərəfindən izah edilməlidir. Yazılı şəkildə fikirlərini ifadə edən tələbələr sözlərin kontekstual mənaların baş verən morfoloji dəyişiklikləri, eləcə də onların cümlədə yerinə yetirdiyi sintaktik funksiyanı bilməlidirlər. Bu cür yazı işlərinin bütün dil daşıyıcıları olmayan tələbələr üçün eyni olan çətinlikləri aşağıdakılardır: cümlələrin sadə quruluşu, mürəkkəb cümlələrin olmaması, təbii səslənən ifadələrin kifayət qədər olmamasıdır. Lakin onu da qeyd etmək lazımdır ki, bəzi yazı işləri yüksək səviyyədə yerinə yetirilir və yuxarıda qeyd edilən çatışmayan cəhətlər burada müşahidə edilmir. Tapşırığı fərdi şəkildə yerinə yetirən tələbələr fəaliyyətə cəlb edilmiş olur, onların diqqəti tapşırıq üzərində cəmləşdirilir. Onu da nəzərə almaq lazımdır ki, konteksdən təcrid edilmiş ayrı-ayrı cümlələrin tərtib edilməsi tamamilə mənasız və qaydasızdır. İkinci mərhələdə tələbələrə bir-birinin yazı işlərini oxuyub onları qiymətləndirmək tapşırığı verilir. Tələbələrin diqqəti leksik vahid və sözbirləşmələrinə nə dərəcədə düzgün və kontekstə uyğun şəkildə istifadə edilməsi istiqamətinə yönəldilməlidir. Bu mərhələ də xüsusi əhəmiyyət kəsb edir, çünki diqqət düzgün, qısa, aydın və adekvat şəkildə fikir və ideya ifadə etmək qabiliyyətinin inkişaf etdirilməsinə yönəldilir. Qiymətləndirmə prosesini daha maraqlı etmək üçün ən yaxşı yazılı işi müəyyənləşdirmək məqsədilə müsabiqə elan edilə bilər. Qiymətləndirmə iki

meyarın əsasında həyata keçirilə bilər: məzmun və forma.Belə ki, hekayənin məzmunu və istifadə edilən leksik vahidlərin kontekstə uyğun olub-olmaması eyni dərəcədə əhəmiyyətlidir. Qiymətləndirmə prosesində bilavasitə iştirak edən tələbələr əslində dil öyrənmə prosesinə fəal şəkildə cəlb edilmiş olur. Bu onlarda dil öyrənmə strategiyalarının inkişaf etdirilməsi və daha uğurlu nəticələrin əldə edilməsinə imkan verir. Növbəti mərhələdə müəllim tələbələrə oxu uçün bu və ya digər mətni təqdim edir. Burada əsas əhəmiyyət ondan ibarətdir ki. tələbələrə təqdim edilmiş sözlər mətndə istifadə edilir. Bu da həmin sözlərin tələbələr tərəfindən təkrarən eşidilməsi və istifadə edilməsi üçün imkanlar yaradır.Beləliklə, ESP qeyri –ixtisas fakültələrində ixtisasyönümlü tədris edilməlidir.

Ədəbiyyat

1. Raz H. 1992. The Crucial Role of Feedback & Evaluation in Language Curriculum Development. RELC Journal 15(1): 1-29.
2. Richards, J.C and Rodgers, Th. S. 2003. Approaches and Methods in Language Teaching, Cambridge: Cambridge University Press, p 240.
3. Riley, P. 1989. Keeping secrets: ESP/LSP & the Sociology of Knowledge in European Journal of Teacher Education. Vol.12, pp.69-81.
4. Rivers, W.M. Individualized Instruction & Cooperative Learning: Some Theoretical Consideration, in Rivers (1976a), pp.236-55.
5. Schuman, J. Communication Techniques, Tq 6, (1972), pp.143-46.
6. Selinker, L. 1972. “Interlanguage”, IRAZ, 10. 21, 219-31.
7. Taylor, Barry P. 1983. Teaching ESL Incorporating a Communicative Student- Centred Component. TESOL quarterly. 17: 69-88.
8. Van Essen, A.J. 1991. “English-a Word Language: Vol. 1, №2, pp.6-13.
9. Hutchinson, T., Waters, A. and Breen, M. “An English Language Curriculum for Technical Students” in “Practical Papers” in “English Language Education”, vol. 2. Institute for Language Education, University of Lancaster, 1979.

K. Najafova

The effective ways of teaching english in esp faculties

Summary

The article is devoted to the main principals of ESP. Nowadays the main goal of teaching and learning foreign languages in the global world is developing language learners’ ability to use the target language for communication. The process of teaching English should be based on the

communicative – functional approach to teaching languages. The whole process of teaching ESP should be goal-oriented and systematic.

The article also deals with the problem of working out effective ways of ESP.Special attention should be paid to preparing materials and activities for speaking. Preference should be given to materials.

While analyzing great attention was given to the facts taken from the literature. One of the important goal of the article is to detect and find out the role of the language. The author emphasizes its role, referring to the works of scientist that have been researched in this field of methodology. She emphasizes the emergence of ESP in methodology.

К.Наджафова

Еффективные пути преподавания английского языка на неязыковых факультетах

Резюме

В данной статье рассматриваются к вопросу **о принципах ESP**. В условиях глобализации основная цель обучения иностранным языкам и их изучения состоит в формировании у обучаемых способности использовать язык в целях коммуникации. Процесс английскому языку в целом и процесс обучения должен базироваться на коммуникативно – функциональном принципе. Обучением ESP должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению еффективности данного процесса.

В данной статье рассматриваются вопросы обучения ESP. Предпочтение должно быть отдано материалом.

Течение анализа большое внимание обращено на фактом , полученные из литератур. Один из важнейщих целей- раскрыть роль. Она ссылаясь на работы ученых исследовавших эту область лингвистики, а также подчеркивает ее важность в методике.

Rəyçi: Nuriyyə Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru

TƏRANƏ ZEYNALOVA
ADU
tzeynalova65@gmail.com

MÜASİR DİLÇİLİKDƏ DİSKURS VƏ MƏTN

Açar sözlər: diskurs, nitq, proqressiya
Key words: discourse, speech, progression
Ключевые слова: дискурс, речь, прогрессия

Kommunikasiya tədqiqatçıları kommunikasiyanın daha effektiv olmasını necə təmin etmək, yəni anlaşılmazlıqlara gətirən səbəbləri, onların aradan qaldırılma metodlarını və ya onların minimuma endirilməsi üçün nəyi bilmək və nəyin nəzərə alınmasını, mühasibin daha düzgün anlaşılması üçün kommunikasiya məqsədinə necə nail olmağın suallarına cavabları araş-dırırlar.

Mövcud elmi və bədii ədəbiyyatda ünsiyyətin, daha doğrusu, insanlar arasında informasiya mübadiləsinin müxtəlif variantları və kommunikasiya prosesində bu fərqlərin insanların bir-birini anlaması və qavramasına necə təsir etməsi ilə bağlı faktlara rast gəlmək mümkündür. Sosial psixoloqların göstərdikləri kimi, informasiya mübadiləsinin nəticəsi kimi kommunikativ təsir yalnız o zaman mümkün olur ki, kommunikator və resipient eyni və ya oxşar kodlaşdırma və dekodlaşdırma sisteminə yiyələnmiş olsun. Bununla belə kommunikasiya prosesində müxtəlif mədəniyyət nümayəndələrinin eyni dildə danışarkən belə, bir-birlərini anlamamaları onunla bağlı olur ki,anlaşması təkcə dil bilməyi deyil, eyni zamanda aləmi bilməyi tələb edir. Bu mənada T.A.Van Deyk diskursa dair də çoxlu fikirlərin müəllifidir.

Qeyd edək ki, ünsiyyət prosesində nitqin qavranılması və anlaşılması özünəməxsus yer tutur. Belə güman etmək olar ki, verilən nitqdə informasiyanın kodunun açılması bir növ mətni yaratmağın əks ardıcıllığını təkrar edir. Dinləyici nitq axınında sözü seçərək, onun mənasını açır. Qrammatik qaydalara yiyələnməklə, leksemlərin bir-birilə əlaqəsini açır, bununla da verbal məlumatın məzmunu, mənasını bildirir. Lakin aparılmış tədqiqatlar göstərmişdir ki, bu olduqca mürəkkəb bir işdir. Şübhəsiz ifadənin anlaşılmasında leksik-qrammatik biliklər mühüm rol oynayır. Lakin anlama əhəmiyyətdən mənaya doğru gedən passiv mexaniki hərəkət deyildir. Bu olduqca mürəkkəb psixoloji prosesdir. Bu iş ifadədəki ümumi fikrin axtarılmasından başlanır ki, burada dinləyicinin dil şüurunda mühüm rol oynayan qabaqlayıcı inikas yaranması mühüm rol oynayır.

Danışıq aktı dilin yeganə realizə imkanıdırsa, burada baş verən fizioloji və psixoloji proseslər ani və ötəri xarakter daşısa da eyni zamanda bu prosesdə hər dəfə təkrarlanan konstant əlamətlər var ki, bunlar baş verən danışıq aktının arxasında dil sisteminin durmasından xəbər verir. Danışanla dinləyənin ünsiyyətə girməsi, onların eyni dil sisteminin daşıyıcıları olması ilə bərabər, həm də onlardan eyni zaman kəsiyində ünsiyyətə girmələri tələb olunur. Bu zaman yeni-yeni "info" daxil olması diskursiv performansların sayını artırır. Məsələn:[1] "Archie was not a man who readily allowed himself to become worried, especially about people, who were not in his own immediate circle of friends, but in the course of the next week he has bound to admit that he was not altogether easy in his mind about his father-in-law's mental condition.[2] He had read all sorts of things in the Sunday papers and elsewhere about the constant strain" (P.G.Wodehouse. A Tale of a Grandfather s.120).Misalda dilin kommunikativ funksiyası baxımından əvəzliklərin işlənməsi üçün şərait yaradılmışdır. Əvvəldə qeyd etdiyimiz kimi əvəzliklərin işlənməsi üçün mütləq məna və ya mənalar əvvəlki cümlədən oxucuya tanış olmalıdır. Əks təqdirdə, yuxarıda deyildiyi kimi, əvəzliyin ifadə etdiyi məna aydın olmayacaq. Odur ki, əvəzliklərin mətnyaratmada rolu cümlənin əvvəlində işlənən söz və ifadədən asılıdır. Bu əvəzliklərin mətn yaratması üçün mütləq hər hansı bir makro mətn olmalıdır. Bizim isə əvəzliyi hədəf seçməkdə məqsədimiz onun Temanı-məlumu bildirməsidir. O, yalnız sintaktik "donuq" deyil, dinamik (dəyişkən) funksiyanı da yerinə yetirir. Qeyd etdiyimiz kimi, əvəzlik artıq qeyd olunanı bildirir, çünki o artıq məlum olanı əvəz edir. Yəni kontekstdən məlum olur ki, dinləyənin (oxucunun) işarə edilən predmet haqqında artıq müəyyən məlumatı var. Yuxarıdakı [1] cümlədəki "Archie " sözünü "he" şəxs əvəzliyi [2] cümlədə əvəz edərək, ləğvetmə sahəsi yaratmışdır. [2] cümlə [1] cümlənin semantik mənasının açılmasına zəmin yaratmışdır.

Müasir Azərbaycan dilində diskursun yaranması maraq doğurur. Aşağıdakı cümlələrə nəzər salaq:

[1] Nataşanın Yovşanlıya gəldiyi bir ay olardı ki, qız bu bir ayda Ələmgilin darvazasından cəmi iki dəfə çölə çıxmışdı: birində Vələdgilə, birində rayon mərkəzinə-Əhədgilə qonaq getmişdi.

[2] O bu kəndin içini-çölünü görməmişdi, burda Sadayla qol-qola, çiyin-çiyinə gəzməmişdi.

[3] O o başdan gedib, gecəyarısı qayıdırdı, həmişə də yorğun-arğın.

[4] Nataşaya ən çox yer eləyən o idi ki, Saday ağsaqqallar yanında, atası olan yerdə onu danışdırmırdı. (İ.Məlikzadə. s.70)

Burada temalar söyləmin elə bir məxsusi sintaktik fonudur ki, bu fon söyləmin rematik hissəsinin üzə çıxmasına xidmət etmişdir. [2] və [3] cümlələrdəki "o" əvəzliyi prinsip etibarilə özündən əvvəlki kontekstə

tuşlanmışdır. Cümlənin məntiqi-qrammatik səviyyəsində aparıcı rola malik olmuşdur. Buradan da belə nəticəyə gəlinir ki, temalarsız irəliyə addım atmaq mümkün deyil. Onlar fikrin gələcək inkişafına zəmin yaradırlar. [4] cümlədə "O idi ki" sözləri növbəti tematik ləğvetmə sahəsi yaratmışdır.

Görünən odur ki, aktuallaşmış cümlə üzvünün güclü və zəif mövqeləri eyni zamanda mətndə fikrin inkişafı prosesinə müxtəlif təsirlər göstərir. Aktuallaşmanın güclü mövqeyi qonşu cümlələrin bir-birinə ideal şəkildə qovuşmasına xidmət edir, çünki bu halda adətən, əvvəlki cümlənin xəbərdən sonra işlənən, yəni ən son məqamda işlənən reması təbii şəkildə ondan sonra gələn qonşu çümlənin temasına çevrilir. "Bir saatdan sonra dostlar yığışdılar görüş yerinə. Burada söhbətin içərisində çözələnirdi xoş anlar və xatirələr." Bu cümlə tipində fikir öz inkişafını təbii şəkildə bir cümlədən o biri cümləyə ötürür. Remanın və temanın bilavasitə yanaşı işlənməsi fikrin zəncirvari inkişafına xidmət edir. Fikir hərəkətinin proqressiyası o zaman zəifləyir ki, tema və remanın əlaqəsi distant olur. Belə ki, onların arasında başqa cümlə üzvü olur. Beləliklə, müasir Azərbaycan dilində aktuallaşmanın güclü mövqeyi söz sırasının kəskin şəkildə pozulması nəticəsində əldə edilir. Dilçiliyin tədqiqinin cümləyə bağlılığını qrammatikanın maksimum birliyi kimi başa düşmək olar. Buna görə də, cümlələrin baş verdiyi daha geniş kontekstlərə baxmaqla, diskurs cəhdlər öyrənilir. Məsələn; Have you got any free time this morning? I might have later on if that meeting's off. They were talking about putting it later. You can't be sure.Hər bir cümlə ayrılıqda öyrənilə bilən və qrammatik tərkiblər formasında, leksik mənada və sair tədqiq oluna bilər. Lakin aydındır ki, cümlələr iki şəxs arasında qarşılıqlı söhbətin daha böyük hərəkətinin bir hissəsini təşkil edir. Cümlələr biliyin, məlumatın bölüşdürülməsini təşkil edən bir neçə əlaqələrdən ibarətdir. "That meeting" göstərir ki, hər iki şəxs hansı iclas haqqında danışırlar. Bəzi hallarda cümlənin mənası söhbətdə əvvəlcə olmuş biliyin və ya məlumatın aydınlaşdırılmasında doğru olaraq izah edə bilər.

Məsələn: You can't be sure.

Beləliklə, məlumatın əsas və yeni məzmunu remadır. Rema cümlənin kommunikativ mərkəzidir. Cümlənin reması məlum olmayanın ifadəsidir, nüvəsidir, əsas məlumat burada mərkəzləşir. Tema və rema üzrə üzvlənməyə aktual üzvlənmə deyilir. Məhz, danışan üçün bu cür üzvlənmə zəruri və əhəmiyyətlidir. Çünki danışan şəxs konkret şəraitlə əlaqədar müxtəlif kommunikativ məqsəd güdə bilər. Buna görə də eyni sintaktik tərkibə malik cümlələrin aktual üzvlənməsi müxtəlif ola bilər. Aktual üzvlənmə məntiqi-qrammatik baxımdan üzvlənməlidir. Bir-biri ilə qarşılıqlı əlaqədə olan tema və rema cümlənin məntiqi-semantik karkasıdır.

Məhz cümlələr birliyi nitq fəaliyyəti üçün əsas olan informasiya sığınacağına çevrilə bilər.

Mətnin linqvistik nəzəriyyəsinin işlənməsi müasir dilçiliyin inkişafının ümumi istiqaməti üçün aktualdır. Belə ki, bu cür mətn nəzəriyyələri kommunikativ-proses modelini qurmaq üçün lazımlıdırlar.

Diskursla mətnin adı filoloji ədəbiyyatlarda yanaşı addımlasa da onlar arasındakı fərq istisna olunmur.

Bu fərqlər aşağıdakı kimi xarakterizə olunur:

1. Diskurs praqmatikdir, mətn linqvistik kateqoriyadır.
2. Diskurs prosesin kateqoriyasıdır, mətn nəticə kateqoriyasıdır.
3. Diskurs abstrakt konstruksiyadır, mətn aktualizasiyadır.

Beləliklə, ünsiyyətin ümdə vəzifəsi məlumatı ötürmək və ötürülən məlumatı başa düşməkdən ibarətdir ki, bu da əsasən cümlələr vasitəsilə gerçəkləşir. Son nəticə olaraq tekst meydana gəlir ki, bu da hər bir dil daşıyıcısı üçün önəmlidir. Elə buna görə də, hər bir dil daşıyıcısı danışığının səslənməsini, bu danışıqdakı söz düzümünü və ikisinin bir yerdə ifadə etdiyi mənanı müşahidə edərək, informant rolunda çıxış edir. Dilçinin tədqiq edərək çıxardığı qanunauyğunluqları hər bir dil daşıyıcısı kortəbii olaraq, hər gün həyata keçirir, cümlələr düzəldir, onun tərkibini dəyişir, dediklərinə əlavələr edir, daha yaxşı anlaşılmaq üçün saysız-hesabsız eksperimentlər aparır, sanki bir dilçi kimi söz və ifadələri seçib götürür. Bu proses ünsiyyət boyu danışanla dinləyənin öz məqsədlərinə çatmasına qədər davam edir[4,s.200].

Ədəbiyyat

1.Дэвидсон Д. Что означают метафоры? МЛ 1990. 410 с.

2.Чудинов А.П. Россия в метафорическом зеркале: когнитивное исследование политической метафоры (1991-2000). Екатеринбург, 2001, 410 с.

3.Маккормак Э. Когнитивная теория метафоры // Теория метафоры – М: П. 1999, с. 81-85

4. F.Veysəlli. German dilçiliyinə giriş. B.2003. Təhsil, NPM. s. 297

5. Lakoff G. Johnson M. Metaphors we live by. Chicago. 1980.

T. Zeynalova

Discourse and text in modern linguistics

Summary

This article deals which the discourse in linguistics. The author emphasizes the role of discourse. Referring to the works of scientist that have been researched in this field of linguistics she emphasizes that since its emergence the discourse caught the attention of linguists and new researches

appeared. It is noted that this gives us more power to understand the communication process clearly and use the language more competently.

Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented and systematic. It will make the process of teaching oral speech more effective. Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication.Speaking comprehension is one of the most basic and important of the four skills in language teaching and learning.

T. Зейналова

Дискурс и текст на современном лингвистике

Резюме

В статье речь идёт о дискурса в сфере лингвистики. Автор пытается раскрыть роль дискурса. Она ссылаясь на работы ученых исследовавших эту область лингвистики, а также подчеркивает ее важность в текстовой лингвистике. Отмечается, что эта дает воспоминать смысл текстов во время анализа еще более ясно, а также использовать язык в еще более разнообразном колорите.

Процесс английскому языку в целом и процесс обучения должен базироваться на коммуникативно – функциональном принципе. Обучением устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В условиях глобализации основная цель обучения иностранным языкам и их изучения состоит в формировании у обучаемых способности использовать язык в целях коммуникации. Умение адекватно воспринимать информацию в процессе "speaking" является одним из самых важных и необходимых умений которыми должен обладать человек, изучающий язык в тех или иных целях.

Rəyçi: Nuriyyə Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru

GUNAY ORUCOVA
Qərbi Kaspi Universiteti
gunayorucova@mail.ru

MÜASİR BRİTANİYADA UŞAQ ƏDƏBİYYATI

Açar sözlər: uşaq ədəbiyyatı, dövr, janr, inkişaf, müasir, hekayə
Key words: child's literature, period, genre, development, modern, story
Ключевые слова: детская литература, период, жанр, развитие, современность, рассказ

Uşaq ədəbiyyatı əsasən uşaqlar üçün nəzərdə tutulan, yazılan yazıları, hekayələri, şeirləri, təmsilləri əhatə edir. Biz uşaq ədəbiyyatının əhatə etdiyi yaş müddəti barədə yazmaq istəmirik, çünki burada fərqli yaş dövrləri nəzərdə tutula bilər. Uşaqlar üçün nəzərdə tutulan ədəbiyyata həmçinin dostluq, ilk məhəbbət, böyüklərə hörmət, valideynlərə yaxşı münasibət, adət-ənənəyə riayət etmək və s. kimi mövzular da daxil hesab edilir.

Ədəbiyyatın digər sahələri kimi, uşaq ədəbiyyatının da əsası uşaq folkloruna, məsələn, nağıllara, tapmacalara, bayatılara, kiçik hekayələrə, lay-lalara, oxşamalara və s.-yə söykənir.

Böyük Britaniyada peşəkar uşaq ədəbiyyatının yaranması XVIII əsrin əvvəllərinə təsadüf edir. XVIII əsrin əvvəllərindən başlayaraq maarif və mədəniyyət sahəsində ciddi canlanma əmələ gəldi: bir sıra maarif ocaqları, xeyriyyə cəmiyyətləri, nəşriyyatlar, kitabxanalar yaradıldı [1, s. 10].

Uşaq ədəbiyyatı ilə məşğul olan yazıçılar ilk növbədə yeni üsullu məktəblər üçün hazırlanan dərsliklərin səhifələrində, dövri mətbuatda, xüsusilə, uşaq dövri mətbuatında öz əsərlərini çap etdirirdilər. Yeni üsullu məktəblər yeni məzmun və mündəricəli dərsliklərin yaranmasını təxirəsalınmaz bir məsələ kimi qarşıya qoymuşdu. Bu sahədə cəsarətli addım atanlardan biri kimi G.L.Adşhedin adını çəkə bilərik. O, ingilis əsilli uşaq yazıçısıdır. O, İngiltərədə Mançester vilayətində anadan olub. O, Froebel Təhsil İnstitutunda müəllim kimi təhsil alıb. G. Adşhed "Qəhvəyicik" (Brownie) adlı kitabları ilə məşhurdur. Onun ilk kitabı 1938-ci ildə Oksford Universiteti tərəfindən nəşr olunmuşdur. Kitabları əsasən "*Brownies - Hush*!" adı altında yayılıb [2, s. 5].

XVIII əsrin sonlarına doğru Böyük Britaniyada uşaq ədəbiyyatının çiçəklənmə dövrü kimi qeyd olunur. Həmin dönəmdə hər il təxminin 50 uşaq ədəbiyyatı nəşr edilirdi. Əsərlər əsasən Londonda, sonra isə Edinburq, York və Neyukaslda nəşr edilib satılırdı və həmçinin maraqla oxunurdu. Mütəxəssislərin fikrincə, həmin kitablar bugünkü uşaq ədəbiyyatı ilə müqayisədə daha maraqsız və darıxdırıcı idi [3, s. 91]. Onlar əsasən əxlaq və dini mövzuları əhatə edirdi. Lakin uşaq ədəbiyyatının həmin dönəmdə də

məqsədi oxucuları, yənu uşaqları razı salmaq, onları əyləndirmək, məlumatlandırmaq və ədəbiyyata cəlb etmək idi.

XX əsrin əvvəllərində uşaqlar üçün yazılan bir çox maraqlı kitablar vardır. Doğrudur, uşaqların çox kitab oxumaları müşahidə edilir, lakin onların oxuduqları kitabların çoxu onlar üçün yazılmayan, yaxud onları məmnun etməyəcək kitablar idi. Təmsillər, uşaq balladaları, uzun həcmli romantik novellalar və səkilli kitbalar həm uşaqlar, həm də yetkin insanlar üçün nəzərdə tutulduğundan onları sırf uşaq ədəbiyyatına aid etmək olmurdu. Məsələn, N.Kroxun *Winter-Evenings Entertainments* (1687) əsərini götürək. Bu əsərdə çoxlu tapmacalar, şəkillər və müxtəlif məzmunlu hekayələr var idi və bunlar da insanlarda belə fikir yaradırdı ki, kitab uşaqlıar üçün nəzərdə tutulub [4, s. 11]. Lakin kitabı oxuduqca məlum olurdu ki, kitab yaşlı və yetkin insanları üçün nəzərdə tutulub. Çünki kitabda məhəbbət, qəzəb, nifrət kimi səhnələrə rast gəlmək olurdu.

XVIII əsrin ortalarında uşaqlar üçün yazılan kitablar daha çox sürətlənməyə başladı. Bu dövrdə yazılan kitablar əsasən öyrətmə, məsələn, düzgün yazı üslubunun öyrədilməsi, yaxud məktəb kitabları, bələdçilik kitabları kimi hazırlanırdı. Lakin bu o anlama gəlmir ki, həmin zamanda uşaqları əyləndirəcək, onlara zövq verəcək kitablar yox idi.

C.Bunyan və onun digər sələfləri tərəfindən 1670-ci illərdən etibarən çıxarılan ilahi kitablar uşaqlar tərfindən diqqətlə oxunurdu. C.Ceynveyin uşaqlar üçün yazdığı "Uşaqlar üçün bir nişanə" (*A Token for Children*) (1671-72) adlı kitabında nümunəvi həyat və ölümlə bağlı dini məsələlər öyrədilirdi. Uşaqlara günah etməmələri, valideynlərə qarşı itaətkar olmaları, dərslərində diqqətli olmaları, tənbəl olmamaları kimi əxlaq qaydaları aşılanırdı və həmçinin onlara xatırladırlırdı ki, onlar öləndən sonra bu deyilənləri etməsələr cəzalandırılacaqlar [5, s. 12]. Təbii ki, bunun əksini təbliğ edən kitabların yazılışına da rast gəlmək mümkün idi. Çox əyləncəli, düşüncələrimiz hələ xatirələr və məktublar, eləcə də bir əsrdən artıq davam edən satışlar, gənc oxuculara qəhrəmanlıq və inamlı, əgər məhkum edilmiş uşaqların bu təsvirlərinin əsl zövqlərindən bəhs edir.

On səkkizinci əsrdə artıq uşaqlar üçün dini mövzulardan uzaq olan və təlimatverici olmayan kitablar nəşr olunmağa başlayır. Məsələn: "Uşaqlar üçün kiçik kitab" (*A Little Book for Little Children*) adlı kitabda tapmacalar və şeirlər toplanmışdır, daha sonra yazılan "Üç yüz heyvanın təsviri" (*A Description of Three Hundred Animals*) adlı kitabda isə ancaq gənclərin əylənməsi üçün nəzərdə tutulan əhvalatlar toplanmışdı. Həmin kitablar çox satılan kitablar hesab edilirdi. 1740-cı ildən sonra uşaq ədəbiyyatında daha çox dirçəlmə müşahidə edilməyə başladı. T.Boremanın "Nəhənc Tarixlər" (*Gigantick Histories*) adlı kitabı "Üç yüz heyvanın təsviri" adlı kitabının davamı kimi nəzərdə tutulmuşdur. Kitab əslində tərtibatı cəhətdən də olduca

kiçik idi və müəllif bilərəkdən kitabı belə adlandırmışdır ki, uşaqlar üçün maraqlı olsun. Daha sonra M.Kuperin iki cildlik "Tomi adlı baş barmağın sevimli nəğmə kitabı" (*Tommy Thumb's Pretty Song Book*) nəşr olunur. Bu ilk uşaq şeir kitabı adlana bilər. Kitabda məşhur klassik uşaq şeirləri hesab edilən 'Bah, bah, a black sheep', 'Hickory dickory dock', 'London Bridge is falling down' and 'Sing a song of sixpence' və s. toplanmışdır [6, s. 18].

Qeyd edək ki, dünya uşaq ədəbiyyatı özündə güclü ideya-istetik və mənəvi yük daşıyır. Dünya uşaq ədəbiyyatının ən yaxşı nümunələrin – milli mədəniyətimizin hüdudlarından çıxaraq ümumbəşəri maraqları və yüksək humanistik fikirləri ifadə edir, İnsanları birləşdirən ideyaların yayılmasına rəvac verirlər. Dünya uşaq ədəbiyyatı bir qayda olaraq yalnız maraqlı süjetləri ilə deyil, həm də yüksək mənəvi keyfiyyətlər daşımaları ilə səciyələnirlər. Bu, hərşeydən əvvəl dünya ədəbiyyatı klassiklərinin əsərləridir. Dünyanın müxtəlif guşələrində uşaqlar M.Servantesin "Lamançlı Don Kixot"unu, C.Sviftin "Quliverin səyahətini"ni, J.Vernin və F.Kuperin romanları, povest və poemalarını sevə-sevə oxuyurlar. Bilavasitə uşaqlar üçün yazılmış əsərlərə gəldikdə isə o, mənəvi mədəniyyətin ayrılmaz hissəsi kimi ilk növbədə söz sənəti olub bədii ədəbiyyata və şifahi xalq ədəbiyyatına xas olan keyfiyyətləri özündə birləşdirir [7, s. 35]. Digər tərəfdən isə o, gənc nəslə ünvanlandığından oxucuların yaş xüsusiyyətlərini və pedaqogikanın müəyyən müddəalarını nəzərə almalı olur. Dünya uşaq ədəbiyyatı oxucunu elm və həyatın müxtəlif cəhətləri barədə biliklərlə zənginləşdirir: Ata-babaların tarixi və məişəti, ölkənin coğrafiyası və s. haqqında biliklər verir. Bununla da, uşaqlar özlərini keçmiş nəsillərin varisləri və onların işlərinin davamçıları kimi dərk etməyə başlayır. Dünya uşaq ədəbiyyatı uşaqların qəlbində nəcib hisslər oyadan, mənzum və mənsur "əsərlərlə" işıqlandıran, onların gələcəyi haqqında gözəl və ümüdlü arzularına qanad verən bir ədəbiyyat sahəsidir. Dünya uşaq ədəbiyyatı uşaqları zəngin ədəbiyyat sahəsidir. Dünya uşaq ədəbiyyatı uşaqları zəngin mənəvi zövqə malik bir insan kimi tərbiyə edir, öz xalqının mübarizələrlə zəngin tarixi keçmişinə dərindən bələd olmasını təmin edir. Dünya uşaq ədəbiyyatı dünyanın yaratmış oldugu bütün maddi və mənəvi sərvətləri yeni nəslə öyrətməli, onları bu sərvətin əsl varisi kimi tərbiyə etməlidir.Dünya uşaq ədəbiyyatı – ədəbiyyatın tərkib hissəsi olub, məqsəd və vəzifələrinə görə 7-14 yaşına qədər müxtəlif oxucu qruplarının təlim və təhsilinə, tərbiyyəsinə yönəldilən bədii əsərlərə deyilir. Dünya uşaq ədəbiyyatı uşaqların yaş səviyyəsinə uygun üslubda yazılır. Onların yaş səviyyələri 7-14 -ə qədərdir.Uşaqlar üçün əsər yazan hər bir yazıçı bu yaş səviyyəsini nəzərdən qaçirmamalıdır. Burada uşağın ictimai mühiti, inkişafı, zövqü, nitqi, bilik dairəsi də nəzərə alinmalıdır. Bununla belə, heç bir vaxt unutmamalıyıq ki, uşaqlar yaş etibarilə daim dəyişilir, onlar dövrdən- dövrə, nəsildən- nəslə dəyişilirlər.

Kiçikyaşlı məktəblilərin (7-14 yaş) oxudugu bədii əsərlərin dili aydın və rəvan olmalıdır. Yıgcam süjetli nəsr əsərlərinin dilində də lirizmə üstünlük verilməlidir. Çünki yorucu əsərlər uşağı mətləbdən uzaqlaşdırar, məzmun yaddan çıxar. Dünya uşaq ədəbiyyatı Şərq ədəbiyyatından qədim hind abidəsi "Kəlilə və Dimnə", ərəb xalqlarının əfsanələri ilə zəngin olan "Min bir gecə", bir çox şərq xalqlarının uşaq ədəbiyyatı nümunələri toplanmış "Oxuyan piyalə" kitabı, ümumiyyətlə, Şərq aləmi, Şərq psixologiyası, Şərq mədəniyyəti haqqında geniş və zəngin bilik əldə etməyə imkan verir. Həmçinin Qərb ədəbiyyatının ən nadir nümunələri- Qrimm qardaşlarının nagılları, andersenin nağıl və hekayələri, C.Sviftin "Qulliverin səyahəti", M.Tvenin, J.Vernin, M.Ridin, C.Dikkensin, C.Rodari və digər görkəmli sənətkar və yazıçıların əsərlərinin oxu imkanlarını xeyli artırmışdır. Dünya uşaq ədəbiyyatı ilə tanışlıq bütün dünya uşaqlarının milliyətindən asılı olmayaraq mənəvi yaxınlaşmasına xidmət edir.

Britaniyada uşaq ədəbiyyatının atası C.Nyuberi hesab edilir. Onun uşaqlar üçün ilk əyəncəli kitabı "A Little Pretty Pocket-Book Intended for the Instruction and Amusement of Little Master Tommy and Pretty Miss Polly" adlanır. Kitab kiçik, səliqəli və rəngli olaraq tərtib edilmişdir. Məüllif kitabın satışının belə uşaqlar üçün maraqlı olması məqsədilə kitabı alan oğlan uşaqları üçün bir top, qız uşaqları üçün isə bir saç üçün sancaq hədiyyə fikirləşmişdi. C.Nyuberinin fikirləri bir qədər C.Lokunkuna bənzəyirdi. C.Nyeberi o səbəbdən uşaq ədəbiyyatının atası hesab edilir ki, onun qənaətinə görə, uşaqları üçün kitabların yazılması nəinki onları əyləndirmək, tərbiyyələndirmək məqsədi daşıyır, həmçinin komersiya tərəfdən də gəlirli ola bilər. Bunun sübutu kimi demək olar ki, o, özünün çox maddi gəlirini uşaqlar üçün yazıb satdığı kitablardan qazanmışdır [10, s. 90].

C.Nyuberi uşaq ədəbiyyatı sahəsində bir novator kimi də tanınır. O, uşaqlar üçün ilk dövrü nəşr olunan jurnalı da təhsis edib. Həmin jurnal "*The Lilliputian Magazine*" adlanır. Jurnalda fərqli hekayələr, şeirlər, tapmacalar, yanıltmaclar və s. nəşr edilirdi. Uşaqlar jurnalı maraqla oxuyurdular. C.Nyuberinin əsərlərindən "*The History of Little Goody Two-Shoes"* adlı əsəri məşhur hesab edilir. Bu əsər uşaqlar üçün yazılan ilk roman idi. Romanda yoxsul və yetim bir qızın həyatında bəhs edilir. Yetim və yoxsul olmasına baxmayaraq, Margeri adlı qəhrəman özünə karyera qurmağı bacarır və sonda Sinderella kimi öz zəngin şəhzadəsinə rast gəlir və onunla evlənir.

Bütün dövrlərdə uşaq ədəbiyyatı maraq doğuran sahə olub. Uşaqlar ədəbiyyatı nəinki uşaqları, həmçnin böyüklərin də maraqla izlədiyi sahə hesab edilir.

Ədəbiyyat

1. Baker F.T., Abbot A. A bibliography of children's reading. London: Teachers College, 2008.
2. Cullinan B.E., Person D.G. The Continuum encyclopedia of children's literature. New York, NY: Continuum, 2003.
3. Hunt P. Children's literature. Oxford: Blackwell, 2001.
4. Hunt P. International companion encyclopedia of children's literature. London: Routledge, 1996.
5. Kay E. Vandergrift. Traditional Classics in Children's Literature. Rutgers: Rutgers University, 2011.
6. Lundin A. Constructing the canon of children's literature: beyond library walls and ivory towers. New York: Routledge, 2004.
7. Silvey A. Children's books and their creators. Boston: Houghton Mifflin, 1995.
8. Spitz E.H. Inside picture books. New Haven: Yale University Press, 2000.
9. Thwaite M.F. From primer to pleasure in reading : an introduction to the history of children's books in England from the invention of printing to 1914 with an outline of some developments in other countries (1st American ed.). Boston: The Horn book, 1972.
10. Zipes J. The Oxford encyclopedia of children's literature. Oxford: Oxford University Press, 2006.

G.Orujova

The child's literature in modern Britain

Summary

The article deals with the child's literature in modern Britain. It states that children's literature has its long history. The children's literature covers the books written for children. The children's literature also includes the books dealing with frienship, first love, respect to the old, good attitude to the parents, to follow the customs, etc. The articles highlights the periods of prospering children's literature. The beginning of the children's literature has been mentioned as XVIII century in the article. The article especially gives some information about the authors who used to write children's books in that period. The father of the children's literature has also been mentioned in the article. The importance of writing books for children has been analyzed in the article. The article discusses the reason of calling "The Golden age of child fiction" at the end of XIX century and the beginning of XX century. The article also gives some information about the works at those times. The

article has been written comprehensively and enough scientific literature has been used in the article.

Г.Оруджова

Детская литература в современной британии
Резюме

Статья посвящена детской литературе в современной Великобритании. В нем говорится, что детская литература имеет свою давнюю историю. Детская литература охватывает книги, написанные для детей. Детская литература также включает в себя книги, посвященные дружеским отношениям, первой любви, уважению к старому, хорошему отношению к родителям, следованию обычаям и т. Д. В статьях освещаются периоды процветания детской литературы. Начало детской литературы упоминается в статье как XVIII век. В статье, в частности, приводится некоторая информация об авторах, которые писали детские книги того периода. Отец детской литературы также упоминается в статье. В статье анализируется важность написания книг для детей. В статье обсуждается причина называния «золотого века детской фантастики» в конце XIX века и начале XX века. Статья также дает некоторую информацию о работах того времени. Статья написана всесторонне, и в статье использовано достаточно научной литературы.

Rəyçi: Cəmil Babayev
Filologiya üzrə fəlsəfə doktoru

NAHİDƏ İMANOVA
ADU
nahida@mail.ru

EMOSİYA İFADƏ EDƏN MƏTNLƏRİN PRAQMATİKASI

Açar sözlər: emosiya, praqmatika, məna, aspekt, məlumat, vasitə
Key words: emotion, pragmatics, meaning, aspect, information, means
Ключевые слова: эмоция, прагматика, значение, аспект, информация, средства

Hər bir emojinin öz praqmatik mənası vardır [3, s. 95]. Praqmatika hər hansı bir işarə sistemini mənimsəyən və onu tətbiq edən subyektlə həmin işarə sistemi arasındakı əlaqələri öyrənir. Emoji işlədilən mətnlərin praqmatik aspekti adı altında onu formalaşdıran elementlərin hamısının, məsələn, dil vasitələrinin, danışıq üsullarının məcmusunun adresata (respientə) təsiri anlaşılır [2, s.12]. Adresata informasiyanın verilməsi ona təsirgöstərmə vasitəsi kimi başa düşülür. Emoji işlədilən mətnin təsiri həm müəllifin niyyətini əks etdirir, həm də kommunikasiya zamanı emojili mətnin mənasını açıqlayır. Bu səbəbdən də yazılı ünsiyyət zamanı praqmatik aspektin fərqləndirilməsi zəruri hesab edilir. Respiyentin diqqətini cəlb etmək üçün ünsiyyətin təşkili, kommunikatların sosial münasibətlərinin ifadəsi, eləcə də, təsirin həyata keçirilməsi lazımlıdır. Bütün bu göstəricilərdə əsas məqsəd kommunikasiyaya lazım olan meyilin əldə edilməsinə nail olmaqdır.

Emojili mətnlərin praqmatik aspektləri məlumat mənbəyinin seçilməsindən, həmin informasiyanın dil vasitələrilə ifadəsindən asılıdır. Emojili mətnlərin praqmatikası onda ifadə olunan informasiyadan və həmin informasiyanın ötürülmə formasından asılı olur. Bu cür münasibətin ikinci tərəfində reseptor durur. Reseptorun özündən, yəni onun şəxsi keyfiyyətlərindən, məsələn, psixoloji vəziyyətindən, məlumatlılığından, emosional vəziyyətindən və s. asılı olaraq münasibət qurulur. İnternet ünsiyyət vasitələrindən biri kimi nəzərdə tutulan emojili mətnlərdə müəlumatın ötürülməsinin verbal və qeyri-verbal vasitələri mövcuddur. Məsələn, bu cür mətnlərdə şəkil, qrafik və s. kimi vasitələrdən istifadə hallarına rast gəlmək olur. Mənanın dildənkənar reallıqla əlaqəsi, danışıq mühiti, iksplisit və implisit kommunikativ niyyət, ünsiyyət iştirakçılarının bir-birinə münasibəti, ünsiyyətin başvermə şəraiti və bir çox digər məsələlər praqmatika ilə birbaşa bağlı hesab edilir. M.Danesi yazır ki, emojilərin ən əsas praqmatik funksiyası ünsiyyətin fatik aspektini vurğulamaq və məlumata emosional ton əlavə etməkdir [3, s. 100].

M.Danesiyə istinadən deyə bilərik ki, mətnlərdə istifadə edilmiş emojilərin seçimində diqqətli olmaq lazımdır. Bu emojilərin praqmatik mənalarının açılması zamanı zəruri hesab edilir. Məsələn, yuxarıda yazdığımız salamlaşma nümunəsində ilk əvvəl kişi və qadın emojilərinin işlədilməsi lazımdır. Bu ər-arvadın bir-birinə olan hörmət əlamətinin göstəricisi hesab edilir və nigahın aliliyini önə çəkir. Bu vəziyyət, amerikalıların, ingilislərin yazışmalarında müşahidə edilə bilir. İngiltərənin gənc dükü prins Harri həyat yoldaşına tvitterdən mesaj atarkən emojilərdən istifadə edir və yazısının əvvəlində mütləq kişi emoji üzünü istifadə etməyi unutmur. Doğrudur, burada xalqın mədəniyyətindən gələn düşüncə tərzini də unutmaq olmaz. Məsələn, fransızların əv-arvad salamlaşmasında belə nümunəyə rast gələ bilmədik. Çünki fransızların əksəriyyəti üçün nigah vacib hesab edilmir və onlar bunu əhəmiyyətsiz hesab edirlər [9].

Mətndə emojilərin işlədilməsində məqsəd oxucuya ötürülən əsas nüansları çatdırmaqdır. Mesaj emojiləri yazılı mətnlərin mənasına əlavə təsir gücü verir və mənanı genişləndirir [3, s.96]. Aşağıdakı emojiləri nəzərdən keçirək:

:) gülən üz

☹ ağlayan üz [3, s.14].

Gülən və *ağlayan üz* emojiləri "Elə gülürəm ki, gözlərimdən yaş gəlir" (laughing so hard I am crying) bir-birlərinə bənzəyir**:** ☺ və ☹**.** Bu emojilər bir çox halda bir-birlərilə qarşdırılır. Odur ki, onların işlədildiyi mətnlərin düzgün seçilməsi lazımdır.

L.C.Olson və C.A.Finegan bir qrup gəncə belə sualla müraciət edirlər: "Emojilərdən niyə istifadə edirsiniz?" Cavab belə olmuşdur: "Mesajlarımızı daha maraqlı, daha əyləncəli etmək üçün. Həmçinin də mesajı yazan zaman üzümüzdəki ifadəni oxucumuza, dostumuza daha aydın çatdırmaq üçün" [7, s.6]. Bir sözlə, emojilər yazılı mətnə danışıq ifadəsini, mənasını əlavə etmək məqsədilə işlədilir. Belə bir situasiya quraq:

[Sona Nahidəyə telefonla mesaj göndərir]

Sona: Will we go out tonight as we planned yesterday? (Dünən planlaşdırdığımız kimi bu gecə gəzintiyə çıxacağıq?)

Nahida: No, I am a little tired, and I prefer to stay at home. Sorry, for not informing you beforehand. (Xeyir, Bir qədər yorğunam və evdə qalmağı üstün tuturam. Bağışla ki, səni əvvəlcədən xəbərdar etməmişəm).

[Sona ürəyində düşünür ki, kaş Nahidə özü getmək fikrindən daşınmış olaydı, çünki onun özünün də gəzməyə getməyə həvəsi yox idi]

Sona: ☺Ok. No problem. Some other day. (Sona gülümsəyir və yazır: Oldu. Problem deyil. Başqa bir gün gedərik).

Sona *gülüş* emojisini mesajına əlavə etməklə Nahidə ilə həmfikir olduğunu göstərir. Əksinə əgər Sona getmək həvəsində olsaydı, o halda

Nahidənin cavabını belə yazardı: ☹Ok. You might have informed me beforehand. (Sona hirslənir, qaşqabağını tökür və yazır: Oldu. Lakin sən məni qabaqcadan xəbərdar edə bilərdin). *Qəzəbli üz* emojisini yazmaqla o, vəziyyətdən məmnun olmadığını ifadə etmış olur. Mətnlərdən emojilərin funksiyaları nə əvəzedici, nə də dekorativdir, onlar müasir qeyri-formal yazı üslubunu əlifba üslubu ilə birləşdirmək funksiyası daşıyır və, beləliklə də, qarşılıqlı ünsiyyət sisteminin vahid yazı üslubu yaranır [3, s. 90].

Son dövrlərdə işarələrin semantikasınının öyrənilməsinə maraq getdikcə artmaqdadır. İşarə ilə onun anlamı və mənası arasında bağlılıq mövcuddur [5, s.100]. İşarəyə bir anlam və həmin anlama da bir məna uyğun gəlir. Lakin mənaya yalnız işarə daxil deyildir. Eyni anlam müxtəlif dillərdə, həmçinin də bir dildə müxtəlif ifadələrə malikdir. Emojilər məqsədin, əhval-ruhiyyənin və şüurin vəziyyətinin çatdırılmasına nail olmaq üçün işlədilir. Onlar bizim düşüncə və davranışımızın işarələridir. Emojilər hazırda ən anlamlı və əvvəlcədən məlumatı əks etdirən ünsiyyət növü hesab olunur.

Emojilərin bir neçə diskursiv funksiyaları vardır. Diskurs sosial və psixo-emosional vasitələri dildə əks etdirir. Yazılı diskursda emojilərin işlədilməsi visual təsviredici vasitənin baş verməsinə şərait yaradır. Bu yerdə R.Yakobsonun qeyd etdiyi [8, s.60] "diskursun fatik funksiyası"nı xatırlayırıq. Emoji istifadəsinin vizuallığa əsaslanan "kiçik söhbət" versiyasını yaradır. Bu da ünsiyyətin açıq və xoş olan social əlaqəsini formalaşdırır. Diskursun bu aspelkti ilk dəfə antropoloq B.Malinovski [6, s.296] tərəfindən öyrənilmişdir. O "fatik ünsiyyəti" social vərdişlərin dili kimi təsvir etmişdir. Sosioloq E.Gofmana görə, fatik nitq ritualların və onların mənalarının əsas aspektlərini kommunikativ interaksiyanın "pozitiv sosial üzündə" ifadə edir [4, s. 159]. Məsələn, mesaj mətninin əvvəlində işlədilən gülən üz ifadəsi mesajın pozitiv tonunu, müsbət tərəfini, yazanın müsbət niyyətli və əhval-ruhiyyəsinin yaxşı olduğunu əks etdirir və bu da o anlama gəlir ki, iştirakçılar arasında əlaqə yaranmış hesab olunur. Tələbələrin yazdıqları mesaj mətnlərinin təhlilinə əsasən, emojilərin üç fatik funksiya müəyyən edilir:

1. Danışığın başlanmasını göstərən işarə. Mesaj mətninin əvvəlində işlədilən gülən üz ifadəsi açılış ifadəsi olan salamlama "Hi" (Salam) sözünün əvəzinə işlədilir. Gülən üz ifadəsi yazanın şən əhval-ruhiyyəsini, müsbət niyyətini əks etdirir. Bu cür emojilər həmsöhbətlər arasındakı dostluğun, səmiyyətin ifadəsidir. Hətta mesaj mətninin sonrakı mərhələlərində kədərli nüanslar olsa belə, başlanğıcda müəllif bunu hiss etdirməməyə çalışır.

2. Danışığın sonuna işarə. Bəzi mesaj mətnləri, məsələn, tvitterdə yazılan mətnlər çox zaman qəfildən sonlana bilir. Bu da mesajı göndərənin məlumatı qəbul edən tərəfindən yanlış anlanmasına səbəb ola bilər. Odur ki, sonda yazılan gülən üz ifadəsi "good-bye" (hələlik) mənasında işlədilərək

mesaj yazanın müsbət mövqeyini, dostuq əlaqələrinə sadiqliyini göstəmək məqəsdilə işlədilir.

3. Səssizlikdən çəkinmə. Üz-üzə olan söhbətlərdə bir çox insanlar sakitliyi pozmağı bəzi ifadələrdən istifadə etməklə ortadan qaldırırlar. Məsələn, azərbaycanlıların çox işlətdiyi "Daha nə var nə yox?" Hava tez-tez dəyişir, elə deyilmi?", "Vaxt olduqca sürətlə keçir" və s. kimi ifadələr işlədirlər. Yazılı mətnlərdə isə mesajı göndərən həddindən çox məlumat göndərdiyini düşünəndə bu məsələdən çəkinmək istəyir. Emojilərdən istifadə edənlər onlardan istifadə etməklə göndərdikləri məlumatın yükünü azaltmaq istəyirlər. Emojilərin fatik funksiyalarının hər birinin əsas məqsədi hömsöhbətlər arasında dostluq və şənlik əlaqələrni möhkəmləndirməyə xidmət edir [3, s.117]. Təbii ki, bunlar qeyri-formal mesaj mətnlərində müşahidə eilə bilər. Amma formal mətnlərdə, məsələn, esselərdə, elmi məqalələrdə və s. onların işlədilməsi laqolay, biçimsiz görünər.

İnformantlar tərəfindən veriln 323 mesajın təhlili onu göstərir ki, emojilərin əsas məqsədi mesaj mətnlərində emotiv və fatik koheziyanı yaratmaqdan ibarətdir. B.Katalinanın araşdırmasına əsasən, diskursiv funksiyaların mesaj mətnlərində işlədilməsi aşağıdakı dərəcədə müəyyənləşir [2, s.23]:

1. Fatik funksiyada işlədilən emojilər 88%;
2. Emotiv funskiyada işlədilən emojilər 94%;
3. Digər funksiyalarda müşahidə olunan emojilər 64%.

M.Danesi yazır ki, emojilərin emotivliyi iki yarımqrupa bölünür: 1) emojilər yazılı ünsiyyətdə qrafik durğu işarələri ilə əvəz oluna bilərlər; 2) emojilər vizual olaraq hər hansı bir ifadəni vurğulaya bilirlər [3, s.23]. Emotiv emojilər yazılı mətnlərdə əlavəedici funksiya daşıdığından onları asanlıqla mətndən kənarlaşdırmaq olar. Emojilər mətnlərdə, yaxud yazılı diskursda həmsöhbətlər arasında baş verən emosional nüanslara nəzarət etməyə imkan verir. Emojilərdən çox istifadə edən bir şəxsdən soruşurlar ki, nə üçün mesajınızda sözdən daha çox emoji işlətmisiniz. Cavab belə olub: "Emojilərdən istifadə mənə imkan verdi ki, dostumu qışqırmadan tənqim edim və o, tənqidimdən kədərlənməsin" [3, s.23].

M.Danesi yazır: "Emojilərin işlədilməsini kifayət qədər ciddiyə almaq lazımdır" [3, s.17]. Emojilər yazılı mətnlərdə işlədilən işarələrdir. Son dövrlərdə işarələrin semantikasınının öyrənilməsinə maraq getdikcə artmaqdadır. İşarə ilə onun anlamı və mənası arasında bağlılıq mövcuddur. İşarəyə bir anlam və həmin anlama da bir məna uyğun gəlir. Bir anlam müxtəlif dillərdə, həmçinin bir dildə müxtəlif mənaları ifadə edə bilir. Emojilər məqsədin, əhval-ruhiyyənin və şüurin vəziyyətinin çatdırılmasına nail olmaq üçün işlədilir. Onlar bizim düşüncəmizin və davranış

məqsədimizin revelator işarələridir. Hazırda emojilər mənalı və məlumatı əvvəlcədən və aydın tərzdə əks etdirən ünsiyyət növü hesab olunur.

Məkan anlamlı sözlər sırasında torpaq adı da diqqəti çəkir. Xalqımızın torpağı müqəddəs saymağı məkana müsbət münasibətin göstəricisidir. Məkan və torpaq anlayışları, eləcə də həmin anlayışların linqvistik ifadə görümləri olan məkan, torpaq sözləri arasında möhkəm semantik bağlılıq onları leksik-semantik ekvivalent adlandırmağa imkan verir. Torpağın Azərbaycan xalqı arasında çox müqəddəs sayılması ərənlərin hətta ot bitməyən, azsulu torpaqları yüksək dəyərləndirmələri, belə torpaqlar üçün də canlarını qurban verməyə hazır olmaları, bir qarış belə geri çəkilməmələri ulu ata babalarımızın onu bizə-öz nəvə-nəticələrinə miras vermələri, torpağa and içmələri məkana sevgidən, məhəbbətdən xəbər verir. Çünki torpaq da məkandır, yetərincə məkandır. Abidələrdə torpaq anlayışı ilə bağlı sözlər çoxdur: yer (KTÇ 4,13), yol (MÇ 11), əkinlik (BXçm), kışlağ (İB 79,87).

Xalqların tarixinin müxtəlif məkanlarla bağlılığının danılmaz həqiqət olduğu sübut olunmuşdur. Xalqın tarixi yaşadığı məkanla qırılmaz tellərlə bağlıdır. Məkandan ayrılıqda tarix yoxdur.

Müəyyən xalqın yaxud xalqların aşkara çıxarılmasında, müəyyən edilməsində onların maddi mədəniyyətinin öyrənilməsində böyük, önəmli rol oynayan maddi-əşyavi dəlillər ayrı-ayrı konkret məkanlarda üzə çıxarılır, aşkarlanır. Belə faktlar gerçək aləmdə məkanın çox dəyərli rolundan söhbət açmağa imkan verir.

Qədim türklərin şüurunda məkan anlayışının formalaşmasında onların mifoloji dünyagörüşlərinin, şüurunun, düşüncələrinin çox böyük rolu olmuşdur. Digər bəşər övladları kimi qədim türklər də ətraf aləmi qavramağa cəhd göstərmiş, varlıqların, hadisələrin fantastik izahını verməyə çalışmışlar. Qədim türklər yaratdıqları miflərlə dünyanın fantastik izahını verəndə hadisələrin həqiqi olduğuna inanmışlar. Çünki yaratdıqları fantaziyada şüurlu fəaliyyətləri öz əksini tapmışdır. Digər qədim xalqlar kimi qədim

türklərin də şüuru öz inkişafının aşağı pilləsində olmuşdur. Mifi yaradan insanın şüurunun öz inkişafının aşağı pilləsini əks etdirməsi, onun təbiətdən ayrıla bilməsinə imkan verməmişdir. Şüur səviyyəsi aşağı olanlarda belə təsəvvür yaranmışdır ki, ağac, çay, dağ və s. kimi təbiətin müəyyən canlı hissələri, elementləridir. Buna görə də qədim türklərə mənsub insanlar dağın, ağacın, çayın və s. canlı olduğunu düşünmüş özlərinə məxsus əlamətləri, xüsusiyyətləri həmin varlıqların üzərinə keçirmişlər. Belə şüurun daşıyıcıları təbiətlə ünsiyyətə girməyə çalışmış, təbiətin onları başa düşəcəyinə inanmışlar. Əksər xalqların, o cümlədən qədim türklərin mifoloji kosmoqonik təsəvvürlərində dünya üç qatlı olmuşdur. Yəni, yaşadıqları dünyadan başqa yeraltı və yerüstü dünyanın varlığına, onlarda da yaşayışın hökm sürdüyünə inanmışlar. Türklərin dini-fəlsəfi görüşləri də böyük maraq doğuran məsələlər sırasına daxildir. Türklər islamdan öncə müəyyən dini-fəlsəfi görüşlərin daşıyıcıları olmuşlar. Bu dini-fəlsəfi görüşlərdə qədim türklərin maddi gerçəklik həyatı haqqında düşüncələri əks olunmuşdur.

Türklərin islamaqədərki dini-fəlsəfi dünyagörüşlərinin təhlili hansı dini sistemlərin çərçivəsində yaşamalarından asılı olmayaraq bütün dövrlərdə tək tanrıya inancların sabit və güclü xarakter daşıdığını göstərir. Ancaq aparılan araşdırmalar türklərin mənsub olduqları dinlərə münasibətdə fanatik mövqe tutmadıqlarını söyləməyə əsas verir. Buna görə də məşhur alim Bartold Dədə Qorqud Oğuzlarında dini təəsübün olmadığını söyləmişdir. Bunu Dəli Domrulun Əzraillə mübahisəsini gerçəkləşdirən hissədə görmək mümkündür. Oğuz qəhrəmanı Dəli Domrulun axirətlə bağlı bilgisinin və qorxusunun olmamasını da dini təəssübün zəifliyinin göstəricisi kimi dəyərləndirmək mümkündür. Bartold islamdan öncəki Oğuz türklərində cəhənnəm və cəza qorxusunun olmadığını yazanda buna əsaslanmışdır. Bununla belə islamdan qabaqkı adətlərini deyil, daha çox qədim inanclarını, eləcə də şamanizmin ayinlərini qorumuş, Dədə Qorqudun "Sassı dilli" gürcülər və abxazlarla islam dini üçün savaşmış, ara-sıra arı sudan abdəst alıb iki rükət namaz qıldıqları da göstərilir.

Məkan və zaman anlayışlarının reallaşmaları, gerçəkləşmələri yalnız dillə bağlıdır. Bu fəlsəfi, məntiqi anlayışların müxtəlif ifadə görümləri vardır. Məkan və zaman anlayışlarının linqvistik ifadə görümlərinin, yaxud təzahür formalarının çoxcəhətliliyi, mürəkkəb strukturları onların tədqiqini çətinləşdirir. Həmin anlayışların linqvistik təzahür formalarının, yaxud ifadə görümlərinin araşdırılması prosesində qarşıya çıxan çətinliklər istər zaman, istərsə də məkan anlayışının linqvistik ifadə görümlərinin daxili quruluşunun mürəkkəbliyi ilə izah edilə bilər. Bu tədqiqat obyektlərini dillə dilxarici aləmin qarşılıqlı əlavə və münasibətləri zəminində-fonunda araşdırmaq mümkündür. Dillə xarici aləm, gerçəklik arasında əlaqə probleminin öyrənilməsi baxımından dünyanın müxtəlif sistemli dilləri arasında ümumi,

oxşar və fərqli xüsusiyyətləri aşkara çıxarmaq mümkündür. Araşdırmalarda tipoloji metodlardan bəhrələnmək, onların dilçiliyin ayrı-ayrı sahələrinə, şöbələrinə tətbiqi uğurlu elmi-nəzəri nəticələr əldə etməyə, linqvistik məsələlərin, kateqoriyaların dəqiqliyinə inam yaratmağa xidmət göstərir. Tipoloji araşdırmalar aparmaqla bütün dillərdə özünü göstərən, yaxud onların heç birində gözə çarpmayan hansısa xüsusiyyətlərdən danışmaq, söhbət açmaq mümkündür. Tipoloji yönümlü tədqiqatlar qohum, yad dillərə aid hadisələri, faktları bir-biri ilə bağlamağa, bir hadisəyə söykənərək, başqa bir hadisəni qabaqcadan aydınlaşdırmağa, tapıb üzə çıxarmağa imkan verir. Tipoloji araşdırmalar dilin ümumi nəzəriyyəsini yaratmaqda, dil universaliləri müəyyənləşdirməkdə böyük rol oynayır.

Dünya dillərinin öz fərdi xüsusiyyətləri ilə fərqlənməsi, qohum dillərin lüğət tərkibi, qrammatik quruluşu baxımından bir-birinə oxşaması, yaxın olması təbiidir. Bunun səbəbi onların bir ulu dildən törəmələridir.

Qrammatik məkan fəlsəfi məkanın əsasında yaranmışdır. Burada qrammatik məkan linqvistik, fəlsəfi, yaxud obyektiv məkan isə fəlsəfi anlayışı bildirən terminlərdir. Anlayış təfəkkür, termin sözləri isə dil vahididir. Dil vahidləri, yəni sözlər, terminlər onlara uyğun anlayışların təfəkkürdə yaranıb formalaşmasını təmin edir. Obyektiv anlayışların dildə müxtəlif linqvistik ifadə görümləri içərisində qrammatik kateqoriyalar da vardır. Bu və ya digər anlayışın linqvistik ifadə görümləri içərisində qrammatik kateqoriyası olmayan dillərə rast gəlinir. Məsələn: Azərbaycan dilində cins kateqoriyası yoxdur. Lakin həmin anlayışı ifadə edən leksik və sintaktik vasitələr vardır.

XX əsrin əvvəllərində Eynşteynin nisbilik nəzəriyyəsinin yaranması ilə bağlı alimlərin məkan və zaman ənənəvi anlayışlarına yenidən baxmalarının başlanğıcı qoyuldu. Ümumi nisbilik nəzəriyyəsinin mahiyyətinin yığcam şəkildə, formada izahını verən Eynşteyn yazırdı ki, mahiyyət belədir: əvvəllər düşünürdülər ki, əgər hər hansı möcüzə nəticəsində bütün maddi cisimlər birdən yox olsaydı da, məkan və zaman qalardı. Nisbilik nəzəriyyəsində isə cisimlər ilə birlikdə həm də məkanın, zamanın yox olması göstərilir. Bu mühakimə F.Engelsin məkan və zaman haqqında dedikləri ilə tam uyğun gəlir. O, məkan və zamanın materiyadan ayrılmazlığını göstərmiş, onları materiyasız beynimizdə mövcud olan boş, mənasız, mücərrəd anlayışlar adlandırmışdır

Məkan məzmunlu sözlərin leksik semantikasının həqiqi elmi izahını varlığın- materiyanın mövcudluq formaları fonunda vermək mümkündür.

Məkan və zamanın varlığın, materiyanın mövcudluğunun obyektiv real formaları olması bunu tələb edir. Gerçəklikdəki bütün cisimlər, hadisələr, proseslər müəyyən zamanda, məkanda mövcuddurlar. Həm məkanın, həm də zamanın real götəriciləri vardır. Onların gerçəkləşdikləri

mənbə dildir. Bu baxımdan o, ən böyük məkandır. Məkan maddi cisimlərin, hadisələrin müəyyən yer tutumunu, zaman isə cisim və hadisələrin müəyyən ardıcıllıq və sürəkliklə davam etməsini, dövrlər, mərhələlər üzrə inkişaf etməsi xassəsini ifadə edir. Məkan və zaman obyektivdir, insan şüurundan asılı deyildir. Məkan zamanın sonsuzluğu, tükənməzliyi konkret cisimlərin, hadisələrin sonluğunun vəhdəti, məcmusu ilə bağlıdır. Gerçəklikdəki bütün cisim, hadisə və proseslər dördölçülü məkan-zaman xassələrinin daşıyıcılarıdır. Yəni hər bir maddi cismin məkanda üç ölçüsü vardır: uzunluğu, eni, hündürlüyü. Zamanın isə yalnız bir ölçüsü vardır. Cisimlərin zamanca ancaq keçmişdən gələcəyə doğru yönümdə hərəkət etmələri, keçmişi qaytarmağın mümkünsüzlüyü danılmaz həqiqətdir. Digər adlar kimi məkan məzmunlu sözlərin əmələ gəlməsində, onlara məxsus semantik incəliklərin gerçəkləşməsində də dilarxası faktorların böyük rolu vardır. Dilin leksik semantik sistemində məzmun və formaca xüsusi maraq doğuran məkan mənalı sözlərin dəyəri ölçüyəgəlməzdir. Çünki bütün söz qrupları məkan-zamanın dialektik birliyinə söykənir. Zahiri estetik və mənəvi gözəlliklər, tarixi hadisələr, təbiət hadisələri məkanla zamanın dialektik vəhdətinin göstəricisidir. Elmdə zaman məkan konsepsiyası insan təfəkküründünün dünyanı dərk etməsindən xəbər verir. Zaman və məkanın bir- birindən ayrılmazlığı qəbul edilmiş, təsdiqlənmiş həqiqətdir.

Göytürk yaxud qədim türk yazılı abidələri də müəyyən zamanda, məkanda yaranıb formalaşmışdır. Söz qruplarının hamısı məkan-zaman səciyyəlidir. Müəyyən zamanda, məkanda təşəkkül tapmış türklər qədim tarixin, mədəniyyətin yaradıcılarındandır. (1, 3).

Türk xalqlarının milli düşüncələrini, zəngin mənəvi aləmlərini, dil tarixini yaşadan möhtəşəm qədim türk yazılı abidələrində - V-VIII əsr xalq danışıq dilini əks etdirən ədəbi dildə məkan məzmunlu sözlər: iç (daxil), arx, art, çet (sərhəd), senir (dağ silsiləsi), kaya (qaya), yış (meşəli dağ), tağ, ügür (çay), ötükən, yış (yer adı), Tüpüt (Tibet), Şantur (Şandur-Çində), tuluy (dəniz) və s. vardır.

Məkan məzmunlu sözlərin leksik semantikası dedikdə onların təklikdə ifadə etdikləri, bildirdikləri məkan, yer mənaları nəzərdə tutulur. Məkan məzmunlu sözlər dildə məkan, yer mənası əsasında eyni qrupa aid sözlər olsalar da leksik semantikalarına görə, yəni məna incəliklərinə görə bir-birlərindən fərqlənir. Daha doğrusu, ayrılıqda, təklikdə bildirdikləri məna incəlikləri-semantik çalarlıqlar onları ayırır. Ayırıcı, fərqləndirici konkret mənaları onların bir-birindən seçilməsini, fərqlənməsini təmin edir. Bu səbəbdən də məkan məzmunlu sözlərin leksik-semantikası anlayışı, termini yaranmışdır. Leksik semantikaları məkan mənalı sözləri bir birindən fərqləndirir.

Qədim türk yazılı abidələrinin lüğət tərkibi, həmin abidələrin leksikası, terminləri ilə qədim türk yazılı abidələrində məkan anlayışının leksik semantik ifadə görümü, yaxud göstərilən, yəni adıçəkilən abidədə məkan mənalı sözlərin leksikası termini arasında həm ciddi yetərincə forma, həm də məzmun fərqi var. Başqa cür desək bu terminlər müxtəlif fərqli anlayışların linqvistik ifadə görümləridir. Göstərilən adlar onların məzmunundan xəbər verir.

Orxon-Yenisey abidələrində məkan anlayışının linqvistik ifadə görümləri, yaxud Orxon-Yenisey abidələrində məkan mənalı sözlər, eləcə də Orxon-Yenisey və ya qədim türk yazılı abidələrində məkan mənalı sözlərin leksikası terminlərinin hər birini işlətmək mümkündür. Lakin düşünüb daşındıqdan sonra "göytürk yazılı abidələrində məkan anlayişi linqvistik ifadə görümləri" terminini işlətməyi ona digərlərinə nisbətən üstünlük verməyi məqsədəuyğun saydıq. Onu da deyək ki, onların hər üçü əsasən bərabərhüquqlu terminlərdir.

Leksik-semantik ifadə görümləri dedikdə dilin ən başlıca, əsas, ən işlək və aparıcı vahidi, yəni söz nəzərdə tutulduğu, başa düşüldüyü üçün göstərilən abidələrdə məkan anlayışının leksik-semantik ifadə görümlərinə həmin anlayışın digər linqvistik ifadə görümlərinə nisbətən üstünlük verilməsini qanunauyğun hal saymaq mümkündür. Bunu dil sistemində başqa vahidlərlə müqayisədə, tutuşdurmada sözün mərkəz mövqe tutması ilə əlaqələndirə bilərik. Belə ki, dilin bütün digər vahidlərinin varlı|ı birbaşa sözlə bağlıdır. Fonetik, orfoepik, orfoqrafik, semantik, frazeoloji, derivotoloji, morfoloji, sintaktik işlər söz üzərində aparılır. Sözdən ayrılıqda heç bir fonetik, fonomorfoloji, orfoepik, orfoqrafik, semantik, frazeoloji, derivotoloji, morfoloji və sintaktik anlayışlara linqvistik rəng vermək, onları dildə gerçəkləşdirmək mümkün deyildir. Söz müxtəlif rəngarəng anlayışları dildə reallaşdıran, linqvistik həqiqətə çevirən təsiredici, yaradıcı, törədici faktdır. Sözün bir-birindən fərqli anlayışlara, leksik-semantik ifadə görümlərinə dildə, onun şifahi və yazılı qolunda -qədim yazılı abidələrdə, müxtəlif ədəbi növ və janrlarda yaradılan bədii əsərlərdə böyük təsir gücü vardır. Tarixi kateqoriya olan dilin onu yaradan insanların-xalqların formalaşması tarixi ilə bağlılığı danılmaz həqiqətdir. Müəyyən sözlər bu bağlılığın parlaq göstəriciləridir.

Məkan anlayışının leksik-semantik ifadə görümləri terminini təyin edən, müəyyənləşdirən leksik-semantik hissədəki leksik və semantik sözləri bir-birindən fərqlənir. Leksik və semantik mənalar arasında yaxınlıq, oxşarlıqla yanaşı onların fərqləndirilməsi həmin sözlərin-terminlərin ayrı-ayrı anlayışları bildirməsi göstərilən leksemlərin eyniləşdirilməsinə imkan vermir. Sözün leksik və semantik mənaları arasındakı yaxınlıq, bəzən bir-birinin üstə düşməsi fikri irəli sürülsə də onların müxtəlif mənalar

adlandırılması qənaətinə gəlinir. Semantik məna sözün leksik mənasına tabe vəziyyətdə işlənən, leksik məna ilə bağlı fəaliyyət göstərən, həmin (leksik) məna fonunda üzə çıxan müəyyən fərqli çalarları bildirir.

Türk dillərinin istər əski dövrə, istərsə də müasir dövrə aid leksikasında məkan adları xüsusi yer tutur. Məkan mənası ayrı-ayrı adlarla qruplaşdırılan söz qruplarını birləşdirir. Məkan mənası həmin anlamlı leksik təbəqələrin semantik nüvəsini təşkil edir. Onlar bir ana məna əsasında birləşsələr də özlərinə məxsus semantik incəlikləri ilə seçilirlər. Semantik incəlikləri, yəni məna incəlikləri müxtəlif adlarla tanınan leksik- semantik söz qruplarının müstəqilliyini təmin edir. Ayrı-ayrı adlarla tanınan məkan mənalı leksik-semantik, yaxud tematik söz qrupları mikrosistemlərdir. Həmin söz qrupları-linqvistik təbəqələr məkan anlayışının linqvistik təzahür formalarının cəmi birliyi mənasını bildirən məkan leksikanın tərkib hissələridir. Məkan anlayışını dildə formalaşdıran və gerçəkləşdirən sözlərin toplusu makroleksika sayılır. Bu makroleksika bir sıra mikrotematik layı öz daxilində birləşdirir. Məkan anlayışlarını bildirən sözləri, daha doğrusu, adları cəm şəkildə özündə birləşdirən makro xarakterli məkani leksikanı bütövlükdə müasir dilçilik elminin tələbləri səviyyəsində anlamaq üçün məkan anlamlı konkret söz qruplarının semantik sistemini, onlar arasındakı qarşılıqlı münasibəti, bağlılığı bilmək həmin leksik-semantik qatların fərqləndirici əlamətlərini linqvistik təhlil etmək çox vacibdir. Makro məkanın linqvistik ifadə görümləri dedikdə məkan obyektlərinin adları, maddi obyektlərin müəyyən adları, cəhət adları, üçölçülü məkan adları gözümüzdə canlanır. Adları çəkilən söz qrupları məzmun və mahiyyətcə bir-birindən fərqlənir. Məkanı obyekt adları ayrı-ayrı mahiyyətli sözlərin, ifadələrin qarşılıqlı semantik münasibətlərinin linqvistik daşıyıcılarıdır. Maddi obyekt adlarının əlaqələndirilməsində "mərkəz-ucqar" əks məna prinsipinə əsaslanılır. "Mərkəz-ucqar" bir- birinə əks real yerlər-məkanlardır. Bu gerçək varlıqlar (məkanlar) əsasında mərkəz və ucqar anlayışlar formalaşmışdır. Həmin anlayışların əmələ gəlməsi dildəki məkan mənalı sözlərlə bağlıdır. Başqa cür desək, ümumi coğrafi mənalı, yəni ümumi məkan bildirən mərkəz və ucqar sözləri göstərilən anlayışların yaranmasını təmin etmişdir. Ümumiyyətlə, dilin lüğət tərkibindəki bütün leksik-semantik tematik söz qrupları, yaxud sözlər eyni (sözlərə uyğun) anlayışların yaranıb formalaşmasında əsas həlledici funksiyanı yerinə yetirir. Belə faktlar dil-təfəkkür söz anlayış (məfhum), hökm cümlə qarşılıqlı münasibətlərində dilin sözün və cümlənin üstün mövqedə dayandığını sübut edir.

İstifadə olunmuş ədəbiyyat

1. N.Xudiyev. Qədim türk yazılı abidələrinin dili. Bakı
2. Azərbaycan dilinin izahlı lüğəti 4 cilddə. III cild. Bakı, "Şərq-Qərb", 2006, s. 329
3. Məmmədov Y. ORxon-Yenisey abidələrində adlar (isim, sifət, say, əvəzlik), I c., Bakı: APİ, 1979-113 s; II c., Bakı: APİ, 1981, 111 s.
4. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri. Bakı Yazıçı, 1993, 391 s.
5. Rəcəb Ə. Göytürk dilinin morfologiyası. Bakı, 2002
6. Əliyev Y. Qədim türk (runik) yazılı abidələrinin dili. Magistr hazırlığı üçün dərs vəsaiti. Bakı, "Nurlan", 2004 – 182 s.
7. Айдаров Г. Язык орхонских памятников древнетюркской письменности. VIII в. Алма-Ата: Наука, 1971, 380 с.

Н.Ибрагимова

Лексическая семантика пространственных слов

Резюме

Понятие пространства в Орхон-Енисейских памятниках является одной из наиболее распространенных форм всех материальных систем и процессов. Для описания пространственных понятий, или, точнее, для описания макро-специфической лексики, которая объединяет имена в целом, на уровне требований современной лингвистической науки важно провести лингвистический анализ семантической системы пространственных конкретных групп слов, взаимоотношений между ними и особенностей этих лексико-семантических слоев.

Лингвистическое выражение пространства объясняется с точки зрения требований современной лингвистики, которые являются характерными носителями лексико-семантических, морфологических и синтактических характеристик.

В статье были выявлены интересные особенности происхождение пространственного понимания и пространственных слов в орхоно-енисейских памятниках, а также различие между их лексико-семантическими значениями и обще-схожими признаками.

N.Ibrahimova

Lexical semantics of spatial words

Sammary

The concept of space in the Orkhon-Yenisei monuments is one of the most common forms of all material systems and processes. To describe spatial concepts, or, more precisely, to describe macro-specific vocabulary that combines names in general, at the level of the requirements of modern linguistic science, it is important to conduct a linguistic analysis of the semantic system of spatial specific groups of words, the relationship between them and the features of these lexical-semantic layers.

The linguistic expression of space is explained in terms of the requirements of modern linguistics, which are characteristic carriers of lexical-semantic, morphological and syntactic characteristics.

The article revealed interesting features of the spatial understanding of words, as well as the distinction between their lexical-semantic meanings and common features in Orkhon-Yenisei monuments.

Rəyçi: Nizami Xuduyev
Filologiya elmləri doktoru, professor

YAQUT HACIYEVA
Gəncə Dövlət Universiteti
yaqut.haciyeva.89@mail.ru

AUTONOMOUS LEARNING OF THE ENGLISH LANGUAGE

Açar sözlər: İngilis dili, doğma dil, beynəlxalq dillər, dil üslubları, əcnəbi dil, ünsiyyət vasitələri.
Ключевые слова: Английский язык, родной язык, международный язык, языковые стили, иностранный язык, средства коммуникации.
Key words: The English language, native language, international language, language styles, foreign language, means of communication.

Learning the English language is important in today's world. When you consider that approximately 375 million people in the world speak English as a mother tongue, an equally large number of people speak English as a second language, and around 750 million people speak English as a foreign language, English is one of the most widely spoken languages in the world. In addition over one billion people currently learn English. In fact, it is estimated that one in four people learn English as a foreign language and you could be one of them.[2.189].

English is the global language of communication. Businesses use English to communicate with companies from other countries and with today's global media learning English free could not be easier.

Also in today's international market learning English as a second language has almost become a necessity as English is the language of communication in International Business, and International Politics. Most academic publications across a range of fields are in English. Therefore to study English, learners need to look no further than the internet or media which is dominated by the English language

All around the world, of all ages are learning to speak English, but their reasons for wanting to study English can differ greatly. Some students, of course, only learn English because its on the curriculum at primary or secondary level, but for others, studying the language reflects some kind of choice.

Many people learn English because they have moved into a **target-language community** and they need to be able to operate successfully within that community. A target language community is a place where English is the national language – e.g. Britain, Canada, New Zealand, etc – or where it is one of the main languages of culture and commerce – e.g. India, Pakistan, Nigeria.

Some students need English for a Specific Purpose **(ESP)**. Such students of ESP (sometimes also called English for Special Purposes) may need to learn legal language, or the language of tourism, banking, or nursing, for example. An extremely popular strand of ESP is the teaching of **business English,** where students learn about how to operate in English in the business world. Many students need English for Academic Purposes **(EAP)** in order to study at an English-speaking university or college, or because they need to access English-academic texts.

Many people learn English because they think it will useful in some way for international communication and travel. Such students of **general English** often do not have a particular reason for going to English classes, but simply wish to learn to speak (and read and write) the language effectively for wherever this might be useful for them.

Learning strategies are the conscious thoughts and actions that learners take in order to achieve a learning goal. Strategic learners have metacognitive knowledge about their own thinking and learning approaches, a good understanding of what a task entails, and the ability to orchestrate the strategies that best meet both the task demands and their own learning strength.

The preponderance of research on language learning strategies has been descriptive, as researches have sought to discover what learning strategies are reported by learners of different languages. The issues that arise from this body of research are: identification procedures of learning strategies, terminology and classification of strategies, the effects of learner characteristics on strategy use, and the effects of culture and context on strategy use.

What is autonomous learning?

In recent years, research in the field of autonomous or self-directed language learning has received increasing attention as a result of the development in research on language learner beliefs and language learning strategies. The ability to take charge of one's own learning is now increasingly recognized as a major goal within language education. But what is autonomous learning, and why we need autonomous learning? Being a successful language learner is every student’s wish. In order to be it, what should we do?

First of all, as an independent learner, you must have your own way to learn language. Don’t depend on book or the teacher; instead of waiting the teacher to explain, you should try to find the patterns and the rulers for yourselves. Don’t be afraid of mistakes, and instead, you should be pleased with them, because you can learn more knowledge from the mistakes.

Active learning is the second important part of autonomous. Don't wait for a chance, but to look for such a chance. For example, find people who speak the language and ask them to correct your mistakes, then, repeat what you hear again and again. When communication is difficult, our can accept information that is inexact or incomplete. It's more important to learn think in the language than to know the meaning of every word. [1, 127]

Finally, autonomous learners should be learners with a purpose. In the other word, you must be a highly motivated learner. Some people want to learn the language because they are interesting in the language and the people speaking it. It's necessary for them to learn the language in order to communicate with these people and to learn from them. They find it easy to practice using the language regularly because they want to learn it.

Why we need autonomous learning?

With the development of economy, the communication between different cultures is becoming more and more. So we should learn foreign language to know study advanced experience and technology, meanwhile, introduce our traditional culture to our friend country. We need to know their social behavior and social custom.

On the other hand, we are living in a century of speed and haste. What we seemed impossible yesterday is common today, and may be obsolete tomorrow. Change is a supreme challenge to all of us. It keeps us alert to new possibilities and also to new dangers .We can not remade our changing environment, but we can remade ourselves.

Above two points are about social needs, and the personal needs are important as well. Perhaps you want to get an MBA. Firstly, you must know that the Masters of Business Administration is a general management degree that offers a relevant body of knowledge in economics, finance, marketing, operations, accounting and so on. Secondly, which MBA is right for you? There are thousands of MBA programs around the word, designed to meet a multitle of needs. What are the opportunity costs of each option? You need to address all of these questions as you search for a program that fits your requirements. Besides, you must know how to get your student visa for entry into the country where you want to go.[2,234]

Also you want to work for the best companies after graduation. Now you need to know about these companies in whole. For example, in Intel there are stock options for all execs, and the typical of Stew Leonard's is free thanksgiving turkeys for everyone.

Learning styles

Language ***acquisition*** seems to be almost guaranteed for children up to be about the age of six. They seem to be able to learn languages with incredible facility. They are also capable of forgetting a language just as easily. It is almost as if they can put on and take off different languages like items of clothing! However this ease of acquisition becomes gradually less noticeable as children move towards puberty and arte that, language acquisition is much more difficult.[1,145]

Acquisition here describes the way in which people "get" language with no real conscious effort in other words, without thinking about grammar or vocabulary or worrying about which bits of language go where.

Some theorists, notably the American applied linguist Stephen Krashen in the 1980s, have suggested that we can make a distinction between acquisition and learning whereas the former is subconscious and anxiety free, learning is a conscious process where separate items from the language are studied and practiced. [1,187]

References:

1. "How to teach English" by Jeremy Harmer
2. "The Primary English Teacher's Guide" Jean Brewster Gail Ellis Denis Girard
3. Yahoo.com – Issues in language learning strategy research and teaching
4. About.com – Autonomous learning making good language

Google.com – Fostering students' autonomous English

Я.Гаджиева

Автономное изучение английского языка

Рэзюме

Статья посвящена самостоятельному изучению английского языка. Английский является международным языком Этот язык является обязательным, потому что это международный язык. Английский сейчас является основным языком политики, экономики в мире. Этому автономному языку крайне необходимо больше узнать о культуре, политике и экономике зарубежных стран. Стиль языка изучен правильно. В то же время приводятся необходимые причины для самостоятельного изучения языка. В настоящее время мы живем во времена, когда технологии и образование развиваются. Изучение

английского языка в настоящее время является важной предпосылкой для обучения за рубежом. Самостоятельное изучение не зависит от преподавателя или учебника , а от индивида , языковой среды, возраста. Это сознателный процесс, опирающися на прямое изучение грамматики и знание родного языка и эффективное использование словарей, дисков.

Y.Hacıyeva

İngilis dilinin avtonom öyrənilməsi

Xülasə

Məqalə İngilis dilinin müstəqil şəkildə öyrənilməsinə həsr olunmuşdur. İngilis dili beynəlxalq dildir. Beynəlxalq dil olduğu üçün bu dili öyrənmək bir tələbatdır. İngilis dili hazırda dünya dilləri içərisində siyasətin, iqtisadiyyatın əsas dilinə çevrilib. Xarici ölkələrin mədəniyyətinə, siyasətinə, iqtisadiyyatına yaxından bələd olmaq üçün dilin bu avtonom öyrənilməsinə böyük ehtiyac duyulur. Məqalədə dilin üslubları düzgün şəkildə araşdırılmışdır. Eyni zamanda dilin avtonom öyrənilməsi üçün lazımi səbəblər verilmişdir. Hazırda biz texnologiyanın və təhsilin inkişaf etdiyi bir dövrdə yaşayırıq. Xaricdə təhsil almaq üçün artıq ingilis dilini bilmək vacib şərt almışdır. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, müstəqil şəkildə dil öyrənmə prosesi müəllim və dərslikdən bilavasitə asılı deyil, o fərdlərin yaş, psixoloji keyfiyyətləri və ən əsası maraq dairəsindən asılıdır.Bu proses şüurlu proses olub, ana dilinin qayda-qanunlarının şüurlu mənimsənilməsini, dil materiallarından səmərəli şəkildə istifadə bacarığını tələb edir.

Rəyçi: **Kazımova Sevda**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

GÜLNARƏ NƏSİBOVA
Gəncə Dövlət Universiteti
gulnara@mail.ru

NİTQ MƏDƏNİYYƏTI VƏ TARİXİ

Key words: Speech, style, research, communication, culture, vocabulary, language, linguistics
Açar sözlər: Nitq, üslub, araşdırma, ünsiyyət, mədəniyyət, lüğət, dil, dilçilik
Ключевые слово: речь, стиль, исследование, связь, культура, словарь, язык, лингвистика

Nitq mədəniyyəti insanlara məxsus ümumi mədəniyyətin ən vacib vəaparıcı tərkib hissələrindən biridir. Bu anlayışa danışıq mədəniyyəti ilə yanaşı, yazı mədəniyyəti də daxildir. Belə yüksək keyfiyyətə yiyələnən şəxs cəmiyyətin ictimai həyatında, onun hər hansı bir sahəsində fəal və məhsuldar iştirak etmək imkanına malik olur. Xüsusən, ziyalıların nitq mədəniyyətinə yiyələnməsi vacibsayılır. Yazıçılar, müəllimlər, aktyorlar, radio və televiziya işçiləri, jurnalistlər,bədii söz ustaları nitqinin təsirliliyi, obrazlılığı, ifadəliliyi, məntiqliyi, zənginliyi ilə fərqlənməli, başqaları onların danışığından, oxusundan, yazdıqlarındannümunə götürməlidirlər.Dilçilik ədəbiyyatında nitq mədəniyyəti anlayışı belə izah olunur: "Nitq mədəniyyəti tətbiqi dilçilik sahəsi olub, hər hansı konkret bir dilin orfoepik,orfoqrafik, leksik, qrammatik, üslubi və s. normalarını müəyyənləşdirən nəzəriaxtarışlar və təcrübi tədbirlər kompleksidir". Bu tərifi başqa bir şəkildəifadə etmiş olsaq, deyə bilərik ki, nitq mədəniyyəti danışıq və yazı zamanıorfoqrafik və orfoepik qaydalara, qrammatik qayda-qanunlara, üslub normalarınaəməl etmək, zəngin söz ehtiyatına malik olmaq, nitqin etik normalarını gözləməkdir.

Nitq mədəniyyəti dilçiliyin praktik sahəsi olub, dildən ünsiyyət vasitəsi kimi istifadəqaydalarını öyrənir.Nitq mədəniyyətində dilçiliyin nəzəri fikirləri əməli (praktik)şəkildə həyata keçirilir. Buna görə də nitq mədəniyyəti dilçiliyin nəzəri yox, praktik sahəsi sayılır. Nitq mədəniyyətində ayrı-ayrı dil faktları və ya hadisələri yox, dilçiliyin qayda-qanunları sistemi öyrənilir. Ümumiyyətlə, nitq mədəniyyətinin konkret predmeti yoxdur."Nitq mədəniyyəti"nin konkret predmetini müəyyənləşdirmək. Bu dil özünəməxsus musiqili ahəngi, səlisliyi və axıcılığı ilə diqqəti cəlb edir. Çox-çox qədim zamanlarda dilimizdə şifahi xalq ədəbiyyatı nümunələri, sonralar isə yazılı ədəbiyyat yaranmışdır. İstər şifahi, istərsə də yazılı ədəbiyyatımız xalqımızın gözəl və zəngin nitq mədəniyyətinin olduğunu sübut edir. Milli mədəniyyətin, o cümlədən də nitq mədəniyyətinin qoruyucusu, daşıyıcısı bütövlükdə xalqdır. Xalqın hər bir nümayəndəsi nitq mədəniyyətinə dərindən yiyələnməli və onu layiqli şəkildə

qorumalıdır. Bu mədəniyyəti inkişaf etdirməkdə,yaymaqda söz ustalarının böyük xidmətləri olmuşdur.Nitq mədəniyyəti nitqin müxtəlif şəraitində məzmun və məqsədə uyğun olaraq ədəbi dilin yazılı və şifahi formalarından, ifadəlilik vasitələrindən istifadə edə bilmə bacarığıdır. Bu anlayış dilin mənimsənilməsinin iki pilləsini özündəehtiva edir: 1) düzgün nitq, yazan, oxuyan və danışanın nitq normalarını gözləməsi; 2) nitq məharəti. Təkcə nitq normalarını deyil, həm də mövcudvariantlardan məzmun baxımından dəqiq, üslub və situativlik cəhətdən dahauyarlı dil vahidini seçib işlədə bilmək. Nitq mədəniyyəti normativ qrammatika iləüslubiyyatın vəhdətidir.Başqa bir mənbədə mədəni nitq, nitq mədəniyyəti anlayışı belə izaholunur: "Nitq mədəniyyəti nitqin ədəbi dil normalarına uyğunluğu, dilin ifadəvasitə və imkanlarından nitqin,təkmilləşdirilməsi problemlərini, dil hadisə və proseslərinininkişaf xəttini, üslubiyyat məsələlərini araşdıran dilçilik bəhsi.Nitq mədəniyyəti insanın yüksək ictimai mədəniyyəti, təfəkkür mədəniyyəti, dilə şü-urlu sevgisi, ən yüksək keyfiyyətdir. Böyük Britaniyada qadınların nitqi ilə bağlı aparılan sosioloji tədqiqatlar göstərmişdir ki, nə qədər nitq düzgündürsə qadın şəxsi və professional həyatda bir o qədər xöşbəxtdir. Bu nəticəni, şübhəsiz, dilin bütün daşıyıcılarına aid etmək olar. İnsanın nitqi onun içdünyasını aşkarlayan başlıca vasitədir. Adamları tanımaq, onlara bələd olmaqüçün, hər şeydən əvvəl, ünsiyyətə girmək, təmasda olmaq lazımdır. Antik dövrünböyük filosofu Sokrat həmişə deyərmiş: "Ey insan danış səni tanıyım". Həzrət Əli buyururdu ki, hər kəs öz dilinin altında gizlənib. Danışmayınca onun ağıllı və ya ağılsız olması məlum olmur. Tarixi inkişafın bütün dövrlərində nitqə, onungözəlliyinə xüsusi diqqət yetirilmiş, qiymət verilmişdir."Qabusnamə"də deyilir: "Sözü ən gözəl tərzdə söyləmək lazımdır ki, həmsözanlayan olasan, həm də söz anladasan".

Azərbaycan şifahi xalq ədəbiyyatında söz, gözəl danışmaq qabiliyyəti bəşəriyyətin təməl daşı kimi qiymətləndirilmiş, xilqətin əzəlinin söz olduğu təlqin edilmişdir. Ulu əcdadlarımız sözün real gücünü, təbii qüdrətini həmişə yüksək dəyərləndirmişlər. Babalarımız bəşər tarixini obyektiv təhlil edərək belə bir nəticəyə gəlmişlər ki, insan cismən yox olsa da, onu tarixdə yaşadan sözdür. Bizim çağdaş tariximiz sözün tarixidir. Hər hansı bir tarixi dövrü mənəvi aləmimiz, söz tariximizlə ölçür, qiymətləndiririk. Məsələn: Nizaminin dövrü, Füzulinin dövrü və s. Nizami dövründə yaşamış sərkərdələr, hökmdarlar ancaq Nizamiyə görə tanınır, yad edilirlər. Söz müqəddəs, sözü cilalayan ustad isə müqəddəslərin müqəddəsidir. Söz güldürür, söz ağladır, söz sevindirir, kədərləndirir, ümid verir, ümid qırır. Söz var dağa çıxarar, söz var dağdan endirər. Söz bir olsa dağ yerindən oynayar. Söz həm məlhəmdir, həm də yara. Söz var gələr keçər, söz var dələr keçər. Antik dövrün böyük mütəfəkkiri, qüdrətli loğmanı Hippokrat demişdir ki, təbabət üç nəhəngin çiynində dayanır: bitki, bıçaq, söz. Min il

bundan əvvəl böyük Firdovsi yazırdı: “Sözün qədrini bilin, həyatda ancaq söz yadigar qalır”. Orta əsrlər dövrünün ən görkəmli alimlərindən biri olan Nəsrəddin Tusi özünün “Əxlaqi-Nasiri”, “Abad-ül-mütəllimin” və digər əsərlərində sözün qüdrətinə, natiqlik sənətinə yüksək qiymət vermişdir. O, gözəl nitqi millətin mədəniyyət göstəricilərindən biri sayırdı. N.Tusi göstərirdi ki, gözəl nitq üçün birinci növbədə dilin özünün səlisliyi, ifadə imkanlarının genişliyindən faydalanmaq vərdişlərinin inkişaf etməsi, yəni həmin dildən istifadə edənlərin hazırlığı tələb olunur. O, nitq mədəniyyətinin əsas şərtləri olan düzgünlük, ifadəlilik və dəqiqliyə xüsusi fikir vermiş, dilin qayda-qanunlarına hamının eyni dərəcədə riayət etməsini zəruri saymışdır. Tusiyə görə, insan bu dünyanın əşrəfi, o böyük Allahın zərrəsi, təbiətin tərkib hissəsidir; onun dünyaya gəlməsində Ana və Təbiət Allahın buyruğu ilə əsas rol oynamışdır. Odur ki, Allahı, haqqı, həqiqəti dərk etməkdən ötrü bütün bilik mənbələrindən baş çıxarmağı və onlara sahib olmağı mütəfəkkir 19 alim fəzilət sayır. Bu fəzilətin insanda nitfədən (insan yarandığı gündən) malik olduğu isə ünsiyyətdir. İnsan öz-özü ilə də, Allahı ilə də, insanla da ünsiyyətdən çox böyük fərəh duyur, çünki o bütün bunları dərk etmiş, həqiqətə yaxınlaşmış, Allaha qovuşmuş olur. Məhz bu mənada insan dünyasında, o cümlədən, Tusi nəzəriyyəsində natiqlik müqəddəs sənət, söz söyləmək, danışmaq möcüzəvi qabiliyyət sayılır .Azərbaycan ədəbiyyatı tarixində nitqin, danışığın gözəlliyinə yüksək qiymət verənlər çox olmuşdur. Ədəbi-tarixi mənbələrə görə, Fələki Şirvani, İzzəddin Şirvani, Mücirəddin Beyləqani, Əfzələddin Xaqani, Nizami Gəncəvi, Həsənoğlu, Nəsirəddin Tusi, Əbdülrəşid Bakuvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Sahib Təbrizi, Molla Pənah Vaqif, Qətran Təbrizi, Şah İsmayıl Xətai, Marağalı Ədhəvi və b. böyük natiqlər olmuşlar. Onların yazdıqları bədii əsərlərdə natiqlik məharəti, nitq kamilliyi mədəniyyəti, nitqin təsir qüvvəsi, nitqdə forma və məzmun vəhdətinin gözlənilməsi və s. haqqında janrın verdiyi imkan ölçüsündə elmi-nəzəri fikir və mülahizələr söylənilmiş, söz sənətinə yüksək qiymət verilimişdir.Qədim Yunanıstanda natiqlik sənətinin inkişafına güclü təsir göstərən səbəblərdən biri də Solon qanunları olmuşdur. Bu qanunlara görə hər bir afinalı məhkəmədə öz hüququnu müdafiə etməyi bacarmalı idi . Belə bir tələb əsasında afinalılar hüquqi biliklərə yiyələnməyə, həm də öz hüquqlarını müdafiə etmək üçün aydın, təsirli, məntiqli, rabitəli danışmağa xüsusi səy göstərirdilər. O zaman məhkəmədə vəkillər fəaliyyət göstərmədiyindən vətəndaşlara loqoqraflar kömək edirdilər. Loqoqraflar hüquqi təhsil almış adamlar idilər, onlar xüsusi muzdla məhkəmədə baxılacaq işin məzmun və mahiyyəti ilə bağlı nitqlər yazırdılar. İşi məhkəməyə düşən afinalı həmin nitqi əzbərləyir və məhkəmə prosesində özünü müdafiə edirdi. Lisi, Hiperid, Esxin, Trasimax, Demosfen öz dövrlərinin görkəmli loqoqrafları, natiqləri olmuşlar. Bunlardan Demosfen antik natiqliyin yaranması və inkişafında

xüsusi rol oynamışdır. Demosfenin yaradıcılığı dünya natiqlik mədəniyyətinin inkişafında mühüm mərhələdir.

Ədəbiyyat

1.Babayev.A.M.”Azərbaycan dili və nitq mədəniyyəti”.Bakı. Elm və təhsil 2011
2.Abdullayev.N.Ə.”Nitq mədəniyyətinin əsasları”.Bakı 2013.
3.Qasımov.Ə.Ə.Bakı Universitetinin xəbərləri.Nitq mədəniyyətinin tarixi Siseron Sokrat Demosfen Bakı 2013.
4.Hüseynov.S.S “Nitq mədəniyyəti”.Bakı.Yazıçı nəşriyyatı 2010
5.Gülsəda Quluqızı.”Nitq mədəniyyəti.”Nitqin yığcamlığı üzərində iş.
6.S.Hüseynov. E.Qaracayeva “Azərbaycan dili və nitq mədəniyyəti.Elm və təhsil.Baki 2016.

G.Nasibova

Speech culture and its history

Summary

The people who have a clear, compact and effective speech from ancient times have always been highly appreciated by the community. The beauty of speech and ways to own it have always been the focus of great personalities.

Ancient Greece has been the original homeland of the art of fine arts. The narrative has also emerged and developed in Greece as a science. One of the reasons that influenced the development of the art of Greece was Solon's laws.

Rhetorical science, which speaks of theory of speech art in this period, has also developed and evolved perfectly. Ancient Greek rhetoric, the terminology used there, are so valuable today, they are remarkable, and are used as vocabulary words. Aristotle wrote his work Rhetoric in 335 AD as a special kind of human activity, the structure, style, orfoepy, expressionism, etc. of the speaker's speech. Explained in detail.

Г.Насибова

Культура речи и история

Рэзюме

Люди, которые имеют четкую, компактную и эффективную речь с древних времен, всегда высоко ценились сообществом. Красота речи и способы ее владения всегда были в центре внимания великих личностей. Древняя Греция была исконной родиной искусства изобразительного искусства.

Повествование также возникло и развивалось в Греции как наука. Одной из причин, повлиявших на развитие греческого искусства, были законы Солона. Риторика, которая говорит о теории речевого искусства в этот период, также прекрасно развивалась и развивалась. Древнегреческая риторика, используемая здесь терминология, сегодня очень ценны, они замечательны и используются в качестве словарных слов.

Аристотель написал свою работу «Риторика» в 335 году нашей эры как особый вид человеческой деятельности, структуры, стиля, орфоэпии, экспрессионизма и т. Д. Речи говорящего. Объясняется подробно.

Rəyçi Sevda Kazımova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

RƏVANƏ QULİYEVA
Bakı Slavyan Universiteti
ravana@mail.ru

SUAL CÜMLƏSİ ÜZƏRİNDƏ İŞİN BƏZİ İSTİQAMƏTLƏRİ

Açar sözlər: *cümlə, nəqli cümlə, sual cümləsi, intonasiya, sual ədatları.*
Ключевые слова: предложение, повествовательное предложение, вопросительное предложение, интонация, вопросительные частицы.
Key words: sentence, declarative sentence, interrogative sentence, intonation, interrogative particles.

Azərbaycan dili tədrisinin əsas vəzifəsi şagirdlərin nitqinin inkişafına nail olmaq, onlara bir sıra bilik və bacarıqlar aşılamaqdır. Bu iş məktəbə hazırlıq mərhələsindən başlamış, məktəbi bitirənə kimi davam edir. Təhsil aldıqları illər ərzində şagirdlər nitq inkişafı ilə bağlı bir sıra bacarıq və vərdişlərə yiyələnirlər. Söz yox ki, nitq inkişafı yalnız cümlə qurmaqla bitmir. Bu nitq inkişafı üzrə işlərin yalnız bir istiqamətidir. Cümlə qurmaq və fikri müxtəlif şəkildə ifadə etmək bacarıqlarının formalaşdırılması ibtidai siniflərdən xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan dilinin nüvəsi nitq fəaliyyəti ilə bağlıdır, təməli cümlə qurmaq vərdişləri ilə qoyulur. Cümlə qurmaq bacarıqlarının inkişafı şagirdlərə öz fikrini sərbəst, aydın və dəqiq şəkildə çatdırmağa, əsas fikri düzgün anlamağa imkan yaradır.

Cümlələr üzərində iş həm də ona görə əhəmiyyətlidir ki, o, fonetika, leksika, morfologiya və sintaksisin tədrisinə, dilçiliyin müxtəlif bölmələri arasında inteqrasiya yaradılmasına şərait yaradır, dil və ədəbiyyat dərslərinin fənlərarası əlaqələr zəminində tədrisinə imkan verir. Sözlərin leksik mənası cümlədə aydınlaşır, dəqiqləşir. Sözlər cümlə daxilində digər sözlərlə əlaqəyə girir, hansı mənada (məcazi və ya həqiqi) işləndiyi müəyyənləşdirilir. Cümlə üzərində işlərin bir neçə istiqamətdə aparılması səmərəli nəticə verir: 1. Cümlənin qrammatik xüsusiyyətlərinin izah edilməsi; 2. Şagirdlərdə məqsəd və intonasiyaya görə müxtəlif cümlə növlərindən istifadə etmək bacarıqları formalaşdırmaq; 3. Cümlədə sözləri dəqiq və yerində işlətmək bacarıqları formalaşdırmaq.

Məlumdur ki, təlim prosesi asandan çətinə, sadədən mürəkkəbə prinsipi əsasında aparılır. Məktəbə hazırlıq mərhələsində və ibtidai siniflərdə bu prinsipə xüsusilə diqqət yetirilir. Bu, şagirdlərin yaş səviyyəsi, dərketmə qabiliyyəti və psixologiyası ilə bağlı bir məsələdir. Məktəbəqədər hazırlıq dövründə şagirdlərin cümlə anlayışı ilə ilk praktik tanışlığı şagirdlər kitabda verilmiş müxtəlif şəkillərə baxmaqla cümlə qurmaq bacarıqlarını təkmilləşdirirlər. İlk günlərdən başlayaraq niqdən cümlələri ayırmağı, orada

kimin və ya nəyin haqqında danışıldığını müəyyənləşdirməyi, cümlə tərtib etməyi, sualların köməyi ilə onu genişləndirməyi, cümləni böyük hərflə yazmağı, sonunda nöqtə qoymağı öyrənirlər. Sonralar isə cümlənin bir və ya bir neçə sözdən ibarət olduğunu da dərk edirlər. Cümlə haqqında anlayışlar formalaşdırmaq üçün lövhədə bir neçə söz (məsələn, Azərbaycan, mən, Vətən) yazılır. Şagirdlərin diqqətini bu sözlərə yönəldir. Həmin sözlərdən cümlə qurmağı tapşırır. Şagirdlər «Azərbaycan mənim Vətənimdir» cümləsini yazırlar. Daha sonra müəllim yuxarıda verilmiş sözlərlə onlar əsasında düzəlmiş cümləni müqayisə etməyi təklif edir.

Onların oxşar cəhətləri eyni sözlərdən ibarət olmasıdır. Fərqli cəhətləri isə odur ki, cümlədəki sözlər bir-biri ilə əlaqədardır.. I halda sözlər bir-birinin ardınca sadalanır, onlar arasında vergül qoyulur. Cümlədə I söz yüksək tonla tələffüz olunur, sonuncu sözə çatanda səs tonu enir. Daha sonra cümlə anlayışını şüurlu mənimsətmək üçün şagirdlərə sərhədi məlum olmayan cümlələrdən ibarət mətn təqdim olunur. Müəllim hər cümləni ayrılıqda oxumağı tələb edir. Şagirdlər əvvəlcə mətnin məzmunu ilə tanış olur, sonra oxuyurlar. Bu zaman cümlələr sona yaxın bir qədər alçaq tonla tələffüz edilir. Daha sonra həmin mətn dəftərə köçürülür. Bununla da cümlələri bir-birindən fərqləndirməyi, cümləni böyük hərflə başlamağı, sonda nöqtə qoymağı öyrənirlər.

Sonrakı mərhələlərdə cümlənin bir və ya bir neçəə sözdən ibarət olması ilə bağlı iş aparılır. Daha sonra isə cümlədə sözlərin yerlərini müəyyənləşdirməklə bağlı məşqlər aparılır. Şagirdlərə şəkillər göstərilir və cümlə qurmaq tələb olunur: 1. Quş uçur. 2. Şagird yazır. 3. Maşın gedir. 4. Ceyranlar qaçır. 5. Çay axır.

Müəllim hərəkət bildirən sözlərin cümlədəki yerini soruşur. Məlum olur ki, hərəkət bildirən sözlər sonda işi görən şəxsi və ya əşyanı bildirən söz əvvəldə işlənir. Onu qurmaq şagirdlər üçün çətinlik törətmir. Çünki nəqli sözü nağıl etmək sözünə mənaca yaxın olduğundan onu tez yadda saxlayırlar. "Sual cümləsi" termini ilə tanış olmasalar da, şagirdlər belə cümlələri çox işlədirlər. Ona görə də müəllim onları sual cümlələri ilə tanış etmək üçün sinfə müxtəlif şəkillər gətirə bilər, yaxud, "ağıllı lövhədə" təsvirləri canlandıra bilər. Məsələn rəssam Risetnikovun "Yenə də iki" əsərini uşaqlara göstərib ananın oğluna nə dediyini soruşmaq olar. Şagirdlər "Yenə iki almısan?", "Niyə evə gec gəldin?", "Hara getmişdin?", "Bu nə üst-başdır?" kimi cavablar deyirlər. Müəllim uşaqlara izah edir ki, nəyisə öyrənmək üçün dediyimiz cümlələr sual cümləsi adlanır. Sonra uşaqlara təklif edir ki, II, III və IV cümlələri sual sözlərini demədən oxusunlar. Şagirdlər cümlələrin mənasız söz yığınına çevrildiyini, yaxud tamam yeni mənalı bir cümlə yarandığını deyirlər.

M - Bu görən niyə belə olur?

Şı - Görünür, sual cümlələri sual sözlərinin köməyi ilə yaranır.

$Ş_2$ - Sual sözləri olmadan sual cümləsi olmaz.

M - Əgər belədirsə, bəs I cümləyə nə ad verək. Axı orada sual sözləri yoxdur.

Şagirdlər çətinlik qarşısında qalırlar və çıxış yolu axtarırlar.

M - Uşaqlar, gəlin məsələyə başqa cür yanaşaq.

Əgər ana oğlanın gündəliyini açıb oradakı qiyməti görərsə, onda nə deyər?

$Ş_2$- Yenə iki almısan?

M - Bəs onda I cümlə ilə bu cümləni fərqləndirən nədir? Nə üçün biz birinciyə sual, sonuncuya isə nəqli cümlə deyirik. Onların fərqi nədir?

Şı- ikinci vəziyyətdə ikini ana özü görür və öz-özünə danışır.

$Ş_2$- Birinci halda cümlə bir qədər yüksək səslə ifadə olunur, cümlənin sonuna doğru səs ucalır.

M - Doğrudur! Uşaqlar, sual cümlələrin də cümlənin sonuna yaxınlaşdıqca səs ucalır.

Gəlin indi başqa bir şəklə baxaq.

Şəkildə bir uşaq telefonun ekranında, yaxud kompüterin monitorunda görünən şəxsə müraciətlə deyir.

Bir üzümə gülərsənmi?

Göz yaşımı silərsənmi?

Özün durub gələrsənmi?

Bilsən necə darıxmışam.

M - Uşaqlar, bunlar da sual cümləsidir. Ancaq bu cümlələrdə sual sözləri yoxdur. Bunlar intonasiyanın köməyi ilə sual cümləsinə çevrilir, ancaq burada intonasiya daha güclüdür. Kim deyər, bu cümlələrin daha gözəl səslənməsinə nə səbəb ola bilər?

Şagirdlərdən kimsə bu cümlələrin qüvvətli deyilməsinə -mı[4] şəkilçisinin (?) səbəb olduğunu söyləyir.

M- Əhsən, doğrudan da bu cümlələrin daha gözəl deyilməsinə səbəb -mı[4]- dür. Ancaq bu şəkilçi yox, şəkilçi formasında olan köməkçi nitq hissəsi - ədatdır.

Biz ədatlarla yuxarı siniflərdə tanış olacağıq.

Deməli, sual cümlələri 3 yolla düzəlir:

1. intonasiya ilə
2. sual sözləri ilə
3. sual ədatları ilə

İntonasiya görə cümlənin növlərini öyrədərkən müəllim bədii əsərlərdən nümunələr seçməli, onları durğu işarələri buraxılmaqla oxumağı təklif etməlidir. Məs:

1) Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan. (S.V.)

2) Sən nə yamansan, a buz,
Adam yıxansan, a buz. (M.Ə.Sabir)

3) Nədir sözün, sünbülüm?
Gülür üzün, sünbülüm. (H.Z.)

Sonra şagirdlərə dialoqlar qurmağı tapşırmaq olar. Bu dialoqları müxtəlif mövzulu etüdlər kimi səhnələşdirmək olar. Bu bir tərəfdən dərsə əyləncə xarakteri vermiş olar, uşaqları yormaz, bir tərəfdən isə təlimə marağın artmasına səbəb olar.

Yuxarı siniflərə keçdikcə oxu mətnləri üzərində iş prosesində şagirdlərə aşağıdakı tipli suallarla müraciət etmək olar.

1. Mətn niyə belə adlandırılıb?
2. Onu başqa cür necə adlandırmaq olar?
3. Mətndəki misallardan, yaxud heyvanlardan kimi bəyəndin?
4. Kimi xoşlamadın?
5. Ona nə demək istərdin?

Nəticədə şagirdlər müxtəlif cümlələr qurmaq vərdişləri qazanır, fikrini ifadə etməyi həm də gözəl, aydın, düzgün ifadə etməyi öyrənirlər.

Sonralar şagirdlər cümlənin üzvləri ilə tanış olur, onların cümlədəki yerləri barədə məlumat alır.

Şagirdlərə yuxarı siniflərdə məntiqi vurğu haqqında da məlumat verilir.

M - Uşaqlar, verilmiş sözləri oxuyun, onların mənasını izah edin.

gəlin vurma qovurma

süzmə çıxma alma

Şagirdlər sözləri müxtəlif şəkildə tələffüz edir və mənalarını da tələffüzə uyğun izah edirlər. Müəllim deyir ki, hər birinizin cavabı düzdür, çünki siz vurğunun yerini dəyişirsiniz. Vurğunun yeri dəyişəndə məna dəyişir. Cümlənin içindəki sözlərdən biri başqalarından qüvvətli tələffüz olunur. Bu məntiqi vurğu adlanır. Cümlədə xəbərdən əvvəl gələn söz məntiqi vurğu ilə deyilir. Sözün yeri dəyişəndə cümlənin mənasında da fərq yaranır. Məs:

Sabah qardaşım Gəncədən <u>qatarla</u> gəlir.

Qatarla sözü məntiqi vurğu ilə deyilir və danışan adam qardaşının avtobusla, yaxud təyyarə ilə yox, məhz qatarla gələcəyini vurğulayır.

Sabah qardaşım qatarla <u>Gəncədən</u> gəlir.

Bu cümlədə isə qardaşının başqa yerdən yox, məhz Gəncədən gəldiyini xəbər verən natiq fikrini başqa cür ifadə edir.

Qardaşım Gəncədən qatarla <u>sabah</u> gəlir.

Sabah Gəncədən qatarla <u>qardaşım</u> gəlir.

Şagirdlərin nitq vərdişlərinin inkişafı üçün müxtəlif çalışmalar üzərində iş aparılması zəruridir.

1. Suallar tərtib edilməsi və onların cavabları; Bu suallar həm konkret, həm də sərbəst mövzularda tərtib edilə bilər. "Şagirdlərin özünün sualvermə prosesinə cəlb olunması isə sual cümlələrini aydın, qrammatik formaya müvafiq və müəyyən üslubi çalarda qurmağa kömək edir (2, 277). Lakin bu zaman bir məsələyə diqqət yetirilməsi zəruridir. Belə ki, şagirdlər çox vaxt suallara "bəli, xeyr, hə, yox" ya da bir sözlə (yarımçıq cümlə) ilə cavab verməyə çalışırlar. Cümlə qurmaq vərdişlərini inkişaf etdirmək məqsədilə suallara tam cavab almaq məsləhətdir.

2. Müəllimin, yoldaşlarının qurduğu cümlələrə cavab vermək; "Sual vermək bacarığı uşaqlarda cümlə qurmaq bacarığını inkişaf etdirir" (5, 464).

3. Cümlələrdəki hər hansı sözü başqası ilə əvəz etmək;

4. Cümlələrdəki feillərin zamanını və ya şəxsini dəyişmək;

5. Verilmiş çoxmənalı sözləri, omonimləri, sinonimləri və antonimləri cümlədə işlətmək;

6. Cümlələri genişləndirmək;

7. Pərakəndə şəkildə verilmiş sözlərdən cümlələr qurmaq;

8. Hər hansı bir mövzuda dialoq tərtib etmək;

9. Cümlədə bir-biri ilə əlaqəli olan sözləri seçmək.

Ədəbiyyat

1. Abdullayev A. Orta məktəbdə Azərbaycan dili tədrisinin metodikası. Bakı, 1964.
2. Balıyev H., Balıyev A. Azərbaycan dilinin tədrisi metodikası. B, 2014.
3. Dəmirçizadə Ə. Müasir Azərbaycan dilindəki sual cümlələri. "Azərbaycan məktəbi, 1947, №1.
4. Əfəndiyev C. Müasir Azərbaycan dilində sual cümlələrinin məntiqi vurğusu və intonasiya. Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri. VIII c. 1957.
5. Kərimov Y. Ana dilinin tədrisi metodikası B., Naşir, 2005.

Р.Гулиева

Некоторые направления работы над вопросительным предложением

Резюме

Статья посвящена некоторым направлениям работы над вопросительным предложением. Формирование способности строить предложения и выражать различные идеи имеет значения с начальных

классов. Ядро азербайджанского языка связано с речевой деятельностью, а основа строится с помощью навыков построения предложения. Развитие способности строить предложения создает условия для правильного понимания основной идеи, точного, ясного донесения мысли.

Работы над построением предложения начинается еще с подготовки к школе. Изначально предложения строятся на основе данных картинок. Даются названия текстам. Далее, дается информация о грамматических особенностях предложения. Предложения по цели и интонации делятся на четыре вида: повествовательное, восклицательное, повелительное и вопросительное предложения.

R.Guliyeva

Some areas of work on the question sentence

Summary

The article is devoted to some areas of work on the interrogative sentence. Formation of the ability to build sentences and express different ideas has values from primary school. The core of the Azerbaijani language is associated with speech activity, and the foundation is built with the help of sentence building skills. The development of the ability to build sentences creates the conditions for a correct understanding of the basic idea, an accurate, clear message of thought.

Work on the construction of the proposal begins with the preparation for school. Initially, the proposals are based on these images. Given the names of the texts. Further, information is given on the grammatical features of the sentence. Proposals for the goal and intonation are divided into four types: narrative, exclamatory, imperative and interrogative sentences.

Rəyçi: Çimnaz Məmmədova
filologiya üzrə fəlsəfə doktoru, dosent

РАМИЛЯ ГАМИДОВА
Бакинский государственный университет
ramila175@mail.ru

О СВОЕОБРАЗИИ ИСПОЛЬЗОВАНИЯ НАИМЕНОВАНИЙ ПРАЗДНИКОВ В НОВГОРОДСКИХ БЕРЕСТЯНЫХ ГРАМОТАХ

Ключевые слова: праздник, календарь, новгородские берестяные грамоты, дата и время
Açar sözlər: bayram, kalendar, tozağacının qabığının üzərində yazılan Novqorod fərmanları, tarix və vaxt
Keywords: holiday, calendar, novqorod birchbark gramoties, date and time

Праздники являются основой эмоционального состояния людей и неотъемлемой частью их жизни. Как отмечают Э. Дюркгейм и М. Элиаде, «праздник – это период непосредственного контакта сакральной и мирской сторон существования человека, которые практически не соприкасаются в повседневной жизни» [5]. Видимо, поэтому в древнерусском языке понятие праздника передавалось словом «свято», которое является однокоренным со словом «святой». Согласно В. Далю, «свято» является устаревшим и выступает синонимом лексем «святокъ» и «святдень» [2, с. 161]. В новгородских берестяных грамотах (в дальнейшем изложении НБГ) слово «свято» встречается единожды в НБГ № 731 (40-е гг. XII в. – нач. 1210-х гг.): о свто жь ти єѣ хоць ‘К празднику ее хочет’. Однако в грамоте не дается уточнение, о каком празднике идет речь. Тогда как в НБГ представлен интересный материал для рассмотрения названий праздников и особенностей их употребления. В исследуемых грамотах наименования праздников фиксируется в 15 грамотах. Для раскрытия своеобразия их функционирования наименования праздников рассматриваются в следующих аспектах: 1) хронологическом; 2) частотном; 3) по кореляции праздников на языческие/ христианские; 4) по употребительности их в грамотах церковного/ нецерковного содержания.

Хронологический аспект рассмотрения НБГ с наименованиями праздников дал следующее распределение:

Стратиграфическая дата	Номер НБГ
50-70-е гг. XI в.	914
Середина XII в.	1003
Конец XI в. – I четверть XII в.	241
1150-е гг.	558
Середина – III четверть XII в.	913

50-70-е гг. XII в.	731
Конец XIII – начало XIV вв.	463
1300 – начало 1310 г.	142
10-30-е гг. XIV в.	144, 417
1300-1330-е гг.	389
70-е – начало 80-х гг. XIV в.	131
XIV в.	134
II половина XIV – XV в.	962
20-е гг. XV в.	154
II четверть XV в.	496

Как видно из таблицы, 15 грамот охватывают период с XI по XV века, т.е. совпадают с тем временным отрезком, к которому относится весь комплекс НБГ, обнаруженных с 1951 года по настоящее время.

В них встретилось 18 наименований праздников, которые по частотности употребления разнятся. Сравните:

Вознесение встречается 1 раз (НБГ № 914, 50-70-е гг. XI в.);

Госпожинъ день (Успение Пресвятой Богородицы) – 1 (НБГ № 1003, сер. XII в.);

Рождество Богородицы – 1 (НБГ № 913, сер. – III четв. XII в.);

Воздвиженье Креста – 1 (НБГ № 913, сер. – III четв. XII в.);

День памяти св. апостола и евангелиста Луки – 1 (НБГ № 913, сер. – III четв. XII в.);

День памяти св. Дмитрия Солунского – 1 (НБГ № 913, сер. – III четв. XII в.);

День памяти св. Космы и Дамияна – 1 (НБГ № 913, сер. – III четв. XII в.);

Собор архангела Михаила – 1 (НБГ № 913, сер. – III четв. XII в.);

День памяти св. апостола Филиппа – 1 (НБГ № 913, сер. – III четв. XII в.);

День св. Варвары – 1 (НБГ № 913, сер. – III четв. XII в.);

Обрезание Господне – 1 (НБГ № 913, сер. – III четв. XII в.);

Крещение – 1 (НБГ № 913, сер. – III четв. XII в.);

Рождество Господне – 3 (НБГ №№ 913, сер. – III четв. XII в.; 241, конец XI – I четв. XII в.; 144, 10-30-е гг. XIV в.);

Петров день – 7 (НБГ №№ 558, 1150-е гг.; 463, конец XIII – нач. XIV в.; 142, 1300 – нач. 1310-х гг.; 417, 10-30-е гг. XIV в.; 389, 1300-1330-е гг.; 962, II пол. XIV в. – XV в.);

Русалии (Русальная неделя) – 2 (НБГ №№ 389, 1300-1330-е гг.; 131, 70-е – нач. 80-х гг. XIV в.);

Ильин день – 1 (НБГ № 134, XIV в.);

Великий день (Пасха) – 1 (НБГ № 20-е гг. XV в.);

Проклов день – 1 (НБГ № 496, II четв. XV в.).

Итак, согласно подсчетам более всего в НБГ встречается упоминание о Петрове дне (7 раз), причем в НБГ № 962 это наименование встречается дважды; затем по частотности употребления трижды фиксируется название Рождества Господня, дважды Русалии и остальные праздники по одному разу. Привлекает также внимание то, что в НБГ № 389 записаны названия сразу двух праздников Петрова дня и Русальной недели, а в НБГ № 913 отмечено 11 наименований праздников. Такое статистическое соотношение праздников, на наш взгляд, не случайно.

Так, в НБГ встречаются, как видно из приведенного списка, языческие и христианские праздники. Из 18 наименований только одно является названием языческого праздника – Русалии (Русальная неделя), которое встречается в двух грамотах: № 389 и № 131. Остальные – христианские праздники, которые, в свою очередь, можно разделить на непосредственно праздники (Вознесение, Госпожин день, Рождество Богородицы, Воздвиженье Креста, Обрезание Господне, Великий день) и дни поминания христианских святых (Луки, Дмитрия Солунского, Космы и Дамияна, Михаила, Филиппа, Варвары, Петра, Ильи, Прокла). Упомянутые праздники встречаются как в грамотах церковного содержания, так и в грамотах нецерковного содержания (термин заимствован у А. Зализняка).

Так, из 15 грамот на бересте церковным содержанием отличается одна – НБГ № 914:

НБГ № 914 (Стратиграфическая дата 50-70-е гг. XI в.)

Ха бци николы м р климта възнєсєниѧ

дъмитр

Волоса петр павла всхъ стых маръѳы

В грамоте упоминается Вознесение, которое в народном православии считалось праздником мертвых: «В этот день пекли и раздавали «божьи онучи» – блины овальной формы. Полагали, что в подобных онучах вознесся на небо Иисус» [4, с. 147]. Вознесение также считалось рубежом между весной и летом. По замечанию А. Зализняка, «включение название праздника в формулу отпуста составляет одну из особенностей старообрядческого богослужения, тогда как в официальном православном богослужении оно не допускается. Грамота № 914 демонстрирует, таким образом, глубокую древность этой литургической особенности» [3, с. 283]. Другой особенностью грамоты является, по замечанию А. Зализняка, упоминание языческого имени Волоса в перечне святых. Этот факт позволяет предположить, что «уже в XI в. это языческое имя стало

признанным эквивалентом имени святого Власия» [3, с. 283]. На наш взгляд, такое соотнесение произошло на основе того, что имена Волос и Власий имеют один корень *vols, в котором дифтонгическое сочетание *ol у восточных славян развилось в полногласие -оло-, а у южных славян – в неполногласие -ла-. Тем более, что и распространение православного христианства на Руси тоже началось с территорий, населенных южными славянами. Также следует заметить, что у восточных славян христианский святой Власий ассоциировался и с языческим богом Велесом – покровителем скота. В результате созвучия имен Власий, также как и некогда Велес, стал покровителем домашнего скота. Другим примером соотнесения языческого бога с христианским святым является отождествление пророка Ильи с Перуном, богом грома и молнии. Такое «закрепление» функций языческих богов за христианскими святыми объясняется тем, что с распространением христианства на Руси языческие верования постепенно «ассимилировались» с христианским культом. В результате, «сложилось так называемое двоеверие, в котором языческие представления соединились в единое целое с догматами христианства» [4, с. 6]. Ярким примером взаимодействия христианского и языческого взгляда на жизнь является народный календарь.

Народный календарь представляет собой годовой перечень праздников, связанных с циклическим развитием природы, и напоминал об определенных сельскохозяйственных работах в тот или иной период. При этом год делился на две половины – от зимнего солнцестояния до летнего и от летнего солнцестояния до зимнего. В первую половину года крестьяне вспахивали поля, сеяли, выводили на пастбища скот и просили помощи у высших сил о том, чтобы уродился богатый урожай. Во вторую половину года – в период сенокоса, жатвы, сбора урожая – крестьяне благодарили природу за ее благосклонность к ним. Христианство принесло на Русь свой календарь, в котором круг праздников также повторялся из года в год. Совместившись, народный и христианский календари дополнили друг друга: с христианскими названиями праздников связалось начало различных сельскохозяйственных работ. Тому прекрасным свидетельством может служить текст НБГ № 913:

На ржьство бцѣ на въ
Звижєньє крста лоу
Кы дьмитрью коу
Змы дьмьѧ: миха
Ила и гаври фили
Па врръварѣ на
Рожьство хво на о
Брѣзаньє

На крщньє

А. Зализняк считает, что эта грамота церковного содержания и представляет собой перечень важнейших церковных праздников и дней памяти святых, приходящих на осень и начало зимы [Более подробно см.: 3, с. 281]. По мнению В.С. Алпатова, автор берестяного календаря воспроизвел «иконологию» народного месяцеслова: «Нижней точкой мыслимого писцом годового цикла оказывается комплекс Рождество Христово – Обрезание (Новый год) – Крещение, т.е. святки, зимний солнцеворот <…> Кроме того, движение по дуге обрезанного правого края грамоты осуществляется сверху вниз (От Рождества Богородицы до Рождества Христова) по часовой стрелке, то есть посолонь <…> писавший вел отсчет времени с церковного новолетия, ближайшим праздником к которому и было Рождество Богородицы» [1, с. 128]. Таким образом, писец расположил христианские праздники в соответствии с течением природного времени. На наш взгляд, данный документ XI в. является перечнем конкретных дат, когда писцу во избежании каких-либо недопониманий удобнее было написать наименование праздника вместо закрепленной за этим праздником даты. Так, Рождество Богородицы отмечается 8 сентября, Воздвиженье Креста – 14 сентября, День памяти св. апостола и евангелиста Луки – 18 октября и т.д. до Крещения – 6 января. Мы предполагаем, что грамота № 913 является не документом церковного содержания, а, возможно, ученической памяткой христианских праздников, которые отмечались в определенные дни. А поскольку название праздника трудно спутать в отличие от конкретных чисел, то вполне вероятно, что древним новгородцам практичнее было в письмах упоминать название праздников, а не выцарапывать необходимые им даты. Нашу догадку подтверждает и материал других грамот, в которых праздники указывают на конкретную дату и не соотносятся с определенными сельскохозяйственными работами. Например:

1) а боуди семо ко петровоу дени съ икоунами ‘Будь здесь к Петрову дню с иконами’, т.е. 29 июня (НБГ № 142);

2) заплати стьпаньцю къ рожествоу ‘заплати Степанцю к Рождеству’, т.е. к 25 декабря (НБГ № 241);

3) а то сѧ диѣало сь се днѣ во велики днь ‘Это происходило сегодня, на Пасху’ (НБГ № 154);

4) а недана пошли во лугу ко илину дни ‘А Недана пошли в Лугу к Ильину дню’, т.е. 2 августа (НБГ № 134);

5) а то деѧлось всю нѣделю до прокла ‘а это происходило всю неделю до Проклова дня’ (НБГ № 496) и т.д.

Данное предположение также подтверждается тем, что авторами грамот были не деревенские жители, а горожане, для которых важно было знать не период пахоты или жатвы, а назначенное время выплат, встреч, торговых сделок. Тогда становится понятным, каким образом в одной грамоте упоминаются языческий и христианский праздник одновременно. См.:

Грамота № 389

w̄ лоукы къ марфи цто олекса колбинць далъ пороукоу .в. коуна

хъ да ти бы дати коуны на пьтровъ днь в роусаль

Перевод: ‘От Луки к Марфе. Что Олекса Колбинец поручился относительно денег, чтобы дать деньги в Петров день, то в русалии…’

Русалия (Русальная неделя) – это первая неделя после Дня Святой Троицы, т.е. ее празднование попадает на 7-ую неделю после Пасхи. Если учесть, что Петров день отмечается 29 июня (12 июля), то Русальная неделя должна была праздноваться за неделю-две до Петрова дня. Учитывая сделанные подсчеты, перевод грамоты тоже уже представляется в несколько ином виде: видимо, Луке следует что-то сделать в течение Русалии, чтобы потом он смог отдать деньги 29 июня.

Итак, материал новгородских грамот на бересте, в которых упоминаются наименования праздников, позволяет предположить, что жители древнего Новгорода употребляли в своих письмах наменования праздников (как языческих, так и христианских) не только в качестве календарных дат, но и как назначенное время для встреч, торговых сделок и т.п.

Литература:

1. Алпатов С.В. Берестяные грамоты в контексте фольклорной и литературной традиций // Фольклор и этнография, с. 123-128 // www.drevnyaya.ru/vyp/stat/s4_18_10.pdf.
2. Даль В. Толковый словарь живаго великорускаго языка. Т. 4. М.: государственное издательство иностранных и национальных словарей, 1955
3. Зализняк А.А. Древненовгородский диалект. М.: Языки славянской культуры, 2004
4. Капица Ф.С. Славянские традиционные верования, праздники и ритуалы. М.: Флинта: Наука, 2008
5. Праздник как историко-культурный феномен: мир идеала и реальность

власти//http://mipt.ru/education/chair/liberalarts/courses/history/shemyakin_new.php

R.Həmidova

Tozağacinin qabiğinin üzərində yazilan novqorod fərmanlarinda bayram adlarinin isitifadə xüsusiyyətləri haqqinda

Xülasə

Məqalədə toz ağacının üzərində yazılan Novqorod fərmanlarında çəkilən bayram adlarının işlənmə xüsusiyyətləri təhlil olunurlar. Adı çəkilən fərmanlarda bayram adları yalnız 15 fərmanda qeydə alınıblar. Onların funksionallığının xüsusiyyətlərini araşdırmaq üçün bayram adları 4 aspektdən – xronoloji, işlənmə sayından, bayramların bütpərəstlik ya da xristian olmağından aspektindən, dini və qeyridini məzmunlu fərmanlarında işlənməsi araşdırlır.

Bayram adları XI-ci əsrdən XV-ci əsrə qədər əhatə edən 15 tozağacı qabıqların üzərində Novqorod fərmanlarında qeyd olunmuşdular. Fərmanlarda 18 bayram qeyd olunub. Onların arasında biri bütpərəstliklərin bayramı, 17-i isə xristian bayramlarıdır. Bu bayramlar yalnız 1 dini məzmunlu fərmanda qeydə alınıblar.

Başqa bayramlar qeyridini məzmunlu fərmanlarda işlənirlər. Bildiyimiz kimi, qədim dövrlərdə bayramlar müəyyən kənd təsərüffatı işlıri ilə əlaqəli idilər. Lakin tozağacının qabıqların üzərində yazılan Novqorod fərmanların materialı onu göstərdi ki, bayram adları təqvim tarixləri ilə yanaşı görüşlər, pulu vermək, ticarət razılaşmaları üçün təyin edilən vaxt kimi istifadə olunurlar.

R.Hamidova

About originality of the use of the names of holidays in the novgorod birchbark gramoties

Summary

In the article are analized the specific function of names of the holiday in the texts of novqorod birchbark gramoties. In the mentioned gramoties the names of holidays marked only in 15 gramoties. For studying of the specific function of the names of the holidays we analized the names of the holidays through 4 aspects – chronological, frequency, pagan or Christian holidays correlation, using in ecclesiastic and unecclesiastic content gramoties.

The names of holidays are used in 15 novqorod birchbark gramoties, which covered the period from XIth till XVth centuries. There are 18 names of holidays. One of them is pagan holiday and 17 of them are Christian holidays. These holidays fixed only in one ecclesiastic gramoty. Other holidays are used in unecclesiastic content gramoties.

As we know, in the ancient periods the holidays were used in connect with agricultural works. But the material of novqorod birchbark gramoties is shown that the name of holidays are used as the calendar datas and the time of meetings, payment, trade deals and etc. at the same time.

Rəyçi: Elvira Heydərova
filologiya üzrə fəlsəfə doktoru, dosent

ƏDƏBİYYATŞÜNASLIQ

XƏLİL YUSİFLİ
Filologiya elmləri doktoru, professor
AMEA Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzi
yusifli.afaq@mail.ru

NİZAMİ GƏNCƏVİNİN ANA DİLİNDƏ ŞEİRLƏR "YAZMASI" HAQQINDA

Açar sözlər: Nizami, türkcə "Divan", Qahirə, Nizami Qaramanlı, Hüseyn Şərqi Soytürk
Ключевые слова: Низами, «Дивани-тюрки», Каир, Низами Караманлы, Гусейн Шарги Сойтюрк
Keywords: Nizami, "Divani-Turkish", Cairo, Nizami Karamanli, Hussein Sarkis Soyturk

Nizami Gəncəvinin bütün məlum əsərləri fars dilində yazılmışdır. Nizami bu əsərlərdə hər yerdə dünya və insan adından söhbət açır, ümumi insani dəyərlərdən danışır. Eyni zamanda, şair əsərlərində bir türk qüruru nümayiş etdirir. "Xosrov və Şirin" dastanının ideal qəhrəmanları olan Məhinbanu və Şirini bir Bərdə əhli kimi, bir Azərbaycan türkü kimi təqdim edir, onların özlərinin dililə qürurla Əfrasiyab varisi olduqlarını bəyan edir. "İskəndərnamə"də böyük fateh İskəndəri Bərdəli Azərbaycan hökmdarı Nüşabənin ayağına gətirir. İskəndərlə rəftarında, fikirlərində Nüşabə özünü kamil bir dövlət adamı kimi aparır. Tarixi arxetipi Atropatena hökmdarı Atropat olan Çin xaqanı timsalında yenə kamil bir hökmdar surəti yaradılır. Həmin Çin xaqanı Əfrasiyab varisi, türklərin başçısı, Turan torpağının sahibi adlandırılır və Çin sözü Turan sözünün sinonimi kimi işlənir. Bu epizodda şairin təsvir etdiyi bir məqamda "keçmiş adamlar doğru demişlər ki, çinlilərdə (yəni türklərdə - X.Y.) əhd və vəfa yoxdur" sözləri ilə türkə, o cümlədən Azərbaycan türklərinə əyri baxanların mövqeyi məsxərəyə qoyulmuşdur. Bu cür məqamların əsasında Azərbaycan alimləri düşünürlər ki, dahi şair özünün doğma ana dilində də, yəqin ki, şeirlər yazmışdır.

H.Araslı, M.Arif, M.Quluzadə, Ə.Mübariz, Ə.Ağayev, R.Azadə və digər alimlərimiz bu haqlı mülazəyə tərəfdar çıxmışlar.

Misirin Xədiviyyə kitabxanasında Nizami divanı adlı bir əlyazması saxlanılmaqdadır. Bu divan haqqında xəbər tutan Səid Nəfisi onun farsca olduğunu düşünüb (6.131). 1935-ci ildə həmin divanın surətini əldə edən V.Dəstgirdi "Ərməğan" jurnalında "Nezamiye-türk" adlı bir məqalə dərc edərək onun müəllifinin Nizami Gəncəvi deyil, XV əsrdə yaşamış Nizami təxəllüslü bir türk şairi olduğunu yazmışdır (3.326-328). Məsələ burasındadır ki, vaxtilə Helmi Dağıstani Qahirənin Osmaniyyə mətbəəsində çap olunan kataloqda yazır: "Talifi əl movla Nizaməddin Əbu Məhəmməd Cəmaləddin Yusif ben Müəyyəd əl-Gəncəvi əl-Uveysi. Vəfatı 597-ci il" (4.6). Həm də şeirlərin türkcə olduğunu qeyd edir.

"Azərbaycan müəllimi" qəzetinin 7 oktyabr 1981-ci il tarixli nömrəsində Əbülfəzl Hüseyni "Nizaminin ana dilində şeirləri" adlı bir məqalə dərc etdirmiş və cünglərdən topladığı üç qəzəl və bir beyti Nizaminin Azərbaycan dilində yazılmış əsərləri kimi təqdim etmişdir. Bu sətirlərin müəllifi "Kirovabad kommunisti" qəzetinin 12 yanvar 1982-ci il tarixli sayında bu məqaləyə cavab yazaraq, fikrin doğru olmadığını, həmin şeirlərin Qaramanlı Nizaminin 1974-cü ildə Ankarada çap olunan "Divan"ında da olduğunu nəzərə çatdırmışdır. Qeyd etdik ki, bu şeirlər Qaramanlı Nizaminindir və onun divanının bütün əlyazma nüsxələrində vardır. Onun müləmmə qəzəlinə onlarla türk şairi nəzirə yazmışdır. Həmin məqalə belə sözlərlə qurtarırdı: "Qaramanlı Nizaminin şeirlərinin Nizaminin adına çap edilməsi, əlbəttə, təəssüf doğurur. Nizami Gəncəvinin heç kəsin şeirinə ehtiyacı yoxdur. Bu poeziya elə bir ümmandır ki, zorla ona daxil edilən hər bir damla yad görünür. Gəlin bu böyük sənət ümmanının saflığını, əzəmətini qoruyaq, özgənin əsərlərini onun adına çıxmayaq".

Son vaxtlar Dr. Hüseyn Şərqinin israrla, uydurma dəlillərlə Qaramanlı Nizaminin bəzi şeirlərini götürüb Nizami Gəncəvi əsəri kimi nəşr etməsi, bunu sübuta çalışması təəssüf doğurur. Çünki onun nəşr etdirdiyi şeirlərin heç biri Nizami Gəncəvinin deyildir. "Nərgiz" rədifli qəsidəni götürək. Bu qəsidənin məmduhu Məhəmməd xan adlandırılır. Türk sultanları özlərini xan adlandırmağı, xan deyə mədh olunmalarını xoşlamışlar. Nizami "Xəmsə"də heç bir yerdə Məhəmməd Cahan Pəhlivanı xan adlandırmır. Ancaq türk ədəbiyyatında sultanların xan adlandırılmağı bir ənənədir. Və "Nərgiz" qəsidəsində işlənən "Məhəmməd xan" və "Şahi-müzəffər" sözləri ancaq və ancaq Sultan Məhəmməd Fatehə işarədir. Şeirin qafiyəsinə uyğun olaraq fateh sözü müzəffər sözü ilə əvəzlənmişdir.

Xatırladaq ki, XV yüzil Azərbaycan şairi Hamidi də Sultan Məhəmməd Fatehi Məhəmməd xan deyə mədh etmişdir. Onun farsca yazdığı "Süniyyə" qəsidəsindən aşağıdakı beyti xatırlamaq kifayətdir.

Şəhe ali nəsəb Soltan Məhəmməd xan müine-din
Ke gəşt əflak ba əncom berəğbət bəndefərmanəş.

(7.117)

Bu faktlar Məhəmməd xan deyə mədh olunan məmduhun Sultan Məhəmməd Fateh olduğunu göstərir.

Səncər və Toğrul adı işlənən şeiri də Hüseyn Şərqi qəribə bir məntiqlə Nizami Gəncəviyə aid edir. Və guya Nizami Gəncəvi öz müasirləri olan hökmdarları mədh edir. O düzdür ki, burada adı çəkilən Səncər və Toğrul Nizami dövründə yaşamışlar. Ancaq Nizami Gəncəvi dövründə yaşamış bu adamları artıq başqa bir dövrdə yaşayan adam xatırlayır, məmduhunu onlara bənzədir. Hüseyn Şərqi bu şeiri Nizamiyə aid edərkən yəqin aşağıdakı beytlərə diqqət yetirməyib:

İzzü cəlal içində, fəzl ü kamal içində
Hər qul qapında Dara, hər qıl tənində Herkul.
Qullar kimi qapında tabun edərlər idi,
Bu əsrə qalsa, saha, şəh Səncər ilə Toğrul.

(4.54)

Şeirin müəllifi açıq şəkildə bəyan edir ki, Səncər və Toğrul çoxdan ölüb gediblər. Onlar bu əsrə qalsalar idi, qapında qul olardılar və bundan sonra məmduhunu bu əsrə qalmayan həmin Səncər və Toğrula bənzədərək mədh edir. Səncər və Toğrulu mədh etmir. Onlar bu əsrə qalmayıblar. Dara kimi onlar çoxdan ölüb gediblər.

"Sultan Camal" adlanan şeir də eyni məntiqsiz məntiqlə Nizami Gəncəvi adına yazılır. Halbuki elə şeirin əvvəlində yunan torpağını döyüşlə fəth edən bir hökmdardan danışılır. Dönə-dönə məmduh Xosrov, Sultan adlandırılır, İsgəndər və Süleymanla müqayisə olunur. Bu məmduh da yenə bizə görə Sultan Məhəmməd Fatehdir, Bəhram döyüşü ilə Yunan taxtını tutan odur.

Şeyxinin qəsidəsinə Qaramanlı Nizaminin cavabını da Nizami Gəncəvi adına yazmaq imkan xaricindədir. Nizami Gəncəvi Peyğəmbərə yazdığı nət və merac bəhslərində həzrət rəsuldan sonra ilk dörd xəlifəni xatırlmaqdan o yana keçmir. Burda isə Şeyxinin qəsidəsində olduğu kimi Həsən və Hüseyn yad edilir, Kərbəla hadisələri xatırlanır. Nizami Gəncəvi də, o zamankı Gəncə əhalisi də sünni olub, islamın parçalanmasını istəməyib. Həm bu baxımdan, həm ümumi səviyyə cəhətdən Qaramanlı Nizami şeirlərini Nizami Gəncəvi adına yazmağı günah hesab edirik. Bu şeirlərdə Nizami Gəncəvi şeirinə məxsus fikir və sənət ecazkarlığı yoxdur.

Hüseyn Şərqinin Nizami Gəncəvi şeiri hesab etdiyi qəsidədə oxuyuruq:

Anları ki, kəvakibə təşbih edub dedin
Kim, bulur ehtida edən anlara iqtida.
Şərun sərabı süfrəsinin çar rüknüdür
Ol çarpa ki, anları həq qıldı müctəba.
Siddiq ki, oldu saniyi-əsneyn qarda,
Getmişdi sidq ilə yoluna canü dil fəda.
Faruq ki, etdi fərq xitabı səvabdan,
Əsfiyayi-əsfiya idi, ovliyayi-ovliya.
Osman ki, buldu gözləri nurun ilə nur,
Həm mədəni-əta idi, həm mənbəyi - həya.
Kimdir ki, vəsfi-zatını ədd edə Heydərin,
Həqqində lafəta ilə çon gəldi həl əta.
Nurun ikidir güli-bixarı – Mühəmmədi
Biri Həsən, biri Hüseyni – həsənliqa... (4.34-35)

Nizami Gəncəvi məsnəvilərində peyğəmbərin nəti bəhslərində son dörd misrada olanlar və ondan sonra gələnlər yoxdur və olması mümkün deyildir.. Ancaq XV əsr üçün, Qaramanlı Nizami mühiti üçün bu təbiidir və zəruridir.

"Çiraq" rədifli şeirdə belə bir beyt var:
Zahid cəmali-tələtini görmək istəməz,
Çün bibəsərdir, sənəma, bibəsər çiraq.

(4.59)

Zahidə bu cür yanaşma Nizami Gəncəvidə yoxdur və ola bilməz. Nizami Gəncəvi özü zahid idi. Atabəy Məhəmməd Cahan Pəhlivan onu saraya dəvət edən zaman Nizami iqdiş olduğunu, bal kimi şeirlər müəllifi, həm də zöhd əhli, zahid olduğunu səbəb göstərərək "mən tikandan məclis gülü olmaz" deyərək dəvətdən yayınır. 1190-cı ildə Qızıl Arslan onu görüşə dəvət edəndə isə Nizaminin gəlib çıxdığını eşidən Qızıl Arslan Nizaminin zöhd əhli olmasına hörmət əlaməti olaraq məclisdən şərab və musiqini yığışdırtdırır. Nizami bu hadisəni "Xosrov və Şirin" əsərinin sonunda böyük razılıqla dilə gətirir.

"Məxzənul-əsrar"dakı "Dastani-padşahi – zalim və zahid" hekayəsində isə Nizami zahidi doğru danışan ideal bir insan kimi təqdim edir. Nizami həmin hekayədə bir növ öz surətini yaradır. Çünki onun "Sirlər xəzinəsi" əsəri özü də dövrün simasını, necəliyini olduğu kimi əks etdirən bir güzgü idi. Məhz buna görə də bu şeir də, digərləri kimi heç cür Nizami Gəncəvi yaradıcılığının məhsulu ola bilməz.

Qaramanlı Nizami bir çoxları kimi Nizami Gəncəvi vurğunu olan, onun şərəfinə Nizami təxəllüsü götürən, ancaq o səviyyədə olmayan istedadlı bir sənətkardır. Onun şeirlərini Nizami Gəncəvi şeiri kimi təqdim etmək bizə görə daha çox Nizami Gəncəviyə, həm də Qaramanlı Nizamiyə hörmətsizlikdir. Helmi Dağıstaninin mexaniki bir səhvindən bəhrələnərək ucuzluğa getmək yanlışdır. Ola bilsin ki, nə vaxtsa Nizami Gəncəvinin həqiqətən azərbaycanca yazılmış şeirləri tapılacaq. Ancaq indiki halda Qaramanlı Nizami şeirlərinin bir neçəsini zorla Nizami Gəncəvi adına yazmağa çalışmaq yersiz və utancverici bir işdir.

Ədəbiyyat

1. X.Yusifli. Nizaminin lirikası. Bakı, 1968.
2. Səid Nəfisi. Həkim Nizami Gəncəvi.// "Ərməğan" jurnalı. Sal 5, şomare I-V.
3. Vəhid Dəstgirdi. Nizamiye-tork.// "Ərməğan" jurnalı. Tehran, 1314, №5.
4. Divani-Nizami Gəncəli. Türkcə (Azərbaycanca). Qəsidələr, Qəzəllər. Bakı, "Nurlar", 2006.
5. Dr. Hüseyn Şərqi Soytürk. Gəncəli Nizaminin türkcə divanına dair yeni kitabın nəşri. "Yazıçı. Nizami Gəncəvi". "Oğuz eli" qəzetinin ayrıca buraxılışı. Bakı, Aprel 2018. №1 (170), s. 47-49.
6. Nizami Gəncəvi. Divane-qəsaedo qəzəliyyat. Bekuşeşe-Səid Nəfisi. Tehran, 1338.
7. Külliyyat-i Divan-i Mevlana Hamidi. Prof. İ.H.Ertaylan nəşri. İstanbul, 1949.

Х.Юсифли

О произведениях Низами Гянджеви "написанных" на азербайджанском языке

Резюме

В каирской библиотеке «Дар-аль кютуб» Египта хранится рукописный «Диван» поэта Низами. Хелми Дагестани в свое время думал что этот «Диван» написанный на тюркском языке принадлежит Низами Гянджеви. На самом деле автором этого сборника стихов является Низами Караманлы, поэт из Коньи живший в XV веке. Стихи из этого «Диван»а содержатся и в других списках «Диван»а Караманлы в турецких библиотеках. Но некоторые любители поэзии Низами –

А.Гусейни, Г.Шарги, С.Ибрагимов и др. с большим усердием утверждают, что стихи содержащиеся в каирском списке «Диван»а Караманлы принадлежат Низами Гянджеви. Для этой цели приводят доводы далекие от истины и науки.

Они не видят, или не хотят видеть, что эти стихи не могут принадлежать перу великого Низами. В статье на основе некоторых фактов, имеющихся в каирском списке «Диван»а Низами Караманлы утверждается,что ни одно стихотворение этого сборника не может принадлежать Низами, но в них чувствуется влияние его поэзии.

X.Yusifli

About “works” of Nızamı Ganjavı in Azerbaijan language

Summary

In the state library of Egypt situated in Cairo, a manuscript entitled as “Nizami’s selected poems” is held. Helmi Daghestani identified in his catalog that the manuscript was written in Turkish language and it was written by Mohammed Jamaladdin Yusuf Benjayad al-Ganjavi. In fact, author of this manuscript is Karamanli Nizami who lived in 15th century. His poems from the manuscript are also can be seen in his other manuscripts held in the libraries of Turkey.

But some of the scholars of Azerbaijan (A. Hussein, H. Sarkis, S. Ibrahimov) insistently wrote that poems in the manuscript held in libraries of Cairo belong to Nizami Ganjavi. They give evidences far from science and reality to prove their ideas.

As they can’t read and understand poems from the manuscript properly, they thing that poems belong to Nizami Ganjavi. In the article it is proven that their conception is wrong by scientific evidences.

Rəyçi: Alxan Bayramoğlu
Filologiya elml'ri doktoru, professsor

SƏBA NAMAZOVA
filologiya üzrə fəlsəfə doktoru
Gəncə Dövlət Universiteti
seba8080@mail.ru

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNÜN PUBLİSİSTİKASI

Açar sözlər: Cümhuriyyət, publisistik yazı, ədəbi-bədii fikir, mətbuat, jurnal
Ключевые слова: Республика, публицистический очерк, литературно-художественная мысль, пресса, журнал
Key words: Republic, publicistic essay, literary and artistic thought, press, magazine

Cəmiyyətin həyatında irəliləyişə zəmin olan, ədəbi prosesi sürətləndirən önəmli faktorlardan biri də təbii ki, mətbuatdır. Ölkədə ictimai, siyasi, bədii fikrin formalaşmasında zaman-zaman mətbuat mühüm rol oynamış, onun əsl məramı milli düşüncəni istiqamətləndirməkdən ibarət olmuşdur.

Mətbuat ümummilli mədəniyyətin tərkib hissəsi kimi xalqın dünyagörüşünü, həyata baxışlarını, sosial-ictimai, mədəni proseslərə münasibəti özündə ehtiva edir. Mətbuatın cəmiyyətin ayrı-ayrı sferalarına güclü təsirinin nəticəsidir ki, o, dördüncü hakimiyyət kimi dəyərləndirilir.

XIX əsrin ortalarından etibarən dünyada baş verən ictimai-siyasi proseslər, onun ardınca XX əsrin əvvəllərinin qaynar siyasi mühiti, Rusiya imperiyasının daxilində və onun ucqarlarında yaşanan çoxsaylı hadisələr xalqların həyatında milli mənəvi oyanış meyillərinin geniş şəkildə intişar tapmasına səbəb olmuşdur. Bu ictimai-mədəni proseslər Azərbaycandan da yan keçməmiş, əksinə, daha geniş arealda özünü büruzə vermişdir. Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Səid və Cəlal Ünsizadə qardaşları, Məhəmməd ağa Şahtaxtlı, Əlimərdan bəy Topçubaşov, Əhməd bəy Ağaoğlu və başqa fikir nəhəngləri, milli ziyalılar xalqın mövcudluğunu qorumaq uğrunda mübarizə meydanına çıxdılar.

Məlumdur ki, zamanın sosial, siyasi faktorları bir yaradıcılıq sahəsi kimi publisistikanın bilavasitə önə çəkilməsini şərtləndirirdi. Azərbaycanın 1918-ci il mayın 28-də öz müstəqilliyini qazanmasında milli mətbuatın da nəzərəçarpacaq rolu xüsusi qeyd edilməlidir. Azərbaycan Xalq Cümhuriyyətinin liderlərinin siyasi fəaliyyətlərinin gerçəkləşdirilməsində mətbuatın misilsiz xidmətləri olduğu şəksizdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ümummilli platformadan çıxış edən "Azərbaycan" qəzetinin görkəmli publisist Üzeyir bəy Hacıbəyli tərəfindən nəşr edilməsi ictimai-

siyasi proseslərin milli mədəniyyətin inkişafı ilə nə qədər bağlı olduğuna ən bariz nümunədir.

Qeyd edək ki, dövrün publisistika nümunələri əsasən "Azərbaycan", "İstiqlal", "Bəsirət", "Açıq söz", "Övraqi-nəfisə", "Qurtuluş" və s. mətbuat orqanlarında dərc olunurdu. Millətin gələcək taleyi uğrunda mübarizəyə çağırış ruhu ilə seçilən publisistik yazılar Ə.Topçubaşov, Ə.Ağaoğlu, C.Hacıbəyli, N.Nərimanov, M.Məhəmmədzadə və başqa istedadlı qələm sahiblərinin yazılarında müzakirə mövzusuna çevrilmiş, onlar milli zəmində baş verən qırğınlarla əlaqədar bir sıra qəzet və jurnallarda silsilə məqalələr dərc etdirmişdilər.

1918-ci ilin 31 martınadək Azərbaycanda 15-ə qədər anadilli qəzet və jurnal çap olunmuşdu. Həmin dövrədək bütövlükdə nəşr olunmuş mətbu orqanların sayı 80-dən artıq idi.

İlk milli qəzetimiz olan "Əkinçi"nin nəşrindən 1918-ci ilin mayına qədərki zamanda 40 adda qəzet çıxmasına rəğmən, Azərbaycan Xalq Cümhuriyyəti dövründə onların sayı 200-ə yüksəlmişdi. Bu, hər şeydən əvvəl, demokratik dövlət quruculuğu, fikir azadlığının təmini istiqamətində aparılan uğurlu siyasətin nəticəsi idi. Digər önəmli faktor isə Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin əksəriyyətinin yaradıcılığı etibarilə jurnalist olmalarından mətbuatla bilavasitə bağlılıqlarından qaynaqlanırdı.

Dövrün mətbu nümunələrində xalqı düşündürən son dərəcə ciddi problemlərə yüksək həssaslıqla yanaşılır, zamanın axarında həllivacib olan məsələlərə daha çox publisistik yazılarda yer ayrılır, suverenlik, azadlıq, türkçülük ideyaları təbliğ edilirdi.

Bu baxımdan "Açıq söz" qəzetinin 4 yanvar 1918-ci il tarixli sayında da ilk dəfə Cümhuriyyətçilik fikirləri irəli sürülərək dövlətin təməl prinsipləri elan edilmişdi. Elə "Türkləşmək, islamlaşmaq və müasirləşmək" şüarının müdafiəsinə yönəlmiş fikirlər də bu qəzetin səhifələrində səsləndirilmişdi.

Azərbaycan tarixində böyük ictimai-siyasi hadisələrin baş verməsi ilə xarakterizə olunan həmin dönəmdə "İstiqlal Bəyannaməsi" elan edildi, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğu dünyaya bəyan olundu.

Siyasi həyatda son dərəcə ciddi problemlərin yaşandığı zamanda Bakı bolşevik-daşnak qüvvələrin nəzarətində idi. Stepan Şaumyanın rəhbərliyi altında Bakı Xalq Komissarları Sovetinin qvardiyası Bakı, Şamaxı, Quba, Salyan, Kürdəmir kimi əraziləri dağıdaraq Gəncəyə doğru üz tutmuşdu. Həmçinin, Zəngəzuru işğal etmiş və Qarabağa hücumlara başlayan mənfur Andranik Gəncəni ələ keçirmək üçün də plan hazırlayırdı.

O dövrdə Azərbaycan və Türkiyənin hərbi qüvvələrindən ibarət Qafqaz İslam Ordusu formalaşdırıldı və istiqlaliyyət uğrunda savaşlara başlanıldı.

Maraqlıdır ki, həmin vaxtlarda, yəni 1918-ci ilin yayında Qafqaz İslam Ordusunun komandanı Nuru paşanın siyasi müşaviri kimi Azərbaycana gəlmiş Əhməd bəy Ağaoğlu məhz Gəncədə "Türk sözü" adlı qəzeti nəşr etdirmiş [5, 76], hərbi əməliyyatlar şəraitində, ələlxüsus da maddi imkansızlıq üzündən bir-iki sayı çıxdıqdan sonra qəzet nəşrini dayandırmışdı.

Tiflisdən Gəncəyə köçürülən Milli Hökumət mətbəə işinin təşkilini də diqqətdə saxlamış və vaxtilə orada fəaliyyət göstərmiş bir sıra anadilli qəzetlərin nəşrini həyata keçirən mətbəələrin də Gəncəyə gətirilməsi qərarına gəlmişdi. Hətta, 1918-ci il sentyabrın 15-də Bakının azad olunması xəbərini də Gəncədə iki dildə nəşr olunmuş "Azərbaycan" qəzeti vermişdir.

"Azərbaycan" qəzetinin Gəncədə həftədə iki dəfə olmaqla dörd sayı işıq üzü görmüş, ilk sayı "Heyəti-idarə" imzası ilə çap edilmişdi. Qəzetin bu şəhərdə sonuncu sayı 1918-ci il sentyabrın 15-də nəşr edilmişdi. Dörd səhifə şəklində çıxan qəzetin dördüncü sayının 3 səhifəsi rus, bir səhifəsi isə Azərbaycan dilində idi.

"Azərbaycan" qəzetinin ilk nömrələrindəki yazıların hazırlanmasında, ümumən qəzetin nəşrinə davam edərək maddi çətinlikləri qismən də olsa aradan qaldırmasında Üzeyir və Ceyhun Hacıbəyli qardaşlarının, Şəfi bəy Rüstəmbəylinin xidmətləri xüsusi qeyd edilməlidir.

Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin Bakıda nəşr olunan ilk saylarında Qarabağda gedən uğurlu hərbi əməliyyatlarla bağlı xəbərlər, həmçinin bu məzmunda məqalələr də dərc olunurdu. Bakı nəşri dövründə qəzet ətrafına yeni yaradıcı qüvvələri cəlb etdi, onunla əməkdaşlıq etmək istəyən yazarların sayı durmadan artmağa başladı.

XX əsr ədəbi-bədii fikrinin ən tanınmış nümayəndələri "Azərbaycan" qəzeti ilə müntəzəm yaradıcılıq əlaqəsində olmuşlar. O sırada Məhəmməd Əmin Rəsulzadə, Üzeyir Hacıbəyli, Ceyhun Hacıbəyli, Əhməd Cavad, Əliabbas Müznib, Seyid Hüseyn, Əmin Abid, Əliyusif Rai, Əli Şövqi, Yusif Vəzir Çəmənzəminli və başqa görkəmli publisistlərin adlarını qürurla qeyd edə bilərik.

Qəzetə ayrı-ayrı vaxtlarda Üzeyir və Ceyhun Hacıbəylilər, Xəlil İbrahim, Şəfi bəy Rüstəmbəyli redaktorluq etmişlər. 1919-cu ildə Parisdə Versal Sülh Konfransında iştirak məqsədilə nümayəndə heyətinə üzv olan Ceyhun Hacıbəyli həmin səfərlə bağlı qəzetin 9 yanvar tarixli sayında belə yazmışdır:

"Vətən və millət uğrunda əlimdən gələni, xidməti və öhdəmə düşən vəzifəni qəzetimizin müdiri sifətilə ifadə məşğul ikən, vətən övladlarının xahiş və əmrinə müti olaraq cahan sülh konfransına göndərilməklə öhdəmə daha ağır və məsuliyyətli, lakin müqəddəs bir vəzifə düşür. Bu böyük xidməti möhtərəm arkadaşlarım ilə bərabər ifa üçün Avropaya getmək lazım

olduğuna görə qəzetə idarəsindən müvəqqəti olaraq ayrılıb əziz vətənimizin istiqlalı məsələsinin istədiyimiz yoldakı həlli hüsn ifasından asılı olaraq məsul vəzifəmiz haqqında var qüvvəmizlə çalışacağımızı əlavə etməyi və möhtərəm oxucularımıza kəlami-sidq və səmimiyyətlə xudahafiz deməyi özümə fərz bildim" [3].

"Azərbaycan" qəzetinin redaktorlarından olmuş Üzeyir Hacıbəylinin mətbu orqanın səhifələrində ölkənin ictimai-siyasi həyatına, istiqlalın qorunması uğrunda mübarizələrə, xain ermənilərin Qarabağda xalqımıza qarşı törətdikləri vəhşiliklərə dair xeyli sayda yazıları dərc edilmişdi.

Ümumən "Azərbaycan" qəzetinin mövzu dairəsi olduqca geniş idi. Burada Azərbaycanın bir suveren ölkə kimi ictimai-siyasi, mənəvi maraqlarını qorumaq yolunda apardığı mübarizəni əks etdirən çeşidli yazılara daha çox yer ayrılırdı. Bakı xəbərləri, baş məqalələr və rəsmi əmrlər, teleqraf xəbərləri, məhəllələrdən məktublar və məqalələr, mətbuat, teatr və musiqi, Qafqaziya xəbərləri və s. rubrikalar altında yazılar qəzetdə dərc olunmuşdu. Mətbu orqanın təkcə Bakıda deyil, bölgələrdə də müxbirləri fəaliyyət göstərirdilər. Bu isə baş verən hər bir ictimai-siyasi hadisəyə operativ münasibət bildirilməsinə şərait yaradırdı. Qəzetin nəşri dövründə bütövlükdə 522 sayı işıq üzü görmüşdür. Beynəlxalq aləmdə baş verən hadisələrin şərhinə, onlara dair obyektiv informasiyalara ətraflı yer verən qəzet dövlət orqanı olduğu üçün rəsmi sənədlərin nəşrini də proqramına daxil etmişdi.

Üzeyir Hacıbəyli Azərbaycanın suverenliyinə qarşı çıxan yeni qurulmuş dövlətin varlığına qəsd etmək istəyən qüvvələrə qarşı fikirlərini vaxtilə belə ifadə etmişdir:

"Gözlər var ki, dünənə qədər əsir və qul olan milləti bu gün azad və sərbəst görmək istəmirlər. Qulaqlar var ki, lal edilmiş bir millətin dilinin bu gün açılıb da söz söyləməsini eşitmək istəmirlər. Qəlblər var ki, bir əsrdən artıq məhkum qalan bir millətin bu gün müstəqil və azad olmasını qəbul etmək istəmirlər" [2].

Görkəmli publisist Yusif Vəzir Çəmənzəminli "Açıq söz" qəzetinin 20 noyabr 1917-ci il tarixli sayında dərc olunmuş məqaləsində türk millətinə hərarətlə müraciət ünvanlamışdı:

"Ey nəcib türk milləti, ayıl! Bu rəşadətli balalarını yad et. Şan və şövkət ilə ömür sürülməlidir. Köhnə rus məmurlarının çəkməsi altında tapdandığın kifayət edər. Ayılın, toplaşın! Rusiyanın siyasi həyatı yeni bir dairəyə girir. Rusiyada yaşayan millətlər üçün tarix yeni bir səhifə hazırlayır" [1].

Məhəmməd Əmin Rəsulzadə "İstiqlal" qəzetinin 31 may 1919-cu il tarixli sayında yer almış "Həşəmətli bir gün" adlı məqaləsində Azərbaycanın

istiqlalına qovuşduğu şanlı günlərə işarə edərək bütün varlığını bürümüş sevinc duyğularını qələmin dili bu cür çatdırmışdı:

"Bakı tarixinin bəlkə də bu ana qədər qeyd eləmədiyi bu böyük gündə bir çoxları kəndi-kəndinə:

- Əcəba, bu, uyğumudur?! – deyirdilər.

Əvət; bu, Azərbaycan tarixinin ən böyük həqiqətini təşkil edən gün o qədər xariqüləadə idi ki, uyğuya bənzəyirdi.

Fəqət bu həqiqəti bundan iki sənə əvvəl mayısın 28-ində şənliklər yapan xalq bugünkü kibi təsəvvür və xəyal etməmişdisə də, Azərbaycan şüarını ortaya atan firqəmiz istiqbalda böylə bir günə malik olacağımızı, heç şübhəsiz ki, təsəvvür eyləmişdi.

Müsavatçılar üçün bu gün ikili bayramdır: milli bayram, fikri bayram!" [4]

Əhməd Həmdi isə "Müstəqil Azərbaycan"ın 14 yanvar 1920-ci il tarixli sayında dərc olunmuş rəsmi bayram adlı yazısında Azərbaycan istiqlaliyyətinin dünyada qəbul və təsdiqindən doğan şadlıq hisslərini dilə gətirmişdi:

"Azərbaycan istiqlaliyyətinin ANTANTA tərəfindən qəbul və təsdiqi münasibətilə bu gün çəharşənbə – Yanvarın 14-ü rəsmi bayram elan edilmişdir.

Teleqraf və telefonlar ilə bütün Azrbaycana bu günün rəsmi bayram elan edildiyi xəbər verilmişdir" [6].

Göründüyü kimi, istər Azərbaycan Xalq Cümhuriyyətinə qədərki, istərsə də onun mövcudluğu dövründə görkəmli publisistlərimiz istiqlalın əldə olunması və möhkəmləndirilməsi yolunda fəal şəkildə mübarizə aparmış, bu istiqamətdə səylərini durmadan genişləndirmişlər. Məhəmməd Əmin Rəsulzadə, Üzeyir və Ceyhun Hacıbəylilər, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn və başqalarının təmsil olunduğu dövrün publisistikası mövcud ictimai-siyasi hadisələrə çevik və operativ müdaxiləsi ilə də diqqəti cəlb edirdi.

Ədəbiyyat

1. "Açıq söz" qəz., 20 noyabr 1917
2. "Azərbaycan" qəz., 1918, № 56
3. "Azərbaycan" qəz., 9 yanvar 1919
4. "İstiqlal" qəz., 31 may 1919
5. Məhəmmədzadə M. Azərbaycan türk mətbuatı. Ərəb əlifbasından çevirib tərtib edən, ön söz, lüğət və qeydlərin müəllifi: filologiya elmləri

doktoru Alxan Bayram oğlu Məmmədov. Bakı, Bakı Universiteti nəşriyyatı, 2004, 84 səh.
6. “Müstəqil Azərbaycan”qəz., 14 yanvar 1920

С.Намазова

Публицистика периода Азербайджанской Демократической Республики

Резюме

Публицистика периода Республики отличалась широтой и разнообразием тематики. В таких печатных органах как «Азербайджан», «Истиглал», «Иттихад», «Эль», «Догру йол», «Миллет», «Мектеб», «Тюрк сёзу», «Басират», «Ачыг сёз», «Овраги-нафисе», «Гуртулуш» и др. публиковались многочисленные статьи, влияющие на общественное мнение.

Публицистическое творчество У.Гаджибейли, М.А.Расулзаде, М.Шахтахлы, Ю.В.Чеменземенли, С.Гусейна, М.Рафизаде и других было новым по форме и содержанию, отражало важнейшие события времени.

С этой точки зрения можно сказать, что в 1918-1920-х годах в сфере идеологической борьбы Азербайджана периодическая печать стояла в передних рядах, национальная публицистика обогащалась тематически и идеологически, в различных статьях смело затрагивались судьбоносные вопросы относительно будущего народа. По этому поводу приходит к месту мысль о том, что «Пресса стала одним из сильнейших факторов в процессе социокультурного возрождения и прогресса азербайджанского тюркизма». Пресса в период Азербайджанской Демократической Республики сыграла важную роль в формировании общественно-политической и литературно-художественной мысли, посредством публицистики указала народу правильный путь.

S.Namazova

Publicism of the Azerbaijan Democratic Republic's period

Summary

Publicism of the Republic period differed in breadth and variety of topics. Numerous articles affecting public opinion had been published in such newspapers as "Azerbaijan", "Istiglal", "Ittihad", "El", "Doghru yol", "Millet", "Mekteb", "Turk sozu", "Basirat", "Achig soz", "Ovragi-nafise","Gurtulush" and others.

Reflecting the most important events of the time, U.Hajibeyli, M.A. Rasulzade, M.Shakhtakhly, Yu.V.Czemenzelili, S.Huseyn, M.Rafizade and others' publicistic creativity were new in form and content.

From this point of view, it can be said that the periodical press was in the front ranks of Azerbaijan's ideological struggle in 1918-1920s, national publicism was enriched thematically and ideologically, and the fateful questions about the future of the people were boldly raised in various articles. On this occasion, the idea comes to the point that "The press has become one of the strongest factors in the process of social and cultural revival and progress of Azerbaijani Turkism". During the period of the Azerbaijan Democratic Republic the press played an important role in shaping sociopolitical and literary-artistic thought, and by means of publicism showed the people the right way.

Rəyçi: Asif Rüstəmli
Filologiya elmləri doktoru, professor

ŞƏBNƏM XƏLİLZADƏ
ADPU
xelilzade2016@inbox.ru

CON MAKSVEL KUTZENIN "BARBARLARI GÖZLƏYƏRKƏN" ROMANINDA IRQÇILIYIN IFŞASI

Açar sözlər: barbar, irqçilik, imperatorluq, Cənubi Afrika, alleqorik üslub
Key words: barbarian, racism, emperorship, South Africa, allegorical style
Ключевые слова: варвар,расизм, империя, Южная Африка, аллегорический стиль

2003-cü il Nobel ədəbiyyat mükafatı sahibi C.M.Kutze,əsərlərində alleqorik üslubda yazmağı seçən və müvəffəqiyyətlə bunu həyata keçirən bir yazıçıdır. Buna görə də onun romanları həm qapalı və sonlu, həm də açıq və sonsuzdur. Romanlarının bu xüsusiyyətinə görə onları Kafkanın romanlarına da bənzətmək mümkündür. Kutze bildirirdi ki, "vəhşilik, irqçilik" bir çox digər Afrika yazıçılarının əsərlərində qara bir sehri, gücü təmsil edir. [1,s.363]Kutze romanlarında bir tərəfdən irqçi rejimlər və kapitalizmə qarşı insandakı yadlaşmadan, özgələşmədən bəhs edərkən,digər tərəfdən də qaçış, qurtuluş yolunu axtarmağa cəhd edir. Demək olar ki, bütün əsərlərində Kutze irqi ayrıseçkiliyin və müstəmləkəçiliyin pəncəsində olan Cənubi Afrika həqiqətlərini işıqlandırmağa çalışmış, hər hansı bir fərdin cəmiyyət daxilində özgələşməsinin, ümidsizliyinin, çarəsizliyinin dərinliklərinə doğru irəliləmişdir. [2,s.87] 1940 – cı ildə Cənubi Afrikanın Keyptaun şəhərində anadan olan Kutzenin ailəsi 17-ci əsrdə Cənubi Afrikaya köç edən ilk Hollandiyalı immiqrantlardan hesab olunur. Yazdığı bir çox romanlar onun Buker ve Nobel mükafatına layiq görülməsinə səbəb olmuşdur. Bir çox məsələləri – özgələşməni, tənhalığı, özünütəcridi, irqçiliyi,məzlum – zalım münasibətlərini işıqlandıran Kutze "Gənclik", "Romancının romanı", "Rüsvayçılıq", "Barbarları gözləyərkən" və.s romanların müəllifidir.

Kutzenin "Barbarları gözləyərkən" romanı 1980-cı ildə nəşr edilmişdir. Bu romanda xəyali bir imperatorluqda baş verən hadisələr, sərhəddə yerləşən bir qəsəbənin hakimiyyətini ələ alan bir hakimin gözündən dilə gətirilir. Romanda Cənubi Afrikada insanlara edilən haqsızlıqlara da yer verilmişdir.Hekayə sərhəddə yerləşən bir qəsəbənin liderliyini ələ almış, adı bəlli olmayan bir "Sülh hakimi"nin dilindən oxucuya çatdırılır. Hakimin vəzifəsi, imperatorluqda gəlirləri toplamaq, həbsxanalara baş çəkib yoxlanış aparmaq və cinayət işləyən "barbarları" cəzalandırmaqdır.

Bir gün, həbsxanaya heyvan oğurluğu etmiş biri uşaq olmaqla üç nəfər gətirilir. Onları sorğu-sual edərkən uşaq edilən işgəncələrə dözə bilmir

və hər şeyi etiraf edir və barbarların imperatorluğa qarşı bir üsyana hazışlaşdırdığını bildirir. Həbsxananın ən səlahiyyətli zabitlərindən biri olan Col, üsyanın qarşısını almaq üçün barbarların yaşadığı bir neçə yerə basqın həyata keçirir və həbsxanaya bir neçə dustaq gətirirlər. Hakim də həmin dustaqların vəziyyətini, onlara edilən davranışların, həbsxanalardaki onlar üçün olan şəraitin şahidi olduqdan sonra bunlara qarşı çıxmağa çalışır, lakin əlindən heç bir şey gəlmir. Bu hadisələrə göz yumduğu üçün özünü günahlandırır. Bütün bu hadisələr qarşısında hakim işinə qarşı olan məsuliyyət hissi ilə vicdanı arasında qalır. İnsanların heç bir günahı olmadığı halda cəzalandırmalarına, edam edilmələrinə bir məna verə bilmir.

Əsər boyunca sivilizasiya və barbarizm arasındakı fərqlər İmperatorluğun ortaya qoyduğu parametrlər əsasında formalaşır. Barbarları insanlara düşmən, özgəsi kimi tanıtmaqla, İmperstorluq öz gücünü, eləcə də dəyərlərini gözlər önünə sərməyə çalışmışdır. [5,s.25]

Ironik olaraq, Kutze imeratorluğun timsalında "vəhşiliyin,işgəncənin " sürətini yaratmağa cəhd etmişdir.[4,s.120]

Bu əsərində Kutze insanlığa dair bir çox dərslər vermiş və bildirmişdir ki, işgəncə hər zaman özünü haqlı çıxarmağa çalışan, insanlara təzyiq göstərməyə cəhd edən bir rejimin özünü qorumaq məqsədi ilə həyata keçirdiyi insanlıqdan kənar bir hərəkətdir. Zabitlər, əsgərlər və Hakim arasındakı qarşıdurmanın səbəbi də budur. Hakim işgəncə görmüş bir qıza aşiq olur və o qızın başına nələr gəldiyini öyrənir. Bu hadisədən sonra illərcə insanlara edilən bu təzyiqlərə, işgəncələrə səssiz qalmış olsa da, insnalıqdan kənar rəftar və işgəncələrə məruz qalmış birini görmək, onun yaşadıqlarını xəyal etmək Hakimi öz vəzifəsinə və impertorluğa qarşı çıxmağa, xəyanət etməyə məcbur edir. Kutze bu sevgi hekayəsi ilə, işgəncəyə məruz qalanların da insan olduqlarını və duyguya sahib olduqlarını oxucuya çatdıra bilmişdir.

Digər tərəfdən, kitabın adında da bir simvol olduğunu əsəri oxuduqca dərk edirik. Barbarlar qəsəbədə baş verən bütün hadisələrdə günahkar kimi qələmə verilir,lakin onlar əsər boyunca görünməz olaraq qalır. Əslində barbar deyilən bir kimsə yoxdur, heç kim onları görməmişdir. Barbar anlayışı, imperatorluq tərəfindən ortaya atılan və etdiyi bütün işgəncələrə, zülmlərə qarşı uydurduğu bir bəhanədir. 17-ci əsrdən 20-ci əsrə qədər davam edən müddət ərzində, müstəmləkələrin bir çoxunun müstəqillik qazanması ilə bu "barbarlıq" sona çatmış kimi görünsə də, əslində "demokratiya", "terror" kimi daha fərqli bəhanələr adı altında günümüzə qədər gəlib çatmışdır.

Kutze bu roman ilə göstərməyə çalışmışdır ki, böyük,hökmranlıq edən dövlətlər insanlar üçün əsrlər boyu qan, kədər və gözyaşı olmuşdur və olmağa da davam edəcəkdir. Ona görə də bu yazıçı tərəfindən realist bir dünyagörüşlə nəzərə çatdırılan, keçmişdə yaşanılan zülmlərə olduğu kimi,

gələcəkdə yaşanılacaq zülmlərə də bir işarədir. Barbarlar heçvaxt gəlməyəcək, lakin biriləri hərzaman barbar olaraq adlandırılmağa və əzab çəkməyə davam edəcəkdir.

Yuxarıda qeyd etdiyimiz kimi, Kutze alleqorik üslubda yazan yazıçılardandır. İllərcə hakim vəzifəsində işləyən bir insanın zamanla içində dəyişən duyğuları, qurbanlara qarşı bir simpatiya duymağa başlaması və həbsxanaya düşdüyünü ələ alan şah əsəri "Barbarları gözləyərkən" əsəri əzən ilə əzilənin alleqoriyasıdır. Cənubi Afrikalı bir ağ dərili olsa da Kutzenin orada həyata keçirilən irqçi rejimə, şiddətə laqeyd qalması əlbəttəki mümkün deyildir.Kutzedən sonra Nobel mükafatı alan ikinci Cənubi Afrikalı ədəbiyyatçı Nadine Qordimer öz məqaləsində bildirmişdir ki, yazıçının alleqorik üslubu seçməsi başqa bir şeydir, alleqoriyanın yazıçını gəlib tapması tamamilə fərqli bir şeydir. İlkində qədim əfsanə, sehir kimi ünsürlərlə əlaqə kəsilir, yazıçı ilə mövzusu arasında məsafə, sərhəd ortaya çıxır. İkincidə isə alleqoriya, yazıçı tərəfindən şüurlu şəkildə istifadə edilən və kitab yazıldıqdan sonra orada yer alan mənaya işarədir. Kutzedə hər iki üslubda mövcuddur. Həqiqətlə uydurma arasında məsafə qoymaq məqsədi ilə istifadə etdiyi simvollar, əsərlərinə məna qazandırır. Qordemirin yazdığı kimi, "Barbarları gözləyərkən " adlı romanı şimal qütbüdürsə,əzablar içindəki qara dərili yazarların fəryadlarını, etirazlarını, səslənişlərini ifadə edən kitabları cənub qütbüdür.

Zabit Colun işgəncəsinə məruz qalmış insanlar arasında yaşlı bir insan ölmüş, yanındakı qızın ayaqları qırılmış, gözlərinə ucu isidilmiş bir çəngəlin basılması ilə kor edilmiş və küçəyə atılmış bu qıza hakim sahib çıxacaq,bütün qışı onunla biryerdə keçirəcək, onu bir körpə kimi əzizləyəcək və bir gün onu aid olduğu yerə-barbarların yanına aparmaq üçün yola düşəcək. Atların belə həlak olduğu bu səfərin nəticəsi olaraq hakim yazda başlanacaq müharibə haqqında məlumat verdiyi səbəbi ilə edam ediləcək.

Əsər boyunca Sülh hakimi Colun, Mandelin insanlara yaşatdığı iztirabları anlamağa çalışmışdır. Mandeli sorğu-suala çəkərkən hisslərini belə dilə gətirmişdir: "Mən yalnız sizi anlamağa çalışıram. Mən sizin yaşadığınız həyatı anlamağa çalışıram. Mən sizin necə nəfəs aldığınızı və ömür sürdüyünüzü təsəvvür etməyə çalışıram. Lakin mən bacarmıram." [3,s.126]

Bütün baş verən hadisələr hamısı uşaqların gözləri önündə baş verir. Hakim meydanda asılarkən çıxardığı səslərə uşaqlar gülməyə başlayır. Biri "Barbar yoldaşlarını çağırır,biri bu eşitdiyimiz barbar dilidir deyə istehza edirdi. Hakim isə dua edirdi. Ümid edirdi ki, uşaqlar böyüklərinin yollarını getməyəcəklər, yoxsa tez bir zamanda bu ağaclardan bir çox uşaqların cəsədləri asılacaq".

Beləliklə, əsərin baş qəhrəmanı – imperiyanın sərhəddində otuz il ömür sürmuş hakim, barbarların üsyana qalxıb hökmranlarına yaxşı dərs

verməyini arzu etsə də, əsərin sonunda öz seçimini edir və sivilizasiyadan imtina edərək, barbarlara yaxın bir həyat tərzi sürməyə başlayır. Beləliklə,o öz vicdanı ilə barışır, çünki sivilizasiyanın içində yaşamaq ona utanc gətirirdi.

Əsərin sonunda İmperatorluğun etdiyi haqsızlıqlarla mübarizə aparan Sülh hakimi bu hadisələr nəticəsində əldə etdiyi təcrübələrdən belə bir nəticəyə gəlmişdir: "Mən bu hadisələrdən kənarda yaşamaq istərdim. Mən heç vaxt barbarların İmperatorluğun təsiri altında yaşayacağı bir dövrü,tarixi arzu etmirəm." [3,s.169]

"Barbarları gözləyərkən" romanı cəmiyyəti nəzarət altında saxlamaq üçün uydurulmuş düşmənlərdən bəhs edir. Kutzee köləliyin psixologiyasını anlamağa, şüurun "yox" sözünü deməyə mane olan qanunlarını dərk etməyə çalışır. O, köləliklə könüllü itaət arasında böyük fərq olduğunu nəzərə çarpdırır. Kölelik insanı alçaldır, könüllü itaət isə ruhi yüksəliş, insanın öz üzərindəki zəhmətinin məhsuludur. Kölələr, üsyana boyun əyənlər isə öz mənəvi-əxlaqi seçimlərini edir və sakit vicdanla yaşayırlar. Zülmə məruz qalmış hər insan qul sayıla bilməz.

Ədəbiyyat siyahısı

1.Coetzee.J.M. Doubling the Point: Essays and Interviews. Edited by Attwell,Cambridge,Mass :Harvard UP.1992, p.438
2.Coetzee.J.M. South Africa and The Politics of Writing . p.160
3. Coetzee.J.M. Waiting for the Barbarians. Vintage ,Great britain, 2004,p.176
4. Moses, Michael Valdez. "The Mark Of Empire: Writing, History, And Torture In Coetzee's Waiting For The Barbarians." The Kenyon Review 15.1 (1993): 115-127. MLA International Bibliography. Web. 8 Dec. 2012. p.13
5. Mushtaq, Hammad. "Othering, Stereotyping And Hybridity In Fiction: A Postcolonial Analysis Of Conrad's Heart Of Darkness (1899) And Coetzee's Waiting For The Barbarians (1980)." Journal Of Language & Literature 3 (2010): 25-30. Humanities International Complete. Web. 9 Dec. 2012. p.6

Sh.Khalilzade

The discourse of racism in J.M.Coetzee novel "Waiting for Barbarians"

Summary

İn "Waiting for Barbarians", time of the event and the name of the country are not mentioned directly and these abstractions created a vague and elusive idea for the reader. This novel is set, in the political turmoil that South

Africa have suffered in the apartheid period. Although J.M. Coetzee has been criticized as being less straightforward and direct in his novels than other South African novelists, he has created characters and events that are parts of South Africa. The main heroine of the production is the thirty-year ruler of the Imperial, who is spitting up to the barbarous barbarians and dancing to the best of his own, and the end of the civilization is repelled to work and starts with the barbarians. So he was blessed with ten years of his life, and his life was awkward to civilization.The heroes and events that the author portraits relate with universal struggle between the oppressed/oppressor, the violator/violated, the torturer/tortured, the self/the other.

Ш.Халилзаде

Роскрытие расизма в романе Джон Максвел Кутзе «В ожидание варваров»

Резюме

В романе «В ожидание варваров» точное название страны и время события не названы. Абстракция произведения у читателей производит недопонимание. Роман написан и посвещен событиям во времена политического кризиса, рассизма в Южной Африки. Несмотря на авторов Южной Африки Д.М.Кутзе в своих романах всегда вражает всю ситуацию прямо и бывает частым объектом критики. В романе все события и образы происходят на маленьким участке Южной Африки.

Таким образом, главный герой произведения - тридцатилетний правитель Империи, желающий спуститься к мятежу варваров и дать хорошие уроки своим подданным, в конце работы отказывается от цивилизации и начинает жить рядом с варварами. Таким образом, он примирился со своей совестью, потому что жизнь в цивилизации была ему неловко.Автор романа описал события, которые произошли с героем: беспощадность агрессия и тирания, которые связаны с международной борьбой.

Rəyçi: Gülçöhrə Alıyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

AYŞƏN MƏMMƏDRZAYEVA
Bakı Şəhəri Ələt qəsəbəsi 110№li tam orta məktəbin direktor müavini

TARİXI ROMANLARDA ZAMAN DƏYİŞMƏSİ

Açar sözlər; tarixi, zaman, roman, obraz, xarakter, hadisə
Key words: history, time, novel, images, character,event
Ключевые слова: исторический, время, роман, характер, изображение, событие

Roman real həyatda baş vermiş hadisələrin yazıçı təxəyyülündə formalaşan və öz təxəyyülünə uyğun, ancaq reallıqdan uzaqlaşmayan gerçək həyatın bənzəri olan janrdır. Roman ədəbiyyatın elə bir janrıdır ki, burada həyatın açıqlanmayan tərəfləri qalmır. Bunun əsasında xalq dayanırsa, deməli, bu əsərdə əks olunan əsas obyekt xalqın özüdür. Müasir romanın da vəzifəsi budur. Yeni cəmiyyətin bədii təhlilini vermək. Xalqın görə bilmədiyi və ya görünməyən xüsusiyyətlərini açıb göstərərək, onları ayıltmaq, naqislikdən uzaq tutmaq. Roman yazan şəxs ilk öncə yazdığı romanda özünü təsvir etməlidir. Birbaşa iştirak etməsə də, öz varlığını əks etdirməlidir. Yəni öz idealı uğrunda çarpışan obraz yazıçının görmək istədiyini əks etdirdiyi üçün elə bir əsər yoxdur ki, orada yazıçının öz obrazı olmasın. Müasir dövr roman ədəbiyyatının digər bir faktı da var ki, cəmiyyətin inkişafı ilə əlaqədar olaraq daim dəyişir. Amma romanın elə növü var ki, burada dəyişiklik heç vaxt baş vermir ki, bu da tarixi romanlardır. Tarixi romanlarda tarixdəki hadisələr və ya tarixi şəxsiyyətlər haqqında yazılır. Burada yazıçı öz xəyal gücünü də istifadə edir. Tarixi romanlarda unutmamaq lazımdır ki, tarixi reallıq xəyali gerçəkiliklə dəyişdirilə bilər. Tarixi roman yazmaq üçün hər hansı bir tarixi faktdan istifadə etməklə davam edilir, amma burada yazıçı dəqiq faktlar üzərində qalmaq məcburiyyətində deyil. Tarixi faktlarda, əlbəttə ki, təsdiq olunmayan, dəqiqləşməyən, boşluq yaradan tərəflər var ki, bu roman yazıçı təxəyyülü öz ehtimalları və idrakı ilə həmin boşluqları doldurur. "Tarixin ən gözəli belə faktlardan əskikdir. Yarandığı gündən mücərrəddir"(7, s82). Yazıçı tarixi romanı yazarkən diqqət etdiyi faktlar çoxdur, lakin, keçmişin adət-ənənəsini, qanunlarını, yaşam tərzini olduğu kimi əsərə daxil edə bilməz. O, faktların içərisindən yalnız özünə gərəkli olanları seçir. Təkmilləşdirir, öz bədii fikirlərini də əlavə edib əsəri formalaşdırır. Tarixi romanda bədiilik özünü büruzə versə, onun əsasınsa tarixi reallıq dayanır. Yəni hər bir tarixi romanda keçmiş epoxanın təsviri mərkəzdə dayanır.

«Azərbaycan tarixi romanı son onillikdə özünəməxsus inkişaf yolu keçmiş, yeni mövzu, problematika və sənətkarlıq məziyyətləri ilə zənginləşmişdir. Xüsusən nəsrimizin son vaxtlaradək diqqət yetirmədiyi bir sıra mövzular son Müstəqillik dövrü Azərbaycan romanı dövrün ədəbi prosesində önəmli yer tutmuşdur. Sovet dövründə ədəbiyyatımızda toxunulması bir növ yasaq olan ayrı-ayrı mərhələlərin mühüm hadisələri və görkəmli şəxsiyyətləri indi artıq diqqət mərkəzinə çəkilmişdir» (1,s521). Müstəqillik dövründə bu yazılar kifayət qədər öz varlığını təsdiqləmişdir. Tarixi roman yazmaq üçün yazıçı əsasən nələrələ diqqətyetirməlidir? Yazıçı elmi yolla araşdırdığı, əmin olduğu tarixi faktlar üzərindən əsəri yazmalıdır. Bu zaman onun təhrifi oxucuda heç bir şübhə oyatmaz. Yazıçı tarixi roman yazarkən insan cəmiyyətinin keçmişdə vacib olan və yaşanmış bir zamanı canlandırır. Zaman da təhrif edilmiş vəziyyətdə əks olunmasına baxmayaraq, əsər tarixi əsər sayılır. Tarixi romanı tədqiq edərkən ədəbiyyatşünas, İ.P.Varfolomey tarixi romanın üç tipini müəyyənləşdirmişdir: 1-tarixi-realist, 2-tarixi-romantik, 3-tarixi-oçerkvari. Tənqidçi, ədəbiyyatşünas alim T.Salamoğlu tarixi romanı tədqiq edərkən daha iki tip haqqında da fikri söyləmişdir: "...Sənədlilik tarixi roman üçün şərtolsa da, zəruri olan tarixi dövrün ruhunu düzgün əks etdirməkdir. Sənətkar öz əsərində tarixi sənədlərə, hadisə və şəxsiyyətlərə müraciət etməyə bilər, lakin nəsərin məzmunu, məna və mahiyyəti tarixi dövrün ruhunu düzgün inikas edirsə, bu əsərləri də tarixi əsər adlandırmaq olar.

Beşinci tip: son dövrdə tarixi mövzuda yazılan əsərlərdə elə keyfiyyətlər özünü göstərir ki, bu tarixi romanın spesifikası ilə bağlı ənənəvi təsəvvürlərdən kənara çıxır və bu, janrdaxili təsnifatı zəruri edir." (10,s156) Bu tiplər özünü müxtəlif romanlarda müxtəlif şəkildə göstərir. Məsələn, F.Kərimzadənin "Xudafərin körpüsü" romanı tarixi-romantik tipə daha uyğundur. Çünki bu əsərdə tarixi faktlardan çox şair romantikasına uyğun yazılıb. Xətayi fəth etdiyi torpaqları döyüş gücünə deyil, əqli ilə fəth edir.

Son dövr ədəbiyyatında isə yeni bir forma inkişaf etməyə başlayır ki, bu tarixi romanlarda postmodernist düşüncələrdir. K.Abdullanın "Yarımçıq Əlyazma" tarixi əsərində bu tip tam anlamında özünü büruzə verir. Əsər demək olar ki, təhrif olunmuş, keçmiş zaman qanunları yeni qanunlarla əvəz edilmiş, köhnə dövrün insanları yeni qanunlarla həyat sürülər.

Tarixi romanlarda zaman anlayışı nədir? Türk ədəbiyyatşünası Mehmet Kaplan deyir: "Tarixi romanların nəql etdiyi hadisələri tarix kitabları yazmaz. Elmi dəyəri olan kitablar şəxsiyyətlərin şəxsi həyatından söz etməz. Ancaq yazıçı tarixi hadisələrə öz sənətkarlıq bacarığını da əlavə edər. Buna baxmayaraq tarixi bir roman oxuyarkən hadisələri davam etdirən qəhrəmanların yazıçı tərəfindən yaradıldığını bilsək belə yenə də onların reallıqda yaşamış kimi bizi ram etdiklərini görərik"(5,s296).

Bir yazıçı tarixi roman yazarkən tarixi hadisələri və görünüşü tarix elmindən fərqləndirərək yenidən yarada bilər. O, tarixi əsəri yazarkən belə fantastika yoluna üz tutur. Bu zaman yazıçı həm real hadisələri, həm də ola biləcək hadisələri əks etdirir. F.Kərimzadənin "Çaldıran döyüşü" əsərində yazıçı İsmayılın Ərdəbili fəth etməsi səhnəsini oxuyarkən görürük ki, yazıçı burada döyüş yoluna yox, sülh yoluna müraciət etmişdir. İsmayıl öz zəkası və Hüseyn Lələnin də köməyi ilə əraziləri fəth edir. Bu o demək deyil ki, əsəri yazarkən yazıçı tam öz təxəyyülünə əsasən işləməlidir, əksinə yazıçı dövrünün, həyatının, fərdi detallarını yazarkən tarixi mənbələrə müraciət etməlidir. "F.Kərimzadə yeni faktlar əsasında dövrün ziddiyyət və çətinliklərini, qızılbaş bayrağı altında tarixi mübarizənin məqsədini, köklərini müasirlik ruhu ilə təsvir etmiş, qaranlıq səhifələri kifayət qədər işıqlandırmışdır" (4,s14) Əlbəttə ki, döyüş səhnələri də əks olunur. İsmayılın qardaşı Sultanəli bəy döyüşdə ölür. Aləmşahbəyim xanım düşmən əlinə keçməməsi üçün intihar edir.

Hər roman qəhrəmanı yazıçının qəlbindəki saysız sayda olan şəxsiyyət obrazlarının tumurcuğundan yaranmışdır. İstər fantastik, istər kosmik, istərsə də tarixi əsər olsun fərqi yoxdur qəhrəman fərqli xarakterlərin həqiqi üzləridir. "Əsər istər söz, istər yazı ilə təqdim edilsin, o inşa edilmiş bir quruluşdur. Təbii olaraq, müəyyən edilmiş bir məqsəd üçün inşa edilən bu quruluş, zamandan asılı olaraq əsl dəyərini tapır və zaman daxilində dərk edilir." (8, s110)

Bədii əsərdəki müvəqqəti yer mövcud reallığı ehtiva edən aktual yer və qədim zamanlara enən tarixi yer şəklində ikiyə bölünməsi – hər şeydən əvvəl sosioloji bir faktdır. Hadisələrin yazılma zamanı da həmin zamanı özündə paralel şəkildə aparan vaxtdır. Bu əsərlərdə hər iki zaman real olsa da, yenə də dövrün baş vermis hadisələri kimi bunu dərk etməyə çalışan oxucu müvəqqəti zamanla hadisələrin zamanı hər üç zamanla bağlandığı üçün heç bir əsər mövcud zamandan məhrum deyildir. Necə ki hər üç zaman bir-birini heç zaman təsir etmir, əksinə bir-birini mənalandırır, eləcə də hadisələr də həmin zamana görə mənalandırılır.

Üstəlik yazıçı hadisələrin yaşandığı zamanı sadəcə il olaraq yox, ay, gün kimi də verə bilər. Hər cür hadisənin başında zamanı tarix olaraq günü ilə birlikdə mütləq bildirir. Məkanı ya da şəxsləri ikinci planda əks etdirsə də, zamanla bağlı boşluq buraxmamalıdır. Romanın əvvəlində, əsasən də, ilk cümləsində zamanı göstərməklə kifayətlənməyərək, hadisələrin gedişatında da tez-tez təkrarlanır. "Xudafərin körpüsü" əsərində tarix tam şəkildə göstərilməsə də, İsmayılın həbsxanadakı həyatı ilə başlayan roman onun XVI əsr hadisələrindən bəhs etdiyini açıq şəkildə ifadə etməkdədir. Beləliklə, digər başlıqları da oxuduqca zaman anlayışı ilə hərəkət edilsə, dövrün dövlət adamları və sosial görünüş yazıçı tərəfindən asanlıqla nəql edilir. "Aləmşahbəyim qalxdı. Yeddi yaşına qədəm qoymuş oğlu İsmayılın yumşaq, iti barmaqlarını ovcuna aldı, kiçik hücrənin qapısına getdi". (5,

s10) Bu cümlədən də göründüyü kimi əsərdə dəqiq zaman göstərilməmişdir, amma İsmayılın yaşı hadisələrin zamanını ifadə etməkdədir. Romanda hadisələr altı illik bir dövrü əhatə edir. Bu dövr böyük bir zamanı əhatə edir. Beləliklə, bu cür faktlar həmin dövrdəki hadisələrlə bərabər tarixləri də dolayısı yolla verilmişdir. Romanda təsvir olunan altı illik zamandan tək-tək yazmaq mümkün deyil. Bəzən hadisələrdən danışılarkən bəzi faktlar xatırlanır, burada keçmiş zamana nəzərən obraz öz keçmişini xatırlayır. Bu zaman da obrazın zamanı adlanır. Yazıçı bəzən geriyə dönməklə, bəzən də gələcəklə bağlı məlumatlar verməklə hadisələrdən uzaqlaşa da bilir. Amma bu faktlar sırf həmin tarixiliklə bağlıdır. Hadisələrin tərkibinə daxil edilən hekayələr, Aləmşahbəyimin keçmişi xatırlaması, Heydər bəyin uşaqlığı və s. ya da tarixi bilgilər, zamanın axışında kəsiklər yaradır. Və bu zaman yazıçı əsas ardıcıllığı pozmadan bu parçaları əsas mətnlə birləşdirməyi bacarmalıdır. Əks tədqirdə oxucu əsas hadisələrə ram olmuşkən əlavə hadisələr onu mətndən uzaqlaşdıra bilər. "Tarixilik elə bir kateqoriyadır ki, onun tələbləri mövzunun inkişafında, ideyanın açılışında, müəyyən məsələlərin qoyuluşunda və həllində olduğu kimi, dildə də gözlənilməlidir» (3, s1) "Xudafərin körpüsü" əsəri tarixi şəxsiyyəti, dövrün ictimai-siyasi vəziyyətini əks etdirmək baxımdan uğurlu əsər sayılsa da, tarixi xronologiyanın təhrifnə yol verilmə baxımından bir o qədər də uğurlu hesab oluna bilməz. Q.Xəlilov, V.Quliyev kimi təqdiqatçılar əsəri tədqiq edərkən tarixin uğurlu şəkildə qələmə alınması haqqında müsbət fikirlər söyləmişlər. "XV əsrin ikinci yarısını əhatə edən əlli illik bir zaman kəsiyinin hadisələrini xronoloji ardıcıllıqla romanın predmetinə çevirməklə F.Kərimzadə zamanın, dövrün ümumiləşmiş obrazını yaratmışdır".(5,167). Bu əsərdə altı illik bir tarixi hadisə elə əks olunmuşdur ki, sanki olaylar bir gün və ya bir neçə saat ərzində baş verir. Həm də zaman fasilələri də əsərdə hiss edilmir. Yuxarıda da qeyd etdiyimiz kimi əsər tarixi-romantik üsluba daha uyğundur. "Tarixi-tomantik tipin əsas dominant cəhətlərindən biri bədii şərtilikdən istifadəyə güclü meyildir. Bədii şərtiliyin tarixi-romantik romanlardakı məzmunu genişdir. Bu bədii təsvir və ifadə vasitələrindən tutmuş bədii zamana, məkana qədər, həmçinin süjet qurmanın prinsiplərini, inkişaf mexanizmini, bədii məzmunun çoxlaylılığını və ideya polifonizmini əhatə edir.(3, s171-172). Bədii zaman tarixi romanlarda, deməkolar ki, ən çətin tərəfdir. Çünki bu tip əsərləri yazarkən tarixlik üzərində zamanı nə dərəcədə əks etdirməyi bacarmalıdır ki, oxucu marağına səbəb olsun. Tariximn öz zamanı ilə dövrün zamanı sinxron şəkildə elə qurulmalıdır ki, bir-birini tamamlasın. Ş.İsmayıl haqqında tədqiqlər öz zamanını nə dərəcədə əks etdirməyi bacarıb? Əslində istənilən bir əsər üçün vaxt eyni şəkildə bölüşdürülür. Fərq onların real və qeyri-real olmasındadır. Tarixi-romantik romanlarda da bu hal özünü hiss olunacaq şəkildə büruzə vermir. Amma bunlara baxmayaraq "romanda tarixiliyin ümdə şərtlərindən biri obrazların münasibətlərində, hərəkət,əxlaq,

mənəviyyat və düşüncə tərzlərində təsvir predmeti kimi götürülən zamanın reallığının ciddi şəkildə nəzərə alınmasıdır”(10,s184)

Bəzən əsas zamanla əsərin yazılma zamanı qarışdırılır. Əsas hadisənin baş verdiyi zaman olduğu üçün, əslində, qarışıqlıq baş verməməlidir. Çünki hadisənin baş verməsi ilə onun dərk edilib qələmə alınması arasında kifayət qədər zaman keçir. Hadisələrin ardıcıllığı, vaxtı da bu zaman içində müəyyənləşdirilir. Hər yazıçı zamanı –hadisələrin zamanını istədiyi şəkildə əks etdirə bilər. Əsasən də, tarixi romanlarda xronoloji ardıcıllıq əsas fakt kimi götürülsə belə yazıçı sərbəstdir. Yəni əsərlər kiçiklikdən böyüklüyə doğru inkişaf edir. Amma əgər yazıçı öz yazmaq istedadına güvənirsə, o zaman bu ardıcıllığı geriyə doğru yaza bilər. Məsələn, Ə.Cəfərzadənin “Eldən-elə” əsərində zaman dəyişməsi müəyyən qədər baş vermişdir. Belə ki əsər yazılmış xatirələr əsasında sistemləşdirildiyi üçün əsər baş qəhrəmanın hadisələri yaşadıqdan sonra qələmə alınmışdır. Əsərin ilk hissəsi olan “Ziyarət” başlığında Zeynalabdinin beş yaşından səfərə çıxmasına qədər hadisələr əks olunub ki, bu da onun qeyd etdiyi xatirələri əsasında yazılıb. Deməli, “yazıçı sondan başlayaraq "geriye doğru", və ya ortadan başlayarak "geriyə və irəliyə doğru" gedə bilir”. Yazıçı əsəri yazarkən şahidi olduğu zaman əsərin baş verdiyi zamandan daha çox diqqət yetirə bilər. Amma bu tarixi romanlar üçün keçərli deyil. Çünki obraz tarixi şəxsiyyət olduğu üçün mütləq öz zamanının qoyduğu qanunları icra etməlidir. Amma elə bir yazıçı yoxdur ki, yaşadığı dövrdən təsirlənməsin. “Hər romançının əsəri istər öz zamanının məsələlərini yazsın, istərsə də bu məsələlər fildişi bir qülləyə qaçışı təmsil etsin, ya açıq şəkildə, ya da dolayı yolla yazıldığı zamanın sosial hadisələrin bir şərhidir” (9, s.232). Bu fikirlə Mendilov yazıçının dövründən nə dərəcədə təsirləndiyini ifadə edir. Zaman sürətlə irəliləyən və heç bir zaman durmayan bir vaxtdır ki, əsərə bunları tam şəkildə daxil etmək mümkün deyil.”Eldən-elə” əsərində həyatının otuz yeddi ilini səyahətdə keçirmiş bir şəxsin zamanını əsərə sığışdırmaq mümkün deyil. Bu zaman yazıçı hadisələri dəyərlədirməyi və əsasfaktalara daha çox üstünlük verməlidir. Çünki hadisələrin zamanı əsərin qələmə alınması zamanından daha çoxdur. Hadisələrin öz zamanı belə müxtəlif şəkildə ola bilər: hadisələr olduğu kimi, dəyişdirilmədən, qısaldılaraq və geniş şəkildə. Hadisələr olduğu kimi dəyişdirilmədən dedikdə tarixi romanlarda digər əsərlərdən fərqli olaraq zaman xronoloji ardıcılqla verilir. Əgər tarix göstərilməsə belə, hadisələr ardıcıl cərəyan edir. Ona görə də tarixi romanlarda zaman anlayışı digərlərindən fərqlənir. Qısaldılmış şəkildə nəql olunan tarixi romanlarda əsəri danışan şəxs tarixi romandakı ardıcıllığa əməl etmədən hadisələri nəql edir, bütün olanları əks etdirmək əvəzinə qısaldır, bəzi hadisələr əks olunmur, sadəcə əsas olanlar oxucuya çatdırılır. “Üçüncü gün günortadan

sonra qızılbaş qoşunu qalaya girdi və axşama yaxın Şirvanşahlar sarayı da, Qız qalası da onların əlində idi. Xəzinə də ələ keçmişdi. Qala qapıları taybatay açılmışdı İsmayıl Qızılqandın üstündə şəhərə girdi...”(10, s321). Bu ifadə onu göstərir ki, hadisələr qısaldılmışdır. Yazıçı bu müddət ərzində olanları ifadə etməyə ehtiyac duymamışdır. Çünki onun məqsədi Şah İsmayılın döyüş səhnələrini əks etdirmək deyil, İsmayılı bir şəxsiyyət kimi təqdim etməkdir. Deməli, yazıçı zaman qısaltmalarını bilərəkdən – düşünülmüş şəkildə həyata keçirir. Bu da onun əsəri yazmaq məqsədindən asılıdır. Üçüncü isə genişləndirilmiş zamandır. Qısaldılmış zamanın əksinə olaraq hadisələr bir neçə cümlə şəklində, ixtisarlarla deyil, daha geniş şəkildə, əlavələr də edilərək yazılır. “Xudafərin körpüsü”ndə bu səhnələr kifayət qədərdir. Bəzən hadisələrdə gələcəklə bağlı fikirlər belə göstərilə bilər. Zaman dayanır və keçmişdə olanlara geri dönən obraz xatirələrə dalır. Zaman əlavələri etməklə yazıçı əsəri genişləndirir. Tarixi romanlarda bu genişləndirmədə daha çox keçmiş zaman əks olunur. Çünki keçmişə qayıtmaqda yazıçının məqsədi əsərdə danışılan hadisənin keçmişini aydınlaşdırmaqdır. Tarixi romanlarda az təsadüf olunan bir zaman forması var ki, bu da akronik zamandır. Roman yazılarkən yazıçı bu günü keçmişə, keçmişi bu günə hətta gələcəyi belə əsərə daxil edir. Bu da, əlbəttə ki, yazıçının təxəyyülündən asılıdır. Deməli, zaman romanda əsas rola sahibdir. Digər müxtəlif mövzulu əsərlərdə bu xüsusiyyət özünü daha çox göstərir. Çünki akronik zaman qarışıq zamandır. Zaman istənilən şəkildə dövr edə bilər. Tarixi romanlarda az təsadüf olunan bu zamana az da olsa rast gəlinirsə, deməli, hadisə ilə yazıçı arasında uzun bir zaman mövcuddur.

Son dövr ədəbiyyatda baş verən dəyişikliklər, yəni postmodernizm cərəyanının inkişafı tarixi romanlardan da yan keçməmişdir. Bu cərəyan özünün qoyduğu qanunlar tarixi romanlara da təsir etmişdir. Belə ki K.Abdullanın “Yarımçıq əlyazma” əsərini buna nümunə göstərmək olar. “Kamal Abdullanın «Yarımçıq əlyazma» romanının əsas özəlliklərindən biri əsərin strukturu ilə bağlıdır. Romanda bir-biri ilə əlaqə və rabitəsi olmayan süjetlərin təqdim olunması və biri-digərini tamamlaması maraq doğurur. Belə ki, romanda birinci süjet xəttində «Kitabi-Dədə Qorqud» dastanının, ikinci süjet xəttində isə Şah İsmayıl Xətai dövrünün əks olunması arasında böyük bir za man kəsimi mövcuddur. Buna görə də təsvir olunan hadisələr istər zaman, istərsə də məzmun baxımından kəskin şəkildə fərqlənir”.(2, s5)

Nəticə. Bütün bunlara baxmayaraq tarixi romanlar bütün dövrlərin ən işlək mövzularından biri olmuş dur. Bu gün də bu mövzuya müraciət edilir. Ədəbiyyatın strukturxüsusiyyətləri dəyişsə də, yeganə dəyişməyən, əksinə daha da çoxalan mövzudur. Və hər zaman aktual olan zamandır. Ədəbiyyatda tarix və zaman oxucunun hər zaman rastlaşdığı və rastlaşacağı anlayışdır.

Ədəbiyyat siyahısı

1. Axundlu Yavuz. Azərbaycan tarixi romanı: məsələlər, problemlər. Bakı: Adiloğlu, 2005, 596 s
2. Əhməd Sami Eelaydi "Müstəqillik dövrü Azərbaycan romanı-mövzu, problematika və sənətkarlıq məsələləri" 1991-2005.

3. Hüseynov Tofiq. Tarixi roman ustası. Bakı: Yazıçı, 1986, 1
4. Kərimzadə F. (metodik vəsait) "Xalqa aşırımın o üzündəki həqiqəti göstərən sənətkar", Bakı 2017
5. Kərimzadə F. "Xudafərin körpüsü" , Çaşıoğlu,2007
6. International Journal of Social Science Volume 5 Issue 2, April 2012, s296.
7. Pamuk Orhan, Öteki renkler, İstanbul, İletişim yayınları, 1999
8. Roman sanatı , İstanbu1, 2001 s. 149-150.
9. Mendilow A.A., "Romanda Şimdiki Zaman", Roman Sanatı, Philip Stevick, çev. Sevim Kantarcıoğlu, Gazi Üniversitesi Yayınları, Ankara, 1988
10. Salamoğlu. T. "Ən yeni Azərbaycan ədəbiyyatı". Bakı - BQU-2008. s.232

A.Mammadrzayeva

Time change in historical novels

Summary

The concept of time in historical times has been examined in this article. There was a study of how time was shown in historical novels. The effects of past times on todays time have been studied, similar and distinctive features have been investigated. Historical novels also examine the history of the historical personality as well as the laws that time and the extent to which these laws influence the time.

In recent literature, a new form begins to develop, which is the postmodernist thought in the historical novels. In his "Incomplete Manuscripts" of K. Abldulin, this type of essence presents itself in its entirety. The work is almost distorted; the laws of the past are replaced by new laws; people of the old age live by new laws.

Historical novels in literature today have examined the change of time and the extent to which this change affects history. This study, we both historical novels and novels of the time, the concept of development in our literature review we try to

А.Мамедрзаева

Смена времени в исторических романах

Резюме

Концепция времени в историческом времени была рассмотрена в этой статье. Было исследование того, как время было показано в исторических романах. Влияние прошлых времен на сегодняшнее время было изучено, аналогичные и отличительные черты были исследованы. Исторические романы также исследуют историю исторической личности, а также законы того времени и степень, в которой эти законы влияют на время. Исторические романы в литературе сегодня исследуют изменение времени и степень, в которой это изменение влияет на историю.

В современной литературе начинает развиваться новая форма, которая является постмодернистской мыслью в исторических романах. В его «Неполных рукописях» К. Аблдулина этот тип сущности проявляется во всей полноте. Работа почти искажена, законы прошлого заменены новыми, люди старости живут по новым законам.

В этой статье мы попытались исследовать временное понятие романа и состояние исторических романов нашей литературе.

Rəyçi: Ramil Əliyev
Filologiya elmləri doktoru, professor

ŞƏFƏQ VƏLİYEVA
Bakı Mühəndislik Universiteti
sbabayeva@beu.edu.az

İLYAS ƏFƏNDİYEVİN ƏDƏBİ ÜSLUBU

Açar sözləri: Üslubi xüsusiyyət, dil, təhkiyə, təsvir, sosrealizm, yazıçı, fəaliyyət, ədəbiyyat.
Ключевые слова: особенность стиля, язык, пересказ, описание, соцреализм, деятельность, литература,
Key words: Style feature, language, retelling, depiction, sosrealism, writer, activity, literature.

Dünya ədəbiyyatı və mədəniyyət sahəsində yüksək zirvəyə qalxmış onlarla sənətkarların həyatı və yaradıcılıq təcrübəsi bir daha sübut edir ki, böyük ədiblərin, rəssam və bəstəkarların formalaşıb yetişməsində, öz xalqının qabaqcıl elm və mədəniyyət xadimi səviyyəsinə yüksəlməsində bir sıra mühüm həyati amillər həlledici rol oynamışdır. "Sənətkarı əhatə edən ictimai ədəbi mühitin bütün mürəkkəblik və çoxcəhətliliyini öyrənmədən, onun müasirləri ilə əlaqələrinin yerini və mövqeyini dəqiq müəyyən etmədən yazıçının formalaşma və inkişaf prosesini doğru-düzgün mənalandırmaq çətindir, bəlkə də mümkün deyildir". (Dos. Dr. Sədat Adıgözəl İ. Əfəndiyev, Zaman və sənətkar. Bakı. 2009.)

Yaratdığı əsərlərlə oxucunu düşündürmək, hisslərinə hakim kəsilmək, onu gözəlliklər aləminə çəkib aparmaq, haqq-ədalət uğrunda mübarizəyə ruhlandırmaq, həqiqətin tapılmasında hər kəsə yardımçı olmaq kimi ali keyfiyyətlər az-az qələm sahibinə nəsib olur. Dərin məna tutumu, ictimai fikrə hakim kəsilmək gücü ilə bir-birini tamamlayan, XX əsr Azərbaycan cəmiyyəti həyatının bütün sahələrini güzgü kimi əks etdirən aktual əsərləri ilə xalqın məhəbbətini qazanan İlyas Əfəndiyev belə xoşbəxt taleli sənətkarlardandır. Əlbəttə, İ.Əfəndiyevin bir gənc kimi yetişməsində, mütaliəyə, ədəbiyyata, elmə böyük maraq göstərməsində, hər şeydən əvvəl, ailə tərbiyəsinin, ata-ana ocağının çox mühüm təsiri olmuşdur. Lakin bu, həlledici səbəb olsa da yeganə amil deyildi. Yazıçının formalaşıb yetkinləşməsində, bir sənətkar kimi püxtələşməsində başqa amillər də olmuşdur ki, bunlardan oxuduğu və dərs dediyi məktəbin kollektivi, boya-başa çatdığı bölgənin ictimai-mədəni mühiti, gənclik illərində böyük həvəslə izlədiyi və maraqla mütaliə etdiyi "Qızıl Araz" adlı rayon qəzeti, Füzulidə fəaliyyət göstərən xalq teatrı, ali təhsil aldığı institut həyatı, işlədiyi "Yeni yol", "Kommunist" və "Ədəbiyyat qəzeti" redaksiyaları və ən nəhayət Bakı ədəbi mühiti, Yazıçılar İttifaqı çox böyük təsir göstərmişdir. Düzdür, bu

amillərin yazıçıya biri az, biri çox təsir etmişdir, lakin onların heç biri təsirsiz qalmamışdır.

Mövzu və üslub baxımından müasirlərindən seçilən yazıçı Azərbaycan ədəbiyyatında sosrealizmin bütün qaydalarının tənəzzül dövrü kimi bildiyimiz Yeni nəsrin qabaqcıllarından olmuşdur. Monoqrafiyada yazıçının fərdi üslubi xüsusiyyətlərinin və əsərlərindəki qəhrəman probleminin araşdırılmasının əsas səbəbi müasirlərindən bu cəhətdən ayrılması, seçilməsidir. Sosrealizm ədəbi metodunun müəyyənləşdirdiyi çərçivədə əsər yazmaq məcburiyyətində qalan yazıçılar konkret qəliblər daxilində məhdudlaşıb qaldıqları halda, İlyas Əfəndiyev xüsusilə fərdi üslubu ədəbi qəhrəmanları ilə bu qalibləri aşıb keçməyi bacara bilmişdir. İlyas Əfəndiyevin yazıb-yaratdığı dövrdə sosrealizmin prinsiplərindən kənara çıxdığı məqamlardan biri də əsərlərinin qəhrəmanlarını daxili aləm və psixoloji xüsusiyyətləri ilə vəhdətdə təsvir etməsidir. Bu daxili aləm qəhrəmanın sevinc, kədər və problemlərini əks etdirir. O, da bir insandır və hər insan kimi səhv edə bilər. İlyas Əfəndiyevin qəhrəmanları bütün tərəfləri etibarilə kamil insan deyillər. «Durna» hekayəsinin qadın qəhrəmanı olan eyni adlı obraz da daxili aləmindəki tələtümlərdən və ümidsizlikdən doğan bir anlıq ehtirasa qapılır, lakin sonradan özü də etdiyi səhvi başa düşür. «İndi «Altun taxta» səhərki kimi gülümsəmirdi. O, indi tutqun və qayğılı görünürdü. Lalələrin ahəstə yellənişində pərişan bir hal vardı... Otlayıb doymuş bir qulan başını dik tutaraq uzaqlara baxırdı... Qayalıqlarda bəzən bir kəklik ötürdü. Sonra hər şey yenə kədərli sükuta dalırdı. Kəklikotunun ətri havanı bürümüşdü. Bəzi otlar var ki, onların ətri nə qədər gözəl olsa da, yenə də könülaçıcı olmaz. Kəklikotu da belələrindəndir…»Durnanı birlikdə filmə çəkildikləri Sultana sığınmağa itələyən ruhi vəziyyət çox ustalıqla verilmişdir. Yazıçı qəhrəmanın əməllərinə haqq qazandırmağa çalışmır. Qəhrəmanın daxili aləmindəki ziddiyyətlərin, acizliklərin təsvir olunması baxımından «Durna» bu illərin ilk ədəbi örnəklərindəndir.

İlyas Əfəndiyev yeni nəsrin öndə gələn yazıçıları arasında əsər qəhrəmanlarının daxili aləmlərinin təsviri baxımından digər müəlliflərdən fərqlənir. Əmin Əfəndiyev yaçının bu xüsusiyyətini belə dəyərləndirir: «Bu dövrdə İlyas Əfəndiyevin ailə-məişət və əxlaq məsələlərinə həsr etdiyi hekayələrdə insanlar arasındakı yeni münasibətlər onların zəngin daxili aləmi yüksək ustalıqla öz bədii həllini tapmışdır». Sosrealizmin ən böyük məqsədlərindən biri yazıçıları eyni ideal ətrafında toplamaqdır. Bu eyni ideala xidmət yazıçıların fərdi üslubunun formalaşmasında ən böyük maneədir. «Sosrealizm ədəbi metodu yazıçılarımızın fərdi və qrup şəklindəki dağınıqlarını aradan qaldırmaqla onların hamısının eyni xətdəki birliyinə hərtərəfli imkan yaratmışdır...» (Vəli Osmanlí, «Azərbaycan ədəbiyyatında «Sosialist realizmin təşəkkülü və inkişafí» «Dil və ədəbiyyat jurnalı, 1970,

№ 3, s. 69.) Bu sitatdan məlum olduğu kimi, sosrealizm yazıçıların hər türlü birliyini yaratmağa çalışmaqla onlara ən böyük pisliyi etmişdir. Məzmun və forma cəhətdən onları müəyyən bir qəlibə salmaqla ədəbiyyatda fərdi üslubun itməsinə səbəb olmuşdur. Bu baxımdan İlyas Əfəndiyevin özünəməxsus bir yaradıcılıq üslubunun olması onu başqalarından ayırır.

İlyas Əfəndiyevin üslubi xüsusiyyətlərindən biri də bədii dilinin danışıq dilinə yaxınlığı, sadəliyi və axıcılığıdır. Dil baxımından onun əsərləri Azəri türkcəsinin ən yaxşı nümunələri arasında göstərilə bilər.

Yazıçının üslubi xüsusiyyətlərindən birincisi kimi folklorun onun əsərlərinə çox ciddi təzahürüdür. Şifahi xalq ədəbiyyatı elementləri yalnız məzmun və formada əks olunmur. Folklordan irəli gələn üslub sadəliyi, zəngin və canlı dil xüsusiyyətləri də bura aiddir. Onun bədii dili xalq danışıq dilinə çox yaxındır. Bu xüsusiyyəti ilə yazıçı Azəri türkcəsinin saflığının və gözəlliyinin qorunmasına da xidmät etmişdir. Bu səbəbdən Azəri türkcəsi dünyanın ən gözəl və saf dillərindən biridir. İnsanların, xüsusilə də gənclərin öz dillərini qoyub başqa dillərdə danışmağa həvəslənmələri və bunu bir yüksək mədəniyyət kimi qəbul etmələri yazıçını çox narahat edir. Milli şüur məsələsi ilə bağlı olaraq onu ən çox narahat edən məqamlardan biri xalq dili məsələsindəki həssaslığın itməsidir. O, Sovet hakimiyyəti illərində milli kimliklərini itirən və milli olan hər şeyi rədd edən insanları belə dəyərləndirir: «Bütün bunlar bu gün də bu və ya digər dərəcədə davam edən acı həqiqətlərdir. Məsələ burasındadır ki, yetmiş ildə rejim insanları dəhşətlər içində qorxuda-qorxuda mənəviyyatlarını kütləşdirmişdir. Şikəst mənəviyyatlı, zäif iradəli adamlar öz milli keçmişlərini, milli ləyaqtlərini itirmişlər. Onların varlığına köləlik psixologiyası hakim olurdu. Bəli! Düz buyurursunuz! Azərbaycan Oktyabrın yetişdirməsidir. Ondan qabaq bizim mədəniyyətimiz yoxdu...». İlyas Əfəndiyev Azəri türkcəsinin bütün gözəlliklərini və milli dəyərləri öndə tutaraq xalqa hakim ideologiyanın təzyiqi ilə İlyas Əfəndiyev unutmağa başladığı dəyərləri yenidən xatırlatmış və onların qorunub saxlanılmasında xüsusi xidmətləri olmuşdur.

İlyas Əfəndiyevin dil və təhkiyə ilə bağlı üslubi xüsusiyyətlərini aşağıdakı şəkildə sıralaya bilərik:

1) Yazıçının dilində təsvir sadəliyi olduqca mühüm əhəmiyyətə malikdir. Onun əsərlərində sənət xatirinə məzmunu «boğan» təsvirlərlə rastlaşmırıq. Təsvirlər məzmun bütövlüyünə uyğun olaraq lazımi yer və formalarda istifadə edilmişdir. Bu tərz yazıçının əsərlərindəki sadə dillə bütünləşərək təhkiyəni daha axıcı edir.

2) «Kənddən məktublar» kitabındakı bütün hekayələrdə yazıçının sadə bir dillə təmtəraqsız və qısa cümlələrlə vermək istədiyi məzmunu birbaşa oxucusuna çatdırma məqsədində olduğu görülür. Onun adı çəkilən bu ilk hekayə kitabındakı «Uxajor» adlı hekayəsi yazıçının özünəməxsus üslubi

xüsusiyyətlərindən xəbər verən ilk əsər kimi əhəmiyyətə malikdir. Bu hekayədə yazıçı təhkiyəçi kimi özünü gizləmir və bu, əsərə xələl gətirmir. Yazíçínín bir çox qısa həcmli hekayələrindəki kimi burada da oxucu ilə daha səmimi əlaqə yaratmağa meyllilik də müşahidə olunur. «Hələ mən sizə dostumun bir sirri haqqnda da danışmaq istəyirəm. Amma rica edirəm heç kəsin xəbəri olmasğn. Yavaşcadan qulağınıza pıçıldayım ki, dostum evlidir. Bəlkə, siz düşünəcəksiniz ki, Süleymanın arvadı qoca və yaxud çirkindir. Yox, əksinə! Həm cavan, həm də gözəldir. İyirmi yaşı ancaq ola bilər. O gözəl qızın nə cür ona ərə getdiyini bilmirəm. Bu, hələ indi də mənim üçün bir sirrdir». ».(İlyas Əfəndiyev, Seçilmiş əsərləri, «Uxajor» c. 1, Çinar-çap, Bakı, 2002, s. 95.)

Yazıçı «Söyüdlü arx» romanında təsviretmə üslubu ilə daha da axcılığa nail olmuşdur. Bu cür təsvir bütün romana aiddir. Dialoqlar arasına yerləşdirdiyi qsa, lakin açıqlayıcı təsvirlərlə geniş nəqletmə yaratmışdır. «Bu, iyirmi altı — iyirmi yeddi yaşlarnda qırmızı güllü basmadan qırmızı şalvar, qısa qollu paltar geyinmiş, qara saçlarını darayaraq ortadan ikiyə ayırmış, dikdaban ayaqqabılı, ətli-canli, «gəl məni gör, dərdimdən öl» bir gəlin idi».

İlyas Əfəndiyev «Üçatılan»da da eyni təhkiyə tərzini davam etdirmişdir. Buna görə də təsvirlər olduqca qısadır və məlumat xarakterlidir. Bakıdan kəndə dönən Nurinin təsviri Ərşadı qısqandıracaq tərzdədir. «Ərşada xəbər gətirdi ki, Hacının Bakıda oxuyan oğlu gəlib. Özünün də boynunda qırmızı bir xalta, ayaqlarında da arvad ayaqqabısı kimi işıldayan çəkmə...». (İ.Əfəndiyev, "Üçatılan",s.37)

«Durna» hekayəsində isə Durnanın müharibəyə gedən ərinin təsviri verilərkən böyük bir ustalıqla Eldarın görünüş və davranışları ilə Durnanın diqqətini çəkməsi qeyd edilir. «Eldarın gözəl, qonur gözlərinin məxmər kimi yumşaq, mülayim baxışları altında o, özünü ata-anasının himayəsinə sığınmış bir uşaq kimi məsud hiss edirdi». (İ. Əfəndiyev, "Durna",s. 3)

İlyas Əfəndiyevin bütün roman və hekaylərində təsvirlər, adətən, bu şəkildədir. Əsərlərində səhifələr dolusu, təhkiyədəki axıcılığı pozan, uzun-uzadı təsvirlər yoxdur. Yazıçının bədii dilindəki axıcılıq və gözəlliyin ən mühüm səbəblərindən biri budur.

3) İlyas Əfəndiyevin fərdi üslubunun ən mühüm xüsusiyyətlərindən biri şifahi xalq ədəbiyyatına məxsus təhkiyə tərzidir. Bundan başqa, folklor örnəklrinin İlyas Əfəndiyevin roman və hekayələrində xüsusi yeri vardır. Xüsusilə böyük həcmli əsərləri olan «Söyüdlü arx», «Körpüsalanlar», «Dağlar arxasında üç dost» romanları və «Üçatılan» povestində atalar sözləri, məsəllər, bayatılar təhkiyəyə xüsusi rəng qatır. Yazıçı əsərlərində təhkiyəyə zənginlik və məna genişliyi qazandrmaq üçün bayatı və mahnılardan da faydalanır. O, bayatı və xalq mahnılarından qəhrəmanların

duyğu və düşüncələrinin ifadəsində köməkçi vasitə kimi istifadə edir. Yazíçí «Körpüsalanlar» romanında xüsusilə sevgi səhnələrində, Səriyyə ilə Qəribcanın bir-birlərinə qarşı bəslədikləri duyğular dilə gətirilə bilinmədikdə bayatı və mahnılara müraciət edir:

Pəncərədən daş gəlir,
Ay bəri bax,bəri bax.
Xumar Gözdən yaş gəlir,
Ay bəri bax, bəri bax.

Ay dadaş,
Atma daş.
Mən yaralıyam,
Şəkinin, Şirvanın
Mən maralıyam.

«Sarıköynək və Valehin nağılı» adlı romanda da şifahi xalq ədəbiyyatının təsiri vardır. Azərbaycanda Novruz bayramının təsviri, bayramla bağlı adət-ənənələr, bayram şənliyində söylənilən xalq mahnıları romanda əks olunan folklor elementləridir.

4) İlyas Əfəndiyev dialoqlardan geniş istifadə etməklə əsərlərində mükalimə zənginliyi yaratmışdır. Yazıçı Azərbaycan ədəbiyyatında yalnız roman və hekayəlri ilə tanınmır. O, eyni zamanda usta bir dramaturqdur. Otuza yaxın dram əsəri olan müəllifin bu növdə gözəl yazıçılıq qabiliyyətinin olmasının səbəblərindən biri də dialoqlardan bacarıqla istifadə etməsidir. Bu baxımdan roman və povestləri heç bir dəyişiklik edilmədən səhnəyə qoyula biləcək xüsusiyyətlrə malikdir.

İlyas Əfəndiyev hekayələrində hadisələri adətən öz dilindən verir. Roman və povestlərində isə dialoqlardan istifadə etməklə təhkiyədə obrazları da danışdırır. Beləliklə də, əsərlər təhkiyə monotonluğundan çıxır. «Söyüdlü arx», «Körpüsalanlar» və «Üçatılan»da hadisələrin nəql edilməsi çox az kəsilir, yəni təhkiyəçinin (yazıçının özü və ya hər hansı bir obrazın) dialoqlarını tez-tez kəsdiklərini görmürük. Belə ki, əsərlərdə iki səhifə və ya daha çox olan və kəsilmədən davam edən dialoqlar mövcuddur.

«Söyüdlü arx» romanında dialoqların mühüm əhəmiyyəti vardır və onlar təhkiyənin bütövlüyünə xələl gətirmir. Təhkiyənin böyüklüyü dialoqlar ilə müəyyənləşir. Nuriyə ilə mədəniyyət evinin işçiləri arasındakı mükalimə romanın ən mühüm hissələrindəndir.

«- Durun, sizin kimləri nəzərdə tutduğunuzu mən söyləyim. Quzeylilər haqqında deyirsiniz.

- İnanclı adamlara halal olsun!

- Davam edin!
- Mən istəyirəm ki, biz işlərimizi yoluna qoyduqdan sonra Quzey qışlaşında mədəni inkişaf olsun».

«Üçatılan»da da Ərşadla rayonda yeni qurulan sistemin rəhbəri olan Veysəlin dialoqlari diqqəti cəlb edir.

«Rəis papiros qutusunu çıxarıb Ərşadın qabğına tutdu. Ərşad dedi:
- Çəkən döyüləm.
- Sənin vurduğun qaçaq, demək olar ki, tamam sağalıb. Ancaq o biri yoldaşlarını tapa bilmirik.
- Bəlkə, keçiblər o taya? Ərşad bir az fikirləşib dedi:
- Bilmək olmaz. Arazın yüz yerdən keçalatı var.»

«Söyüdlü arx» və «Üçatılan»dan təqdim etdiyimiz bu dialoqlar səhifələr boyu davam edir və təhkiyənin təbiiliyini pozmamaq üçün onların arası kəsilmir. Bütün bunlar da İlyas Əfəndiyevin fərdi üslubi xüsusiyyəti kimi diqqəti cəlb edir.

5) Yazıçının əsərlərində istifadə etdiyi dilin sadəliyi və xalq danışıq dilinə yaxınlığı da ona aid bir üslubi xüsusiyyət kimi qiymətləndirilə bilər. O, bütün əsərlərində danışıq dilinə yaxın saf bir Azəri türkcəsindən istifadə etmişdir.

İlyas Əfəndiyev dilin ona verdiyi bütün imkanlardan istifadə etmişdir. Yazıçının əsərlərində rusca ifadə və dialoqlar yox deyiləcək qədər azdır. Əsərlərinin böyük bir qismində məkan kimi diqqəti cəlb edən Qarabağ və Şuşaya məxsus şivə xüsusiyyətləri dialoqlarda geniş şəkildə istifadə edilmişdir. Tərəkəmələrin yaşam tərzləri təsvir edilən «Üçatılan»da onların ləhcəsindən dialoqlarda diqqəti cəlb edəcək səviyyədə yararlanılmışdır.

İlyas Əfəndiyev heç bir əsərində təmtəraqlı təhkiyəyə üstünlük vermşmişdir. Cümlələri qısa, lakin mənası dolğundur. Bu, yazıçının oxucu kütləsi baxımından çox əhəmiyyətlidir. O, dramatik və epik növ kimi güclü bir təhkiyə, nəqletmə bacarığı tələb edən əsərlərlə yanaşı, uşaq hekayələri də yazmışdır. Bu, onun geniş oxucu kütləsinə səslənə bilməsinin sübutudur. Həm uşaq hekayələrində, həm də romanlarında anlaşıqlılığa riayət etməsi yazıçıya aid bir xüsusiyyətdir.

Yazıçının həm uşaqlar üçün yazdığı hekayələrdən, həm də romanlarından götürülmüş sitatlar diqqətlə araşdırıldıqda onun hər iki janrda da eyni sadəliyi gözləməsi bir daha bəlli olur.

«Zəmidə bir turac səslənirdi»: «Bizim kəndin yaz axşamları gözəl olur. Kəndimizin yarım kilometrliyindən axan Quruçay şarıldayır, elə bil ki axıb gəldiyi qalın meşələrdən bizə qəribə əfsanələr hekayə edir. Qurbağalar aramla səslənir. Evimizin arxasındakı zəmidə isə bir turac dalbadal oxuyur:
Tut-du-du, tut-du-du,

Tut-du-du, tut-du-du». (İ. Əfəndiyev, Zəmidə bir turac səslənirdi, s. 163.)
«Ovçunun nağılı»: «Yayın son günləri idi. Meşəni ov üçün gəzib yorulmuşdum, həm də çox acmışdım. Bir tərəfdən də axşam düşürdü. Yerdə yatmaq, əlbəttə, qorxulu idi, buna görə də armud ağacına çıxdım. Yetişmiş armudlardan doyunca yedim. Sonra ağacın qalın bir yerində yerlşib uzandım. Belimdəki möhkəm qayış kəmərlə özümü ağaca bağladım. Məni yuxu tutdu». Bu sitatlar yazıçının uşaqlar üçün yazdığı hekayələrindən alınmışdır. Burada ifadə tərzinin və dilinin sadəliyi diqqəti cəlb edən ilk xüsusiyyətdir. Xalq əfsanələrini qələmə aldığı əsərlərdə də sanki o, bir folklor söyləyicisidir.

«Apardı sellər Saranı»: «Ölüm qanadlarını Gülnarın üzərinə gərdiyi zaman o, Soltanı yanına çağırıb, gözlərindən öpdü...
- Mən gedirəm, əzizim, dedi, - günlərinə qəm qatma, bu qoca dünya əzəldən bəri belədir...». 6) İlyas Əfəndiyev «Körpüsalanlar» və «Dağlar arxasında üç dost» romanlarında özünəməxsus təhkiyə üslubu yaratmşdır. Romanları başladığı təhkiyə tərzi ilə davam etdirmir. Belə bir təhkiyə forması oxucuya imkan verir ki, hadisələri fərqli bucaqlardan dəyərləndirsin və onlar haqqında müxtəlif şərhlər versin. «Körpüsalanlar» romanında təhkiyə əsrdəki müxtəlif obrazların dilindən verilir. Belə olan halda oxucu hadisəni fərqli adamların dilindən eşitmşk imkanı əldə edir. Romanda başqa qəhrəmanlar — Səriyyə, Adil və Qəribcan hadisələri oxucuya öz prizmalarndan təqdim edirlər.

«Dağlar arxasında üç dost» romanında da təhkiyə obrazın dünyagörüşü yazıçı tendensiyası ilə vəhdətdə verilir. Hadisələrin başlanğıcını nəql edən, obrazları oxucuya tanıdan və süjet xəttini, hər şeyi bilən mövqedə olan əsas təhkiyəçi — yazıçıdır.

«Sarıköynək ilə Valehin nağılı»nda yazıçı qəhrəmanlarını eyni zamanda təhkiyəçi kimi də vermişdir. Müəllif özü yalnız romanın son fəslində təhkiyəçidir. Bu fəsildə yazıçı təhkiyəçi olmasına baxmayaraq, əsas deyildir. O, görüb-eşitdiklərini oxucuya çatdıran müşahidəçi — tähkiyəçi mövqeyindədir. Bu romanda təhkiyəçilərin dəyişdikləri fəsil başlıqlarında şifahi xalq ədəbiyyatı söyləyicilərinin istifadə etdiyi ifadələr vardır. «Aldı Valeh», «Aldı Sarıköynək» kimi başlıqlar həm fəslin, həm də təhkiyəçinin dəyişdiyini oxucuya bildirir.

Beləliklə, sosialist realizmin ədəbi qaydalarının bütün sərtliyi ilə tətbiq olunduğu illərdə əsər qələmə alan İlyas Əfəndiyevin özünəməxsus bir üslub yaratdığını deyə bilərik. Təhkiyə, dil və mövzusuna görə müasirləri arasında fərqli bir mövqeyə malik olması yazıçılıq bacarığının və əsərlərinin sənətkarlıq baxmından nə qədər güclü olduğunun sübutudur.

Ədəbiyyat

1. Dos. Dr. Sədat Adıgözəl İ. Əfəndiyev, Zaman və sənətkar. Bakı. 2009.
2. İ. Əfəndiyev, «Durna», Qərçı və qırmızı çiçək, s. 8.
3. İ. Əfəndiyev, «Söyüdlü arx» s. 351.
4. İ. Əfəndiyev,«Üçatılan», s. 129.
5. İ. Əfəndiyev, Zəmidə bir turac səslənirdi, s. 163.
6. İ. Əfəndiyev, Apardı sellər Saranı, s. 122
7. İ. Əfəndiyev, Seçilmiş əsərləri, «Uxajor» c. 1, Çinar-çap, Bakı, 2002, s. 95.
8. İ. Əfəndiyev,«Qırçı və qırmızı çiçək», s. 171.
9. İ. Əfəndiyev,«Mənliyimiz və mədəniyyətimiz», Sən ey böyük Yaradan, s. 147.

Ш.Велиева

Литературный стиль Ильяса Ефендиева

Резюме

В статье рассматривается оценка социальных, национальных и моральных ценностей социализма, которые экономически и морально деградировали Ильясу Эфендиева. Писатель, выбранный с точки зрения темы и стиля, был одним из пионеров нового поколения, которое мы знаем как спад всех правил сореализма в азербайджанской литературе.

В монографии основной причиной исследования проблем индивидуального стиля и героев писателя является его отделение от современника. В рамках литературного метода сореализма писатели, которым приходилось писать произведения, были ограничены конкретными формами, в то время как Ильясу Эфендиеву удалось преодолеть эти паттерны своим личным стилем и литературными героями.

Герои писателя имеют схожие и отличительные черты с типом позитивного героя, которого он продиктовал социализмом. Герои Ильяса Афандиева важны с точки зрения раскрытия как литературных, так и литературных особенностей того периода. В статье описывается стиль писателя и языковые особенности писателя в определенных категориях. Простота рассказа, настойчивость, богатый смысл, диалог героев и язык публичных выступлений являются основными критериями его литературного стиля. Используя в своих работах элементы народной культуры. Он никогда не давал им чувства национального самосознания. Такая попытка будет означать, что работа его автора

закончится до того, как начнется В интервью и эссе, которые он написал после распада Советского Союза, он утверждал, что, несмотря на попытки преследовать его семью, он пытался жить в мире со структурой, но не раскрыл свои истинные чувства в своих работах в этот период.

Sh.Veliyeva

Ilyas Efendiyev's literary style
Summary

The article examines the evaluation of social, national and moral values of socialism, which are economically and morally degraded by Ilyas Efendiyev. The writer, chosen from the point of view of the theme and style, was one of the pioneers of the New Generation, which we know as the recession of all rules of sosrealism in Azerbaijani literature.

In the monograph, the main reason for investigating the writer's individual style and heroes' problems is his separation from the contemporary. In the framework of the literary method of Sosrealism, writers, who had to write works, were restricted to concrete molds, while Ilyas Efendiyev managed to overcome these patterns with his personal style and literary heroes.

The heroes of the writer have similar and distinctive features with the type of positive hero he dictated by socialism. Heroes of Ilyas Afandiyev are important in terms of revealing both his individual and literary peculiarities of the period. The article describes the writer's style and linguistic characteristics of the writer in certain categories. The simplicity of the story, the insistence, the rich meaning, the dialogue of the heroes and the public speaking language are the main criterion of his literary style. While using the elements of folk culture in his works. He never gave them a sense of national consciousness. Such an attempt would mean to end the creativity before it started. In the interviews and essays he wrote after the collapse of the Soviet Union, he claimed that despite trying to persecute his family, he tried to live in peace with the structure, that is he did not reveal his true feelings in his works during this period.

Rəyçi: Ətrabə Bayram qızı Gül
Filologiya üzrə fəlsəfə doktoru, dosent

İLHAMƏ BAXŞƏLIYEVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
b_ilhame88@yahoo.com

SOVET DÖVRÜ AZƏRBAYCAN ROMANINDA İLK ZİYALI OBRAZI

Açar sözlər: ziyalı obrazı, sosialist realizm ədəbiyyatı, inqilabi roman, milli xarakter, milli həqiqətlər.
Ключевые слова: *образ интеллигенции,* литература социалистического реализма, революционный роман,национальный характер,национальные истины.
Key words: *intellectual image,* socrealism literature, *revolutionary novel,* national character, national truths.

Azərbaycan nəsrində ziyalı obrazını ilk dəfə maarifçi romanlar aktuallaşdırmışdır. XIX əsrin sonları, XX əsrin əvvəllərində yaranmış ilk Azərbaycan romanları üçün səciyyəvi olan zamanın fikir və ideyalarını ifadə edən maarifçi qəhrəmanlar –İbrahim bəy (Z.Marağayi, "İbrahimbəyin səyahətnaməsi"), Bahadır (N.Nərimanov, "Bahadır və Sona"), Şeyda bəy (S.Qənizadə, "Məktubati-Şeyda bəy")və s. kimi obrazlar dövrün fikir forpostunu təmsil edir, milli həyat, gerçəkliklər haqqında tənqidi mövqeyi, tərəqqi, mədəni inkişaf, işıqlı sabah haqqında düşüncələri ilə geniş cəmiyyət kütlələrini ayıldırdılar. Ədəbiyyatşünasların fikrincə, həmin ədəbi qəhrəmanların əks-sədası nəsrimizdə 1930-cu illərə qədər gəlib çıxmışdır: "Maraqlıdır ki, maarifçi düşüncə 1920-30-cu illər nəsrinə bütövlükdə xas olan cəhətdir. Yazıçıların ayrı-ayrı əsərlərdə məhz inqilabçı kimi təqdim etdikləri obrazların əksəriyyəti mahiyyətcə maarifçi qəhrəmanlar kimi təzahür edir ("Studentlər", "Araz", "Tərlan", "Qəhrəman", "Dumanlı Təbriz")" [2, s. 138].

Bu faktı yazıçıların dünyagörüşü, yaradıcılıq metodu ilə yanaşı, 1930-cu illərin milli gerçəklikləri ilə də izah etmək lazımdır. Azərbaycanda yeni cəmiyyət quruculuğunun önündə ziyalılar təbəqəsi gedirdi, sosializm quruluşunun dayağı fəhlə-kəndli sinfi elan olunsa da, milli cəmiyyətdə aşağı siniflər hələ kifayət qədər şüurlu şəkildə inqilabi proseslərə qoşula bilməmişdi. Ona görə də yazıçılar da tələb olunan inqilabçı surətlərini ziyalılar içərisindən seçir, rupor qəhrəmana çevirirdilər.

Bu baxımdan Yusif Vəzir Çəmənzəminlinin "Studentlər" romanındayaratdığı ziyalı obrazına diqqət yetirək. Əsər "inqilabi roman" kimi qələmə alınsa da, yazıçının əsas məqsədi ziyalı düşüncəsi, ziyalı mövqeyindən inqilabi hərəkatın dünənini və 1930-cu illər həqiqətlərini üzə

çıxararaq əks etdirməkdir.Romanda milli gerçəklər Rüstəmbəyin mövqeyindən təhlil və tənqid olunur.

Romanın bu gün obyektiv təhlili göstərir ki, "Studentlər"də Yusif Vəzir "inqilab" mövzusuna məhz o zaman tələb edildiyi kimi "formal" yanaşmamış, hadisələri "inqilabçı qəhrəman" mövqeyindən deyil, özünə yaxın olan, özünün də bioqrafiyasının tərkib hissəsi olan ziyalı obrazı vasitəsilə "olduğu kimi" göstərməyə çalışmışdır. Bu nöqteyi-nəzərdən romanın qəhrəmanı Rüstəmbəy heç də mütərəddid deyildir, əksinə, tələbə həyatı fonunda yetişən, getdikcə yetkinləşən, qətiyyətli bir mövqeyə malik türk-azərbaycanlı ziyalısıdır. Müasir dünyada cərəyan edən hadisələri, Birinci Dünya müharibəsi və onun nəticələrini, Rusiyada 1917-ci ildə baş verən inqilabi prosesləri milli mövqedən dərk etməyə, qiymətləndirməyə çalışan, fərdi baxışlara, mənəvi dəyərlərə, psixologiya və xasiyyətə, prinsipial xarakterə malikdir. Yazıçı öz qəhrəmanını ətrafındakı çoxsaylı digər türk-azərbaycanlı gəncliyinin əhatəsində təsvir etməklə və məhz bu və ya digər cəhətdən mütərəddid, qətiyyətsiz, yanlış və yarımçıq mövqedə olanlarla qarşılaşdırmaqla əsl gerçəkləri axtarır, bütövlükdə milli həqiqətin nədən ibarət olduğunu əks etdirməyə çalışır.

Rüstəmbəy, ətrafındakı gəncliyin əksəriyyəti kimi bəy nəslindəndir, əksəriyyəti kimi dini mühitdə böyümüş, saf dini hisslərə və dünyagörüşə qane olmuşdur. Böyük qardaşı Səmədin təsiri ilə kitablara həvəs göstərdikdən sonra dini mövhumatdan uzaqlaşmış, dünyəvi ideyalara maraq göstərmişdir. Təhsilə maraq gimnaziyadan sonra onu Kiyevə, ali məktəbin hüquq fakültəsinə gətirib çıxarmışdır. Yazıçı XX əsrin əvvəlləri üçün çox aktual olan dini və dünyəvi dünyagörüş arasındakı mübahisələrə romanda yer ayırır. Bu xətt əsərdə, əsasən, Rüstəmbəy və Əlinin sürəkli dialoqlarında davam edir, birincinin dünya həyatı və xeyirxah əməllərə adlaması, ikincinin isə xürafatdan qurtula bilməyib intiharı ilə nəticələnir. Rüstəmbəy obrazı bu baxımdan ilk maarifçi romanlarımızdan olan Nəriman Nərimanovun "Bahadır və Sona" romanının qəhrəmanı Bahadırı xatırladır, lakin ondan bir qədər irəli getmişdir. Bahadır milli cəmiyyətin nicatını digər ictimai-siyasi və mədəni sahələrdə olduğu kimi, din sahəsində də islahatlarda görür, alman protestantlığının banisi Martin Lüteri misal gətirirdi. İslam və qərb dinlərinə dair bir çox mətləblər, adlar "Studentlər" romanında da anılır, amma Rüstəmbəy ümumən dünyəvi həyatda dinin rolunun qabardılmasına qarşı çıxır: "Mən bəhailiyi qəbul edənlərə diqqət etdim. Bunların içində bir nəfər də olsun kamil adam yoxdur, hamısı yarımçıqlardır ki, avamlıqdan aralanıb, kamilliyə də çatmayıblar. Zatən gərək belə də olsun; çünki avam dinində möhkəm olar və ayrı dini öz dininə tərcih etməz; arif və kamillərin də dinə ehtiyacı yoxdur. Onlar dinsiz də yaşayışın yolunu tapmışdırlar… Halbuki din və elm bir-birinə düşməndir; həmişə vuruşublar, qiyamətədək də vuruşacaqlar…" [1, s. 17]

Yusif Vəzir romana müqəddiməsində vurğuladığı kimi, babalardan qalma Şərq düşkünlüyünün fəsadlarını bir çox müasir gənclərin əməllərində tənqid edir, müsbət Şərq dəyərləri və mənəviyyatını isə əsas qəhrəmanı Rüstəmbəyin simasında buna qarşı qoyur. Bu baxımdan Rüstəmbəy obrazını başqa bir maarifçi romanın – Sultan Məcid Qənizadənin "Məktubati-Şeyda bəy" əsərinin qəhrəmanı Şeyda bəylə müqayisə edirlər. "Rüstəmbəylə Sofya Sergeyevnanın süjeti zahiri mənada, S.M.Qənizadənin "Gəlinlər həmayili" romanındakı Sofya Mixaylovna ilə Şeyda bəy arasındakı münasibətləri yada salır. Bunu mövzu və qəhrəmanların tipoloji yaxınlığı kimi də başa düşmək olar" [4, s. 67-68]. Tehran Əlişanoğlu "XX əsr Azərbaycan nəsrinin poetikası" monoqrafiyasında yazır: "Yeni dövr Azərbaycan ədəbiyyatında ilk aktuallanmış Şərqli obrazına Şeyda bəyi ("Gəlinlər həmayili", 1900) misal göstərmək olar. Onun həyatı qabaqcıl bir müsəlman ziyalısının həyat tərzi, daxili dünyası, amal və əməllərini görk etdiyi kimi ("Müəllimlər iftixarı", 1898), düşüncələri, səyahət boyu qarşısına çıxdığı hadisələrə münasibət və yanaşmaları, insanlarla gövtar və rəftarı da Şərq insanını qabardır, nəzərə çarpdırır, timsal verir, əsrin mütərəqqi dünyagörüşü və islami düşüncənin vəhdətini, daha doğrusu, birincinin ikincidə ehtiva olunduğunu təsbit edir" [2, s. 58-59]. Rüstəmbəy obrazı həyat tərzində Şeyda bəy haqqında yazılanlardan daha irəli gedir. Onun Qərb dünyasına nüfuzu, sadəcə, "səyahət" deyildir; təsadüfi epizodlar və nəzəri mübahisələrlə məhdudlaşmır. Rüstəmbəy Qərbdə, qərblilərin arasında yaşayır, fəaliyyət göstərir və hər gün milli xarakter bütövlüyünə malik Şərqli – türk, müsəlman, azərbaycanlı olduğunu təsdiq edir. O, sadəcə, islam ehkamlarından çıxış etmir, həyatda, təcrübədə sınaqdan, mənəvi vicdan imtahanından keçir. Təkcə kirayədə qaldığı ailədə, Sofya Sergeyevna ilə münasibətlərində deyil, romanın ikinci kitabında, Qalitsiyada yaşayarkən Zina və Tatyanaya qarşı yaranmış ötəri yaxınlıq duyğularını dəf edə bilir, rus qadınının açıq-saçıqlığına qarşı təmkin və ləyaqət göstərir. Yazıçı müxtəlif millətlərə xas həyat tərzlərini qarşılaşdırmaq fikrində deyil, əksinə, yüngül əxlaq və həyat tərzinə uyan Fərəməz, Qulamrza, Cəfər, Qulu və b. obrazların hərəkətlərini "babalarımızın şəhvət tüstüsündə vicdanlarını boğmağa alışıq" mənfur vərdişləri ilə bağlayır, milli əxlaq mücəssəməsi kimi Rüstəmbəyi qarşı qoyur.

Rüstəmbəy təkcə qadınlığa münasibəti ilə deyil, bütünlükdə milli xarakter və davranışı ilə yabançılar içərisində nümunədir. Himalay Qasımov "Müasir Azərbaycan romanı" tədqiqatında göstərir ki: "İlk dəfə Çəmənzəminli baş qəhrəmanına milli məkandan (vətəndən) uzaqlarda geniş fəaliyyət meydanı verir. Onu dünyanın narahat və böhranlı çağlarında öz millətinin gələcək taleyi üçün ümumtarixi hərəkata qoşur. "Studentlər"in qəhrəmanının ümumən roman dairəsini genişləndirməsi, janrın tutumunu estetik və idraki baxımdan dərinləşdirməsi Çəmənzəminlinin Azərbaycan romanında böyük

xidməti kimi qiymətləndirilməlidir" [4, s. 68]. Başqa bir tərəfdən, "Studentlər" romanında Ukrayna, polyak, rus, yəhudi, gürcü, tatar və erməni xalqlarının həyat, məişət və mədəniyyətindən bəhs edən hissələrdə həmin xalqların tarixinə, adət və ənənələrinə müəllif bələdliyi" də [3, s. 188] heyrət doğurur və "vətəndən uzaqları" təsvir edən romanın dəyərini artırır. Bununla belə, istər romanın birinci kitabında, Kiyevdə, istərsə də ikinci kitabında Qalitsiyada cərəyan edən hadisələr heç də yabançı mühit təəssüratı doğurmur; əksinə, Şərq ruhu, milli mentallıq əlamətləri daha da qabarıq hiss olunur. Hadisələr istisnasız olaraq Rüstəmbəylə bağlı, Rüstəmbəyin ətrafında qurulduğundan, bu, qəhrəmanın gücünü, milli üstünlüyünü nümayiş etdirir. Rüstəmbəy bir azərbaycanlı olaraq Vətəni dünya hadisələri içərisində təmsil edir.Rüstəmbəy obrazı, sovet dövründə tənqid olunmuşdur, lakin birtərəfli, haqsız olaraq. Obrazın öz mündəricəsinə uyğun olaraq yox, "ideologiya əsasında qiymətləndirdikləri üçün" [4, s. 66]. Qeyd olunduğu kimi, sosialist realizminin tələbi ilə, "romanda inqilabçı obrazlar axtarmış, Mərdana, Büləndə, Şamoya oxşayan tiplər tapmadıqda yazıçını təftişə başlamışlar" [5, s. 214]. Rüstəmbəy inqilabçı deyil, onun ictimai fəaliyyəti birinci kitabda Şərqi tanıtmaq üçün digər tələbələrlə birgə təşkil etdiyi müsamirələrdən ibarətdir; ikinci kitabda isə artıq ali məktəbi bitirib, Qalitsiyada xeyriyyəçiliklə məşğul olan ictimai təşkilatda "zemstvo" sədri kimi çalışır. Yalnız müharibə gedən bölgədə deyil, doğma vətənində baş verən ictimai-siyasi proseslər də onu dərindən maraqlandırır. Bu baxımdan romanda Rüstəmbəyin düşüncələri ayrıca bir xətti təşkil edir və 1930-cu illərin oxucusuna vacib informasiyalar ötürür.

Qəzetlərdə oxuduğu, Birinci Dünya müharibəsi illərində Bakıda, Gəncədə fəaliyyət göstərən "Cəmiyyəti-xeyriyyə", "Nicat", "Səfa", "Nəşri-maarif" kimi təşkilatlarda "türk gəncliyi"nin qaçqınlara yardım etməsi, "bütün dalğın yerlərdə şöbələr açıb, zərər görən müsəlman əhalisinə yardımda bulunması" barədə xəbərlər [1, s. 204], çar hökumətinin qızışdırdığı erməni-müsəlman davasının nəticələri, Şuşada "Difai fədailəri"nin gördüyü işlərin xatırlanması və s. təfərrüat və detallar Rüstəmbəyin milli qayğılarla yaşadığını büruzə verir: "Ah, bizim ziyalıların tarixi yazılsa da: ittihadi-islam, Turan… min bir çarpışma… Keçilən yolların böyük qüsurlarına baxmayaraq axırda öz doğma ölkəmizin siyasi, iqtisadi və mədəni ehtiyaclarına dönəcəyik, ermənilərlə də barışıq yolu bulacağıq…" [1, s. 54]1930-cu illər üçün sosialist realizmi yazıçıları inqilabi hərəkatın tarixini XIX əsrin sonlarına, XX əsrin əvvəllərinə çəkib apardığı halda, Yusif Vəzir "Studentlər" romanında məsələyə realistcəsinə yanaşaraq: "Bizdə inqilabçı varmı?" sualını cəsarətlə səsləndirir. Xəlilin Səlmana verdiyi bu suala: "Var! Var!" cavabını verirsə də, "inqilab" həvəsində olan gənc kimisə sadalaya bilmir. Əsl reallıq isə romanın baş qəhrəmanı Rüstəmbəyə münasibətdə aşkarlanır: "Xəlil Rüstəmbəyin adını çəkdi, Səlman ağzını büzdü: – Rüstəmbəy yaxşı oğlandır, ancaq... bəy balasıdır.

Toxluqdan Tolstoy kimi mənəvi axtarış dövrü keçirir. Ruhunda "romantizm"lə "rasionalizm" çarpışmadadır. Qələbə nə tərəfdə qalacaq, bəlli deyil... dəruni "refleks"... nə bilim nələr..., yoldaş, təkamülün aramla yürüməsinə vaxt yoxdur. İnqilabi addımlar lazımdır!" [1, s. 116-117]

1930-cu illər də ədəbiyyatdan "inqilabi addımlar" gözləyir. Realist yazıçı olan Yusif Vəzir Çəmənzəminli isə 1910-cu illərin gəncliyindən bəhs edən romanında bunu təsdiqləmir, çünki təkcə Rüstəmbəy deyil, onun ətrafında olan gəncliyin də əksəriyyəti "bəy balası"dırlar; "mənəvi axtarış" prosesi keçirirlər. Rüstəmbəy onların tipik nümayəndəsidir və bütövlükdə milli hərəkat dövrü gəncliyini səciyyələndirir. Onun zamana, ictimai proseslərə, Rusiyada baş verən inqilablara dair elə düşüncələri vardır ki, 1930-cu illərin repressiya mühitində bunları xatırlatmağın özündə bir mənəvi cəsarət görünür: "Düşüncəsinin birinci sırasını təşkil edən öz vətəni və öz milləti idi. Rüstəmbəy islamiyyət məfkurəsi ilə əlaqədar deyildisə, Turan idealı daşıyanlardandı. O, "Tərcüman" qəzeti məktəbinə mənsub olaraq, "dildə, işdə, fikirdə birlik" tərəfdarı idi. Odur ki, milli müqəddarat deyə düşündükdə Azərbaycanla bərabər Türküstan, Edil boyu və Krımı da nəzərdə tuturdu..." [1, s. 206]

Avtobioqrafik cizgiləri nəzərə alsaq, bu milli düşüncələr Yusif Vəzirin özünə aid idi, rupor qəhrəmanına aid etmişdi. Qəhrəmanın "yüksək mədəniyyətə malik" Polşa xalqı ilə öz millətinin mədəni geriliyini müqayisə etməsi [1, s. 108], rus əsarətində olan "polyakların fəlakətini məhkum millət nümayəndəsi sifəti ilə daha yaxından, daha səmimi olaraq duya bilməsi" [1, s. 185], 1917-ci ilin fevral inqilabından sonra: "ruslaşdırma, provaslavlaşdırma əbədi olaraq tarix səhifələrinə keçir. Artıq hakim və məhkum millət yoxdur..." [1, s. 191] düşünməsi də ictimai görüşlərinin məhz milli xarakter daşıdığını göstərir. Bu baxımdan Rüstəmbəyin bolşeviklərin rəhbəri Leninə münasibəti də maraq doğurur. Yazıçının ümumən rəğbətə yozduğu bu münasibətdə də milli maraqlar ön plandadır: "Velikoruslardan başqa, Rusiyada yaşayan bütün xalqlar Leninə "ləbbeyk!" deyirdi. Rüstəmbəyin də Lvov, Milyukov, Quçkov hökumətindən get-gedə soyuyaraq Leninə yavıqlaşmasının başlıca səbəbi milli məsələdən irəli gəlirdi. Rüstəmbəy qırx milyonluq türk-tatar xalqlarının məhkumiyyətdən qurtarmasını şiddətlə istəyirdi; inqilaba da həmişə bu nöqteyi-nəzərdən baxaraq onun doğru yolda olub-olmamasını kəsdirə bilirdi. Rüstəmbəydə sinfi görüş yoxdu. Daha doğrusu, qeyri-şüuri bir halda ifadə olunurdu... Leninin milli nəzəriyyəsini də öz zehniyyətinə uyduraraq qəbul etmişdi... Lenin bütün Şərq xalqlarının ana torpağında müstəqil yaşamalarını tələb edirdi" [1, s. 208].

Əlbəttə, əsl həqiqəti ifadə edən, Şərq xalqlarının müstəqillik arzusunu yada salan belə bir roman 1930-cu illərin repressiya havasında müsbət qarşılana bilməzdi. Tədqiqatçıların göstərdiyi kimi, 1936-cı ildə "Yusif

Vəzirin əsərlərində yürütdüyü "obyektivizm"ə görə onu suçlamış, "Ədəbiyyatda kontrrevoliyusion sarsaqlama" kimi baxmışdılar", hətta "Azərbaycan yazıçılarının 1937-ci ilin iyununda keçirilən üç günlük yığıncağında "Studentlər" "faşist əsəri" olaraq ittiham edilmişdi [3, s. 181]. Yusif Vəzir Çəmənzəminli yazdığı həqiqətlərə görə, sövet dövrünün onlarla, yüzlərlə, minlərlə digər qələm sahibləri kimi repressiyaya uğradısa da, qələminə yalan demədi. Azərbaycanda davam edən inqilabi hadisələrə sosilaist realizminin tələb etdiyi inqilabçı obrazların mövqeyindən deyil, əsl realizm tələblərindən, ziyalı obrazının gözü ilə nəzər saldı və qiymətləndirdi. Bu baxımdan Rüstəmbəy sovet dövrü romançılığımızda ilk aktuallanmış ziyalı obrazı hesab oluna bilər.

Ədəbiyyat

1. Çəmənzəminli Y.V. Əsərləri. 3 cilddə. II c., Bakı, Elm, 1976, 746 s.
2. Əlişanoğlu Tehran. XX əsr Azərbaycan nəsrinin poetikası. Bakı: Elm, 2006, 312 s.
3. Hüseynoğlu Tofiq. Ədəbiyyatla yaşayıram. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 326 s.
4. Qasımov Himalay. Müasir Azərbaycan romanı (janrın poetika və tipologiyası). Bakı: N.Tusi adına ADPU, 1994, 148
5. Məmmədov Kamran. Yusif Vəzir Çəmənzəminli. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1987, 272 s.

İ.Bakhshaliyeva

The first intelectual image of Azerbaijan novel in the soviet period

Summary

The article deals with the intellectual image of Yusuf Vezir Chamanzaminli's "Students" novel. The protagonist of the novel, Rustambey's face the typical features of the intellectuals living in the early 20th century were reflected.

Rustambey is a Turkish-Azerbaijani intelligentsia who has a principled character, with personal views, moral values, psychology and temperament It is understood that autobiographical elements are used to create Rustam's image. The realist writer appealed to his intelligent image to show the objective difficulties of socialist construction in Azerbaijan. The author sought to show the "revolutionary movement" yesterday and the 1930s truths as "as is" through its intelligent image. Rustembey is compared with the first intelligent images (Bahadir and Sheida bey) of our enlightenment novels in

the article. National spirit of image, national thought, and national character integrity and national concerns are reflected in the article.

И. Бахшалиевой

Первый интеллектуальный образ романа Азербайджана в советский период

Резюме

Статья посвящена интеллектуальному образу романа Юсуфа Везира Чаманзаминли «Студенты». Главный герой романа, лицо Рустамбея, отражало типичные черты интеллектуалов, живших в начале 20-го века.

Рустамбей - турецко-азербайджанская интеллигенция, которая имеет принципиальный характер, с личными взглядами, моральными ценностями, психологией и темпераментом. Понятно, что автобиографические элементы используются для создания образа Рустама. Писатель-реалист обратился к своему интеллектуальному образу, чтобы показать объективные трудности социалистического строительства в Азербайджане. Автор стремился показать «революционное движение» вчера и истины 1930-х годов «как есть» через его разумный образ. Рустембея сравнивают с первыми интеллектуальными образами (Бахадир и Шейда бей) наших просветительских романов в статье. В статье отражены национальный дух имиджа, национальная мысль, целостность национального характера и национальные интересы.

Rəyçi: Tehran Mustafayev
AMEA-nın müxbir üzvü
Filologiya elmləri doktoru, professor

MÜZƏFFƏR İBRAHİMOV
Gəncə Dövlət Universiteti
gunay-ismayilova-gdu@rambler.ru

WHAT **EVERY NOVICE TRANSLATOR** SHOULD KNOW

Açar sözlər: müxtəlif, bilik, nəzəriyyə, tərcümə, funksional,
Ключевые слова: различный, знание, теория, перевод, функциональный.
Key words: different, knowledge, theory, translation, functional.

The nature and importance of translation

Translation is ultimately a human activity which enables human beings to exchange ideas and thoughts regardless of the different jongues used. Al Wassety (2001) views the phenomenon of translation as a legitimate offspring of the phenomenon of language, since originally, when humans spread over the earth, their languages differed and they needed a means through which people speaking a certain language (tongue) would interact with others who spoke a different language. Translation is, in Enani's (1997) view, a modern science at the interface of philosophy, linguistics, psychology, and sociology. Literary translation in particular is relevant to ail these sciences, audio-visual arts, as well as cultural and intellectual studies.

Translation is, in Chabban's words (1984:5), "a finicky job," as it has not yet been reduced to strict scientific rules, and it allows for the differences that are known to exist between different personalities. Translation is a heavily subjective art, especially when it deals with matters outside the realm of science where precisely defined concepts are more often expressed by certain generally accepted terms.

In the final analysis, translation is a science, an art, and a skill. It is a science in the sense that it necessitates complete knowledge of the structure and make-up of the two languages concerned. It is an art since it requires artistic talent to reconstruct the original text in the form of a product that is presentable to the reader who is not supposed to be familiar with the original. It is also a skill because it entails the ability to smooth over any difficulty in the translation, and the ability to provide the translation of something that has no equal in the target language.

In translation, the richness of vocabulary, depth of culture, and vision of the translator could certainly have very conspicuous effects on his/her work. Another translator might produce a reasonably acceptable version of the same text, which, however, may very well reflect a completely different background, culture, sensitivity, and temperament. Such differences cannot,

in Chabban's view (1984), detract from the merit of either translator. This is simply because translation is decidedly a more difficult job than creation.

Criteria for a good translation. A good translation is one that carries all the ideas of the original as well as its structural and cultural features. Massoud (1988) sets criteria for a good translation as follows:

1. A good translation is easily understood
2. A good translation is fluent and smooth
3. A good translation is idiomatic
4. A good translation is conveys, to some extent, the literary subtleties of the original
5. A good translation is distinquishes between the methaphorical and the literal
6. A good translation is reconstructs the cultural /historical context of the original
7. A good translation makes explicit what is implicit in abbreviations, and in allusions to sayings, songs, and nursery rhymes.
8. A good translation will convey, as much as possible, the meaning of the original text.

El Shafey suggests other criteria for a good translation; these include three main principles:

1. The knowledge of the grammar of the source language plus the knowledge of vocabulary, as well as good understanding of the text to be translated.
2. The ability of the translator to reconstitute the given text (source-language text) into the target language.
3. The translation should capture the style or atmosphere of the original text; it should have all the ease of an original composition.

From a different perspective, El Touny (2001) focused on differentiating between different types of translation. He indicated that there are eight types of translation: word-for-word translation, literal translation, faithful translation, semantic translation, adaptive translation, free translation, idiomatic translation, and communicative translation. He advocated the last type as the one which transmits the meaning from the context, respecting the form and structure of the original and which is easily comprehensible by the readers of the target language.

El Zeini (1994) didn't seem satisfied with such criteria for assessing the quality of translation. Hence she suggested a pragmatic and stylistic model for evaluating quality in translation. She explains that the model" places equal emphasis on the pragmatic component as well on the stylistic component in translation. This model covers a set of criteria, which are divided into two main categories: content-related criteria and form- related

criteria" and expected that by following these criteria, "translators will be able to minimize the chance of producing errors or losses, as well as eliminate problems of unacceptability" (p. XVII)

Reading comprehension. While we are translating, we do not think of our activity as being broken down into phases. After doing our first translations, many automatic mechanisms come into play that allow us to translate more quickly; at the same time, we are less and less conscious of our activity.

Osimo (2001) indicates that in order to think about the translation process and to describe it, our essential task consists of analyzing its phases, even if we are aware of the fact that they do not always coincide with perceptibly different or distinguishable moments. If we want to describe a process that often is beyond the translator's own consciousness, we are forced to divide the process into different phases which, in the everyday practice of translation, can reveal the inter-twining, almost entangling, of these phases. The first phase of the translation process consists of reading the text. The reading act, first, falls under the competence of psychology, because it concerns our perceptive system. Reading, like translation, is, for the most part, an unconscious process. If it were conscious, we would be forced to consume much more time in the act. Most mental processes involved in the reading act are automatic and unconscious. Owing to such a nature-common and little- known in the same time-in our opinion it is important to analyze the reading process as precisely as possible. The works of some perception psychologists will be helpful to widen our knowledge of this first phase of the translation process. When a person reads, his brain deals with many tasks in such rapid sequences that everything seems to be happening simultaneously. The eye examines (from left to right as far as many Western languages are concerned, or from right to left or from top to bottom in some other languages) a series of graphic signs (graphemes) in succession, which give life to syllables, words, sentences, paragraphs, sections, chapters, and texts. Simply reading a text is, in itself, an act of translation. When we read, we do not store the words we have read in our minds as happens with data entered using a keyboard or scanner into a computer. After reading, we do not have the photographic or auditory recording in our minds of the text read. We have a set of impressions instead. We remember a few words or sentences precisely, while all the remaining text is translated from the verbal language into a language belonging to another sign system, which is still mostly unknown: the mental language. The mental processing of the read verbal* material is of a syntactical nature when we try to reconstruct the possible structure of the sentence, i.e. the relations among its elements. In contrast, it is of a semantic nature when we identify the relevant areas within the semantic field of any single word or

sentence; and it is of a pragmatic nature when we deal with the logical match of possible meanings with the general context and the verbal co-text. The difference between a reader and a critic is negligible: the reader trying to understand has the same attitude as the critic, who is a systematic, methodical, and self-aware reader. While reading, the individual reads, and perceives what he reads, drawing interpretations and inferences about the possible intentions of the message. Holmes (1988) suggested that the translation process is actually a multi-level process; while we are translating sentences, we have a map of the original text in our minds and, at the same time, a map of the kind of text we want to produce in the target language. Even as we translate serially, we have this structural concept so that each sentence in our translation is determined not only by the original sentence, but also by the two maps – of the original text and of the translated text which we carry along as we translate. The translation process should, therefore, be considered a complex system in which understanding, processing, and projection of the translated text are interdependent portions of one structure. We can therefore put forward, the existence of a sort of "central processing unit" supervising the coordination of the different mental processes (those connected to reading, interpretation, and writing) and at the same time projecting a map of the text to be.

Used literature:

1. Catford J.C. A Linquistic theory of translation oxford. O.U.P. (1965)
2. Fawcett, Peter: Translation and Language, Manchester, St.Jerome publishing (1997)
3. Venuti, Lawrence. The Translator's Invisibility, London, Routledge, 1995
4. Peter Newmark. A Textbook of Translation, London and New York: Prentice Hall International (UK) Ltd.

M. İbrahimov

Hər yeni tərcüməçi nəyi bilməlidir ?

Xülasə:

Oxucu və tənqidçilər arasındakı fərq çox əhəmiyyətsizdir: oxucu anlamaq üçün çalışır, tənqidçi, sistemli, metodik və özünü bilən oxucu kimi eyni münasibətə malikdir. Oxuyarkən, fərdi oxuyur və oxuduğu şeyi dərk edir, mesajın mümkün niyyətləri barədə şərhlər və nəşrlər çıxarır. Holmes

(1988) tərcümə prosesinin əslində çox səviyyəli bir proses olduğunu irəli sürdü; cümlələri tərcümə edərkən, ağıllarımızdakı orijinal mətn xəritəsini və eyni zamanda hədəf dilində istehsal etmək istədiyimiz mətnin bir xəritəsi var. Tərcümə prosesi, tərcümə olunmuş mətnin anlaşılması, işlənməsi və proyeksiyası bir strukturun bir-birinə bağlı hissələridir.

Tərcümədə lüğət tərkibinin zənginliyi, bədiiliyin dərinliyi və tərcüməçinin öz işinə dərindən tətbiq edə biləcək dünyagörüşü olmalıdır.

Nəticə etibarilə tərcümə bir elm, incəsənət və qabiliyyətdir. Yaxşı tərcümə odur ki, orijinaldakı bütün ideyaları, o cümlədən onun quruluş və mədəni xüsusiyyətlərinitam əks etdirir.

М.Ибрагимов

Что должен знать каждый начинающий переводчик

Резюме

Разница между читателями и критиками незначительна: у читателя такое же отношение, как у критического, систематического, методолога и самосознающего читателя. Во время чтения он читает и читает то, что читает, делает комментарии и публикации о возможных намерениях сообщения. Холмс (1988) утверждал, что процесс перевода был на самом деле многоуровневым процессом; При переводе предложений у нас в голове есть карта исходного текста, а также текст, который мы хотим создать на целевом языке. Процесс перевода, понимание, обработка и проекция переведенного текста являются частями структуры.

Перевод должен включать в себя богатство словарного содержания, глубину художественного оформления и перспективы, которые могут быть глубоко применены в работе переводчика.

В результате перевод - это наука, искусство и талант. Хороший перевод заключается в том, что он отражает все оригинальные идеи, в том числе его структуру и культурные особенности.

Rəyçi: Allahverdi Həmuidov
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ELNARƏ ƏMİRLİ
AMEA Folklor İnstitutunun
elnara.amirli@mail.ru

AZƏRBAYCAN NƏŞRLƏRİNDƏ ANLAŞILMAYAN ƏFSANƏ MƏTNLƏRİ

Açar sözlər: əfsanə, dil, üslub, folklor dili, qüsurlu, folklor janrları
Ключевые слова: легенда, язык, стиль, фольклорный язык, непонятные тексты, фольклорные жанры
Key words: legend, language, style, folk language, defective texts, folk genres

Hər bir janr kimi əfsanələr də özünəməxsus süjet quruluşuna və mətn tipinə malikdir. Əfsanələr epizodik hadisələrin təsvirini verdiyi üçün onun süjeti də bəsitdir. Bəsit süjet yarımçıq demək deyildir. Elə əfsanə vardır ki, iki-üç cümlə ilə süjeti tam təsvir olunur. Belə ki, mətnin həcminin az olması süjetin yarımçıq olması demək deyildir. Bildiyimiz kimi, əfsanələr gerçəkliklə bağlı hər hansı faktı möcüzəli şəkildə izah edir. Əksər əfsanələrdə bu möcüzəli izah cəmi bir hadisənin təsvirindən ibarət olur. Bir əfsanə nümunəsinə diqqət edək: "Deyir, bir gün peyğəmbəri qovurmuşlar. Peyğəmbər gəlib ardıc ağacının arxasında gizlənib. Peyğəmbər alqış edib deyir: "Ardıc, görüm, səni il, on iki ay göy qalasan!". Mətnin üç cümlədən ibarət olması məzmunun tam başa düşülməsinə əngəl yaratmır. Çünki lakonik cümlələr süjeti tam əhatə edə bilir.

Mətnin qüsurlu olduğunu başa düşmək üçün süjetin tam variantını tanımaq lazımdır. Ay və Günəş haqqında olan bir əfsanədə deyilir: "Günəş mübahisə etdiyi əri tərəfindən qovulan gözəl bir qadındır. Əri heç vaxt onu yaxalaya bilmir". Ay və Günəşlə bağlı digər mətnlərlə tanış olduğumuz üçün bu süjetin tam variantı bizə tanışdır. Ayla Günəşin mübahisə səbəbləri mətndən-mətnə dəyişir. Burada isə süjetin bir hissəsi verilmişdir (16, 10).

Qeyd eək ki, şifahi mətndə anlaşılmaz hissələrin olması janrın müəyyən olunmasını da çətinləşdirir. "Hadıqayıb ziyarətgahı" (15, 83), "Qara daş ziyarətgahı" (15, 83) mətnlərində həmin çətinliklə qarşılaşırıq. Birinci mətndə seyid oğlunun, ikinci mətndə qadının qeyb olduğu təsvir olunur. Bu hadisədən sonra bu məkanlar ziyarətgaha çevrilmişdir.

Nəşrlərimizdə qırıq süjetli, informativ baxımdan qüsurlu olan kifayət qədər mətn vardır. Mətnin defektli olmasının bir neçə səbəbi vardır.

- Bu problem müəyyən tərəfləri ilə söyləyicidən asılıdır. Söyləyicinin epik informasiya haqqında məlumatı mətnin keyfiyyəti ilə düz mütənasibdir. Söyləyici epik informasiyanı yaxşı bilirsə, mətn də qüsursuz və başa düşülən

olacaq. Söyləyicinin informasiyanı zəif bilməsi mətnin defektli olmasına səbəb olur ki, bu da bir çox çətinliklər yaradır. Qüsurlu mətnlərdə süjeti tanımaq, hətta, qeyd etdiyimiz kimi, mətnin janrını müəyyən etmək də çətinləşir.

- Mətnin dilinin yaxşı başa düşülməməsinin digər səbəbi söyləyicinin öz fikrini yaxşı ifadə edə bilməməsidir. Bəzən söyləyici zəngin məlumata malik olsa da, fikrini ifadə etməkdə çətinlik çəkir.

Azərbaycan nəşrlərində qüsurlu mətnlərin əsas əlamətlərindən biri mətnin dilinin oxucu tərəfindən başa düşülməməsidir. Anlaşılmayan mətnlər söyləyicinin informasiyanı düzgün ifadə edə bilməməsi səbəbindən ortaya çıxır. Bəzi mətnlərin toponimik mətn təəssüratı yaratsa da, bu mətndən adın yaranışı ilə bağlı məlumat əldə edə bilmirik. "Qəbiz ziyarəti" (14, 167) mətnində göstərilir ki, bir kişi qonaq getdiyi evdə dünyasını dəyişir. Su qıtlığı olan bu kənddə, kişinin canını tapşırdığı məkanda su axmağa başlayıb. Bunu möcüzə kimi qəbul edən camaat onu orda dəfn ediblər. O vaxtdan həmin qəbir ziyarətgahdır. Diqqət etsək, burada suyun həmin vaxtda axması insanlar tərəfindən qeyri-adi qəbul olunsa da, əfsanədə Qəbiz adı haqqında məlumat yoxdur. Məkan möcüzə ilə bağlıdır, ancaq adın yaranışı möcüzə ilə əlaqələndirilməyib. Mətn əfsanə janrının tələblərinə cavab versə də, müəyyən tərəfləri ilə qüsurludur. Çünki ziyarətgahın belə adlandırılmasının səbəbi anlaşılmır. Anlaşılmayan mətnlərin əsas xüsusiyyəti dilinin anlaşılmaz olmasıdır. Söyləyici tələb olunan informasiyanı auditoriyaya ötürə bilmir. Qeyd etdiyimiz kimi, fikrini başa düşülən şəkildə ifadə edə bilmir.

Eyni mənbədə dan ulduzu haqqında hər iki əfsanə qüsurludur. Bu mətnlərdən birində (6, 19) Dan ulduzu Nəsir ulduzu kimi göstərilir. "Nəsir ulduzu elə Dan ulduzudu. Nəsir adında bir adama kömək eliyibmiş. Ona görə adına Nəsir ulduzu deyirlər". Hansı ulduz haqda söhbət getdiyi başa düşülmür. Cənnət bulağı (4, 51) mətni də anlaşılmazdır. Mətnin məzmunu qüsurludur. Nəvəsi xəstələnən qarı bulağın şırıltısını eşidir, amma bulağı görmür, su içib deyir: "Cənnət suyuymuş suyun, ay bulaq!.." Əfsanədə qarının bulağı niyə görməməsi dəqiq izah olunmur. Eyni zamanda mətn anlaşılmaz olduğu üçün yaranış başa düşülmür

"Həmzə bulağı" (8, 119) əfsanəsində də oxucu bir çox elementləri başa düşmür. "Allahın hökmüynən Həmzə Allaha qarşı üz döndərdiyinə görə ordan bulax çıxır". Ənənəvi mətnlərdə yaxşı əməl sahibləri mükafatlandırılır, pis əməl sahibləri cəzalandırılır. Allahın üz çevirənlərə mükafatlandırması ənənəyə uyğun deyil və məntiqə sığmır. Ola bilər ki, söyləyici başqa mətnə aid informasiyanı qarışdırır, yaxud informasiyanı bilmədiyi üçün improvizasiya etmək istəyir. Belə səriştəsiz improvizasiyalar mətnin janrını da zədələyir.

Anlaşılmaz mətnlərin bir qismində oxucuya tanış olmayan adlar işlədilir. Ay və Günəş haqqındakı bir mətndə deyilir ki, Qara dəryadan Gün çıxır. İrəli gedir. İstəyir ki, balıq onu uda. Gülənbər onun qabağına qılınc tutur. Qoymur onu tuta. Dəryadan Ay çıxır, qalxır göyə. Balıq istəyir ki, onu uda. Gülənbər qoymur ki, balıq onu yeyə. Ay və Gün onun nəfəsindən olur qırmızı" (6, 35). Ayın və Günəşin yaranışından bəhs edən bu əfsanədə Ayın və Günəşinin rənginin yaranışı izah olunur. Əfsanədə adı çəkilən Güləbərin kim olduğu isə məlum deyil. Burada isə toplayıcı səriştəsizliyi özünü göstərir. Toplayıcı söyləyiciyə lazım olan sualı ünvanlasaydı, ola bilsin ki, Gülənbər obrazının da mahiyyəti açıqlanardı.

Çaşqınlıq yaradan məsələlərdən biri də personajın düzgün təqdim edilməməsidir. Bu baxımdan "Qaranquş" (16, 61) mətnində anlaşılmazlıq vardır. Mətndə qeyd olunur ki, bir qaranquş insana vurulur. Ənənəvi süjetlərə görə, insan hər hansı səbəbə görə başqa bir varlığa çevrilir. Qaranquşun insana vurulması, "gəl dost olaq, bir yerdə oynayarıq, bir yerdə yeyərik" deməsi, anlaşılmazlıq yaradır. Bir faktı da qeyd edək ki, bu mənbədə söyləyicilər çox qarışıq verilmişdir və bu mətnin kim tərəfindən söylənildiyi də anlaşılmır. "Ağrı dağı" əfsanəsində insana məxsus əlamətlərin başqa varlıqlara aid əlamət kimi verilməsi anlaşılmazlıq yaradır. Ənənəvi süjetə görə, bu dağlar əvvəl insan imişlər. Ancaq mətnin girişində iki dağ haqqında danışılır (6, 40).

Bir qrup mətnlərdə isə müəyyən hərəkətin səbəbi məlum olmur. "Komrat" (3, 179) mətnində Həzrəti Əlinin oğlunu dərədən atmasının səbəbi, "Qarısərnici" (5, 562) mətnində şahın qoca qarının başına torpaq tökdürməsinin səbəbi bilinmir. Həzrət Əli haqqındakı bir mətndə (11, 38) deyilir: "Cənab Əli Basarkeçər dağını qılıncıynan vuruf, dağı yarıf ordan keçif gəlif". Bu mətndə Əlinin dağı yarmasının səbəbi göstərilmir. Süjet defektli olduğu üçün mətni qavramaq olmur. Həmçinin əksər hallarda informasiya kəsri olan, anlaşılmayan mətnlərin janrını müəyyən etmək mümkün olmur.

"Şıxlar piri" mətnində (7, 79) üç nurani qoca kişi bir evə yaxınlaşıb su istəyirlər. Susuzluqdan əziyyət çəkən ailə son suyunu qocalara verir. Qocalar suyu içib uzaqda dağın başında tək ağacı göstərib oranın pir olduğunu, o ağacın yanında sədəqə paylamaq lazım olduğunu deyirlər. Belə ki, mətnin əvvəlində bu yerin pir olduğu göstərilir. Bu tip mətnlərdən danışarkən ardıc ağacı ilə bağlı əfsanələri də qeyd etmək lazımdır. Bir mətnə görə (11, 19), Yezidin dəstəsi imamları qovur. İmamlar yaşıl ağacın arxasında gizlənirlər. Ağac onları qoruyur. İmamların alqışı ilə ağac o vaxtdan bütün fəsillərdə yaşıl olur. Gördüyümüz kimi, imamları gizlədən ardıc ağacı elə əvvəldən yaşıl təsvir olunur. Əgər imamların təqib olunması ağacların yaşıl olduğu mövsümdə baş vermişdisə, demək alqış ilə bu vəziyyət daimi xarakter

almışdır. Çünki ağacın əvvəldən yaşıl olduğunu düşünsək, burada yaranış yoxdur. Bu isə mətnin defektidir. Çünki digər variantda (2, 36) deyilir ki, peyğəmbəri qovurlar. O gəlib ardıc ağacının arxasında gizlənir. Peyğəmbər ardıc ağacına alqış edir. O vaxtdan ardıc ağacı həmişə yaşıl olur. Bu əfsanədə ağacın əvvəldən yaşıl olması haqqında məlumat verilmir, demək ki, ağacın həmişəyaşıl olması etiologiya kimi özünü göstərir.

"Həzrət Əli və günü" (13, 28) mətnində qeyd olunur ki, biri günü gətirir. Ev yiyəsinin zəhmi ağır olduğuna görə günü qorxudan əsir. Ev yiyəsi əlini dayaq verəndən sonra günüyə heç nə olmur. Çünki "sonradan gələnin kürəyində Əlinin əli var" fikri Əlinin sonradan gələni qoruması kimi başa düşülür. Ancaq izah defektlidir. Çünki ev yiyəsi özü əlini dayaq veridyi halda mətndə "Əlinin əli var" kimi qeyd olunur.

"Ülkər ulduzu" əfsanəsinin bir variantında Ülkərin atasının mal-qarasının otu qurtarır. O ağanın yanına ot istəməyə gedir. Ağa ot əvəzində qızını istəyir. Qız razılaşmır, atasına yalvarır ki, onu ağaya verməsin. Ata səhər eşiyə çıxır ki, hər tərəf yaşıllaşıb, amma qızı yoxdur, ulduz olub göyə çəkilib (6, 39). Bu süjeti daşıyan digər bir variantda isə (12, 16) söyləyici informasiyanı dəqiq vermir. Mətndə qız çıxır ki, göydə sarı bir ulduz var. Qızın ulduzu görməsi – özünün özünü görməsi kimi başa düşülür. Bu isə mətnin defektidir. Çünki həmin ulduz elə qızın özü idi.

Elə mətnlər var ki, hadisələr məntiqsiz sıralanmışdır. Belə ki, hadisənin ifadə olunduğu motivlər zəncirinin hər biri özündən əvvəlkini tamamlamır. Bir mətndə göstərilir ki, Hibop bir arvadıymış, iki oğlu varıymış. Onlar buzova gedirlər. "Bir axşam buzoyları gətirəndə görürlər ki, bir qarının buzoyu qalıf çöldə. Anaları buları döyür ki, tez gedin buzoyu tapın gətirin. Burada buzovun itməsi təsvir olunmur, ancaq qeyd olunur ki, ana onları buzovu axtarmağa göndərir. Onlar isə gedib geri qayıtmırlar. Ana nə qədər gözləyir, gəlmirlər. Dilək eləyib hibop olur. Başlayır balalarını gəzməyə (6, 67). Bu mətndə də hərəkətin səbəbi göstərilməyib.

"Cicimli ocağı" (11, 197) mətnində Həzrət Əlinin kəndə gəlişi, bir qarının evində qonaq olması və onların səmimi dialoqu təsvir olunur. Mətnin sonunda qeyd olunur ki, "Cicimli ocağı ondan qalmadır". Bilirik ki, əfsanəni rəvayətdən fərqləndirən əsas cəhətlərdən biri yaranışın möcüzəli təsviridir. Bu mətndə ocağın yaranışını izah edən hadisə tam təsvir edilmədiyinə görə, möcüzəlilik məsələsi mübahisəli qalır. Bu da mətnin janrını müəyyən etməkdə çətinlik yaradır. Belə ki, süjet tam olsa da, etiologiya anlaşılan şəkildə izah olunmur. Oxucu düşünür ki, Həzrət Əlinin gəlişi ilə ocaq yaranıb. Ancaq hər hansı möcüzəli hadisənin baş verməsi də istisna deyildir. "Arpa ilə buğda" (1, 44) mətnində anlaşılmayan məqamlar vardır. Əfsanədə bir kişinin iki ayrı qadından olan oğlanları yola getmirlər. Kişi çarəsi qalıb "əlini açıb yalvarır: "Ya rəbbi, sən uşaqları bir yola qoy, hər birini bir yana

sal, qoy yazıq yetimin günü ağarsın!" Arpa ilə Buğda dönüb taxıla çevrilir. Amma Buğdanın qarnının yarığı eləcə də qalır". Mətndə buğdanın qarnındakı yarığın yaranmasını izah edən hadisə təsvir olunmur. Halbuki mətnin janrını məhz həmin hadisə ilə müəyyən etmək mümkündür. "Süleyman və Bilqeyis"(10, 35) mətnində də yaranış haqqında danışılmır. Amma mətnin sonunda müəyyən əlamətlərin şanapipiyə aid olduğu göstərilir. Amma süjet quşların yaranışı haqqındakı ənənəvi süjetin variantıdır. Ənənəvi süjeti olan başqa mətndə isə çevrilmə aktı aydın göstərilir."Tovuz öz ayaqlarının çirkinliyinə görə utanır və quşa dönməsi üçün dua edir" (5, 64).

"Pərvanəyə dönən çoban" (5, 14) əfsanəsində də informasiya defektlidir. Qeyd olunur ki, valideynləri qızı sevdiyi çobana vermirlər. Daha sonra qeyd olunur ki, düşmənləri qızı oda atırlar. Burada düşmənləri dedikdə, çox güman ki, qızın bu izdivaca qarşı olan valideynləri nəzərdə tutulur. Bu mətndə düşmənlər kimi təsvir olunması informasiyanın qavranılmasında çətinlik yaradır.

Bəzi mətnlərdə müəyyən hərəkətin kimə aid olması şübhəlidir. "Haramlıq necə yaranıb?" (8, 13) mətnində qeyd olunur ki, padşah istəyir ki, qarışıqlıq olsun. "Deef: sən gətir hərədən bir yumurta yığ". Bu fikri söyləyənin kim olduğu məlum deyil. Bundan başqa, qüsurlu mətnlərdəki problemlərdən biri də qəhrəmanın olmamasıdır. Mətndə qəhrəman yoxdursa, demək ki, epik informasiya pozulmuşdur, mətn qüsurludur. Nəşrlərimizdə belə mətnlər çoxdur.

Qeyd edək ki, anlaşılmayan mətnlər problemi həm söyləyici məlumatsızlığı, həm də toplayıcı və tərtibçi səriştəsizliyindən irəli gəlir. Əgər mətndə məzmun və məqsəd anlaşılmırsa, deməli mətn qüsurludur. Söyləyicinin mətni tam bilməməsi, həmçinin düzgün ifadə edə bilməməsi belə defektli mətnlərin yaramasına səbəb olur. Belə vəziyyətdə toplayıcı işə müdaxilə etməli, lazım olan sualları ünvanlamaqla qüsursuz mətni əldə etməyə nail olmaldır. Çünki toplama prosesində toplayıcının diqqətli olması, söyləyicinin mətnə ciddi münasibət göstərməsi ilə daha keyfiyyətli folklor mətni əldə etmək mümkündür.

Ədəbiyyat

1. AFA. 23 cilddə, VIII c., Ağbaba folkloru / Toplayıb tərtib edənlər İsmayılov H., Qurbanov T. Bakı: Səda, 2003, 476 s
2. AFA. 23 cilddə, XII c., Zəngəzur folkloru/Toplayanlar Nəbioğlu V., Kazımoğlu M., Əsgər Ə., Bakı: Səda, 2005, 464 s
3. AFA. 23 cilddə, XIII c., Şəki-Zaqatala folkloru / Tərtib edənlər Abbaslı İ., Əliyev O., Abdullayeva M. Bakı: Səda, 2005, 550 s

4. AFA. 23 cilddə, XXII c., Borçalı-Qarapapaq folkloru / Toplayıb tərtib edən: Hacılar V. Bakı, Nurlan, 2011, 444 s.
5. Azərbaycan folklor antologiyası. Tərtib edən: Axundov Ə. Bakı, Çıraq, 2015, 614 s.
6. Azərbaycan mifoloji mətnləri / Tərtib edəni, ön sözün və şərhlərin müəllifi Acalov A. Bakı: Elm, 1988, 196 s
7. Dərbənd FÖ I. Tərtib edənlər: Qasımlı M., Əliyev O., Xəlilov R. Bakı, "Elm və təhsil", 2014, 368 s
8. Qarabağ: folklor da bir tarixdir. I kitab. Tərtib edənlər: Rüstəmzadə İ., Fərhadov Z. Bakı, Elm və təhsil, 2012, 464 s
9. Qarabağ: folklor da bir tarixdir. I kitab. Tərtib edənlər: Rüstəmzadə İ., Fərhadov Z. Bakı, Elm və təhsil, 2012, 464 s
10. Qarabağ: folklor da bir tarixdir. III kitab. Tərtib edən: Rüstəmzadə İ., Bakı, Elm və təhsil, 2012, 468 s
11. Qarabağ: folklor da bir tarixdir. IV kitab. Tərtib edən: Rüstəmzadə İ., Bakı, Elm və təhsil, 2013, 459 s
12. Qarabağ: folklor da bir tarixdir. VII kitab. Tərtib edən: Süleymanova L., Bakı, Elm və təhsil, 2014, 444 s
13. Qarabağ: folklor da bir tarixdir. IX kitab. Tərtib edən: Rüstəmzadə İ., Bakı, Elm və təhsil, 2014, 402 s
14. Şəki FÖ II. Tərtib edən: Süleymanova L. Bakı, Elm və təhsil, 2014, 408 s
15. Şərur FÖ. Tərtib edənlər: Kazımoğlu M; Qasimova F. Bakı, Elm və təhsil, 348 s.
16. Yardımlı FÖ I. Tərtib edən: Məmmədli E. Bakı, Elm və təhsil, 2014, 334 s
17. А.В.Багрий. Фольклор Азербайджана и прилегающих стран. Том 3, 254 с.

E.Amirli

Unclear legend texts in Azerbaijan publications

Summary

Legends have special plot structure and text type like every genre. There are episodic occasions in legends that's why plot of legend is simple. Even there are some legends that we can explain plot within two or three sentences. If text is short, that doesn't mean that plot is incompleted. As we know, legends explain real life facts miraculous. In most of the legends this miraculous explanations are just one story.

Learning certain problems about any genre we should research texts about this genre. For understanding that this text is problematic there is need to recognize full plot version of this text. Learning plots of legends of

Azerbaijan plays important role in discovering fake, traditional but problematic texts.

In Azerbaijan publications there are texts that their plots are incompleted and problematic from informative way. There are some reasons. This problem is about speaker sometimes. Information of speaker is directly proportional with quality of text. If speaker knows information well, then text will be perfect and understandable.

In some of the unclear texts there are names that are unfamiliar to reader. One of the complicated things is being presented of characters. In some of texts reason of certain things is not clear. Also there are some texts that in these episodes are ordered unlogically. Thus, every thing is not completing previous thing. It should be noted that unclear texts are about ignorance of speaker, collector and also developer. Because in collection process collector should be attentive and pay attention that how serious is speaker to text for obtaining more qualitative folklore text.

Э.Амирли

Непонятные тексты легенд в публикациях Азербайджана

Резюме

Как и все жанры, легенды тоже имеют особую структуру сюжета и тип текста. Так как в легендах есть эпизодические случаи, ее сюжет также прост. Есть такие легенды, сюжет которых мы можем объяснить в два-три предложения. Если объем текста маленький, это не значит что сюжет незаконченный. Как известно, легенды объясняют реальные факты как чудесные. В большинстве легенд объяснение как чудесное это описание всего лишь одной истории. Чтобы учить определенную проблему о каком-то жанре надо исследовать тексты относящиеся к этому жанру. Для понимания того, что этот текст проблематичен, надо знать полную версию этого сюжета.

Изучение сюжетов легенд Азербайджана и поддельных, и традиционных, играет важную роль лишь в обнаружении проблематичных текстов. В азербайджанских изданиях есть достаточно текстов с неполными сюжетами, проблематичными с информативной точки зрения. Есть несколько причин проблематичности текста. Эта проблема с определенной стороны связано с оратором. Информация оратора о эпической информации прямо пропорциональна качеству текста. Если оратор хорошо знает эпическую информацию, то текст будет идеальным и

понятным. В некоторых неясных текстах употребляются имена, которые незнакомы читателю. Еще одна запутывающая проблема это неправильное представление персонажа. А в некоторых текстах причина некоторых вещей не ясна. Есть такие тексты, в которых эпизоды упорядочены нелогично. Так как, каждая из цепей мотива, с которым выражено событие, не завершает предыдущую. Отметим, что проблема неясных текстов связано как с не обладанием информацией оратора, так и с неопытностью коллекционера и создателя. Потому что в процессе коллекционирования с внимательностью коллекционера, с обращением внимания оратора к тексту, возможно получение более качественного фольклорного текста.

Rəyçi: Əfsələddin Əsgər
Filologiya elmləri doktoru

XALİDƏ MƏMMƏDOVA
AMEA Folklor İnstitutu
xalide_1978@mail.ru

MÖCÜZƏLİ DOĞULUŞ MOTİVİ VƏ İNİSİASİYA

Açar sözlər: Azərbaycan folkloru, möcüzəli doğuluş motivi, inisiasiya, doğuluş, ölüb-dirilmə
Ключевые слова: Азербайджанский фольклор, мотив чудесная рождения, инициация, рождение, возрождение
Key words: Azerbaijanian folklore, miraculous birth motive, initiation, birth, resurrection

İnisiasiya həm də ölüb-dirilmə anlamına gəlir. Dirilmə isə ölənnin yenidən doğulması kimi mənalandırıla bilər. Yenidən doğulma möcüzəli doğuluş motivinin ayrıca bir növü olaraq qəbul edilməlidir. Möcüzəli doğuluş motivinin özəyində yeni bir insanın yaradılışı və ya doğuluşu dayanırsa, inisiasiya prosesində doğulanın ölüb, bir daha, yəni təkrar doğuluşu müzakirə mövzusu olacaqdır. İlk insanların yaradılmasının aid edildiyi simvolik doğuluş inisiasiyanın da əsasını təşkil edir. Günəş batıb, yenidən doğdu, ifadəsinin kəsb etdiyi mənaya diqqət yetirdikdə aydın olur ki, insanın ölüb yenidən dirilməsi, elə onun yenidən doğması və ya doğulması anlamına gəlir. Avtomatik olaraq bu doğuluşun xarakteri möcüzəli, sehirli xarakterdə mənalandırılır.

Azərbaycan folklor mətnlərində ölüb-dirilmə motivi çox təsadüf edilən situasiyalardan biridir. Rastlanan hər ölüb-dirilmə motivinin möcüzəli doğuluşa aidiyyatı varmı, sualı yaranacağı təqdirdə, ölünün qayıdışı – dönüşü onun təkrar – ikinci dəfə həyata doğuşunu ehtiva edirsə, "bəli" cavabı veriləcəkdir. V. Propp yazır ki, möcüzəli doğuluş motivi həddi-buluğa çatanda yerinə yetirilən simvolik doğuluş formaları ilə əlaqələndirilə bilər (18, 235). C.Bəydili inisiasiya ilə bağlı yazdığı açıqlamaların birində bu fikri bir az başqa tərzdə ifadə etsə də, məzmun üst- üstə duşür: Keçid yaşıyla bağlı inisiasiya mərasimləri fərdin sosial statusunda dəyişikliyi şərtləndirirdi (3, 167). Fikrimizcə, fərdin sosial statusundakı dəyişikliklərlə möcüzəli doğuluş motivi arasında bir əlaqə vardır. Keçirilən inisiasiya mərasimləri qahrəmanın yeni özəlliklərə sahiblənməsinə xidmət göstərib. Simvolik ölüm və ardınca yeni-yeni keyfiyyətdə diriliş ölüb-dirilmə anlamında qavranılıb. Sonradan bu qavrayışın simvolik elementlərə malik mifoloji məzmunu folklora daşınıb. Milli folklor motivlərindən görünür ki, qəhrəmanlar simvolik olaraq deyil, həqiqətən ölüb yenidən dirilirlər. Deməli, burda ölmək

və dirilmək simvolik deyil, həqiqidir, doğuluş isə simvolik xarakter daşıyır. L.A.Sedov qeyd edir ki, möcüzəli doğuluş yenidən doğuluş ideyalarında aşkar edilib (17, 872). "Nardan qız" nağılına nağılına diqqət yetirək. Qısa məzmun ondan ibarətdir ki, qədimlərdə Qoquz adlı bir padşahın gördüyü yuxu münəccimlər tərəfindən yozulur. Deyilir ki, çox keçmədən dünyaya bir qız uşağı gələcək. O, 14 yaşına çatan kimi padşahı öldürəcək. Vəzir uzun zamandan bəri alıb, içini açmadığı sandıqda bir nar görür. Nar əlindən yerə düşüb 14 yaşlı bir qıza çevrilir. Qızı danışdırdıqda məlum olur ki, atası onu erkən evlilikdən qorumaq üçün nara çevirib və sandığın içinə qoyub. Qız cildini dəyişmiş və yenidən doğulmuşdur. Ə.Əsgərin fikrinə görə, nardan qıza çevrilmənin yenidən doğulma kimi qavranılması ideyası meydana çıxır. Bu yöndə sandığın freydist anlayışı maraq doğurur. Həmin anlayışa görə, sandıq qadın bətni kimi simvolizə edilir (7, 82). S. Rzasoy "Əsli və Kərəm" dastanında baş qəhrəmanın ölərək yenidən doğulma prosedurundan keçməsini ana bətninin diğər bir simvolu ilə əlaqələndirib: "Təkcə doğumu – yaradılışı deyil, eyni zamanda bəsləməni və ya bəslənməni mümkün edəcək Yer canlı və cansız bütün varlığın yeganə anasıdır. İnisiasiya ritualının əsas ezoterik obrazlarından biri Yer anadır. Qəhrəmanın yeraltı dünyaya enməsində əsas məqsəd Yer ananın yanında təkrar doğulma- yenidənqurma prosedurundan keçməkdir. Bu halda qəhrəman öz köhnə varlığında ölür və Yer ana onu yeni statusda doğur (13, 259). A. Balkaya yeraltı dünyaya keçidin əsas mexanizmlərindən olan quyu haqqında yazır ki, quyu başqa bir baxışla Yer ananın bətni kimi təsəvvür olunur (14, 60). Yeni statusda doğulmanın möcüzəli xarakterindən danışarkən "Dədə Qorqud" kitabında – "Salur Qazanın evinin yağmalanması" boyunda Uruzun qurban verilmə ritualında dirilmə prosedurundan keçməsinə diqqət yetirək. O, xaoslu statusunda ölməli, kosmoslu statusunda yenidən doğulmalıdır (13, 392).

Bütün bu təsəvvürlərlə yanaşı, bir də belə bir təsəvvür xatırlanır ki, doğulmuş diri adam həyata qayıtmış ölüdür (18, 226). Bu məntiqlə hər bir doğuluşun gizli qatında ölüb-dirilmə sxeminin mövcudluğu müzakirə mövzusu ola bilər. Təbii ki, burda doğuluş simvolik xarakter daşıyır. Amma bəzi nağıllarımız vardır ki, ölüb- dirilmə mahiyyətcə fərqli məzmunda təqdim edilir. Doğuluş mərhumun həyata yenidən qayıdışı şəklində özünü büruzə verir. Çox məşhur "Kəsik baş" nağılında vəzirin qızı möcüzəli şəkildə hamilə qalır. Bu möcüzə isə ölmüş insan kəlləsinin külə döndüyündən xəbərsiz olan qızın ona toxunmasıyla başlayır (1, 165). Ölü, qızın dünyaya gətirdiyi oğlanın simasında yenidən doğulur.Ümumiyyətlə, ölünün həyata qaytarılması üçün onun cəsədindən bir tikə yeməyin lazımlılığı haqqında təsəvvür bir vaxtlar geniş yayılmışdı (18, 218). "Kəsik baş" nağılına əsasən doğulan qəhrəman həyata qayıtmış ölü kimi nəzərdən keçirilə bilir.

Hind-tinqitlərdə eynən buna oxşar bir folkor mətni diqqətimizi çəkir. Mətndən anlaşıldığına görə, ər öz həyat yoldaşını qısqandığı üçün uşaqlarını öldürür. Öldürülən oğlanlardan biri kiçik bir əşyaya çevrilir. Qadın onu udur, yenidən o, oğlanı doğur (17, 872). Ümumiyyətlə Hindistanda mövcud olan karma inancına görə, allahlar və insanlar sonsuz doğuluş zəncirinə daxildilər. Bu isə reinkarnasiya ilə bağlı düşüncələrə gətirib çıxarır. Keçmişlə bağlı xatirələri qismən saxlamaqla insan simasında yenidən doğuluş və matepsixoz, yəni ölümdən sonra ruhun başqa bir varlığa köçürülməsi özünü göstərməkdədir (17, 872).

"Cantıq" Azərbaycan nağılında isə qəhrəman, ümumiyyətlə, ölü doğulur. O, dərvişin köməyilə assimetrik vəziyyətdən çıxır, dirilir və möcüzəli müdaxilə nəticəsində diri şəkildə doğulmağa müvəffəq olur. Tədqiqat zamanı rast gəldiyimiz obyektiv təhlillərə əsasən müəyyən etdik ki, "Cantıq" nağılının qəhrəmanı sonralar nəfəsləndirilmiş (nağıldan açıq-aydın görünür ki, damarı qəhrəmanın bədənindəki yarığa qoyan kimi o dirilir), canlandırılmış ruhdur. Cantıq adının mənası da bunu deyir: Can- ti (k). Ti- nəfəs, həyat vermək, can isə ruh mənasında türk dillərində işlədilir (6, 24). "Ölü Məhəmməd" nağılında isə sehirli almanın köməyilə doğulan qızın qısmətinə ölü yazıldığı dərvişin "xassan, xubsan, ölüyə münasibsən" sözlərindən sonra anlaşılır. Maraqlıdır ki, möcüzəli doğulan qəhrəman ölü üzərində 40 gün Quran oxumaqla onu dirildir. Dirilmə qızın vasitəsilə həyata keçirilir. Burda da inisiasiya rituallarının qalıqları vardır; ölü Məhəmmədin meyidi üzərində yazılmış bu sözlər diqqət çəkir: mənim üçün 40 gün Quran oxunacağı təqdirdə oyancağam (1, 128). Hətta bu, altay türklərində yayğın olan – şamanların ölünü diriltməsi ayinlərini xatırladır. Milli folklorda variantın mövcudluğu yox dərəcəsindədir. Amma cüzi elementlər oxşarlığı inkar etmir. Yakutlardan toplanmış "Şamanın ölən qadını diriltməsi" adlı mətndə söhbət ondan gedir ki, şaman bütün şübhələri yox edərək istədiyinə nail olur. Xəstəlik nəticəsində ölən qadını həyata qaytarmaq üçün mərasim təşkil edir. Qadın dirilir, deməli həm də ikinci dəfə doğulur (2, 186). Düzdür, burda da doğulma insan cütlüyündən baş vermədi, və ya möcüzəli mayalanma nəticəsində ana bətnində inkişaf edib dünyaya göz açmadı. Və ya Tanrının hökmü ilə - sözün gücü ilə yaranış və ya dərvişin etdiyi sehirlərin, tilsimlərin köməyilə doğuluş baş vermədi. Bu doğuluş artıq bir dəfə həyatda olmuş insanın yenindən dirilməsiylə başlayan simvolik doğuluşu anlamına gəlməkdədir.

K.Yunq belə hesab edir ki, ikinci doğuluş ideyası universaldır, şəfaverici sehirlərdə, şamanizmdə də özünü göstərir. Bu zaman isə reinkarnasiya ideyası aktuallaşır (17, 872). Şaman mətnlərindən birində deyilir ki, şaman olacaq insan 7 yaşında şaman xəstəliyinə yaxalanır. Doqquz yaşında ətrafda tanınır və 12 yaşında böyük bir şaman olur.

Hadisələr elə cərayan edir ki, o öncə doğulduğu və yaşadığı evdən 15 km. uzaqda, ikinci dəfə doğulur. Nəql elədiyimiz bu mətnin adlandırılması belə sübut edir ki, ikinci doğuluşu mövzu ilə bağlamaq uyğunsuzluq sayıla bilməz. Belə ki, məlum nümunə " Şamanın möcüzəli doğumu" başlığı ilə təqdim olunur (2, 64). "Şamanın yenidən doğulması" mətnində də uzun illər öncə ölmüş şamanın yaxın zamanda yenidən doğulmasını anladırlar. "İki dəfə doğulan şaman haqqında əfsanə", və " Şamanın üç dəfə dünyaya gəlməsi", "Şamanın yenidən doğulması" (2, 58; 65) və s. bu kimi adlarla qeyd olunmuş çoxsaylı mətnlərdə ölüb-dirilmə motivi ilə möcüzəli doğuluş motivi çarpazlaşır; biri digərini izah edir. Hindistanda brahmanizm dövründə "iki dəfə doğulma" anlayışı və iki dəfə doğulanların taleyi haqqında maraqlı təsəvvürlər mövcud olmuşdur. Yenidən doğulma ideyaları yuxarıda söhbət açdığımız – yeni doğulanın cəmiyyətdəki statusunu şərtləndirmişdir (5, 13). "Manas" dastanında da qəhrəmanın ölüb-dirilməsi onun həyata ikinci dəfə doğulması anlamına gəlir. Oxuyuruq ki, Manası tabuta qoyub dəfn edirlər. (Qeyd edək ki, ana bətnini simvolizə edən elementlər arasında tabutun da adı çəkilir). Amma o, dastandan da göründüyü kimi, məzarda dirilərək yenidən doğulur. Qəhrəmanın xatunu Qanıkey gördüyü yuxunu qayınatasına danışır:

Mənim sahibim Manas torpaq oldu deyirsən
Allah ona can verib həyat tapdı deyirsən... (12, 516)

Bu seir parçasının təhtəlşüurda qorunub saxlanılan arxaik inanc formalarından biri ilə - həm də möcüzəli doğuluş motivinin bağlandığı ilk insanların torpaqdan yaradılması motivi ilə əlaqəsi vardır. Deməli, ilk insanların yaradılmasının təsvir edildiyi mətnlərdə həm də ininsiasiyanın təzahür formalarını sezmək çətin deyil. Etiraf edək ki, torpaqdan yaradılış mətnlərini təhlilə cəlb edərkən mətndə həm də inisiasiya ritualının izlərini görə bilməmişdik. Artıq bir dəfə müraciət etdiyimiz mətnə təkrar dönürük: Tanrının buyuruğu ilə özündən bir parça verməyə razı olmayan torpaq sonucda "əgər mənə qayıdacaqsa" olar, deyərək razılaşır. Onun vahiməli olduğunu görən Əzrayıla torpaq bu sözləri deyir: mənə toxunma, məni yaralama. Əzrayılın "sənnən aparılırsa, sənə qayıdacaq" cavabı torpağı sakitləşdirir. Bu foklor mətnini danışmış söyləyicinin məsələyə maraqlı münasibəti vardır. İnsan torpaxdan yaranıb, torpağa da qismət olacaq (10, 5). Eynilə Manasın ölüb-dirilməsi, torpaq olub yenidən canlanması doğuluşu simvolizə edir.

Oğuz kağanın bir canlı olaraq ölməməsi, yenidən dünyaya qayıtmaq üçün yalnız müvəqqəti olaraq ölməsi və təkrarən doğulması haqqındakı təsəvvür də doğuluşla bağlıdır (8, 23). O.Freydenberqin fikri yada düşür: Hər ölümdə doğuş var (17, 872). Doğuluş ən qədim zamanlardan ümumən məhsuldarlıq, xüsusən yerin həyatverici qüvvəsi ilə əlaqələndirilmişdir. Eləcə də heç bir canlının ölməməsi, yenidən dünyaya qayıtmaq üçün yalnız

müvəqqəti olaraq ölməsi və təkrarən doğulması doğuluşla bağlıdır (8, 23). Orta Asya türklərində çox yayğın olan "Çingiznamə"də adı keçən Duyun Bayanın iştirak etdiyi iki möcüzəli doğuluş motivindən biri ölüb-dirilmə ilə bağlıdır. Birinci epizodda qız bakirə olduğu halda hamilə qalar. Obrazlı ifadələrə görə, "ay və günəş işığından qorunaraq böyüdülən Ülemalik bir gün günəşin necə bir şey olduğu ilə maraqlanar. Sonra dayələrdən pəncərələrin açılmasını istər. Günəş işığı otağa dolar-dolmaz qız hamilə qalar. Doğulan uşağa Duyun Bayan adını verərlər. İkinci epizodda isə Duyun Bayanın ölərkən etdiyi vəsiyyətin məzmunu bütünlüklə onun bir daha doğulacağını işarələyir: "... Ey xalqım, mən öldükdən sonra xatunum Alanqoya döl olub enəcəm, o zaman bu yurda layiq bir oğul peyda olur". Hadisələr vəsiyyətini tamam edib gözlərini yuman Duyın Bayanın proqnoz verdiyi kimi cərəyan edər: Bəlli bir zaman sonra Alanqo yuxarıda anladıldığı kimi hamilə qalar və doğulan uşağa Çingiz adı verilər". Aydın olur ki, burda möcüzəli doğuluş motivi ikinci dəfə dünyaya gəlməni şərtləndirir, döl olub xatunun bətninə girən Duyın Bayan Çingiz simasında yenidən doğulur (15, 115).

"Koroğlu" dastanının Orta Asiya variantında Koroğlunun məzarda doğulması motivi də möcüzəli doğuluşun növlərindən biri kimi tədqiqatçıların əsas obyekti olmuşdur. Dastanın özbək və türkmən variantlarında Rövşən, sonradan isə Göroğlu adlandırılan qəhrəman ölmüş anasının bətnində əvvəlcə torpağa dəfn edilir. Sonra isə ölmüş qadından doğularaq süd əmməyə başlayır; bir müddət belə yaşadıqdan sonra qəbri deşib çıxır (4, 252).

Azərbaycan variantında isə Koroğlunun məzarda doğulması epizoduna rast gəlinmir. Amma iynə ucu qədər işığın düşmədiyi bir axurda bəslənib yetkin bir ata çevrilən Qıratın uzun müddət işıqsız bir yerdə qalması qəhrəmanın məzarda doğulması ilə eyni taleni paylaşmasından qaynaqlanmaqdadır. Yəni qəhrəmanın doğuluşuna paralel şəkildə o da qaranlıq bir aləmdən bu dünyaya gəlmişdir (16, 15).

Amma milli folklorumuzda elə mətnlər toplanılmışdır ki, qəbirdə dirilib ikinci dəfə həyata qayıdan insanlarla bağlı rəvayətə həsr olunub. "Ölünün dirilməsi" adlı mətn mərhumun üç mərasimi keçirilən zaman baş vermiş möcüzəni anladır. İlk olaraq qəbiristanlıqda qoyun otaran çobanı məzardan gələn səs diksindirir: Qorxma, ey, buranı aç, burdan çıxım". Məlum olur ki, qəbirdə ölünün burnundan qan açılıb və o, ikinci dəfə həyata qayıdıb" (11, 137). Bu mətn göstərir ki, ölünün dirilməsinə inamla bağlı təsəvvürün qalıqları hələ yaşamqdadır; bütün mətni nəzərdən keçirdikdə anlaşılır ki, ölü qəbirdə dirilir və onu yenidən evə gətirirlər.

Ölüb-dirilmə motivini möcüzəli doğuluş motivi ilə uyğunlaşdırmaq məntiqli görünməyə bilər. Həqiqətən də hər iki motvin tarixi köklərində

duran inanc formaları müxtəlifdir. Amma dünya xalqlarının miflərinə həsr olunmuş kataloqda möcüzəli doğuluş və ölüb dirilmə motivlərinin qarşılaşdırılmasının vacibliyi vurğulanmışdır (17, 872). Nəzərdən qaçmamalı olan nüans ondan ibarətdir ki, hər iki motivdə "yeni insan" baş qəhrəmana çevrilir. İnisiasiya rituallarının epik folklora daşınmış bəzi nümunələrində (müəyyən sayda misal göstərdik) biz dirilməni şərti olaraq doğuluş adlandırmışıq. Bu isə, adi doğuluş deyildir, yuxarıda da vurğuladığımız kimi, xarakterinə görə möcüzəli doğuluşun xüsusi bir növü kimi simvollaşdırılıb. Digər əsas növlər kimi, ölüb- dirilərək baş verən simvolik doğuluşun əski etiqadlarla bağlantısı olsa da, (məsələn, insanın ölümsüzlüyü haqda təsəvvürlər) məsələyə digər folklor abidəsi olan "Dədə Qorqud" kitabında fərqli mövqe ilə münasibət bildirilmişdir: Ölən adam dirilməz, çıxan can gerü gəlməz (9, 31).

Ədəbiyyat

1. AFK, X cild, X kitab. Bakı. Nurlan, 2008, 400 s.
2. Bayat F. Türk şaman metinleri (efsaneler ve memoratlar). Ankara, 3 OK. 2005. 307 s.
3. Bəydili C."Türk mifoloji sözlüyü". Bakı, Elm, 2003:418 s.
4. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəiyyatı. Bakı, Maarif. 1981, 400 s.
5. Əliyev Ayvazlı B. Hindistan etnoqrafiyası. Bakı. Elm və təhsil. Bakı, 2017, 234 s.
6. Əliyev R. Türk mifoloji düşüncəsi və onun epik transformasiyaları (Azərbaycan mifoloji mətnləri əsasında). Filologiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı. 2006, 280 s.
7. Əsgər Ə." Azərbaycan sehirli nağıllarında qəhrəman: səciyyəsi və mənşəyi". F.e.n alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasya. Bakı, 1992
8. İmaməliyev E. Türk yaradılış mifləri və azərbaycan əfsanələri. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı. 2015. 156 s.
9. Kitabi Dədə Qorqud, Bakı, Yazıçı, 1988, 266 s
10. Qarabag: Folklor da bir tarixdir, III kitab (tərtib edəni: İ.Rüstəmzadə), Bakı, Elm və təhsil. 2012:468 s
11. Qarabağ folklor da bir tarixdir.VI kitab. Toplayıb tərtib edəni, Süleymanova Vaqifqızı L. Bakı. Zərdabi LTD. 468 s.
12. Ögəl B. "Türk mifologiyası" (tərcümə edəni: R.Əskər). Bakı, MBM, 2006. 626s

13. Rzasoy S. “Azərbaycan dastanlarında şaman-qıhrəman arxetipi”. Bakı, elm və təhsil, 2015, 436 s.
14. Balkaya A. Milli folklor, 2014, cild 26, say102: 60.
15. Bekki S.. Bazı halk anlatıları ve dini metinlere göre kahramanın mucizevi (babasız) doğumu, Türk kültürü və hacı bektaşi veli araşdırma dergisi, 2011
16. Özkan F. Altın Arığ Destanı. Ankara, Bilgi yayınları, 1997, 343 s.
17. Мифы народов мира. Москва советская енсиклопедия, 1980, 1147 с.
18. Пропп В.Я. Фольклор и действительность . Москва, Наука, 1976, 324 с.

Kh.Mammadova

Miraculous birth motive and initiation

Summary

Innovation also means die and resurrection. The resurrection can be interpreted as rebirth of the dead. Rebirth should be regarded as a separate type of miraculous birth motive.

If the creation or birth of a new human being lies at the heart of the miraculous birth motive, it will be the subject of debate in the process of the iniation, once again, that is, the reproduction. The symbolic birthmark of the creation of the first human beings is also the foundation of the Initiation.

When the sun is sinking and reborn, it is clear that the meaning of the phrase is that man's death and resurrection means rebirth or birth.

The nature of this birth is automatically interpreted as miraculous, magical. The article refers to Azerbaijani folklore texts. The materials were compared with folklore samples of other Turkic and world peoples.

X.Мамедова

Мотив чудесная рождения и инициация

Резюме

Инициация также означает умереть и воскреснуть. Воскрещение можно интерпретировать как возрождение мертвых. Возрождение следует рассматривать как отдельный тип чудесного мотива рождения. Если в основе чудесного мотива рождения, лежит рождение или возрождение нового человека , то в процессе инициации, темой

обсуждения является смерть рожденного и повторно его возрождение . Символическая рождения посвященное сотворения первых людей является основой инициации.

Когда солнце опускается и возрождается, становится ясно, что смысл фразы заключается в том, что смерть и воскрещение человека означают возрождение или рождение. Природа этого рождения автоматически интерпретируется как чудесная, волшебная.

В статье упоминаются Азербайджанские фольклорные тексты. Материалы сравнивались с фольклорными образцами других тюркскмх и мировых народов.

Rəyçi: Ramazan Qafarlı
Filologiya elmləri doktoru

PƏRVANƏ QULİYEVA
Gəncə Dövlət Universiteti
pervaneelmar@rambler.ru

ELM VƏ MƏDƏNİYYƏT TARİXİNDƏ XİDMƏTLƏRİ OLAN (Ü.HACIBƏYOV, S.VURĞUN, M.ARİF) ŞƏXSİYYƏTLƏRİN YARADICILIQLARI HAQQINDA

Açar sözlər: ədəbiyyat, sənətkar, milli, tarixi proses, mədəniyyət.
Ключевые слова: литература, мастер, национальный, исторический процесс, культура.
Key words: literature, craftsman, national, historical process, culture.

Bəşəriyyətin ən yüksək şüuru elmdir. Dahi müəllimlərin, alimlərin öz ətindən, qanından yaratdıqları əsərlər günəşə bənzər. Zirvəyə gedən yolu tapmaq üçün elmi məşəl edib onlar. Göylərə qaldırıb elm onları.

İnsan nə qədər savadlı, elmli, bilikli olarsa, mənəviyyatı da zəngin olar, vətəninə, xalqına bir o qədər də çox fayda verər. Elm və mədəniyyət tarixində xidmətləri olan Ü.Hacıbəyov, S. Vurğun, M.Arif kimi şəxsiyyətlərin yaradıcılıqları çox zəngindir. Bu dahi şəxsiyyətlər görkəmli ədəbiyyat tarixçisi, istedadlı ədəbiyyatşünas, filosof kimi elm və mədəniyyətimizin salnaməsinə parlaq səhifələr yazmışlar.

"...Dünya musiqi yaradıcılığı üçün Üzeyir Hacıbəyovun əhəmiyyəti böyükdür. O, bütün bəstəkarlar aləminə göstərmişdir ki, xalq mahnısı ilə, xalq musiqisi sərvətləri ilə necə rəftar etmək lazımdır? Üzeyir Hacıbəyov xalq mahnısını dərindən öyrənməklə, öz əsərlərində xalq yaradıcılığı xəzinəsindən istifadə etməklə kifayətlənməmiş, bu xəzinənin sərvətlərini öz fərdi yaradıcılıq laboratoriyasından keçirmişdir. Elə buna görə də onun əsərləri son dərəcə xəlqidir, son dərəcə demokratikdir. İndi xarici Şərq ölkələrinin bir çox musiqi mədəniyyətləri ilk addımlarını atdıqları bir vaxtda onlar üçün Üzeyir Hacıbəyovun yaradıcılığı, bəstəkarlıq təcrübəsi həlledici əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, Şərqin müasir bəstəkarları Üzeyir Hacıbəyovu "Şərq musiqisinin atası" adlandırırlar." ("Kommunist" qəzeti . 21 noyabr 1975 – ci il, səh. 3).Ü. Hacıbəyovun milli varlığımıza söykənən, geniş, rəngarəng yaradıcılığında xalq dühasının müxtəlif formalarından, janrlarından xalq dühasının müxtəlif formalarından, janrlarından (atalar sözü, bayatılar, mahnılar, lətifələr, dastanlar, xalq şerləri və s.) yerinə, mövqeyinə, məqsədinə uyğun olaraq, yaradıcılıq məharəti ilə ifadə olunur. Böyük bəstəkar dərin məhəbbətlə sevdiyi Məhəmməd Füzuli yaradıcılığından orjinal formada istifadə etmiş, bütün yaradıcılığı boyu bəhrələnmişdir.

Hər sənət əsərinin çarpan ürəyi, saf və səmimi bir ilhamdır. İlhamsız yazılan bir əsər məhəbbətsiz bir ailə kimi sönükdür. Ən böyük və xoşbəxt sənətkarlar öz ilhamını xalq mənəviyyatından. Onun yüksək əməl və arzusundan alır. Üzeyir də belə bir sənətkardır. "Koroğlu" operasının da əsl qüvvəti və məziyyəti xalqımızın mənəvi həyatından alınan böyük bir ilhamdadır... Üzeyir sənəti kamala yetmiş bir sənətdir. Lakin insan kamalının hüdudu yoxdur ..."Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur. Səməd Vurğunun ədəbi–nəzəri irsi çox zəngindir. Böyük mütəfəkkir şairin müxtəlif illərdə ədəbiyyat və sənət xadimləri haqqında yazdığı məqalələr, söylədiyi rəngarəng fikirlər, mülahizələr dərin məzmununa, fikir yeniliyinə görə əhəmiyyətlidir, nəzəri təfəkkürümüzün işıqlı səhifələrindəndir. Səməd Vurğun həm bədii əsərləri, həm də dərin elmi fikirlərlə maraqlı əsərləri ilə zəmanəsinin tanınmış görkəmli sənətkarları ilə bir sırada dururdu. Şairin nəzəri baxışları klassik və müasir dünya ədəbiyyatı təcrübəsi ənənələri və ən yeni miqyaslı problemlərlə bağlıdır.Səməd Vurğun ədəbiyyatşünaslığın, ədəbi tənqidin, ümumiyyətlə ictimai elmlərin inkişafına, dünya elmi–nəzəri fikirləri ilə daima yeniləşməsinə böyük qayğı göstərirdi. Respublika Elmalər Akademiyasının həqiqi üzvü, ictimai elmlər üzrə vitse prezident vəzifəsində çalışması onun elmin istedadlı təşkilatçısı olduğunu sübut edirdi.Azərbaycan nəzəri – estetik fikrin və ümumiyyətlə ədəbiyyatın inkişafına göstərdiyi misilsiz xidmətlərə görə Azərbaycan Dövlət Universitetinin elmi şurası tərəfindən ona filologiya elmləri doktoru alimlik dərəcəsi verilməsi Səməd Vurğunun ədəbi–tənqidi və nəzəri təfəkkürünün zənginliyini təsdiq edirdi. Səməd Vurğun ömrü boyu xalqın mədəniyyətini, onun tarixini müdafiə etmiş, sərvətləri tükənmək bilməyən irs qoyub getmişdir. Şair böyük sənət uğrunda "həm yaradıcılıq mübarizəsi, həm də nəzəri mübarizə" aparırdı. Səməd Vurğun deyirdi ki, - yazıçı, sənətkar, elm xadimi zəmanəsinin, əsrinin, yaşadığı dövrün, mənsub olduğu xalqın ideoloqu və filosofu olmalıdır. Ədəbiyyatımızın, mədəniyyətimizin tarixini işıqlı bir təfəkkürlə izləyən şair ədəbi – tənqidi əsərlərində, çıxış və məruzələrində sənət və ədəbiyyatın problemlərinə dair bu gün də elmi dəyərini saxlayan, ictimai–siyasi, fəlsəfi fikrimizin yaraıcılıq problemlərinin diqqət mərkəzində olan fikirlər söyləmişdir.Xalq şairi adını daşımaq Azərbaycanda ilk dəfə Səməd Vurğuna nəsib olmuşdu. Ancaq bu ad rəsmən verilməmişdən xeyli əvvəl də o, xalq şairi şöhrətini, ümumxalq məhəbbətini qazanmışdı. Şair hər yerdə, hər kənddə, hər obada, hər məclisdə sevinc və ehtiramla qarşılanır, alqışlanır, onunla hər görüş təntənəyə çevrilirdi; xalq istəyi qarşısı alınmaz, gündən-günə coşub–daşan bir sel kimi axıb gedir, yeni–yeni ürəklər fəth edirdi. Bu

ümumxalq məhəbbətinin səbəbini isə şair çox sadə, lakin dəqiq təyin etmişdi:

Mən ellər oğluyam, ellər canımdır!

M. Arif Azərbaycan ədəbi prosesinin irəli sürdüyü problemləri elmi – nəzəri əsərlərində, monoqrafiyalarında işləyib hazırlamışdır. Alim ədəbiyyatşünaslığın nəzəri problemlərini ən yeni təfəkkür işığında həll edərkən, sənətdə, yaradıcılıq axtarışlarında bədii həqiqətin inikas forması, ədəbi irs və milli məsələləri ön plana çəkirdi. Yazıçının, sənətkarın həyata münasibətini, gerçəkliyi doğru – düzgün əks etdirmək üsulunu zəruri hesab edirdi.

Yeni və ən yeni Azərbaycan poeziyasının bayraqdarı Səməd Vurğun qürur hissi ilə Məmməd Arifi Azərbaycan tənqidinin vicdanı adlandırırdı. "Cəfər Cabbarlının yaradıcılıq yolu" monoqrafiyasını böyük ədəbiyyatşünaslıq əsəri kimi yüksək qiymətləndirirdi. Böyük alim, gözəl yazıçı Mir Cəlal Paşayev yaradıcı şəxsiyyət, görkəmli alim, işıqlı ziyalı Məmməd Arif Dadaşzadə haqqında həmişə məhəbbətlə danışır və yazırdı: "Dərin biliyi, tükənməz istedadı, xalqına xidmət etmək həvəsi sayəsində M.Arif oxucuların, xüsusən yaradıcı ziyalı nümayəndələrinin çox böyük hörmətini qazanmışdır." Akademik Mirzə İbrahimov yazırdı: "Azərbaycanda tənqid və ədəbiyyatşünaslığın inkişafı tarixində Məmməd Arif Dadaşzadənin xüsusi rolu və xidmətləri vardır." Məşhur tənqidçi Zoya Kedrina Məmməd Arifin "Azərbaycan ədəbiyyatı tarixi " əsərini oxuduqdan sonra belə qənaətə gəlimşdi: "Məmməd Arifin kitabı həqiqətən mədəniyyətlərin dostluğunun ifadəçisi adlana bilər." Xalq yazıçısı Süleyman Rəhimov deyirdi ki, ...M.Arifin yaradıcılıq aləmində mənəvi məsuliyyət hissi güclüdür. "Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Məmməd Arif eyni zamanda onun bilavasitə yaradıcılarından biridir." (Vahid Zahidov. Özbəkistan Elmlər Akademiyasının Akademiki).Çoxcəhətli, zəngin maraqlı və məhsuldar yaradıcılıq yolu keçmiş Məmməd Arif müəllim 20–ci illərin kəskin, ziddiyyətli ədəbi döyüşlərində də milli ədəbiyyat və mədəniyyət uğrunda mübarizə meydanına atılmış, süngüyə çevirdiyi qələmi, aydın dünyagörüşü ilə ədəbi və ictimai mühitin diqqətini cəlb etmişdir. Ədəbi tənqid və ədəbiyyatşünaslıqla ciddi məşğul olmaqla yanaşı tərcümə sahəsində də qələmini sınamışdır.Bax, elə buna əsasən də demək olar ki, Azərbaycan ədəbiyyatının inkişafında və yüksəlməsində, xəlqilik və müasirlik cəhətdən püxtələşməsində akademik Məmməd Arifın əməyi xüsusilə qeyd olunmağa layiqdir. O, ədəbiyyatımızın ideoloji saflığı uğrunda iyirminci illərin ikinci yarısından başlayaraq bu vaxtadək yorulmadan çalışır.

Akademik M.Arif zəngin, rəngarəng elmi yaradıcılığında: "...sinifin eşidən qulağı, görən gözü, danışan dili" ədəbiyyatın keşiyində durmuşdu və ömrünün 50 ilini milli ədəbiyyatımızın nəzəri problemlərinə həsr etmişdir.

Ədəbiyyat:

1. M.Cəfər. “Məmməd Arif. Sovet ədəbiyyatı haqqında nəzəri fikirləri”. “Azərbaycan” jurnalı. № 10, 1976.
2. S.Vurğunun. böyük sənət haqqında. “Kommunist” qəzeti, 24 avqust, 1986, № 197.
3. K.Talıbzadə, “Vətəndaş Şair” Bakı, 1975.
4. S.Vurğun. “Kommunist qəzeti” , 10 noyabr, 1975.
5. Şamil Salmanov. “Azərbaycan şerinin ənənə və novatorluq problemi”. Bakı, “Elm”, 1980.
6. P.Tağıyev. Azərbaycan Sovet dramaturgiyasının baniləri, Bakı, 1979.
7. P.Tağıyev. Xatirələrdə yaşayacaqlar. Bakı, 1985.
8. P. Xəlilov. Nəsrimizin üfüqləri. Bakı, 1982.

P**.Quliyeva**

About the creation of persons with the science and cultural heritage (u.hacibeyov, s.vurgun, m.arif)

Summary

Ü. Hajibeyov regarded the science and culture as the brave, intelligent son of the great God, the people of Azerbaijan, the theater and the art as a renaissance in the progress and prosperity of the people, and served with unprecedented talent for its prosperity.

Samed Vurgun was the heart of the people. He praised Azerbaijan, its past and present. The fire, the fate, the history of the land of the fire. The main idea of his works was the philosophical and poetic essence of the leading idea. He was a singer of the new world. The poet, in his heart, is in constant love with the people, proud of his great past, with the names of Nizami, Fuzuli, Vagif, Akhundov, Sabir and Jabbarli.

Mammad Arif's literary criticism is the basis of his scientific creative search. To become a true literary critic, you need a high, comprehensive, profound knowledge, unique talent and culture. Academician M. Arif's scientific-theoretical ideas brought to Azerbaijan's literary criticism have become a source of material energy for almost all literary writers in the following years, and he has proved to be absolutely right and vital.

He wrote vivid pages in the Chronicle of our science and culture, with his wonderful philosophical thoughts, as one of the twentieth century's great figures, U.Hajibeyov, S.Vurgun, M.Arif, as a miracle in the universe. These thinkers have seen the happiness of their people in freedom and

independence and sought the most successful and successful ways to implement these ideals.

П.Кулиева

О творчестве личностей (у. гаджибеков, с. вургун, м. ариф), имеющих заслугу в истории науки и культуры

Резюме

У. Гаджибеков считал науку и культуру смелым, умным сыном великого Бога, народа Азербайджана, театра и искусства как возрождение прогресса и процветания народа и с беспрецедентным талантом служил его процветанию.

Самет Вургун был сердцем народа. Он высоко оценил Азербайджан, его прошлое и настоящее. Огонь, судьба, история земли огня. Основной идеей его произведений была философская и поэтическая сущность ведущей идеи. Он был певцом нового мира. Поэт в своем сердце постоянно любит людей, гордится своим великим прошлым, именами Низами, Физули, Вагифа, Ахундова, Сабира и Джаббарлы.

Литературная критика Мамеда Арифа является основой его научного творческого поиска. Чтобы стать настоящим литературным критиком, вам нужны глубокие, всесторонние, глубокие знания, уникальный талант и культура. Научно-теоретические идеи академика М. Арифа, доведенные до литературной критики Азербайджана, стали источником материальной энергии почти для всех литературных авторов в последующие годы, и он оказался абсолютно прав и жизненно необходим.

Он написал яркие страницы в «Хронике нашей науки и культуры» с его замечательными философскими мыслями как один из великих деятелей XX века, У. Гаджибеков, С. Вургун, М. Ариф, как чудо во вселенной. Эти мыслители видели счастье своего народа в свободе и независимости и искали наиболее успешные и успешные способы реализации этих идеалов.

Rəyçi: Yeganə Hüseynova
filologiya üzrə fəlsəfə doktoru

MÜNDƏRICAT

DİLÇİLİK

ƏSMƏTXANIM MƏMMƏDOVA
MÜASİR FARS DİLİ SEQMENTASİYASINDA / CKIPLƏŞƏN CNOVLU / SAMİTLƏRİN FONETİK SƏCİYYƏSİ 3
LEYLA MAHMUDOVA
FARS DİLİNDƏ ƏLAVƏLƏR 10
ZƏRİFƏ MƏMMƏDOVA
MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ MƏSDƏR TƏRKİBLƏRİ 15
GÜLNARƏ CABBAROVA
RZU ŞƏFİYEVA
MÜASİR İNGİLİS DİLİNDƏ KAUZATİV SİTÜASİYANIN RUS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ İFADƏ ÜSULLARI 20
KÖNÜL SƏMƏDOVA
OĞUZ QRUPU TÜRK DİLLƏRİNDƏN AZƏRBAYCAN DİLİNİN ŞİMAL-QƏRB QRUPU DIALEKT VƏ ŞİVƏLƏRİNDƏ SAİTLƏR VƏ VARIANTLARININ QIPÇAQ DİLLƏRİNƏ İNTEQRASİYASI 25
YEGANƏ ORUCOVA
SİYASI KOMMUNİKASİYA İRONIYA PRIZMASINDAN (FRANSIZ DİLININ MATERIALLARI ƏSASINDA) 33
РАФИГА РУСТАМОВА
О НЕКОТОРЫХ ОСОБЕННОСТЯХ ОНОМАТОПЕИ 43
ÇIMNAZ MƏMMƏDOVA,
RASIMƏ ƏSGƏROVA
ƏDƏBİYYATDA ANTROPONİMLƏRİN ÜSLUBİ XÜSUSİYYƏRLƏRİ 49
AYTƏN ƏHMƏDOVA
QOŞMALARIN CÜMLƏ ÜZVÜ OLAN ZƏRFLİK KİMİ İŞLƏNMƏSİ 54
KƏMALƏ MEHDİXANLI
İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESINDƏ YAZILI NİTQDƏN İSTİFADƏ EDİLMƏSİ QAYDALARI HAQQNDA 62
SEVİNC BAĞIROVA
İNGİLİS DILINDƏ SƏRBƏST DANIŞIQ PROSESİNDƏ STİMUL YARADA BİLƏN FEİLLƏR VƏ ONLARIN ƏSAS FUNKSİYALARI 67

XƏYALƏ RƏSULZADƏ
SÖZÜN LEKSİK VAHID KİMİ ÜMUMI XÜSUSIYYƏTLƏRİ..... 72
RUHƏNGİZ MƏMMƏDOVA
ALI MƏKTƏBLƏRDƏ TƏHSİL ALAN ƏCNƏBİ TƏLƏBƏLƏRİN AZƏRBAYCAN DİLİNDƏ ŞİFAHI VƏ YAZILI NİTQİNİN FORMALAŞDIRILMASI 78
RÜBABƏ MUSAYEVA
MÜASİR İNGİLİS DİLİNDƏ NİTQ HİSSƏLƏRİNİN TRANSFORMASİYASI VƏ ONUN AZƏRBAYCAN DİLİ İLƏ MÜQAYİSƏLİ XARAKTERİSTİKASI 84
ГЮЛАР НАЗИРОВА
ИНОЯЗЫЧНЫЕ СЛОВА В ЛЕКСИКЕ СОВРЕМЕННОГО РУССКОГО ЛИТЕРАТУРНОГО ЯЗЫКА 89
KƏMALƏ HÜSEYNOVA
İRADƏ VƏLİYEVA
DİSKURSUN TƏHLİLİ PROSESİNDƏ PROPOZİSİYANIN PRAQMATİK SƏVİYYƏSİ VƏ MƏTNDAXİLİ ƏLAQƏLİLİYİN KOQNTİV ŞƏRHİ 94
LALƏ HÜSEYNOVA
MÜXTƏLİF SİSTEMLİ DİLLƏRDƏ İNFINİTİVİN LEKSİK - SEMANTİK BAXIMDAN MÜQAYİSƏLİ ARAŞDIRILMASI VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ
(İngilis və Azərbaycan dilləri materialları əsasında) 99
LEYLAXANIM NƏCƏFOVA
FİRƏNGİZ PƏNAHOVA
MÜASİR İNGİLİS DİLİNDƏ PREFİKSLƏRİN MORFOLOJİ ƏLAMƏTLƏRİ VƏ SİNTAKTİK FUNKSİYALARI 104
ЛЕЙЛА ЭМИНОВА
ГЮЛЬНАРА ИСМАИЛОВА
НЕКОТОРЫЕ ВИДЫ НЕОЛОГИЗМОВ В СОВРЕМЕННОЙ АНГЛИЙСКОМ ЯЗЫКЕ 109
НИНА БУНЯТОВА
ЛЯМАН АХУНДОВА
РИТОРИЧЕСКИЕ ПРИЕМЫ И ВОЗНИКНОВЕНИЯ ТЕОРИИ РЕЧЕВЫХ АКТОВ В СОВРЕМЕННОЙ ЛИНГВИСТИКЕ И ФИЛОЛОГИЧЕСКОЙ ФИЛОСОФИИ
(На материалов Английского языка) 114
ÇİMNAZ SƏLİMOVA
NAİLƏ HACIYEVA
MÜASİR İNGİLIS DİLİNDƏ XITAB VƏ ONUN MÜXTƏLİF NÖV FORMALARI..... 119

BƏNÖVŞƏ ƏSGƏROVA
MÜASIR İNGİLİS DİLİNDƏ SABİT SÖZ BİRLƏŞMƏLƏRİNİN TƏRCÜMƏ PROBLEMİ 124
LİANNA AXUNDOVA (ƏMRAHOVA
İDEONİMLƏRİN ƏHATƏ DAİRƏSİ VƏ ONLARDA ADLANDIRMA PRİNSİPİ 129
PAKİZƏ MƏMMƏDZADƏ
AMERİKAN VARİANTINDA İNGİLİS DİLİNİN EKSTRALİNQVİSTİK
AMİLLƏRİ, MƏQSƏD VƏ VƏZİFƏLƏRİ 134
ÇİMNAZ ALXASOVA
AYTƏN HACIYEVA
MÜASİR İNGİLİS ƏDƏBİ DİLİNİN SEMİSİOLOGİYASINDA OMONİMLƏRİN ÇOXMƏNALI SOZLƏRDƏN FƏRQLİ
VƏ OXŞAR XÜSUSİYYƏTLƏRİ 139
NİGAR HƏSƏNOVA
FƏXRİYYƏ ABDULLAYEVA
DİLÇİLİK ELMİNDƏ FRAZEOLOGİZMLƏRİN TƏDQİQİ,ÖYRƏNİLMƏ TARİXİ,GÖRKƏMLİ ALİM VƏ TƏDQİQATÇILARIN BU SAHƏDƏ FİKİR,
RƏY VƏ MÜLÜHİZƏLƏRİ 144
RASIMA TEYMUROVA
EFFECTIVENES OF A TOPIC SENTENCE IN
THE WRITING PROCESS 149
SOLTANXANIM MUSAYEVA
MÜASİR İNGİLİS DİLİNDƏ METAFORİZMLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ EKVİVALENTLƏRİ 154
SAFURA İBRAHİMOVA
QƏDİM İNGİLİS DİLİNİN LÜĞƏT TƏRKİBİNDƏ BAŞ VERƏN SEMANTİK TRANSFORMASİYA VƏ DİL ƏLAQƏLƏRİ 159
SOLMAZ HACİYEVA
TƏRCÜMƏŞÜNASLIĞIN NƏZƏRİ PROBLEMLƏRİ VƏ ONUN İNKİŞAFINA DAİR DİLÇİ ALİMLƏRİN RƏY VƏ MÜLAHİZƏLƏRİ
(İngilis dili materialları əsasında) 164
NARMİNA QULİYEVA
RUQİYYA SƏFƏROVA
ZOOMETAFORİK TƏRKİBLİ CÜMLƏLƏRİN İNGİLİS DİLİNİN TERMİNOLOJİ SİSTEMİNDƏ İŞLƏNMƏSİ VƏ ONLARIN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİ YOLLARI 169

BAHAR XƏLİLOVA
DİLÇİLİKDƏ ''KONSEPT'' ANLAYIŞI 174
SEVINC AĞAYEVA
DİLLƏRARASI ÜNSİYYƏTDƏ KONSEPT VƏ DİL
VAHİDLƏRİNİN MÜVAFIQLİK PROBLEMİ..... 184
KÖNÜL HÜSEYNOVA
DİL FAKÜLTƏLƏRININ AŞAĞI KURSLARINDA
TƏHSİL ALAN TƏLƏBƏLƏRƏ QRAMMATİK VƏRDİŞLƏRİN
AŞILANMASININ ELMİ- NƏZƏRİ ƏSASLARI..... 190
KÖNÜL NƏCƏFOVA
QEYRİ –İXTİSAS FAKÜLTƏLƏRİNDƏ İNGİLİS DİLİNİN
TƏDRİSİNİN SƏMƏRƏLİ YOLLARI 195
TƏRANƏ ZEYNALOVA
MÜASİR DİLÇİLİKDƏ DİSKURS VƏ MƏTN 200
GUNAY ORUCOVA
MÜASİR BRİTANİYADA UŞAQ ƏDƏBİYYATI..... 205
NAHİDƏ İMANOVA
EMOSİYA İFADƏ EDƏN MƏTNLƏRİN PRAQMATİKASI 211
GÜNAY AIIYEVA
TƏLƏBƏLƏRİN MƏDƏNİYYƏTLƏRARASI ÜNSİYYƏT
BACARIQLARININ İNKİŞAFINDA KEYS METODUNDAN
İSTİFADƏNİN MƏQSƏDİ 217
NİGAR FƏRƏCOVA
SAİT SƏSLƏRİN TƏDRİSİ VƏ ORFOEPİK
QAYDALARDA YERİ 224
İRADƏ MƏMMƏDOVA
THE IMPORTANCE OF KNOWING LANGUAGE TEACHING
APPROACHES-THEORIES OF SECOND LANGUAGE
ACQUISITION 229
КЯМАЛЯ ЮСИФЛИ
ХУДОЖЕСТВЕННЫЙ ТЕКСТ КАК КОММУНИКАТИВНАЯ
ФОРМА РЕЧИ 235
АЛИЯ АБАСКУЛИЕВА
ПРИМЕНЕНИЕ ТЕХНОЛОГИИ «ИНТЕЛЛЕКТ-КАРТ»
НА УРОКАХ АНГЛИЙСКОГО ЯЗЫКА 240
ЛЕЙЛА МУРАДАЛИЕВА
ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ МЕЖЪЯЗЫКОВОЙ
ИНТЕРФЕРЕНЦИИ В УСЛОВИЯХ БИЛИНГВИЗМА 245
NÜŞABƏ İSMAYILOVA
MÜXTƏLİF DİLLƏRDƏ MÜXTƏLİF DƏYİŞİKLİKLƏR 250

NABAT İBRAHIMOVA
MƏKAN MƏZMUNLU SÖZLƏRİN LEKSİK SEMANTİKASI 257
YAQUT HACIYEVA
AUTONOMOUS LEARNING OF THE ENGLISH LANGUAGE 266
GÜLNARƏ NƏSİBOVA
NİTQ MƏDƏNİYYƏTI VƏ TARİXİ 271
RƏVANƏ QULİYEVA
SUAL CÜMLƏSİ ÜZƏRİNDƏ İŞİN BƏZİ İSTİQAMƏTLƏRİ 276
РАМИЛЯ ГАМИДОВА
О СВОЕОБРАЗИИ ИСПОЛЬЗОВАНИЯ
НАИМЕНОВАНИЙ ПРАЗДНИКОВ В НОВГОРОДСКИХ
БЕРЕСТЯНЫХ ГРАМОТАХ 282

ƏDƏBİYYATŞÜNASLIQ

XƏLİL YUSİFLİ
NİZAMİ GƏNCƏVİNİN ANA DİLİNDƏ ŞEİRLƏR
"YAZMASI" HAQQINDA 290
SƏBA NAMAZOVA
AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNÜN
PUBLİSİSTİKASI 296
ŞƏBNƏM XƏLİLZADƏ
CON MAKSVEL KUTZENIN "BARBARLARI GÖZLƏYƏRKƏN"
ROMANINDA IRQÇILIYIN IFŞASI 303
AYŞƏN MƏMMƏDRZAYEVA
TARİXI ROMANLARDA ZAMAN DƏYİŞMƏSİ 308
ŞƏFƏQ VƏLİYEVA
İLYAS ƏFƏNDİYEVİN ƏDƏBİ ÜSLUBU 316
İLHAMƏ BAXŞƏLIYEVA
SOVET DÖVRÜ AZƏRBAYCAN ROMANINDA
İLK ZİYALI OBRAZI 325
MÜZƏFFƏR İBRAHİMOV
WHAT EVERY NOVICE TRANSLATOR SHOULD KNOW 332
ELNARƏ ƏMİRLİ
AZƏRBAYCAN NƏŞRLƏRİNDƏ ANLAŞILMAYAN ƏFSANƏ
MƏTNLƏRİ 337
XALİDƏ MƏMMƏDOVA
MÖCÜZƏLİ DOĞULUŞ MOTİVİ VƏ İNİSİASİYA 345
PƏRVANƏ QULİYEVA
ELM VƏ MƏDƏNİYYƏT TARİXİNDƏ XİDMƏTLƏRİ OLAN
(Ü.HACIBƏYOV, S.VURĞUN, M.ARİF) ŞƏXSİYYƏTLƏRİN
YARADICILIQLARI HAQQINDA 353

«Elm və təhsil» **nəşriyyatının direktoru:**
professor **Nadir MƏMMƏDLİ**

Dizayn: **Zahid Məmmədov**
Texniki redaktor: **Yadigar Bagırova**

Çapa imzalanmış 23.01 2019
Şərti çap vərəqi 45,5 Sifariş № 2
Kağız formatı 70x100 1/16. Tiraj 300.

*jurnal **"Elm və təhsil"** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 055 426 -72-27
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.